ANAR FƏRƏCOV

DİLİN SOSİAL DİFERENSİALLAŞMASI



BAKI – 2026

Anar Fərəcov

DİLİN SOSİAL DİFERENSİALLAŞMASI

Monoqrafiya

Bakı Dövlət Universitetinin Filologiya fakültəsi Elmi Şurasının 08 iyul 2026-cı il tarixli qərarı ilə (protokol №5) nəşr olunur.

BAKI – 2026

Elmi redaktor: **Əbülfəz Əjdər oğlu Rəcəbli**
filologiya elmləri doktoru, professor

Rəyçilər: **İlham Mikayıl oğlu Tahirov**
filologiya elmləri doktoru, professor

Süleyman Kaan Yalçın
Prof. Dr. (Fırat Universiteti, Türkiyə)

Ülviyyə Hüseyn qızı Hüseynova
filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent

Səbinə Xansuvar qızı Vəliyeva
filologiya elmləri üzrə fəlsəfə doktoru

Redaktorlar: **Ramil Əkbər oğlu Bayramov**
filologiya elmləri üzrə fəlsəfə doktoru

Pərvin Eyvaz oğlu Eyvazov
filologiya elmləri üzrə fəlsəfə doktoru

Anar Tofiq oğlu Fərəcov. Dilin sosial diferensiallaşması. Monoqrafiya. Bakı: "Adiloğlu", 2026, 208 səh.

Monoqrafiyada dilin sosial diferensiallaşması probleminin nəzəri və tarixi əsasları araşdırılmış, onun yaranma səbəbləri, dil strukturunda təzahür formaları və tədqiqi metodları təhlil edilmişdir. Əsərdə gender, yaş, peşə, ideologiya və sosial siniflər üzrə dil fərqləri sosioloji dilçilik aspektindən öyrənilmişdir. Tədqiqat dil və cəmiyyət münasibətlərinin mahiyyətinin aydınlaşdırılmasına xidmət edir.

Monoqrafiya dilçilik, xüsusilə sosiolinqvisitika sahəsində tədqiqat aparan alimlər, doktorantlar, magistrantlar, müəllimlər və bu sahə ilə maraqlanan geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

DOI: https://doi.org/10.36719/0878/2026
ISBN: 978-9952-37-060-7

© Anar Fərəcov, 2026

ÖN SÖZ

Dil cəmiyyətin ən mühüm sosial institutlarından biri olmaqla yanaşı, onun daxili strukturunu, sosial münasibətlərini, mədəni dəyərlərini və tarixi inkişaf mərhələlərini özündə əks etdirən mürəkkəb bir sistemdir. Hər bir dil müəyyən sosial mühitdə formalaşır və inkişaf edir. Buna görə də dil heç vaxt tam yekcins xarakter daşımır. Cəmiyyət daxilində mövcud olan sosial, iqtisadi, mədəni, peşə və ideoloji fərqlər dilin istifadəsinə də təsir göstərir, nəticədə dil müxtəlif sosial qrupların ünsiyyət tələblərinə uyğun olaraq fərqli formalarda təzahür edir. Dilin sosial diferensiallaşması məhz bu prosesin nəticəsi kimi meydana çıxır və sosiolinqvistikanın ən aktual tədqiqat istiqamətlərindən birini təşkil edir.

Müasir dövrdə qloballaşma, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, sosial şəbəkələrin gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsi və yeni kommunikasiya mühitlərinin yaranması dilin sosial diferensiallaşması probleminə marağı daha da artırmışdır. Bu baxımdan, dilin müxtəlif sosial qruplar tərəfindən necə istifadə olunmasının, sosial amillərin dilə təsirinin və dilin sosial strukturunun öyrənilməsi nəzəri və praktik əhəmiyyət kəsb edir.

Filologiya elmləri üzrə fəlsəfə doktoru Anar Tofiq oğlu Fərəcovun “Dilin sosial diferensiallaşması” adlı monoqrafiyası məhz bu aktual və mürəkkəb problemin sistemli tədqiqinə həsr olunmuşdur. Əsərdə dilin sosial diferensiallaşmasının nəzəri əsasları, tarixi inkişaf mərhələləri, yaranma səbəbləri, struktur səviyyələrində təzahür formaları və əsas istiqamətləri geniş şəkildə araşdırılmışdır. Monoqrafiyanın mühüm üstünlüklərindən biri mövzunun yalnız nəzəri aspektdə deyil, empirik materiallar və müəllif tərəfindən apa-

rılmış sosiolinqvistik sorğular əsasında təhlil edilməsidir.

Monoqrafiya məntiqi ardıcıllıqla qurulmuş üç fəsildən ibarətdir və hər bir fəsil ümumi tədqiqat konsepsiyasının ayrılmaz hissəsi kimi çıxış edir.

Tədqiqata giriş xarakteri daşıyan birinci fəsildə dilin sosial diferensiallaşması probleminin öyrənilmə tarixi araşdırılır. Müəllif problemin formalaşma və inkişaf mərhələlərini xronoloji prinsip əsasında izləyərək müxtəlif dövrlərdə irəli sürülmüş nəzəri yanaşmaları təhlil edir. "Antik dövrdən XX əsrin əvvəllərinə qədər dilin sosial diferensiallaşması probleminə baxışlar" adlı bölmədə problemin ilkin nəzəri əsasları araşdırılır, xüsusilə İntibah dövründən sonra bu məsələyə marağın artması göstərilir. Burada A.Dante, U.Uitni, İ.A.Boduen de Kurtene, F.F.Fortunatov, F.de Sössür, A.Meye, A.Seşe və digər görkəmli dilçilərin fikirləri müqayisəli şəkildə təhlil edilir.

İkinci bölmədə XX əsrin əvvəllərindən müasir dövrə qədər aparılmış tədqiqatların əsas istiqamətləri nəzərdən keçirilir, sosiolinqvistikanın müstəqil elm sahəsi kimi formalaşması və inkişafı kontekstində dilin sosial diferensiallaşması probleminin elmi izahı verilir. Üçüncü bölmədə isə Azərbaycan dilçiliyində bu problemin tədqiqi tarixi işıqlandırılır. M.Adilov, A.Axundov, Ə.Rəcəbli, H.Əsgərov və digər Azərbaycan dilçilərinin mövzu ilə bağlı elmi görüşləri ümumiləşdirilərək təhlil olunur.

Monoqrafiyanın ikinci fəsli dilin sosial diferensiallaşmasının nəzəri əsaslarının müəyyənləşdirilməsinə həsr edilmişdir. Burada sosial diferensiallaşmanın yaranma səbəbləri, onun dil sistemində təzahür formaları və tədqiq metodları ətraflı araşdırılır. Müəllif sosial mühitin dilin inkişafına təsirini təbii sosial mühit, mədəniyyət və sosial şəbəkələr kontekstində təhlil edir, müasir kommunikasiya vasitələrinin dilin sosial

variasiyalarının formalaşmasında oynadığı rolu göstərir.

Fəslin digər bölmələrində sosial diferensiallaşmanın fonetik, leksik, qrammatik və üslubi səviyyələrdə təzahürü araşdırılır, həmçinin sosiolinqvistik tədqiqatlarda istifadə olunan metodların mahiyyəti və tətbiq imkanları şərh edilir. Müəllif müxtəlif metodoloji yanaşmaları müqayisə edərək onların üstün və zəif cəhətlərini müəyyənləşdirir.

"Dilin sosial diferensiallaşmasının istiqamətləri" adlanan üçüncü fəsil tədqiqatın ən geniş və praktik baxımdan maraqlı hissəsini təşkil edir. Bu fəsildə sosial diferensiallaşma gender, yaş, peşə, ideologiya və sosial mənsubiyyət kimi əsas göstəricilər əsasında araşdırılır. Müəllif hər bir göstəricinin dilə təsir mexanizmini müəyyənləşdirməyə və onun xarakterik xüsusiyyətlərini aşkara çıxarmağa çalışır.

Gender amilinə həsr olunmuş birinci bölmədə müəllifin keçirdiyi sorğuların nəticələri əsasında kişi və qadın nitqinin fərqli cəhətləri müəyyənləşdirilir. Yaş amilinə həsr olunmuş ikinci bölmədə müxtəlif yaş qruplarının dil xüsusiyyətləri təhlil edilir və nəsillərarası dil fərqlərinin səbəbləri izah olunur.

Üçüncü bölmədə peşə amilinin dilə təsiri araşdırılır, peşə leksikasının terminologiya, dialektizm və jarqonla əlaqəsi müəyyənləşdirilir. Müəllif maddi və qeyri-maddi mədəniyyət sahələrinə aid müxtəlif peşə qruplarının dil xüsusiyyətlərini müqayisəli şəkildə təqdim edir.

İdeologiyaya görə dilin sosial diferensiallaşmasına həsr olunmuş bölmədə aparılmış sosiolinqvistik sorğular əsasında dindar, millətçi və modernist istiqamətlər üzrə informantların dil davranışları təhlil edilir. Sosial mənsubiyyətə həsr edilmiş sonuncu bölmədə isə müxtəlif sosial təbəqələrin nitq xüsusiyyətləri araşdırılır, sosial statusla dil davranışı arasındakı əlaqə izah edilir. Müəllif bu istiqamətdə əldə etdiyi nəti-

cələr əsasında aşağı və yuxarı sosial təbəqələrin dil istifadəsi arasında mövcud olan fərqləri ümumiləşdirir.

Monoqrafiyanın mühüm cəhətlərindən biri nəzəri müddəaların empirik materiallarla təsdiqlənməsidir. Tədqiqatın sonunda müəllif tərəfindən hazırlanmış anket sorğularının nümunələrinin və əldə olunmuş nəticələri əks etdirən diaqramların təqdim edilməsi araşdırmanın elmi etibarlılığını artırır, həmçinin onun praktik əhəmiyyətini daha da gücləndirir.

Əsərdə diqqəti cəlb edən digər mühüm məqam müəllifin elmi mənbələrə yaradıcı və tənqidi münasibətidir. Tədqiqatçı mövcud nəzəri baxışları sadəcə ümumiləşdirməklə kifayətlənmir, onları müqayisəli şəkildə təhlil edir, müxtəlif mövqeləri qiymətləndirir və öz elmi qənaətlərini əsaslandırılmış şəkildə irəli sürür. Bu isə müəllifin araşdırdığı sahə üzrə geniş elmi hazırlığa, dərin nəzəri biliklərə və formalaşmış analitik təfəkkürə malik olduğunu göstərir.

Bütövlükdə, filologiya elmləri üzrə fəlsəfə doktoru Anar Tofiq oğlu Fərəcovun *"Dilin sosial diferensiallaşması"* adlı monoqrafiyası Azərbaycan sosiolinqvistikasında aktual problemlərdən birinə həsr olunmuş elmi əsərdir. Tədqiqat özünün nəzəri yeniliyi, metodoloji əsaslandırılması, zəngin faktoloji materialı və praktik əhəmiyyəti ilə seçilir. Monoqrafiya nəzəri dilçilik, sosiolinqvistika, kommunikasiya və humanitar elmlərin müxtəlif sahələri ilə məşğul olan tədqiqatçılar, doktorantlar, magistrantlar və ali məktəb müəllimləri üçün faydalı elmi mənbə kimi dəyərləndirilə bilər.

Əfqan Abdullayev
Bakı Dövlət Universitetinin professoru,
filologiya elmləri doktoru

GİRİŞ

Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı", eləcə də Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2026-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası ölkədə dil siyasətinin əsas istiqamətlərini müəyyənləşdirməklə yanaşı, dilçilik elmi qarşısında yeni nəzəri və praktik vəzifələr müəyyən etmişdir. Həmin strateji sənədlərdə Azərbaycan dilinin qloballaşma şəraitində inkişafının təmin edilməsi, elmi-nəzəri əsaslarının təkmilləşdirilməsi, dünya dilçilik elminin müasir nailiyyətlərinin milli dilçilik tədqiqatlarına inteqrasiyası və aktual problemlərinin müəyyənləşdirilməsi başlıca prioritetlər kimi irəli sürülmüşdür. Bu baxımdan, dünya dilçilik elminin müasir inkişaf meyillərinin nəzərə alınması, dil hadisələrinin yeni metodoloji yanaşmalar əsasında araşdırılması və yeni sahələr üzrə elmi tədqiqatların aparıcı istiqamətlərinin müəyyənləşdirilməsi müasir Azərbaycan dilçiliyinin qarşısında duran mühüm elmi vəzifələrdən biri kimi qiymətləndirilir. Məhz bu kontekstdə dilin sosial aspektlərinin sistemli şəkildə öyrənilməsi, o cümlədən Azərbaycan dilinin zamanın tələblərinə uyğun inkişaf qanunauyğunluqlarının və istifadə xüsusiyyətlərinin araşdırılması məqsədilə sosiolinqvistik tədqiqatların genişləndirilməsi zəruri elmi məsələlərdən biri kimi çıxış edir.

Tarixən dilçilik elmi inkişaf edərək müxtəlif sahələrə bölünmüşdür. Bu sahələrin yaranmasına səbəb dilin fərqli aspektlər üzrə tədqiqata cəlb olunmasıdır. Son dövrlər dilçilik elmində ən mühüm sahələrdən birinə çevrilən sosiolinqvistika dil və cəmiyyətin qarşılıqlı əlaqəsini araşdırır. Ənənəvi dilçilik sahələrindən fərqli olaraq, sosiolinqvistik tədqiqatların məqsədi dilin müxtəlif tərəflərindən cəmiyyətdə hansı formada istifadə edilməsini və insanların sosial dil tələbatını aydınlaşdırmaq təşkil edir.

Məlumdur ki, cəmiyyətin sosial tərkibi müxtəlif sosial qruplardan təşkil olunduğundan, burada baş verən proseslərin də dildə öz əksini variantlar şəklində tapması normaldır. Hər bir sosial qrupda mövcud olan fərqli mühit dil və cəmiyyətin bir-birinə qarşılıqlı təsiri məsələsini aktuallaşdırır. Sosiolinqvistik tədqiqatlar da məhz bu proseslərin dildə hansı formada mövqe tutmasını üzə çıxardır. İctimai mühitlərin sosial diferensiallaşması nəticəsində dil variantları yaranır. Belə dil variantlarının yaranmasına müxtəlif sosial faktorların – mədəniyyətin, iqtisadiyyatın, tarixi şəraitin, ədəbiyyatın, coğrafi regionun, rəqəmsal kommunikasiyaların təsiri danılmazdır. Müxtəlif sosial qrupların, o cümlədən peşə qruplarının öz mühitlərində fərqli dil ünsürlərindən istifadəsini (sosiolekt, idiolekt, arqo, jarqon, slənq), bilinqivizm və diqlossiyanın bir çox cəmiyyətlərdə mövcud olmasını dilin variantlaşmasına yol açan səbəblər kimi göstərmək olar.

Dilin sosial diferensiallaşması məsələsi dilçiliyin aktual problemlərindən biri kimi, əsasən, genderə, yaşa, ideologiyaya, sosial təbəqələrə və peşəyə görə bir neçə istiqamət-

də araşdırılmalıdır. Qeyd olunan növlərin sayı nisbi xarakter daşıyır, çünki cəmiyyət dinamik inkişaf edən sosial sistemdir və bu yenilənmə prosesində yeni sosial qrupların meydana çıxması mümkündür. Tədqiqatda məhz həmin istiqamətlərin əsas götürülməsi onların araşdırılan problemin nəzəri əsasını və əsas təzahür formalarını əks etdirməsi ilə şərtlənir.

Dil və cins, dil və peşə, dil və sosial sinif, dil və yaş, dil və ideologiya arasında olan əlaqələr nəticəsində sosiolektlər yaranır. Sosiolektlərin araşdırılması dilin müxtəlif yönlərdən öyrənilməsi üçün əsas rol oynaya bilər. Apardığımız sosiolinqvistik sorğuların təhlili də göstərir ki, dilin sosial diferensiallaşması onun inkişaf istiqamətlərini, o cümlədən variantlaşması kimi məsələlərin öyrənilməsi üçün əsas yaradır və buna görə də bu mövzunun aktuallığı daha da artır.

Sosiolinqvistika dilçilikdə təqribən XX əsrin 60-70-ci illərində formalaşmağa başlamışdır, lakin tam demək olmaz ki, bu dövrə qədər dil və cəmiyyət əlaqələri ilə bağlı fikirlər olmamışdır. Müxtəlif dövrlərdə bu barədə F.de Sössür, A.Meye və başqaları əsərlərində dilin sosial tərəflərinə aid müəyyən baxışlar irəli sürmüşlər. Dilin sosial diferensiallaşması mövzusu isə XX əsrin 60-cı illərindən sonra geniş tədqiqatlara cəlb olunmuşdur. Amerika və Avropa dilçiliyində U.Labov, R.Lakoff, C.Qampers, E.Səpir, L.Blumfild, R.Riçeysteyn, B.Bernesteyn, F.K.Bok, J.Milroy, J.Holmes, D.Hayms, M.Meyerhoff, R.Vardauf, D.Spender, L.Yelmslev, Rusiya dilçiliyində V.M.Jirmunski, R.O.Şor, Y.D.Polivanov, V.A.Zveqintsev, L.B.Nikolski, B.N.Qolovin, F.M.Berezin, N.B.Meçkovskaya, Türkiyə dilçiliyində K.İmer, D.Aksan,

N.Demir və başqalarının dəyərli əsərləri bu problemin müxtəlif tərəflərinin açılması üçün çox böyük rol oynayır.

Dilin sosial diferensiallaşması məsələsi Azərbaycan dilçiliyində müəyyən qədər tədqiqata cəlb olunsa da, geniş araşdırılmamışdır. Ə.Rəcəblinin "Sosiolinqvistika" əsərində bu mövzu ilə bağlı müəyyən nəzəri konsepsiyalar irəli sürülmüş, J.Qəribovanın "Sosiolinqvistika" dərsliyində isə bir sıra məsələlərə müəyyən yer verilmişdir. Dilçiliyimizdə bu mövzuya aid daha çox ayrı-ayrı elmi məqalələrlə münasibət bildirilmişdir. Bu tədqiqatçılardan M.Adilovu, A.Axundovu, Ə.Rəcəblini, J.Qəribovanı, H.Əsgərovu, A.Rüstəmovanı, F.Əlizadəni, Ə.Əliyevi, C.Muradovu, R.Heydərovu, P.Əzizovanı və digərlərini qeyd etmək olar.

Monoqrafiyanın tədqiqat obyekti dilin sosial dialektləri, predmeti isə sosial diferensiallaşma prosesinin sosiolinqvistik xüsusiyyətlərinin araşdırılmasından ibarətdir.

Tədqiqat işinin məqsədi dilçilikdə, o cümlədən Azərbaycan dilçiliyində dilin sosial diferensiallaşması problemini sosiolinqvistik aspektdən araşdırmaq və sistemləşdirmək təşkil edir. Bu məqsədə nail olmaq üçün dilin sosial diferensiallaşması ilə bağlı mövcud nəzəri baxışların müəyyən istiqamətlər üzrə təsnif edilməsi, problemin öyrənilməsində istifadə olunan tədqiqat metodlarının müəyyənləşdirilməsi, sosial diferensiallaşmanın müxtəlif dil səviyyələrində təzahür formalarının araşdırılması nəzərdə tutulur. Bununla yanaşı, sosioekoloji, sosiomədəni və sosioekonomik amillərin, eləcə də internet və sosial şəbəkələrin dilə təsirinin aydınlaşdırılması, ideologiya, gender, yaş, peşə və sosial təbəqələrin dilin sosial diferensiallaşmasındakı rolunun

müəyyən edilməsi də tədqiqatın əsas vəzifələri sırasında yer alır.

Araşdırma aparılarkən dilçilik elminin təsviri və müqayisəli metodlardan istifadə olunmuş, həmçinin sistemli yanaşma, analiz və sintez, ümumiləşdirmə, induksiya və deduksiya üsullarına da yer verilmişdir.

Tədqiqatın əsas elmi yeniliyi Azərbaycan dilinin materialları əsasında dilin sosial diferensiallaşması probleminin nəzəri və praktik aspektlərdə sosiolinqvistik baxımdan kompleks şəkildə araşdırılmasından ibarətdir. Tədqiqatda bu prosesə təsir göstərən amillər müəyyənləşdirilmiş, müxtəlif sosial situasiyalarda dilin varainatlaşmasının səbəbləri sistemli şəkildə təhlil edilmişdir. Eyni zamanda dilin gender, yaş, ideologiya, peşə və sosial təbəqələr üzrə diferensiallaşmasının əsas xüsusiyyətləri aşkara çıxarılmış, onların Azərbaycan dilində təzahür formaları ümumiləşdirilmişdir.

Monoqrafiyada əldə olunan nəticələr və ümumiləşdirmələr həm nəzəri dilçiliyin inkişafı, həm də sosiolinqvistik tədqiqatların praktik tətbiqi baxımından elmi əhəmiyyətə malikdir. Belə ki, nəzəri baxımdan araşdırmanın materiallarından istifadə edilməklə, gələcəkdə bu sahə üzrə yazılacaq elmi tədqiqat işlərində, sosiolinqvistikaya aid dərslik, dərs vəsaiti və monoqrafiyaların yazılmasında, sosiolinqvistik təhlillərin aparılmasında və s. istifadə oluna bilər. Həmçinin sosioloqlar, psixoloqlar, psixolinqvistlər, sosiolinqvistlər tədqiqatın materiallarından istifadə edərək müxtəlif sosial mühitlərdə insanların qarşılıqlı anlaşması probleminin həllinə dair konsepsiyalar irəli sürə bilərlər.

Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki,

onun nəticələrindən istifadə etməklə dilin müxtəlif səviyyələrində sosiolektlərin rolu və əhəmiyyəti daha aydın şəkildə müəyyənləşdirilə, cəmiyyətin tələblərinə uyğun olaraq müxtəlif sosial qrupların dil statusu qiymətləndirilə bilər. Eyni zamanda tədqiqat sosial qrupların dil xüsusiyyətlərinin öyrənilməsi vasitəsilə fərdlərin yeni sosial mühitə uyğunlaşma prosesini sürətləndirməyə, onların sosial davranışlarını tənzimlənməsinə və mənsub olduqları sosial qrupun kommunikativ normalarını daha səmərəli mənimsəməsinə kömək edə bilər.

I FƏSİL

DİLİN SOSİAL DİFERENSİALLAŞMASI PROBLEMİNİN TƏDQİQİ TARİXİ

Dilin sosial diferensiallaşması ilə bağlı tədqiqatlar müasir dövrdə diqqəti çox cəlb etsə də, bu barədə əvvəlki dövrlər ərzində də dilçilərin maraqlı fikirləri olmuş, onlar məsələlərə müxtəlif münasibətlər bildirmişlər. Ümumilikdə, aparılan araşdırmalara nəzər yetirdikdə aydın olur ki, dilin sosial diferensiallaşması probleminə aid tədqiqlərə həm dünya dilçiliyində, həm də Azərbaycan dilçiliyində müraciət edilir. Bu problemin geniş tədqiqi dövrü isə XX əsrdən başlanır.

1.1. Antik dövrdən XX əsrin əvvəllərinə qədər dilin sosial diferensiallaşması probleminə baxışlar

Cəmiyyətin inkişafı, dəyişməsi dil və cəmiyyət arasında olan əlaqələrə də təsir göstərir. Toplumda baş verən proseslər müxtəlif səviyyələrdə dildə də öz əksini tapır və sonrakı nəsillərə ötürülür.

Dil və cəmiyyət arasında qarşılıqlı əlaqələr müxtəlif tarixi dövrlərdə sivilzasiyaların mərkəzi sayılan ölkələrdə bəzi vaxtlarda diqqət mərkəzində olmuş, bəzən isə aktuallıqdan kənarda qalmışdır.

Qədim dövr dilçiliyinə nəzər saldıqda aydın olur ki, bu məsələyə ötəri şəkildə olsa da, hər halda müəyyən münasibət bildirilmişdir. Qədim hind dilçiliyində konkret olaraq

qeyd olunan məsələyə fikir bildirilməyib, lakin qədim hind dilçiliyinin yaranmasına əsas səbəb dilin istifadəsinin sosial fərqləri ilə bağlı olduğunu desək, yanılmarıq. "Qədim hind dilçiliyi hindlilərin ədəbi dili olan sanskritlə xalq dili – prakrit arasında get-gedə artan ciddi fərqlərin nəticəsində yaranmışdı" [5, s. 7]. Qədim Çin dilçiliyində də hind dilçiliyinə bənzər şəkildə münasibət görürük. Çin dilçiliyində e.ə. I əsrin sonunda yaşayan Yan Sinin "Fanyan" (Yerli şivələr) əsərində ədəbi-yazılı nitqə kanonik (*qayda – A.F.*) olmayan, yerli şivə və dialektlərdən, sadə xalq danışıq dilinin variantları təsvir və təhlil edilir. Sadə xalq dilinin variantlarının təhlil edilməsi dilin sosial və ərazi baxımdan fərqli istifadəsi artıq Çin dilçiliyində öz əksini tapırdı.

Qədim yunan və Roma dilçiliyində dilin sosial diferensiallaşması ilə bağlı heç bir fikrə rast gəlinmir. Lakin bilirik ki, klassik yunan dili və xalqın istifadə etdiyi dil həmin dövrdə də mövcud idi. Bu da dilin sosial diferensiallaşması üçün mühüm rol oynayırdı. Bu barədə F.Veysəlli yazır: "Klassik yunan dilini savadsız və səviyyəsiz adamların korlamasının qarşısını almaq üçün bir tərəfdən yazılı dili danışıq dilindən üstün tutur, digər tərəfdən isə dilin inkişafını yalnız keçmişə söykənməklə açmaq istəyirdilər" [52, s. 33].

Ərəb dilçiliyində sosiolinqvistik xarakterli məsələlər əsasən ərəb dilinin ərazi dialektləri kontekstində araşdırılır. Bu tədqiqatlarda dialektlərarası fonetik fərqlər və onların dilin leksik sisteminə təsiri xüsusi diqqət mərkəzində saxlanılır. Müxtəlif fonetik (xüsusilə tələffüz) fərqliliklər bir sıra hallarda leksik vahidlərin semantik diferensiallaşmasına və yeni məna çalarlarının formalaşmasına səbəb olur.

İntibah dövrü dilçiliyinə ümumi tarixi – sosial, iqtisadi, mədəni və s. şəraitlər birbaşa təsirini göstərirdi. Kapitalist istehsal üsulunun yaranması ilə bütün Avropa cəmiyyətlərində baş verən sosial və demoqrafik dəyişikliklər, sosial münasibətlərin fərqli şəkildə qurulması dilə də münasibəti dəyişmişdi. Bu dövrdə ilk dəyişikliyi Avropada əsas klassik dil sayılan latın dilinin istifadə dairəsinin məhdudlaşması ilə görürük. Qeyd olunan dövrdə yerli dialektlərin hesabına ədəbi dillərin yaranması prosesi başlandı. İntibah dövrünün böyük mütəfəkkirlərindən olan A. Dante dil məsələlərinə dair maraqlı fikirlər yürüdürdü. Onun məqsədi xalq dilini ədəbi dil səviyyəsinə qaldırmaq idi, çünki həmin dövrdə ədəbi dil anlaşılmaz idi və yuxarı təbəqə üçün düşünülmüşdü. A.Dante dilin kommunikativ funksiyası haqqındakı fikrində qeyd edir ki, ya bütün insanlar bir dil vasitəsi ilə, ya da müəyyən peşə daxilində nitq vasitələri ilə əlaqə qurmalıdırlar [42, c. 1, s. 47]. A.Dante dilin sosial variantlarını qəbul edir, lakin bu variantların ədəbi dil səviyyəsində olmadığını düşünürdü. A.Dantenin belə düşünməsinə səbəb onun həm dilçi olmaması, həm də dövr üçün hələ də dilçilikdə ədəbi dil çərçivəsinin tam müəyyən edilməməsi idi.

A.Dantedən xeyli sonra XVII-XVIII əsrlərin filosofu Q.V.Leybnis canlı danışıq dillərini, dialektləri tədqiq etməyi önəmli sayır. "İlk dəfə Leybnis göstərmişdir ki, gündəlik danışıq dili və hər hansı bir dilin dialektləri dilçilik elminin tədqiqat obyekti olmalıdır" [42, c.1, s. 66]. Q.Leybnisin fikrindən belə bir nəticəyə gəlmək olar ki, canlı danışıq dili üzrə tədqiqat aparmayan dilçi dəqiq fikir yürüdə bilməz.

Alman dilçisi və filosofu V.Humboldtun dilin sosial tə-

rəfləri ilə bağlı fikirləri daha çox fəlsəfi xarakter daşımışdır. Onun fikrincə, "Dili ölu məhsul"(Erzeuqtes) kimi yox, yaradıcı proses (Erzeunqunq) kimi nəzərdən keçirmək lazımdır. Həm də bu zaman onun əşyalara işarə etməsi və ünsiyyət vasitəsi kimi fəaliyyət göstərməsini təcrid etmək və bununla yanaşı onun daxili mənəvi fəaliyyətlə sıx əlaqəsinə və bu iki hadisənin qarşılıqlı təsiri aktına böyük diqqətlə yanaşmaq lazımdır" [32, s. 83]. Göründüyü kimi, dilçi dilin canlı təbiətə malik olduğunu göstərir, eyni zamanda onu xaricdən ayırıb, daxili təbiətinə daha çox diqqət verməyi önəmli sayır və o, dili ruhun artikuliyasiya edən səsi, fikri ifadə etmək üçün yararlı etməyə yönəldən, yenidən başlanan iş sayır [32, s. 84]. V.Humboldt dillə nitqi də fərqləndirirdi. O yazır: "Dil öz törəmələrinin məcmusu kimi fəaliyyətinin ayrı-ayrı nitq aktlarından fərqlənir. ...real dil təkcə nitqdə təzahür edir" [32, s. 84]. Q.Leybnisin fikri ilə üst-üstə düşən bu mülahizə göstərir ki, dilin real vəziyyətini öyrənmək üçün mütləq canlı danışıq dilinə müraciət etmək lazımdır. V. Humboldt həmçinin bildirir ki, "Dildə fərdi olan ümumi olanla elə qəribə şəkildə birləşir ki, bütün insan nəsli bir dildə danışır, hər adamın da öz dili vardır – desək, eyni dərəcədə düzdür" [32, s. 29]. V.Humboldt fərdin dil xüsusiyyətlərini çox qabardırdı. Fərdin özünəməxsus dilinin formalaşması üçün ümumi dillə, yəni cəmiyyətlə mütləq kontaktda olması əsasdır. Belə olduqda fərdin dili inkişaf edər və ümumi dilə bir yenilik gətirər. V.Humboldt dilin sosial və fərdi cəhətlərini də eynilə qəbul etmirdi. O, dildə iki əks xüsusiyyət görürdü: "1) hər dil o dildə danışan xalqın ayrı-ayrı nümayəndələrinin şəxsində sonsuz sayda olan dillərə

bölünmək qabiliyyətinə malikdir (*dilin sosial variantlarını və ya nitqi nəzərdə tutur – A.F.*)*;* 2. Bütün çoxsaylı dillər bir vahiddir" [32, s. 34]. V.Humboldtun fikirlərindən gəldiyimiz nəticə belədir ki, o, özündən əvvəlki dilçilər kimi canlı dilin öyrənilməsini əsas sayırdı. Dilin dillərə bölünməsinə aid baxışından isə belə qənaətə gəlmək olar ki, dilin sosial variantlarını qəbul edirdi.

Amerika dilçisi U.D.Uitni dilin öyrənilməsi baxımından onun sosial cəhətinə xüsusi önəm verir. Onun fikrincə, dilin daşıyıcıları nə isə bir demokratiya təşkil edirlər ki, hər şey burada kollektivin nəzarəti altında baş verir. Fərd dilin təşkil olunduğu aydın işarələri onu əhatə edən adamlardan alaraq və bu işarələrə uyğun olan öz məfhumlarını yaradaraq dili öyrənir. Lakin dili passiv şəkildə yox, yaradıcı şəkildə mənimsəyir. Həm də bu zaman fərd ixtiyari surətdə, istədiyi kimi dili dəyişə bilməz, çünki dil ayrı-ayrı fərdlərə mənsub deyil, dil yalnız cəmiyyətdə, kollektivdə həmin fərdə mənsubdur. O həmçinin bildirir ki, dil hər kəsin nitqində fərqlidir [42, c. 1, s. 255-257]. U.D.Uitninin sözlərindən belə qənaətə gəlmək olar ki, dilin yalnız kollektivdə mövcud olması ilə kollektivin sosial mühiti fərdlərin dil xüsusiyyətlərində özünü göstərir.

Kazan dilçilik məktəbinin nümayəndəsi İ.A.Boduen de Kurtenenin dilin sosial diferensiallaşmasına münasibəti ona qədər deyilmiş fikirlərdən fərqli və daha konkretdir. Bu problemi ilk dəfə olaraq elmi əsaslarla dilçiliyə gətirən də B.de Kurtene olmuşdur. O göstərir ki, dil yekcins deyildir. Dil materialının tərkibinə xalq dilini onun bütöv şəklində bu xalqın cəmiyyətinin bütün təbəqələrinin danışıq dilini

(nitqini) daxil etmək lazımdır. "Dil təkcə yuxarı təbəqələrin nitqindən deyil, habelə aşağı təbəqələrin də nitqindən ibarətdir. O, obrazlı surətdə deyirdi ki, dil təkcə sermyaqa (qaba mahuddan tikilmiş çuxa) və zipun (kəndli kaftanı) geyənlərin dili (nitqi) deyil, istisnasız olaraq bütün zümrələrin dili, müxtəlif yaşlıların (uşaq, yaşlı, qoca və s.) dili daxildir" [42, c. 1, s. 382]. Göründüyü kimi, alim dilin sosial diferensiallaşmasını qəbul etsə də, bunu dil materialının konkretliyini öyrənmək üçün ona kompleks yanaşmaqla müəyyən etməyi əsas sayır.

Moskva dilçilik məktəbinin nümayəndəsi F.F.Fortunatov dil və cəmiyyət əlaqəsindən bəhs edərkən bildirir ki, dil cəmiyyətin həyatından və vəziyyətindən asılıdır. O, dildə baş verən dəyişiklikləri cəmiyyətin həyatında baş verən dəyişikliklərlə əlaqələndirir. Onun fikrincə, "Cəmiyyətdə baş verən dəyişikliklər dildə inikas edir. Buna görə də, dili, onun tarixini, cəmiyyətlə, cəmiyyətin tarixi ilə əlaqədə öyrənmək dilçiliyin bir elm kimi məqsədi, vəzifəsi və metodologiyası olmalıdır" [43, c. 2, s. 5].

XIX əsrin ortalarında digər elmlər kimi dilçilik də yeni inkişaf mərhələsinə keçmiş və bir çox istiqamətlərə parçalanmışdı. Həmin sahələrdən biri də sosioloji dilçilikdir. Dilin sosial mahiyyəti ilə əlaqədar hələ ilk məlumat XVII əsrin əvvəlində yaşamış İspaniyanın Salaman Universitetinin müəllimi Qonsaldo de Korreasa məxsus olmuşdur. O, dilin sosial şərtlərinin müxtəlifliyini müəyyən etmiş olsa da, "sosiolinqvistika" terminini ilk dəfə ABŞ sosioloqu Herman Karri işlətmişdir. Dilin sosial şərtlərinin öyrənilməsi ilə sistemli şəkildə keçən əsrin əvvəllərindən Fransada, Çexiyada,

Rusiyada və s. ölkələrdə məşğul olmağa başlamışlar. Sosioloji dilçilik cərəyanını ilk dəfə müdafiə edən Avstriya dilçisi H.Şuxardt olmuşdur, lakin bu cərəyanın baniləri F.de Sössür və A.Meye sayılır. Əsas nümayəndələri isə fransız dilçiləri P.Lafaraq, F.Brüno, M.Qrammon, M.Koen, Norveç dilçisi A.Sommerfelt, İsveçrə dilçiləri Ş.Balli, A.Seşe, belçikalı dilçi J.Vandriyes, rus dilçiləri İ.Boduen de Kurtene, E.D.Polivanov, L.P.Yakubinski, V.M.Jirmunski, V.V.Vinoqradov, B.A.Larin, Q.O.Vinokur, çexiyalı dilçilər B.Qavranek, V.Matezius və başqaları hesab olunur.

Sosioloji dilçiliyin tərəfdarlarından olan H.Şuxardt hesab edirdi ki, sözün tarixinin öyrənilməsində təkcə onun yaranmasının və ya dilə daxil olmasının səbəbləri yox, həm də sonrakı taleyi araşdırılmalıdır. O, müxtəlif ictimai qrupların leksikasını öyrənməyə xüsusi diqqət yetirirdi [42, c. 1, s. 416].

F.de Sössür öz dilçilik görüşlərində dilin sosial cəhətləri ilə bağlı mühüm məsələlərə toxunmuşdur. O, dilçiliyi iki yerə bölür: xarici və daxili linqivistika. Dilçinin fikrincə, dil cəmiyyətə xidmət etdiyi üçün bütün ictimai proseslərdə fəal iştirak edir. Bu proseslər xaricdən olsa da, dilin inkişafına təsir göstərir. F.de Sössür bu kimi xarici təsirləri xarici linqvistikada öyrənməyi lazım bilir. Xarici linqvistikanın tədqiqat obyekti kimi dil və tarix, dil və mədəniyyət, dil və cəmiyyət, dil və irq, dil və təfəkkür, dil və etnoqrafiya, dilin dialektlərə bölünməsi və s. kimi məsələləri götürür. F.de Sössürün xarici linqvistika ilə bağlı fikirlərindən aydın olur ki, dilə sosial, ictimai proseslər öz təsirini göstərir, lakin daxili linqvistikadan bəhs edərkən bildirir ki, bütün bu proses dilin strukturuna heç bir təsir göstərmir. F.de Sössürün nitq

– dil dixotomiyası haqqında fikirləri göstərir ki, dildə variativlik mövcuddur. O, dil innovasiyasına kollektiv ətalətin müqavimətini izah edərkən də bildirir ki, "Hər müəyyən anda dil hamının və hər kəsin işidir, dil kollektivdə yayılıb ona xidmət edərək elə bir şeyə çevrilmişdir ki, ondan hər bir insan hər saat, hər dəqiqə istifadə edir. Dini mərasimlər, dəniz siqnalları və s. eyni zamanda yalnız məhdud müddətdə aid olur, əksinə, dildən hər kəs hər dəqiqə istifadə edir, ana görə də dil həmişə hamının təsirini hiss edir" [50, s. 101].

Fransız dilçisi A.Meyenin sosioloji dilçilik görüşləri bu kontekst üzrə xüsusi olaraq diqqəti cəlb edir. O, dilin ictimai tərəflərinə müxtəlif aspektlərdən yanaşır. A.Meye dilçiliyin əsas vəzifələrini müəyyənləşdirərkən düşünürdü ki, dilçilik cəmiyyətin hansı quruluşuna dilin hansı quruluşunun uyğun gəldiyini müəyyənləşdirməli və cəmiyyətin quruluşunda baş verən dəyişikliklərin dilin quruluşundakı dəyişikliklərdə necə inikas etdiyini öyrənməlidir.

A.Meye dili ictimai fakt sayır, bildirir ki, dil sosial faktdır, dili cəmiyyətdən kənarda düşünmək mənasızdır, sosial şərait dil hadisələrini müəyyənləşdirir. Onun fikrincə, sosioloji və psixoloji amillər dil dəyişikliklərinə səbəb ola bilməz. Bu müddəa ilə razılaşmaq mümkün deyil. Elə onun özünün yuxarıda qeyd etdiyi kimi cəmiyyətdəki dəyişikliklər dildə də özünü göstərir. A.Meyenin fikirlərində ziddiyyət vardır. Bu tezisin təsdiqi üçün dilçinin digər fikirlərinə nəzər salaq. O, "Sözlər mənasını necə dəyişir" (1907) adlı məqaləsində belə bir mülahizə irəli sürür ki, sözün mənasının dəyişməsinin əsasında sosial faktorlar durur. Bu vaxt söz daha geniş qrupdan daha dar qrupa keçirsə, sözün mə-

nası genişlənir. Sözdə məna genişlənməsi və daralması prosesi maraqlı prosesdir. A.Meyenin fikri ilə razılaşmaq üçün konkret əsaslar olmalıdır. Hər halda bu cür düşünməsi də diqqət çəkir. O bildirir ki, hər ictimai qrupun psixologiyasının özünəməxsus xüsusiyyətləri var və bu, qrupun dilində özünü göstərir. Müxtəlif dillərin eyni sosial qruplarında oxşar və ümumi cəhətlərə rast gəlirik. Dilçi daha uzağa gedərək müxtəlif dillərdə sosial qrupların lüğət tərkibinin oxşarlığını da qəbul edir [43, c. 2, s. 10-12].

A.Meye məna dəyişməsi məsələsinə xüsusi önəm verir və bu prosesin üç tipinin olduğunu göstərir:

"a) Dəyişmə sözün əsas rol oynadığı müəyyən söz birləşmələrinin quruluşunda baş verir. Bu dəyişmə xalis dil hadisələri ilə əlaqədardır.

b) İctimai səbəbdən doğan dəyişmələr. Müəyyən bir sözlə adlandırılan əşya dəyişir, lakin adı qalır.

c) Bu tip dəyişmələr cəmiyyətin sinfi təbəqələşməsinin dildə əks edilməsi ilə əlaqədar olaraq sözün mənasının genişlənməsi, yaxud daralmasından ibarətdir" [43, c. 2, s. 11].

O, ikinci və üçüncü tip dəyişmələri dilin sırf sosial cəhətləri ilə bağlayır. Bunun da səbəbi kimi dilin ictimai həyatda oynadığı rol və ictimai həyatın dilin maddi cildinə təsiri kimi göstərmək olar. A.Meye hətta sözalmaya sosioloji cəhətdən yanaşır. O, bildirir ki, sözalma yalnız iki dil arasında baş vermir, bir dil daxilində də olur, ümumi dil sosial dialektdən, dialekt ədəbi dildən söz alır. Bu ideya da ona qədər deyilmiş fikirlərdən tamamilə fərqlidir, hətta müasir dilçilikdə də mübahisəlidir. Göründüyü kimi, dilçi sosial dialekti dil üçün maddi əsas kimi birinci sırada sayır. Ədəbi dilin bu sözlərin hesabına

zənginləşdiyini düşünür. Həmçinin ədəbi dildən dialektlərə sözlərin keçməsi fikri ilə də razılaşmaq olar.

A.Meye səs dəyişmələrinə sosial baxımdan yanaşır. Onun fikrincə, "Cəmiyyət dildə fərdi yeniliklərin yayılmasına ciddi müqavimət göstərir. Bu və ya digər yenilik yalnız bütövlükdə dil sisteminə uyğun gəldikdə və bütöv dil kollektivinin ehtiyacına cavab verdikdə dildə yayıla bilər. Dilçilikdə bir qanun kimi dildə fərdi yeniliklərin olmasına dilin müqaviməti öz təsdiqini tapır, amma dilçi bütöv dil kollektivini nəzərdə tutmaqla yanlışlıq edir" [43, c. 2, s. 11-12].

A.Meye sosioloji dilçiliyin əsas müdafiəçilərindən olsa da, bu istiqaməti yalnız dilin leksik səviyyəsi ilə məhdudlaşdırırdı. Sosioloji dilçilik dilin bütün səviyyələri üzrə öz təsirini göstərir və bu, A.Meyedən sonrakı dilçilərin fikirlərində öz əksini tapır.

İsveçrə dilçisi A.Seşe danışanın sosial qrupdan aslılığına sosioloji və psixoloji baxımdan yanaşır. O bildirir ki, "Fərd dil birliyindən ona görə asılıdır ki, onda doğulmuş və inkişaf edir, istəsə də, istəməsə də dil birliyinin təfəkkür tərzini mənimsəyir. İnsan kollektivinin bir üzvü az ya çox dərəcədə başqalarına oxşar düşünməli və danışmalıdır, lakin bu, ona görə baş vermir ki, onun əqli quruluşu birdəfəlik və həmişəlik mənsub olduğu etnik qrupun xarakteri ilə şərtlənmişdir, ona görə baş verir ki, kollektivdəki həyat ona kollektivin başqa üzvləri kimi düşünməyi və şeylərə baxmağı öyrətmişdir" [43, c. 2, s. 22]. Sosial mühitin dilə təsirini A.Seşe əsas sayır. Bu məsələdə A.Seşe haqlıdır, çünki sosial mühitdə baş verən proseslər fərdin fikrinin formalaşmasında, özünü ifadə etməsində əks olunur.

Fransız dilçisi Ferdninad Brüno dil həyatında olan hadisələri xalqların, ictimai qrupların, fərdlərin həyatı ilə izah edir. Onun fikrincə, "Dil mənsub olduğu cəmiyyətdən asılı olaraq yaranan, inkişaf edən, dəyişən və təkmilləşən sosioloji hadisədir və ayrı-ayrı qruplar və fərdlərin şüurlu, yaxud şüursuz ona gətirə bildikləri çalarla birlikdə kollektiv təfəkkürü inikas edir" [43, c. 2, 23]. Bu fikirdən belə qənaətə gəlmək olar ki, dil öz-özünə inkişaf edən və kollektivin sosial həyatına bağlı olan bir kommunikasiya sistemidir.

Araşdırdığımız dövr üzrə (XIX əsr) Amerika dilçiliyində də dilin sosioloji cəhətləri ilə bağlı mühüm fikirlər vardır. Amerika etnoqrafı L.Morqan dilin sosial diferensiallaşması ilə bağlı yazır: "Uzaq vəhşilik dövründə kişi və qadınların müəyyənləşdirilmiş hüdudlarda ümumiliyi sosial sistemin başlanğıcı idi. Müəyyən qrup daxilində qaydaya salınmış nikah hüquqları və üstünlüklər heyranedici sistemdə inkişaf edirdi ki, bu da cəmiyyətin qurulduğu üzvi prinsipə çevrilmişdi" [98, s. 19]. L.Morqan çox maraqlı sosiopsixoloji məqama toxunmaqla dildə sosial diferensiallaşmanın ilk yaranma səbəblərini göstərə bilib. Cəmiyyətdə müxtəlif sosial mühitlərin yaranması ilə dildə sosial diferensiallığın əsası qoyulur. L.Morqan dildə sosial diferensiallaşmanın başlanğıcı kimi cinsi müxtəlifliyi sosial mühitlərdə fərqli şəkildə özünü göstərməsi ilə bağlayır və bunu misallarla belə qeyd edir: "Cinslərin fərqləndirilməsi əsasında sinfi quruluş və qohumluq əsasında meydana gələn tayfa quruluşu Avstraliyanın yerli əhalisinin kamilaron dilində danışan hissəsində hazırkı zamanda da hökm sürür... Bu quruluşun hər ikisinə digər Avstraliya qəbilələri arasında da rast gəlinir.

...Onların daha dərindən nəzərdən keçirilməsindən aydın olur ki, tayfalara nisbətən, kişi və qadın sinifləri daha qədimdir: əvvələn, ona görə ki, tayfa quruluşu nisbətən daha yüksəkdir və ikincisi, ona görə ki, kamilaronlar arasında cinsi quruluş tayfa quruluşu tərəfindən sıxışdırma prosesindədir. Kişi və qadın budaqları ilə birlikdə sinif onların ictimai sisteminin vahidini təşkil edir. Qarşımızda iki quruluşun - cinsi və tayfa quruluşunun eyni zamanda mövcudluğu durur, həm də birinci mərkəzi mövqeyi tutur, halbuki ikincisi hələ meydana gəlmə mərhələsindədir, lakin birincini udaraq inkişaf edir" [98, s. 31]. O həmçinin qeyd edir ki, siniflərə bölünmə qohumluğa deyil, cinsi əlamətə əsaslanır və son dərəcə qəribə və orijinal qayda ilə ilkin münasibətdədir.

Dil, təfəkkür və cəmiyyətin strukturunun modelləşdirilməsi ilə əlaqədar Amerika dilçisi B.Uorf izomorfizm nəzəriyyəsini hazırlamışdır. O, gerçəkliyi qavramaqda, dərk etməkdə dilə böyük rol verirdi və belə hesab edirdi ki, "Cəmiyyətin dil normaları gerçəkliyin ifadəsi üçün müəyyən formalar nəzərdə tutur və bunları müəyyən şəkildə modelləşdirir" [46, s. 113]. "Qarşılıqlı determinləşmə" termini həm B.Uorf fərziyyəsini, həm də sosial faktorların təsiri altında diferensiallaşma nəzəriyyəsini nəzərə almaqla "dil və cəmiyyət" probleminin güzəştli həllini nəzərdə tutur. Başqa sözlə desək, "Dil və sosial strukturlar arasındakı səbəbiyyət əlaqəsi ikitərəfli səciyyə daşıyır: sosial mühit dili determinləşdirə bilər, lakin dil də öz növbəsində sosial mühiti determinləşdirə bilər" [46, s. 115]. Dil və cəmiyyət probleminin həlli üçün bu nəzəriyyə sonrakı dövr dilçilər üçün müəyyən rola malik oldu.

Araşdırdığımız dövr üzrə dilin sosial məsələlərinə toxunulsa da, ona geniş yer verilməmişdir. Antik dövrdən XX yüzilliyə qədər dillə bağlı əsas qaydaların, qanunların təyin olunması, dilin mənbəyi, dil və gerçəklik, dillərin müqayisəli təhlili, inkişafı və ayrılması ilə bağlı bir çox mövzular diqqət mərkəzində olmuşdur. Təbii ki, bu mövzuların öyrənilməsi dil haqqında olan dağınıq fikirlərin aydınlaşması ilə nəticələndi. Dildə sosial diferensiallaşmanın yaranma səbəbləri ilə bağlı fikirlərdən isə aydın olur ki, dilçilər bu prosesin dildə baş verdiyini qəbul edir və bunu sosial mühitlə bağlayırlar. Hətta bəzi dilçilər (U.Uitni, A.Meye və b.) sosioloji dilçiliyi dilçilik üçün əsas istiqamət sayır və dildə gedən dəyişiklikləri onun sosial statusu ilə bağlayırlar. Bu dövrdə qarşıya qoyulan problemlər XX əsrin əvvəllərindən başlayaraq daha geniş araşdırılmağa başlandı. Dil və cəmiyyət, onların qarşılıqlı əlaqələri, dil siyasəti, dil situasiyaları, dil variantları sosioloji dilçilik üçün yeni tədqiqat mövzuları oldu.

1.2. XX əsrin əvvəllərindən müasir dövrədək dilin sosial diferensiallaşması probleminin tədqiqi

XX əsrin əvvəllərindən etibarən dilçilik elmində yeni nəzəri istiqamətlər formalaşmağa başlamışdır. Bu dövrdə tədqiqatların mərkəzində artıq dillərin mənşəyi, tarixi inkişafı və qohumluq əlaqələri deyil, dilin funksional mahiyyəti, daxili quruluşu, kommunikativ xüsusiyyətləri və cəmiyyətdə işlənmə mexanizmləri dayanmışdır. Dilçiliyin inkişafında baş verən bu metodoloji dönüşün nəzəri əsasları F.de Sössür tərəfindən işlənib hazırlanmış, onun irəli sürdüyü

konsepsiyalar müasir struktur dilçiliyinin və sonrakı dilçilik istiqamətlərinin formalaşmasına mühüm təsir göstərmişdir. Ümumiyyətlə, F.de Sössür öz dilçilik baxışlarında dil (language) və nitq (parole), sinxroniya və diaxroniya kimi dixotomiyalardan çox istifadə edib. Bu məsələlər indi də öz aktuallığını qoruyur. F.de Sössür dillə bağlı araşdırmalarının indiyə kimi qrammatika, filologiya və müqayisəli qrammatika istiqamətləri üzrə getdiyini göstərir [50, s. 10-11].

XX yüzilliyin əvvələrindən, xüsusən F.de Sössürün "Ümumi dilçilik kursu" əsəri nəşr edildikdən sonra dilin sosial cəhətlərinin öyrənilməsinə maraq artdı. Dünyanın müxtəlif ölkələrində sosioloji dilçilik məktəbləri, cərəyanları yaranmağa başlandı. Bunlardan Fransada dilin sosioloji problemlərini tədqiq edən xüsusi məktəb – sosioloji dilçilik (A.Meye və b.) məktəbini, keçmiş Sovet İttifaqında dilin sosioloji problemlərini araşdırmaqla məşğul olan bir qrup dilçini (V.M.Jirmunski, R.O.Şor və b.) misal göstərmək olar. Bütün bunlara baxmayaraq, həmin dövrdə dünya dilçiliyində sosiolinqvistika xüsusi bir dilçilik elm kimi müstəqil sahəyə çevrilməmişdi. Dilin sosiolinqvistik problemlərinin araşdırılmasına XX əsrin 60-cı illərindən başlayaraq böyük maraq yaranmışdır. Bunun yaranması səbəbləri dünyanın yeni bir inkişaf mərhələsinə qədəm qoyması, Asiya və Afrikada müstəmləkədən azad olan xalqların dövlət qurması, dil siyasəti, dil quruculuğu, o cümlədən digər praktik sosiolinqvistik aspektlər olmuşdur. Nəticədə, ABŞ-də, Avropa ölkələrində, keçmiş SSRİ-də və digər respublikalarda müstəqil sosiolinqvistik məktəblər uğurla fəaliyyət göstərməyə başladı. Sosiolinqvistikanın inkişafı Şimali Amerikada

yaşayan insanların ingilis ədəbi dili ilə zəncilərin danışdığı ingilis dili arasındakı fərqləri araşdırmaqla sürətləndi. Amerikada XX yüzilliyin birinici yarısında sosiolinqvistik problemlərlə maraqlanan dilçi alimlər: E.Səpir və L.Blumfild sosiolinqvistika üçün əsas məktəb yaradanlardan sayılırlar. Amerika hindularının dili üzrə mütəxəssis E.Səpir və onun tələbəsi B.L.Uorf birlikdə Səpir-Uorf nəzəriyyəsini (linqvistik determinizm, dil nisbiliyi) irəli sürərək sosiolinqvistik araşdırmalar üçün bünövrə qoymuşlar.

Bildiyimiz kimi, dil insan və cəmiyyətdən ayrı təsəvvür edilmir. "O, elm, sənət, texnika və s. sahələrdə çalışan fərdlərin duyğu və düşüncələrini birləşdirən, onların bir yerdə yaşamalarını təmin edən vasitədir" [54, s. 11]. "Dil yaranışında əsas funksiyalarında sosialdır" [49, s. 39]. Dil proseslərinin linqvistik mahiyyəti bilavasitə onların sosial təbiəti ilə bağlıdır [49, s. 25]. Sosioloji dilçilik üçün də dilin məhz bu və ya digər tərəfləri aktualdır.

Sosioloji dilçiliyin əhatə dairəsi ilə bağlı da müxtəlif fikirlər mövcuddur. Sosiolinqvistika termininin yanında dilin sosiologiyası (sociology of language), makrososiolinqvistika (macro-sociolinguistics) və mikrososiolinqvistika (micro-sociolinguistics) terminləri də işlənir. Təbii ki, bunların hər birinin öyrənmə mövzusu fərqlidir. Sosiolinqvistika dil və cəmiyyət arasında əlaqələrin əsas xüsusiyyətlərini qarşılaşdıraraq öyrənir. Dilin sosiologiyası isə dili araşdıraraq cəmiyyətin ondan rahat istifadə etməsi üçün mühüm vasitələr axtarır. Makrososiolinqvistika cəmiyyətin dil vasitəsi ilə nələr edə biləcəyini araşdırır. Bu sahədə dil qarışması (language shift), dil bərpası (language maintanance), dil dəyiş-

məsi (language change) və dil toplumlarının məhdudlaşdırılması və qarışıqlığı kimi məsələlər tədqiqat obyektidir. Mikrososiolinqvistika isə cəmiyyətdəki müxtəlif sosial qrupların (sinif, gender, yaş və s.) dil xüsusiyyətlərini araşdırır [135, s. 13].

Dilçilikdə bu və ya digər məsələnin sosiolinqvistikaya və ya dilin sosiologiyasına aid edilməsi fikri də mübahisəli məsələlərdəndir. A.Noybert, R.Qross, L.Nikolski və başqaları dil işarələrinin və ya insanlar arasında ictimai münasibətlərin araşdırılmasından asılı olaraq, problemi sosiolinqvistikaya və ya dilin sosiologiyası sahələrinə aid etməyi təklif edirlər. Bu münasibətin formalaşmasına isə ABŞ-də sosiolinqvistikaya aid ilk məcmuənin redaktoru U.Brayt səbəb olmuşdur. Onun fikrincə, sosiolinqvistika dil və sosial strukturların birgə variativliyinin xarakterini aşkar etmək xüsusiyyətini daşıyır. R.Bell bu tərifin qeyri-dəqiqliyini müəyyən etmişdir. Onun fikrincə, "Bu münasibət dil və cəmiyyət strukturlarına yalnız korrelyativ yanaşmanı nəzərdə tutur. Lakin zaman keçdikcə bu fikir problemə iki fərqli yanaşmanı müəyyən etdi. Birinci yanaşma danışanın və eşidənin "qrammatikasının" sosiolinqvistikaya aid edilməsi ilə onun sərhədlərinin genişləndirilməsi, "dilin sosiologiyası" adlanan ikinci istiqamət isə işarə nəzəriyyəsi çərçivəsində dil və digər ictimai elmlərin əsasında, dil və sosial strukturların inteqrasiyasını nəzərdə tutur" [49, s. 21]. Göründüyü kimi, dil sosiologiyasının özünəməxsus predmeti vardır. Burada daha çox dilin daxili tərəfləri ilə bağlı tədqiqatlar aparılmalıdır. Cəmiyyətin tələblərinə uyğun dilin istifadə imkanlarının ortaya çıxarılması dilçilik üçün ən önəmli

problemlərdəndir. Bu cəhətdən dilin sosiologiyası qarşısında mühüm hədəflər dayanır. Əks təqdirdə, dil öz varlığının itməsi təhlükəsi ilə qarşılaşar.

Şimali Amerikada sosiolinqvistik araşdırmalar XX əsrin əvvəllərindən müxtəlif qruplar üzərində, xüsusən şəhərlərdə fərqli sosial qrupların dildən necə istifadə etməsi ilə bağlı aparılmağa başlandı. 1948-ci ildə Mc David Karolina ştatında postvokaliklərin istifadəsi üzrə apardığı tədqiqatında, Petit (1980), Putnam və Ohernin Vaşinqtondakı zəncilərin dili üzərindəki araşdırmaları və De Kampın (1958-1959) San Fransiskoda, Levine və Krockettin (1966) Şimali Karolina ştatında olan tədqiqatları da məhz dilin sosial fərqlərini araşdırmaq məsələsini aktuallaşdırmış və dilçilərin diqqətini cəlb etmişdir.

1960-ci illərin ortalarında sosiolinqvist U.Labov dilin sosial diferensiallaşması ilə bağlı apardığı tədqiqatla problemi daha da populyarlaşdırdı. O, cəmiyyətin inkişafının səs dəyişməsinə təsiri və Nyu-York şəhərində sosial təbəqələşmənin dilə təsiri ilə bağlı apardığı tədqiqatlarla dildə sosial diferensiallaşmanın yaranma səbəblərini açmağa çalışmış, o cümlədən mövzunun tədqiqi ilə bağlı müxtəlif metod və üsullar təklif etmişdir [131, s. 161].

"D.Vunderlixin, Y.D.Deşeriyev də sosiolinqvistikanın tədqiqat dairəsini məhdud qəbul edirlər. Bu alimlər yalnız nitq prosesini, dilin nitqə münasibətini və ya yazılı, şifahi, monoloji, dialoji nitq növlərini, janrları, dilin variantlarını sosiolinqvistikanın predmeti hesab edirlər" [49, s. 22]. D.Vunderlixinin fikrincə, "Sosiolinqvistikanı dörd müxtəlif cəhətdən müəyyən etmək olar: sosial faktorların nitq pro-

sesinə ardıcıl təsiri məsələləri, nitq kodlarının növlərinin arasında olan əlaqələr, danışanın statusunun - peşəsinin, sosial situasiyaların müəyyən edilməsi, nəhayət, sosial və fərdi aspektləri vəhdətdə birləşdirən ünsiyyət prosesləri" [107, s. 63]. Bu fikirdən belə qənaətə gəlmək olar ki, sosiolinqvistika yalnız dilin sosial diferensiallaşması ilə məşğul olmalıdır. Yuxarıda adı çəkilən alimlər sosiolinqvistikaya məhdud şəkildə yanaşmaqla müəyyən qədər yanlışlığa yol veriblər. Bildiyimiz kimi, sosiolinqvistika dil və cəmiyyətin əlaqələrini öyrəndiyi üçün bu sahədə çoxlu istiqamətlər üzrə tədqiqatların aparılması zərurətini yaradır.

Kiçik qruplar və onların nitq fəaliyyətinin sosiolinqvistikanın təhlil predmeti olması XX əsrin 30-cu illərində rus dilçisi Y.D.Polivanov tərəfindən irəli sürülmüşdür. Y.Polivanov yazırdı ki, "Sıx birləşmiş qrupların daxilində spesifik "kooperativ əlaqələr" aşkar edilir, bu əlaqə dilin assosiativ sistemində yüksək dərəcədə eyniliyini müəyyənləşdirir. Onun fikrincə, "Ayrı-ayrı qrupların daxilindəki sıx "kooperativ əlaqələri" yalnız böyük kollektivlərin kooperativ əlaqələri fonunda aşkara çıxarmaq olar" [46, s. 126]. Bu yanaşma da maraqlıdır. Ümumiyyətlə, kiçik qrupların istifadə etdiyi dilin fərqli cəhətlərini ya böyük qruplarla, ya da ədəbi dillə müqayisə etməklə müəyyənləşdirmək olar.

XX əsrin 30-cu illərində sosiolinqvistik dilçilik cərəyanlarından biri ABŞ-da yarandı. Əsasını biheviorizm fəlsəfəsindən götürmüş bu dilçilik cərəyanının banisi L.Blumfilddir. O, dili insan davranışının açarı hesab edirdi və düşünürdü ki, dili hər hansı psixoloji nəzəriyyədən asılı olmadan öyrənmək daha vacibdir. O, dilə mövcud olduğu şə-

raitə görə yanaşmanın tərəfdarı idi. L.Blumfildin fikrincə, dilçi üçün nitq aktı aşağıdakı kimi qruplaşdırıla bilən hadisələrin nəticəsidir:

1. Verilmiş konkret hadisənin şəraiti:

a) fiziki stimul,

b) verilmiş anda danışanın son dərəcə fərdi vəziyyəti.

2. İctimai şərtlənmiş şərait:

a) dilxarici qrup şərtləri (məsələn, tabu və etiket kimi adətlər),

b) dil modelləri (verilmiş kollektivin dili) [7, s. 30-49].

Yuxarıdakı ikinci qruplaşdırma dilin sosial cəhətləri ilə birbaşa əlaqəlidir. Dilçinin bu fikri əsasında deyə bilərik ki, dilin mədəniyyətlə bağlılığı çox güclüdür. Müxtəlif dil modellərinin əsasında isə fərqli şəraitlərdə yaşayan dil daşıyıcılarının sosial mühitləri dayanır. Ümumiyyətlə, Amerika sosiolinqvistlərinin bir çox nümayəndələri düşünürdülər ki, dil dəyişmələrinin əsasında nitq davranışları dayanır. Bu yanaşma sosiolinqvistik metodologiya əsasında tədqiqat istiqamətlərinin yenidən müəyyənləşdirilməsini və linqvistik təhlilin bəzi nəzəri postulatlarına yenidən baxılmasını nəzərdə tutur. Belə ki, bu baxışa görə, tədqiqatın mərkəzində dilin sistemi və strukturu deyil, nitqin strukturu və onun real kommunikativ mühitdə təzahür formaları dayanmalıdır. Təhlilin çıxış nöqtəsi kimi dil kodu yox, nitq kollektivi və ya başqa bir sosial kontekst olmalıdır. Bütövlükdə nitqin dil, funksiyanın struktur, kontekstin məlumat üzərində üstünlüyü qəbul edilir. Bu fikirləri özündə əks etdirən nəzəriyyələrin müəlliflərindən biri D.Haymsa görə, sosiolinqvistika nitq davranışının situasiya,

iştirakçılar, tema və nitq aktının funksiyaları arasındakı münasibətləri və nitq aktı iştirakçılarının sadalanan bütün komponentlərə münasibətlərini öyrənir [118, s. 3-7]. Sosiolinqvistikaya bu cür yanaşmanı tam doğru qəbul etmək olmaz. Çünki nitqdə baş verən proseslər dilin strukturuna müxtəlif səviyyələr üzrə öz təsirini göstərir.

İngiltərədə keçən əsrin 60-cı illərində sosiolinqvistik araşdırmaların əsası qoyuldu. Burada B.Bernesteynin rolunu xüsusi qeyd etmək olar. Onun dar və geniş dil kodu anlayışları ilə bağlı fikirləri xüsusilə diqqəti cəlb etmişdir. Bu barədə monqrafiyanın III fəslində daha geniş şəkildə məlumat verilmişdir.

Sosiolinqvistikanın keçən əsrin 60-cı illərində geniş şöhrət qazandığı ölkələrdən biri də Almaniyadır. Almaniyaya bu dövrdə müxtəlif ölkələrdən miqrant uşaqlar gəlmiş və cəmiyyətdə müxtəlif sosial xarakterlər formalaşmışdır. Bunun da nəticəsində alman cəmiyyətində müxtəlif sosial qrupların bir araya gəldiyi yerlərdə uşaqlarda "dil maneələri" meydana çıxmışdır. Bu problemin həlli üçün Almaniyada sosiolinqvistik araşdırmalar xüsusi önəm daşımış və dilçiliyin bu sahəsinin inkişafında tarixi rol oynamışdır [63].

Fransada sosiolinqvistik araşdırmalarla ötən əsrin 80-cı illərində A.Martinenin tələbəsi olan R.Riçeysteyn məşğul olmuşdur. O, fonemlərin məna fərqi yaratmasının səbəbləri ilə bağlı Parisdə sosioloji bir araşdırması ilə müəyyən etmişdir ki, yüksək təbəqənin yaşadığı ərazidə genik fonemlər hələ də müəyyən mənada ayırdedici formadadır [63].

1970-ci illərin sonunda sosiolinqvistlər nitq analizləri (discourse analysis) üzərində daha çox araşdırma aparmış

və dil–güc, dil–ideologiya, dil–sosial psixologiya əlaqələrini önə çəkmişlər [63].

Azərbaycan dilçiliyində sosiolinqvistikanın mahiyyəti, nəzəri əsasları və tətbiqi məsələləri ilə bağlı müxtəlif elmi tədqiqatlar aparılmış, bu yöndə elmi axtarışlar müasir dövrdə də ardıcıl şəkildə davam etdirilir. Bu sahədə Azərbaycan dilində yazılmış ilk əsərlərdən biri Ə.Rəcəblinin "Sosiolinqvistika" monoqrafiyasıdır. Burada sosiolinqvistikanın dilçilikdə yeri və əhatə dairəsi belə izah edilir: "Müxtəlif sosiolinqvistik cərəyanların "ümumi özəyinə" bu fənnin (*dilçilik sahəsinin – A.F.*) konseptual aparatının işlənib hazırlanması ilə sosiolinqvistikanın predmetinin və sosiolinqvistikanın başqa, istər linqvistik, istərsə qeyri-linqvistik olsun, fənlərlə münasibətlərin aydın şəkildə müəyyənləşdirilməsi ilə, sosial-nitq proseslərinin modullaşdırılmasının müxtəlif təşəbbüsləri ilə, sosiolinqvistik tədqiqatların metadilinin işlənib hazırlanması ilə bağlı olan bir sıra nəzəri problemlər də daxildir. Sosiolinqvistikanın dilin sosial diferensiallaşmış, bilinqvizm və diqlossiyanın sosiolinqvistik aspektlərin, dil situasiyasının tipologiyası, dil quruculuğu, milli və ədəbi dillər və onların sosial funksiyaları və s. kimi bir sıra ümumi problemlər də buraya aiddir" [46, s. 5].

Sosiolinqvistikanın əhatə dairəsi ilə bağlı dilçi N.Cəfərovun da müəyyən fikirləri vardır. Alimə görə, sosiolinqvistikanın obyekti, predmeti və araşdırma metodları konkret deyil. Sosiolinqvistika nəyi öyrənir sualına isə N.Cəfərov bu cür cavab verir: "Cəmiyyət məhz ayrı-ayrı fərdlərin, yaxud zümrələrin timsalında bir dildən başqasına körpü salır, çoxdillilik yaradır, dil-ünsiyyət eksperimentləri edir. Sosial di-

ferensiallıq ümumi uzusu təhlükə altında qoymaqla yanaşı, onun müqavimət qüvvəsinin artmasına kömək göstərir. Və əslində, sosiolinqvistika "dilin başı üzərində görülən işlər"i öyrənir" [8, s. 131]. Bəlkə də, mübahisə doğurur. Ancaq məlumdur ki, sosiolinqvistika introlinqvistik məsələləri deyil, ekstralinqvistik faktorların dilə təsirini araşdırır və ona görə də sosiolinqvistikaya aid ən uyğun tərifl ərdən biri kimi qiymətləndirmək olar. Həmçinin N.Cəfərovun sosiolinqvistikanın özünəməxsus metodları, həmçinin nəzəri sisteminin olması ilə bağlı fikirləri də diqqət çəkir: "Sosiolinqvistikanın nə özünəməxsus metodunun, nə də nəzəri sisteminin olmamasını əsas tutaraq akademik dairələrdə ona qarşı inkarçı mövqe nümayiş etdirilməsi də təsadüfi deyil, lakin əks münasibət mövqeyinə də ən müxtəlif (elmi, mədəni, hüquqi və s.) tamamilə anlamlı yanaşmaq lazım gəlir ki, hər halda onun heç cür diqqət mərkəzindən kənarda saxlanılması mümkün olmayan problematikası mövcuddur" [9, s. 31-32].

Azərbaycan dilçiliyində sosiolinqvistikanın müxtəlif problemləri ilə bağlı F.Veysəlli, J.Qəribova, A.Rüstəmova, Ə.Əliyev, C.Muradov, R.Heydərov, P.Əzizova və başqa dilçilərin də tədqiqatları vardır.

Sosiolinqvistika haqqında deyilən fikirləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, bu dilçilik sahəsi aşağıdakı məsələləri öyrənir:

"1. Dil əlaqələri (language contact): sözalma (borrowing), çoxdillilik (multilingualism), bir cəmiyyətdə bir dilin fərqli istifadəsi (diglossia), ikidillilik (bilingualism), əlaqəli dillər (pidgins), kreoller (creoler), müvəqqəti dillər (lingua

franca), kod dəyişmələri (code-switching)

2. Dialektlər (dialects), ədəbi dillər (standarts), sosiolektlər (sociolects), izoqleslər (izoglesses);

3. Dil və təhsil (language and education);

4. Geniş və dar kodlar (elaborated and restricted codes);

5. Dil siyasəti (language policy;

6. Kişi və qadın dili (male and female language);

7. Dil və mədəniyyət (language and culture), dil, mədəniyyət və təfəkkür (language, culture and thought, lingvistik determinizm və ya Səpir-Uorf nəzəriyyəsi);

8. Dil və sosial bərabərsizlik (linguistic and social inequality), müxtəlif xarakterli dil tədqiqatları (attitudinal language studies), dil mühakimələri (linguistic prejudice)" [133, s. 150].

Sosiolinqvistik araşdırmalarda dilin sosial diferensiallaşması probleminə müxtəlif aspektlər üzrə münasibətlər olmuşdur. Düşünürük ki, həmin aspektləri aşağıdakı istiqamətlər üzrə sistemləşdirmək lazımdır:

1. dilin və cəmiyyətin strukturu;

2. dil situasiyası;

3. dilin və nitqin sosial variativliyi;

4. jarqon və arqo;

5. ictimai şəbəkələr və dil;

6. diqlossiya.

1. Dilin və cəmiyyətin strukturu. Dil sosial hadisə olduğu üçün diferensiallaşmağa möhtacdır, çünki cəmiyyət də sosial diferensiasiyaya uğrayıb. F.K.Bok cəmiyyətin strukturu ilə dilin strukturu arasında uyğunluq olduğunu

görür. Onun "Cəmiyyətin strukturu və dilin strukturu" adlı məqaləsindən belə qənaətə gəlmək olar ki, dil və cəmiyyətin strukturu qarşılıqlı əlaqədədir [80, s. 382-396].

Amerika sosiolinqvistlərini bu problem üzrə iki qrupa ayırmaq olar. Birinci qrupa aid olanlar müxtəlif yollarla müəyyən bir cəmiyyətin dil və mədəni dəyərləri, qavrayış və praktiki davranış sistemi arasında əlaqə tapmağa çalışırlar. Bunlara B.L.Uorf və ardıcılları daxildir. İkinci qrupa aid olanlar insan davranışının ümumi nəzəriyyəsini formalaşdırmaq istəyən alimlərdir ki, dilin bu nəzəriyyə əsasında tədqiqi xüsusi önəm daşıyır. Birinci yanaşma dildə baş verən prosesləri daha dəqiq öyrənmək üçün doğrudur. Burada təkcə dildaxili sistemi yox, həm də cəmiyyətin sosial-psixoloji, mədəni dəyərlərinin onunla əlaqəsini öyrənir. İkinci istiqamətin tərəfdarları müəyyən yanlışlığa yol verir. Bildiyimiz kimi, insan davranışının ümumi nəzəriyyəsi haqqında deyilən fikirlər reallıq kimi qəbul edilsə də, bir o qədər də mücərrəd anlayışdır. Bu məsələnin dilə tətbiqi, demək olar ki, mümkün deyildir, çünki hər bir xalq, hər bir cəmiyyət fərqli düşüncə tərzinə malikdir. "Dil və mədəniyyətin qarşılıqlı əlaqəsi məsələsinə xüsusi önəm verənlərdən biri Amerika etnoqrafı C.Fişerdir. O, tədqiqatlarını iki Mikroneziya adasının əhalisi üzərində gerçəkləşdirmişdir. Müşahidələrin əsasında dil və sosiomədəniyyət sistemlərinin qarşılaşdırma təhlili durur. Onun fikrincə, bir neçə yüz il əvvəl bu adaların əhalisi bir dildə danışıb və daha sonra ayrılmışlar. Bu da onların istər sosiomədəniyyət sahəsində, istərsə də dil sahəsində divergensiyasına gətirib çıxartmışdır. O, belə bir tezisi müdafiə edir ki, diferensiallaşmış sosial struktura

daha diferensiallaşmış dil strukturu uyğun gəlir" [46, s. 119]. Bu tezis tam aydın olmasa da, belə qənaətə gəlmək olar ki, divergensiallaşmış dil strukturu cəmiyyətin parçalanmış strukturundan daha çoxdur.

Dilin həyatının cəmiyyətin həyatından asılı olması, onların bir-birinə qarşılıqlı təsirini bütün dövrlər üzrə müşahidə edə bilərik. Tarixin müəyyən dövrlərində cəmiyyətdə baş verən dəyişikliklərin dilə təsiri ilə bağlı P.Lafarq yazır: "Dil insanda və insanın yaşadığı mühitdə baş verən dəyişiklikləri özündə əks etdirir. İnsan cəmiyyətinin yaşayış ukladındakı dəyişmələr (məsələn, kənd həyatından şəhər həyatına keçmə kimi), eləcə də siyasi hadisələr dildə öz izini qoyur. Siyasi və sosial dəyişikliklərin bir-birini sürətlə əvəz etdikləri şəraitdə yaşayan xalq öz dilini tez dəyişir, əksinə, belə tarixə malik olmayan xalqların dili dəyişilməz qalır. F. Rablenin dilini yazıçının ölümündən 100 il keçdikdən sonra yalnız savadlı oxucular başa düşə bilirdisə, bu dövrdəki island dili İslandiyada, demək olar ki, dəyişməz şəkildə qorunub saxlanmışdı" [93, s. 20-21]. Bu qarşılıqlı təsirlərin nəticəsi dilin yeni formasına gətirib çıxarda bilər. Həmçinin B. Vardar da belə qənaətdədir və onun fikrincə, "dil gerçəkləri ilə cəmiyyətin gerçəkliyi arasındakı əlaqələr, bunların bir-birinə təsiri, onların həmişə yeni formasına gətirib çıxarır" [73, s. 114]. Göründüyü kimi, əlaqə tək yönlü deyil, qarşılıqlıdır.

Fransız dilçisi A.Martine dilin və cəmiyyətin strukturu məsələsinə münasibət bildirərkən yazır: "Dilçilər dil strukturunun sosial strukturların təsirindən asılı olduğunu qəbul edərək, yalnız o halda az və ya çox dəqiq nəticələrə nail ol-

mağa ümid edə bilərlər ki, onlar öz tədqiqatlarını həmin dilin təkamülünün hansısa olduqca məhdud dövrü üzərində diqqəti toplasınlar" [96, s. 532]. Müəllifin fikirləri ilə tam razılaşmaq olar, çünki dildə baş verən proseslər, xüsusən sosial mühitlərin dəyişməsi konkret dövr üçün aktual olduğuna görə tədqiqatı da bu dövrə uyğun aparmaq daha doğru olar. Konkret dövr üzrə tədqiqatların aparılmasının daha bir müsbət cəhəti dil tarixinin müəyyən mərhələsində dil faktlarının üzə çıxarılmasıdır və bu faktlar introlinqvistik dəyişikliklərin istiqamətlərini müəyyənləşdirməyə kömək edir.

Rus dilçisi R.O.Şor dil və cəmiyyətin strukturu probleminə daha çox peşə dilləri səviyyəsində yanaşır. Burada nəinki sosial mühiti, o cümlədən cəmiyyətin adətlərini, milli dəyərlərini də nəzərə almağı önəmli sayır. O yazır: "Harada ki, cəmiyyətin strukturunda müxtəlif istehsalat məqsədlərinə xidmət edən xüsusiləşmiş sinif və qruplar ayrılır, həmin cəmiyyətin dili uyğun sosial dialektlərə bölünür, harada ki, təkcə əməyin bölünməsi (belə bölünmə isə hər yerdə müşahidə olunur, bəsit mədəniyyəti olan xalqlarda isə cinslərin diferensiallaşmasına uyğundur, belə cəmiyyətlərdə xüsusi qadın dili təzahür etmişdir) vardır, hər istehsalat sahəsi özünün xüsusi "texniki terminlər" ehtiyatını – istehsalatdakı rolu ilə bağlı olan və başqa istehsalat qruplarının üzvləri üçün anlaşılmaz olan iş alətləri və proseslərinin adlarını yaratmağa məcburdur" [108, s. 100]. Müasir dünyada dövlətçiliyə malik olan və olmayan çoxsaylı xalqlar mövcuddur və onların siyasi-iqtisadi, sosial və elmi-mədəni inkişaf səviyyələri bir-birindən fərqlənir. Cəmiyyət

həyatında baş verən dəyişikliklərin intensivliyi onun daxili strukturuna və sosial diferensiallaşma səviyyəsinə bilavasitə təsir göstərir. Sosial diferensiallaşmanın güclənməsi isə həmin xalqların dilində, xüsusilə onun strukturunda, funksional xüsusiyyətlərində və istifadə formalarında müəyyən fərqlərin meydana çıxmasına şərait yaradır. Bu sahə üzrə xüsusi tədqiqatları olan Amerika dilçisi C.Qamperz Norveçin şimalında bir qəsəbənin əhalisinin dil davranışı üzərində müşahidə aparmışdır. O, əsərində Norveç qəsəbəsi əhalisinin kiçik qruplarını ilkin təhlilin vahidi kimi göstərir. Bu kiçik qruplar da öz növbəsində "açıq" və "qapalı" qruplarda birləşir. Onlardan birinci qrupun sosial əlaqələri (kontaktları) təkcə həmin kollektivlə məhdudlaşır, ikinci qrupa isə həmin kollektivin sosial-kommunikativ əlaqələri çərçivəsindən kənara çıxan fərdlər daxildir. Belə bölgü linqvistik relevantdır, çünki informantların nitq davranışı əlamətlərinin müəyyən diferensiallaşması ona uyğun gəlir [83, s. 194-195].

Cəmiyyətin sosial diferensiasiyasının dildə təzahürü haqqında V.A.Zvegintsev də fikir bildirmişdir. O göstərir ki, "Cəmiyyətin sosial diferensiasiyasının dildə təzahürlərini 3 əsas qrupa bölmək olar: 1. Dillərin sosial və xüsusi ifadəsi; 2. Xüsusi "dillərin" yaradılması; 3. Ümumxalq dilinin sosial və peşə diferensiasiyası" [89, s. 261]. Birinci bölgü dilin cəmiyyətdə tutduğu mövqe, istifadəsi üçün lazım olan bazanın olması ilə bağlıdır. Xüsusi istifadə məsələsi üslubiyyata aiddir, çünki dil üslubları dilin məqsədyönlü istifadəsinə xidmət edir. İkinci qrup dilin inkişafı və sosial mahiyyəti üçün o qədər də əhəmiyyətli rol oynamır. Üçüncü qrup isə

dilin sosial cəhətlərini aşkara çıxartmağa aiddir.

Dilin sosial xüsusiyyətlərinin və daxili strukturunun bir-biri ilə münasibətləri ilə yuxarıda deyilən fikirlərə tam əks münasibət ifadə edən bəzi tədqiqatçılar dilin sosial mahiyyətini onun daxili strukturundan ayırmağa çalışmışlar. Qlossematikanın banilərindən sayılan L.Yelmslev bununla bağlı belə bir fikir irəli sürür ki, dil xalis münasibətlər strukturu, nəyinsə təsadüfi həyata keçməsinin əksi olan sxem kimi dərk edilməlidir [51, s. 182-190].

Struktur anlayışı mürəkkəb olduğundan bu məsələyə konkret istiqamət üzrə yanaşmaq lazımdır. Sosiolinqvistlərin fikirlərində dilin strukturu anlayışına hansı meyarlarla yanaşılması dəqiq deyil. Cəmiyyətin strukturu kifayət qədər fərqlidir, həmçinin bir struktura aid olan insanlar digər strukturu da təmsil edə bilər. Dilin strukturu konkret dil səviyyələri üzrə nəzərdə tutulursa, bu bağlılılıq o qədər dərin deyildir, amma müxtəlif qruplar şəklində struktura bölünürsə, deyə bilərik ki, cəmiyyətin strukturu dilin strukturu ilə əlaqədədir, ikinci tərəf birincinin təsiri altındadır. Bütün bunlara baxmayaraq, cəmiyyətin sosial diferensiasiyası dilin strukturunda müxtəlif şəkillərdə ifadə olunur. Bu özünü həm fonetik, həm leksik, həm də qrammatik səviyyədə göstərir [21, s. 128-129].

2. Dil situasiyası. Hər bir cəmiyyətdə istifadə olunan dilin statusu ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bildiyimiz kimi, bir çox dövlətlərdə müxtəlif dillərdən istifadə edən xalqlar yaşayır. Dilə istifadə olunduğu cəmiyyətdə rəsmi və qeyri-rəsmi münasibət o dilin yayılması üçün əsas rol oynayır. Dil situasiyası da məhz cəmiyyətin dilə münasibəti

ilə bağlıdır. Bu barədə ilk fikirlərə U.Stüart və Ç.A.Ferqüsonun əsərlərində rast gəlirik. Onlar ilk dəfə olaraq dil situasiyası tipologiyasının sxemini hazırlamışlar. Sxem ən müxtəlif dil situasiyalarını təsvir etmək üçün nəzərdə tutulmuşdur. Düzdür, bu sxemin də müəyyən nöqsanları vardır. Ümumiyyətlə, dil situasiyası termininə Ç.A.Ferqüson belə tərif verir: "Dil situasiyası (language situation) termini indiki zamanda və indiki yerdə dilin işlədilməsi konfiqurasiyasına aiddir və həmin arealda neçə dil (var) və hansı dillərdən istifadə edilir, nə qədər adam həmin dillərdə danışır, həmin kollektivin üzvləri bu dillərə münasibətdə hansı şəraitlərdə və hansı məqsəd və fikirdədilər - kimi məlumatları əhatə edir" [115, s. 157].

L.B.Nikolski dil situasiyasını belə şərhləndirir: "Funksional stratifikasiya edilmiş dil yaranmaları qarşılıqlı münasibətdə zamanca cəmiyyətin və dil siyasətinin təsiri altında yaşayır və deməli, müəyyən bir prosesdir. Bu proses bir sıra vəziyyətlərə parçalanır. Hər bir belə vəziyyət dil situasiyası adlandırıla bilər" [99, s. 126]. Sonra L.B.Nikolski bu tərifə düzəlişlər etmiş, buraya "dilin mövcudluğu formaları" (ədəbi dil, ərazi və sosial qrup dialektləri, peşə dilləri və s.) anlayışını daxil etmişdir.

Azərbaycan dilçiliyində Ə.Rəcəblinin dil situasiyaları tipologiyasının əsasları ilə bağlı müəyyən fikirləri vardır. Bu barədə yazır: "Hər şeydən əvvəl, bu, məlum dilin, variantın, dialektin statusu, yəni onların həmin cəmiyyətdə işlənən başqa dillərə, variantlara və dialektlərə münasibətdə tutduğu vəziyyətdir. Artıq deyildiyi kimi, dil sisteminin rəsmi (hüquqi) və faktik statusunu fərqləndirmək lazımdır.

Rəsmi status bu və ya digər dilin qanunvericlik yolu ilə təsdiq edilmiş vəziyyətidir, faktik status isə dilin cəmiyyətdə faktik mövqeyi haqqında mühakimə yürütməyə imkan verən bir sıra xarakteristikaların cəmidir (başqa kollektivlərlə müqayisədə danışanların sayı, onların sosial-demoqrafik məlumatları, dilin, dil variantının, dialektin funksional işlənməsinin diapazonu, onun daşıyıcıları arasında bilinqvizm və ya diqlossiyanın mövcudluğu, dilin rəsmi statusunun faktik reallaşdırılması). Bəzən dilin rəsmi statusu faktik statusuna uyğun gəlir" [46, s. 214].

Dil situasiyası kollektivə xidmət edən dili, həm də onun müxtəlif şəkillərini (ədəbi dil, dialekt, şivə və s.) əhatə edən zərurət nəticəsində formalaşır. L.B.Nikoliski onu "dil-yaratma" termini ilə işarə edir, başqa müəlliflər isə bu mənada "idiom" terminini işlədir. D.Brozoviç bu termini "ümumi keyfiyyətcə iyerarxik neytral, yəni spesifik mənası olmayan" kimi səciyyələndirir. Dil situasiyasını müəyyənləşdirməyin əsasında sosiolinqvistikada geniş mənada işlənən "sosial-kommunikativ sistem" durur. Bu məfhum kollektivin istifadə etdiyi dil sistemi və yarımsistemlərinin bütün tərəflərini əhatə edir.

Beləliklə, "Ən ümumi şəkildə dil situasiyası sosial-funksional bölüşdürmə və bu və ya digər dövrdə həmin siyasi-inzibati birləşmənin və mədəni arealın hüdudları daxilində yanaşı yaşayan və qarşılıqlı əlaqədə olan sosial-kommunikativ sistem və yarımsistemlərin iyerarxiyası, habelə uyğun dil və nitq kollektivləri üzvlərinin bu sistem və yarımsistemlərə münasibətdə təqib etdikləri sosial məqsədlər modeli kimi müəyyənləşdirilə bilər" [46, s. 207].

Ümumiyyətlə, dil situasiyası cəmiyyətdə dilin populyarlığı ilə əlaqəlidir. Burada sosial mühit, cəmiyyətdə təbliğ olunan sahələr, dövlətin dilə qayğısı – bir sözlə, cəmiyyətin və dövlətin dilə münasibəti əsas rol oynayır. Dil situasiyasına süni təsirlər müasir dövrdə daha çox mümkün olsa da, buna qarşı duran qüvvələr də mövcuddur, məsələn, müasir texnologiyaların inkişafı dil situasiyalarının istiqamətini dəyişə bilər.

3. Dilin və nitqin sosial variativliyi. Bu problem iki meyarın – stratifikasion və situativ meyarların mövcudluğu ilə səciyyələnir. Stratfikasion variativlik cəmiyyətin sosial strukturu ilə bilavasitə əlaqədardır. Dilin sosial diferensiallaşmasından danışarkən, hər şeydən əvvəl, məhz bu variativlik nəzərdə tutulur. Rus dilçisi B.N.Qolovin dilin sosiologiyasının predmetinin dar və geniş mənada başa düşülməsində dili və onun funksiyalarını sosial qrupların və ictimai dairələrin müstəvisində üzvləndirir. Bu isə, başqa sözlə deyilərsə, dilin və nitqin stratfikasion variativliyi deməkdir [46, s. 176-177]. Əgər stratifikasion variativlik müxtəlif sosial zümrə və sosial qrupların nümayəndələri arasında aşkara çıxan, müşahidə edilən dil və nitq fərqlərində öz ifadəsini tapırsa, situativ variativlik bu və ya digər dil vasitəsinin – ayrı-ayrı vahidlər və ya bütöv sistem və yarımsistemlərin – dil, dialekt, funksional sosial situasiyadan asılı olaraq istifadə edilməsində təzahür edir, yəni ki, burada istifadə edilən nitq ünsurləri informant tərəfindən sosial mühitləri dəyişdikcə dil situasiyası da dəyişir. Ə.Rəcəbli sosiolinqvistik dəyişənlərə münasibəti belə ifadə edir: "Sosiolinqvistik dəyişənlərin təhlili göstərir ki, onlar iki kateqoriyaya ayrılır.

Bu kateqoriyaları stratifikasion dəyişənlər və stratifikasion-situativ dəyişənlər adlandırmaq olar. Stratifikasion dəyişənlər təkcə bir ölçüdə – cəmiyyətin sosial strukturunu inikas etdirən stratifikasion ölçüdə mövcuddur. Onlar tədqiq edilən əhalinin müxtəlif sosial, sosial demoqrafik və ya peşə qruplarının nümayəndələrinin variativ kəmiyyət və keyfiyyət göstəriciləri ilə səciyyələnir, lakin eyni zamanda sosial situasiyanın bu və ya digər komponentinin şəkildəyişməsi zamanı dəyişməz qalır. Halbuki digər dəyişənlər eyni zamanda iki müstəvidə – stratifikasion və situativ müstəvilərdə variativlik təzahür edir [46, s. 181].

Dilin sosial diferensiallaşması ilə bağlı ilk dəfə əsaslı tədqiqatlar aparmış və onu elmi əsaslarla sübut etmiş Amerika dilçisi U.Labov sosiolinqvistikada yeni təhlillərin əsasını qoydu. Dilçi araşdırmalarını Nyu-York şəhərində yaşayan yerli əhalinin istifadə etdiyi ingilis dili üzərində aparmışdır. Dilin və nitqin sosial variativliyinin ikili təbiəti geniş şəkildə U.Labovun Nyu-York şəhərində ingilis dilinin stratifikasiyasına (lay-lay şəklində olmasına) həsr etdiyi "The Social stratification of English in New York City" ("Nyu York şəhərində ingilis dilinin sosial stratifikasiyası") adlı əsərində öz əksini tapmışdır. O, eksperimentlərini müxtəlif dinləmə cihazları ilə aparmış və bu da tədqiqatçıya imkan vermişdir ki, dilin təbii cildi üzrə araşdırma aparmaqla düzgün nəticələr əldə etsin. U.Labov araşdırmaları ilə nitqin diferensiallaşmasının "sosial" və "üslubi" adlandırdığı iki şəklinin "müntəzəm modeli"ni aşkara çıxarmışdır. O, müşahidələri nəticəsində müəyyən etmişdir ki, bir tərəfdən, kollektivin sosial strukturu ilə müəyyən əlaqə olduğu aşkar edilir, yəni aşağı sosial

təbəqəyə mənsub olan informantlar şəhərin, cəmiyyətin yüksək təbəqəsinə mənsub olan informantlara nisbətən eyni nitq kontekstlərində substandart – qeyri-ədəbi formaları geniş şəkildə işlədirlər. Digər tərəfdən, bütün informantlarda sərbəst məişət ünsiyyəti situasiyası ilə müqayisədə rəsmi – təntənəli nitq kontekstində standart formaların sayının gözə çarpacaq dərəcədə artdığı müşahidə edilir. U.Labovun "üslubi variativlik" adlandırdığı hadisə əslində sosial variativlikdir. Belə ki, söhbət müxtəlif sosial situasiyalarda (məsələn, ailə dairəsində, sərbəst söhbət və rəsmi şəxslə danışıq) ədəbi və qeyri-ədəbi formaların nisbətindən gedir [120, s. 366-372]. U.Labovun tədqiqatında qarışıqlıq mövcuddur. O, eyni informantın müxtəlif situasiyalar üzrə nitqini araşdırır və dilin sosial variativliyini situasiyalar üzrə dəyişdiyini göstərir.

U.Labov ilk dəfə "dildaxili müxtəliflik qaydasını" da dilçiliyə gətirmiş və müxtəlif dil formaları olduğunu göstərmişdir. U.Labov tədqiqatlarından belə nəticəyə gəlir ki, standart olmayan dildən (*sosiolekt – A.F.*) istifadə edənlərin uğurları onların istifadə etdiyi dillə bağlı deyil. İlk dəfə U.Labov dil variantlarının olmasını toplumun yaşadığı ərazi, sosial durumu ilə bağlı olduğunu söyləmişdir [129, s. 195].

Dil variativliyi problemi U.Labovdan sonra dilçilər tərəfindən daha geniş şəkildə tədqiqata cəlb olundu. Dil variantlarının yaranma və çoxalma səbəbləri ilə bağlı müxtəlif mübahisəli fikirlər yarandı.

İngilis dilçisi J.Milroy bildirir ki, dilçilər dilin daxilində müəyyən "qaydalar"ın olduğunu, lakin dil içindəki fərqlərin bunları pozduğunu düşünürlər. Müəyyən qaydaların olduğu

dil standart dil (*ədəbi dil – A.F.*), qaydası pozulmuş olanlar isə yerli və sosial dialektlər başda olmaqla dilin standartdan kənar istifadə edilən variantlarıdır. Dil nəzəriyyəsi istər strukturu olan, istərsə də sonradan strukturu yaranan ideal bir dili və ideal informantı əsas saydığı üçün linqvistik baxımdan nə diaxronik, nə də sinxronik qaydalara sığışır. Dil nəzəriyyəsində ideal bir informantın dil haqqında sahib olduğu mücərrəd məlumatlar əsasdır. Bu məlumatların gerçəkdən istifadə olunub-olunmadığı, istifadə olunursa necə istifadəsi önəm daşımır. Dildə "nə olur deyil, nə ola bilər" birincidir. Nəzəri dilçilikdə bu məsələ ilə ilk növbədə sosiolinqvistika və dialektologiya məşğuldur. Dil haqqında prinsip etibarilə mövud olan məlumatlar dildən istifadəyə görə informatın yaşadığı ərazi, sosial sinfi, təhsili, maddi vəziyyəti və b. kimi sosial qrupların vəziyyətindən asılı olaraq gerçəkləşir. Bu fərqlər dildə variasiya yaradır. Hər dilin istər yazılı, istərsə də şifahi şəkildə mövcud olması, onların sıx şəkildə əlaqəsi dilin variantlarını yaradır. Bu səbəbdən dil müəyyən qaydalara malik olduğu idealizə edilmiş, variantlı olması isə normaldır [126]. J.Milroyun yanaşmasından belə çıxır ki, dilin sosial variantları dil üçün heç bir təhlükə yaratmır, çünki dilin daxili qaydaları vardır. Bu məsələdə dilçi müəyyən yanlışlığa yol verir. Dilin tarixi inkişafını öyrəndikcə aydın olur ki, dilin bütün səviyyələrində qaydalar dəyişir. Bu, bir səviyyə üzrə tez, digəri üzrə gec baş verə bilər, amma gerçək olan odur ki, bu proses davamlı gedir. Bunun yaranma səbəblərindən biri də sosial dil variantlarıdır.

R.A.Hudson bütün dil vəziyyətlərini və fərqlərini dil variantları (varieties of language) adlandırır və bu termin-

də dil, dialekt, ağız, stil (style, register) anlayışlarını cəmləşdirərək fərd, toplum, ərazi dil vəziyyətlərinin yerində istifadə edir" [117, s. 22].

Daha bir dilçi J.Holmes fərqli dil variantlarının olma səbəblərini dildən istifadə edənlər üzrə iki formada göstərir. "Kimin danışdığı (ərlə arvadın, müştərinin satıcı ilə, müdirin işçiləri ilə danışması), dialoqun olduğu yer (evdə, iş yerində, məktəbdə danışma), dialoqun məqsədi və mövzusu fərqli dil variantlarını yaradır [116, s. 9]. O bildirir ki, "Dildə variantlıq təkcə sözlərdə yox, morfologiyada, söz yaradıcılığında və fonologiyada da özünü göstərir. Göstərilən hər bir səviyyədə informant fərqli sosial qruplarda müxtəlif variantlardan istifadə edir. İnformant mənsub olduğu qrupda ən uyğun dil variantından istifadə edir" [116, s. 4]. J.Holmes dil variantının informantın məqsədinə əsasən yarandığını iddia edir və buna aid maraqlı bir misal göstərir: "*Marqaret Valker hər gün günortadan sonra Kardifdəki ofisindən ayrılarkən iş yoldaşı* ***"sağ ol, Marqaret"*** *– deyir və o da* ***"Sağ ol, Mike"*** *– deyə cavab verir. Katibəsi* ***"Sağ olun, xanım Valker"*** *– deyərkən, o da* ***"sağ ol, Jili"*** *kimi cavab verir. Evə gələndə oğlu****: "Salam, ana"*** *– deyə qarşılayarkən, anası:* ***"şirinim, günün necə keçib?" –*** *deyə qızına sual verir. Marqaret yoldaşı tərəfindən:* ***"Yenə gecikdin"*** *cümləsi ilə qarşılanır. Axşam saatlarında gələn telefon zəngində Çiçək mağazasının müdiri:* ***"Axşamınız xeyir, Xanım Billingtonlamı danışıram?****" – deyə soruşarkən Marqaret:* ***Xeyr, mən xanım Valkerəm, yoldaşımın adı David Billingtondur. Sizə necə kömək edə bilərəm?****" – deyə cavabını verir. Sonda iş yoldaşı zəng edir:* ***"Salam Meq, necə gedir?*** *– deyə yoldaşının halını soruşur*" [116, s. 3]. Belə danışıq dilin

üslubi imkanlarından məqsədli istifadəyə uyğun gəlir. Belə dil istifadəsi situativ xarakter daşıyır. Burada danışılan məkan, danışanın statusu, tanışlıq dərəcəsi və digər məsələlər mühüm rol oynayır.

D.Hayms da dilin sosial variantları ilə bağlı maraqlı bir tədqiqat aparıb. Onun tədqiqatının əsas məqsədi leksikanın ümumi nüvəsinə daxil olan və sosial nişanlanmadan məhrum olan sözlərdə fərqlərin mövcudluğu ilə bağlıdır. Müəllif eksperimental material kimi ən yüksək tezlikli 1000 ingilis sözünü seçib ayırır. Sözlərin konnotasiyasını "semantik diferensiallaşma meyarına" (semantic differential instrument) görə aşkara çıxarır. Bu meyar aşağıdakı şkaladan təşkil olunur: güclü- zəif, rasional-emosional, pis-yaxşı və s. Bu şkalaya görə eksperimentə cəlb edilən hər bir adam 50 sözü dəyərləndirməlidir. İnformantların dəyərləndirilməsi kəmiyyət göstəricisinə çevrilir, sonra isə yuvarlaqlaşdırılmış kəmiyyət informantların statusu ilə uzlaşdırılır. Eksperimentin mənfi nəticəsi tədqiqatçının irəli sürdüyü belə bir işçi fərziyyəsi ilə tamamilə uyğun gəlir: cəmiyyətin üzvləri arasında kütləvi qarşılıqlı əlaqə müxtəlif sosial qruplara mənsub olan şəxslərdə vahidlərin konnotativ mənasında əhəmiyyətli fərqlərə yol verilmir. D.Haymsın fikrincə, dil və sosial qurumları arasındakı konfliktin həll edilməsinin əsas vasitəsi sinonimiyanın işlədilməsinin diferensiallaşmasıdır [46, s. 291]. D.Haymsın dildə sosial diferensiallaşmanı sinonimlər səviyyəsində məhdudlaşdırması onun eksperimenti üçün doğru nəticə olsa da, bunu bütün dil üçün sosial diferensiallaşmaya səbəb göstərmək tam doğru deyildir.

Ümumxalq dili bütün dil variantları üzərində həmişə

aparıcı təsirə malikdir. Müxtəlif sosial-kommunikativ əlaqələr və dil variantları bir-birilə qarşılaşdırılır. Bu cəhətdən yanaşdıqda belə sosial variantlar tam şəkildə ayrıla bilmir. Bu baxımdan F.M.Berezin bildirir ki, "Ümumxalq dilinin diferensiasiyası, üzvlənməsi "müstəviləri" bir-birinin üzərində yerləşmir və real nitq prosesində bir-birindən ayrılmır. Onlar tez-tez bir-biri ilə qarşılaşır və əlaqələnir. Məsələn, dilin nitq fəaliyyətinə müxtəlif diferensial təsirləri (insanların sosial təbəqələri, insanların fəaliyyət tipləri, sözlə yaradılan əsərlərin janrları və onların müxtəlifliyi və s.) təsir göstərə bilər" [78, s. 61].

N.B.Meçkovskaya da dilin müxtəlif formaları haqqında müəyyən fikirləri vardır. O bildirir ki, "Ümumxalq dili dilin mövcud olan formalarının məcmusudur. Buraya ədəbi dil, xalq-danışıq dili, məhəlli dialektlər, müxtəlif sosial dialektlər (peşə dili, jarqonlar, gizli korporotiv dillər, kasta dilləri) daxildir. Ümumxalq dilinə münasibətdə dil strukturunun realizəsinin ayrı-ayrı variantları dilin mövcudluğunun formaları kimi özünü göstərir" [97, s. 35]. Bu fikirlərdən aydın olur ki, dilçi dilə bir sosial sistem kimi yanaşır. Dil variantlarının dilin bütövlüyü üçün əhəmiyyətli rola malik olduğu fikrindədir. Daha dəqiq desək, dilin variantsız olması onun inkişafı üçün maneə olacağına işarə vurur.

Sosiolinqvistika ilə məşğul olan tədqiqatçılardan olan M.Meyerhoff dilin variantlarının olmasının başlıca səbəblərini aşağıdakı kimi sıralayır:

"1. **Özünü bəzi insanlarla eyni səviyyədə saymaq, ya da digər insanlardan fərqli olma arzusu.** İnsanlar özlərini ya müəyyən bir sosial qrupun parçası kimi görmək istəyirlər,

ya da yer aldığı sosial qrupdan kənar tuturlar. Bu səbəbdən də istifadə etdikləri dil variantları fərqlənməyə başlayır.

2. **Cəmiyyətin dəyərlərinə özünü uyğunlaşdırma.** Dilin bir variantını toplumun bilərək, ya da bilməyərəkdən istifadə etməsidir. İnformantlara bu variant reklam olunur və istifadəsinə təşviq edilir.

3. **Cəmiyyətdə alçalmayacağı ifadələri istifadə etmə.** Burada toplumun dəyər verdiyi və onun alçalmayacağı dil variantından istifadə nəzərdə tutulur. Sosial qrupun tərkibində olanlar kobud ifadələri elə formada istifadə edirlər ki, qrupun etirazına səbəb olmurlar" [124, s. 24].

Bu amillərə diqqətlə nəzər yetirdikdə, görürük ki, psixoloji faktorlar əsasdır. Fərdlərin müəyyən bir sosial mühitdə tutduğu mövqe, cəmiyyətlə üzləşmə prosesi, onun qanunlarına tabe olma (ya da olmama) kimi xüsusiyyətlər mühum rol oynayır.

Son dövrlər Türkiyə dilçiliyində də dilin sosioloji tərəfləri ilə bağlı müxtəlif tədqiqatlar aparılmışdır. Bu barədə Kamile İmer, Doğan Aksan, Nuretdin Demirin fikirlərini xüsusi qeyd etmək lazımdır.

K.İmer dildə baş verən dəyişikliklərə səbəb kimi qarşılıqlı ünsiyyət prosesini göstərir. "Dil müxtəlif tərəflərdən fərqli xüsusiyyətləri meydana çıxan və müxtəlif formalar təqdim edən bir kompleksdir. Ən inkişaf etmiş ünsiyyət vasitəsi sayılan dil, qarşılıqlı ünsiyyət prosesində anlaşma baxımından bir çox dəyişikliklərlə özünü göstərir" [65, s. 213].

D.Aksan isə yanaşmasında dil variantları arasında əslində çox ciddi fərq olmadığı fikrindədir. O bildirir ki, "Dinməzhəb, cins, yaş, ailə, qohumluq və yoldaşlıq qruplarının

bir-birindən çox fərqli dilləri olduğunu deyə bilmərik. Bir qadınla bir kişinin, bir gənc oğlanla eyni yaşdakı gənc qızın nitqi arasında ancaq kiçik fərqlər tapmaq olar. Digər qrupların nitq fərqlərinin də kiçik olduğunu düşünürük" [54, s. 88]. Tədqiqatçının fikri ilə müəyyən qədər razılaşmaq olar. Əgər belə olmasaydı, dildə ayrılma prosesləri tez-tez baş verərdi. O bu fərqlərin çoxluğunu peşə qruplarında yer aldığını düşünür: "Bəzi toplumlarda sözlərin istifadəsi baxımından, ümumi cəmiyyət üçün önəm daşımayan sözlər də istifadə olunur və bu onlar üçün ümumişlək hala çevrilir. Bu qruplara peşə qruplarını – həkim dili, müəllim dili və s. aid etmək olar" [54, s. 87].

N.Demir isə istənilən dil formasını onun variantı kimi qəbul edir: "Variativ araşdırmalara görə standart dil, yerli dialektlər, sosial dialektlər, fərqli yaş və cinsi qrupların jarqonu, məsləkdilləri, qısaca dilin hər formada istifadəsi bir variantdır. Heç biri dilçilik baxımından digərindən üstün deyildir" [57, s. 96].

Dilə sadəcə haradan gəldiyimiz, hansı bölgədə yaşamağımız deyil, eyni zamanda mədəni keçmişimiz, kimliyimiz, iqtisadi vəziyyətimiz, cinsimiz, inanclarımız kimi bir çox sosial mövqelər bağlıdır. Bütün cəmiyyətlərdə fərdlərin bir-birilə fərqli şəkildə danışması özünəxasdırsa, digərlərinin müəyyən sosial qruplarla əlaqəli olduğunu söyləyə bilərik. Buna misal olaraq, bankda işləyənlər fəhlələr kimi, professorlar da santexniklər kimi danışmırlar. Bu sosial qruplar arasında görünən sosial fərqlər, həmin qruplara məxsus fərdlərin nitqində müxtəlif dil səviyyələri üzrə – fonetika, qrammatika və leksikada özünü göstərir [134].

Dilin sosial variantları sosiolekt də adlandırılır. "Sosiolekt təbii dil əsasında inkişaf edir. Sosiolekt sosial qrupların istifadə etdiyi dil əsasında formalaşır. Hər sosial qrupun dili digərindən fərqlidir" [62, s. 128]. O.Reicmanna görə də "sosiolekt" dil variantının daşıyıcısı olan sosial qrupların – sosial təbəqələrin, məzhəb, əqidə, cins, yaş, imkan, ailə-qohum, təhsil və siyasi qrupların dilini əhatə edir. G.Heike və H.Glinz də sosiolekti bir qrupun dili kimi göstərir [54, s. 87].

Türk tədqiqatçısı F.S.Damla bir sıra dilçilərin fikirlərinə əsaslanaraq sosiolektə geniş şərh verir: "Dilçilərin qrup dili, ya da özəl dil adı verdikləri dillər, fərdin yer aldığı sinfə, yaşa, xüsusən əqidəyə görə təyin edilən dildir. Eyni dilə malik olan, lakin mədəni dəyərlər baxımından ayrı-ayrı peşələrə aid olan insanlar dildən də fərqli istifadə edirlər. Səs özəlliklərini və qanunlara tabe olma xüsusiyyətlərini bir yana qoysaq, istifadə etdikləri sözlər də çeşidlilik baxımdan çox fərqli olur. Dünyagörüşü və mədəni səviyyəsi aşağı olan insanların dili konkret ifadələrə daha geniş yer verir. Yüksək mədəni səviyyəyə sahib olan insanlar isə düşüncəli, dərin mənalı sözlərdən geniş istifadə edir. Cəmiyyətdə söz bazası, eyni tipli sözlərin istifadəsi, bir-birinə ehtiyacı baxımından müxtəlif olan insan qrupları vardır. Bu qruplar, əsasən, müəyyən məsələyə görə yaranır: hakim dili, dənizçi dili və s. Bu qruplara dilçilər özəl dil və ya sosiolekt deyirlər" [56, s. 14]. Onun fikrindən belə qənaətə gəlmək olar ki, sosiolektlər fonetik əlamətlərə görə fərqlənmir. Bu fikri yalnız bir halda qəbul etmək olar ki, sosiolektlərə yalnız qeyd etdiyi peşələr aid edilsin.

Sosiolekt dilin sosial variantlarının müxtəlif xüsusiyyətlərini özündə birləşdirir və dilin sosial diferensiallaşması nəticəsində formalaşan dil variantları bütün xüsusiyyətləri ilə burada öz əksini tapmalıdır. Dilin sosial diferensiallaşmasını ideoloji, dini, yaş, gender və s. istiqamətlər üzrə bölgüsündə görürük ki, sosiolekt demək olar ki, dialektin öyrəndiyi bütün predmetlər üzrə dili əhatə edir [28, s. 41-44].

4. Jarqon və arqo. Jarqon və arqolar haqqında dilçilikdə müxtəlif araşdırmalar aparılmış, bir çox maraqlı nəticələr əldə olunmuşdur. Ümumiyyətlə, bu barədə olan fikirləri iki qrupa ayırmaq olar. Bir qisim dilçilər bu terminlər arasında fərq olmadığını düşünür, digər qisim isə bunların fərqli terminlər olduğu fikrindədir. Dünya dilçiliyində bu tip sözləri müxtəlif cür adlandırırlar, məsələn: Fransada "jargon", "argo", Almaniyada "rotwelsch", İngiltərədə "cant", İtaliyada "gergo", "borboescho", İspaniyada "germania calo", Rusiyada "jarqon, arqo, "блатная музыка" və s. Bütün bunlara baxmayaraq, daşıdığı məna baxımından bu terminlər eyni mənanın qarşılığında işlənir.

Jarqon və arqo sözlərini bir-birindən fərqləndirməyən dilçilərdən olan Amerika sosioloji dilçiliyinin nümayəndəsi C.Qampertz jarqon sözləri arqo adlandırır və aşağıdakı kimi təsnif edir:

"1. Subregional, yaxud regional dialekt səciyyəli arqolar. Müəllifə görə, bu tip arqolar tayfa bölgələrin ticarət dilinə bənzəyir. Əgər həm arqo, həm də yerli nitq forması eyni bir dilin hər hansı bir dialekti əsasında formalaşmışsa, onlar arasında fərq o qədər də böyük olmur.

2. Xüsusi məqsədlər üçün bəzi sosial və peşə qrupları-

nın istifadə etdiyi jarqonlar. Buraya səyyar ticarətçilərin dili, oğru jarqonları və s. daxildir.

3. Kilsə və inzibati jarqonlar. Orta əsrlər Avropasında latın dilinin german, roman və slavyan dil areallarında həm kilsə dili, həm də inzibati dil kimi istifadə olunmasını buna nümunə göstərmək olar" [83, s. 194-195].

B.A.Larin də "arqo" və "jarqon" terminlərini sinonim kimi qəbul edir və onların xüsusiyyətləri haqqında bəhs edərkən bildirir ki, şərti dillər (*arqolar – A.F.*), adətən, ümumi dilin malik olduğu həmin fonetik sistemə, həmin morfologiyaya və sintaksisə, leksikanın çox hissəsinə (bütün dəyişməyən sözlər və bəzi dəyişənlər) malik olur. Arqoda söz yaradıcılığının yalnız bəzi kateqoriyalarının, lüğətin və semantikanın bir hissəsinin özünəməxsus xüsusiyyəti var, arqo ümumi dildən daha çox sözlərin mənasına və ümumi işlədilməsinə görə fərqlənir. Arqotik leksikanın bu fərqləndirici ünsurlərinin müqayisəli və tarixi tədqiqi arqonun milli dillə daha geniş əlaqəsinin açmağa imkan verir, çünki bu əlaqədə çoxlu dialektizmlər və arxaizmlər aşkar olur. Lakin nəhayətdə, həmin ərazinin ümumi dili əsasında heç cür izah edilməyən çoxlu söz qalığı nəzərə çarpır [14, s. 7]. Tədqiqatçının fikri ilə tam razılaşa bilərik. Ona görə ki, arqolar konkret şəkildə dilin leksik qatı ilə bağlı olduğundan yalnız bu səviyyəyə təsir edir, dilin digər səviyyələri ilə bağlı olmur. Arqolar müəyyən dərəcədə dilin tarixi leksikasını öyrənmək üçün də əhəmiyyətlidir.

Jarqonu arqodan fərqləndirən dilçilərin sayı daha çox olmuşdur. Bu barədə V.M.Jirmunski belə yazır: "Arqo jarqonun başqa növlərindən özünün peşə-sənət funksiyası ilə

fərqlənir. Jarqon "dil oyunu"dur. O, emosional və ekspressiv hisslər aşılayır. Arqo isə müəyyən zümrənin – oğruların, quldur və canilərin, alverçilərin – müdafiə silahıdır" [86, s. 119]. Göründüyü kimi, arqo jarqondan fərqli olaraq, kənar şəxslərdən öz fikirlərini qorumaq üçün istifadə olunur.

Arqoları jarqonun bir növü kimi qəbul edən dilçilər də vardır. Bu barədə V.V.Straten "Arqo və arqotizm" adlı məqaləsində qeyd edir: "Arqo jarqonun xüsusi bir növüdür. Arqo oğruların, quldurların, qumarbazların, canilərin və s. şərti dilidir" [14, s. 8].

Jarqon və arqoları süni dil kimi qəbul edən dilçilər də vardır. Məşhur fransız dilçisi Ş.Nodendən sonra onun fikirlərini müdafiə edən M.Sçavob və Q.Ques yaşadıqları dövr üzrə bu barədə fikirlərə yekun vuraraq, bildirirlər ki, *"Jarqon süni dildir"* [94, s. 319]. V.Jirmuniski qeyd edir ki, *"Arqo süni olaraq xüsusi bir məqsədlə yaradılır"* [86, s. 140].

Jarqonun süni dil olması fikrini rus dilçilərindən İ.A.Qolışev, V.A.Qordlevski, V.A.Zveqnitsev, A.A.Reformatski və digərləri irəli sürür. Deyilən fikirlərlə tam razılaşmaq olmaz. Jarqon həm süni təsirlər nəticəsində, həm də təbii proseslərlə yarana bilər. Heç də bütün dilçilər jarqonların süni dil olması fikri ilə razı deyillər. Bu barədə V.D.Bondaletov yazır: "Təmiz süni dillərdən (esperanto, ido, novial və s.) fərqli olaraq jarqon kabinet alimləri tərəfindən yaradılmamışdır. Daha doğrusu, bu dil kollektivinin yaradıcılığıdır" [79, s. 23].

Amerika dilçisi L.Blumfild arqo və jarqonları birləşdirərək *gizli dialekt* kimi qəbul edir: "Xüsusi bir sosial qrupun cəmiyyətin qalan hissəsi ilə münaqişəsi zamanı, öz dillərinin xüsusiyyətlərindən istifadə edərək, məsələn, ingilisdilli qara-

çılar kimi, gizli dialektdə danışırlar. Müxtəlif ölkələrdə cinayətkar qruplar belə gizli dialektlər yaratmışdır" [7, s. 56].

Jarqon və arqoların müxtəlif növləri vardır. Bu bölgü nisbi qəbul edilir. Onlardan ən geniş yayılmışları aşağıdakılardır: *korporativ jarqonlar, qumarbazlar jarqonu, sərxoşların jarqonu, gənclərin jarqonu, bazar jarqonu, ailə jarqonları, sinfi jarqonlar, ziyalı jarqonu, dini jarqonlar* və s.

Ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, jarqon və arqolar haqqında fikirlər hələ də tam dəqiqləşməyib, onların sərhədləri müəyyən olunmayıb. Lakin bunlara baxmayaraq, deyə bilərik ki, bu tip sözlər dilin sosial diferensiallaşmasında əsas rol oynaya bilməz, çünki dilin sosial diferensiallaşması tam təbii proseslər nəticəsində yaranır. Onu da inkar etmək olmaz ki, bu prosesdə onların heç bir rolu yoxdur. Bu tip sözlərin dildə diferensiallaşması üçün müəyyən dil variantları üzrə leksik səviyyədə baza rolu oynaya bilər.

5. İctimai şəbəkələr və dil. İctimai şəbəkələrin dilə təsiri dil variantının situativliyi üçün əsasdır. Burada müxtəlif sosial qruplara aid fərdlərin bir-biri ilə əlaqə qurmasından söhbət gedir. İctimai əlaqələr bir çox dilçilər tərəfindən fərqli şəkildə araşdırılmışdır. R.Vardaut "A fərdinin B fərdi ilə, daha sonra C fərdin D fərdi ilə hansı vəziyyətlərdə və necə əlaqəyə girdiyini, A fərdin B fərdi ilə əlaqəsinin nə qədər dərin olduğunu ictimai əlaqə (şəbəkə) kimi" [116, s. 129] göstərir. L.Mullany "ictimai əlaqə anlayışını müəyyən informantların bir-biri ilə olan sosial əlaqələri üzərində yarandığını və bu əlaqələrin dil istifadəsinə təsir etdiyini" [122, s. 87] əsaslandırır. J. Holmes ictimai əlaqələri sosial

baxımdan fərdlərin sistemli olaraq yer aldıqları rəsmi olmayan əlaqələr kimi göstərir. L.Milroy Belfastda apardığı araşdırmada ictimai əlaqə anlayışını olduqca bəsit şəkildə, yəni fərdin digər fərdlərlə əlaqəsi nəticəsində ortaya çıxan əlaqələrin bütövlüyü kimi ifadə edir [126, s. 217].

M.Meyerhoff ictimai əlaqələri yoldaşların kim olduğu, hansı fərdlərlə yaxın bir yerdə yaşamağı, kimlərlə şam yeməyi və kimlərlə işləməyi ilə əlaqələndirir və bütün qruplarda yer alan fərdlərin eyni və fərqli cəhətlərini analiz edir [124, s. 184].

Dialektoloji tədqiqatlar üçün indi mövcud olan ictimai əlaqə analizləri, öncə – 1960-1970-ci illərdə antropoloji araşdırmalarda istifadə edilmişdir.

Sosiolinqvistikada ictimai şəbəkələrin sistematik şəkildə araşdırılmağa başlanması James və Lesley Milroyun Belfastda apardığı tədqiqata əsaslanır. "Onlar gözlənilən dil dəyişməsinin ictimai əlaqələr şəbəkəsi ilə bağlı olduğunu tapmış və Milroylar buna bağlı olaraq dəyişikliklərin bir cəmiyyətdə necə kök saldığını və yayıldığını anlaya bilmək üçün ictimai şəbəkələrin ən az sinif kimi makrososial kateqoriyalar qədər önəmli olduğunu ortaya qoymuşdular" [124, s. 185].

Bu barədə digər bir fikrə isə L.Blumfildin əsərlərində rast gəlirik. O yazır: "Biz inanırıq ki, bir dil kollektivi daxilindəki nitq sıxlığında olan fərqlər, təkcə şəxsi və fərdi fərqlər deyildir, kollektiv müxtəlif sistemli yarımqruplara bölünür və hər hansı bir yarımqrupda olan şəxs, qrupun xaricindəki kollektivlərə nisbətən öz yarımqrupunda olan kollektiv üzvləri ilə daha çox danışır. Şəbəkəyəoxşar oxların

sistemini nəzərdən keçirdikdə deyə bilərik ki, bu yarımqruplar şifahi ünsiyyətin bu şəbəkəsində zəiflik xətti ilə birbirindən ayrılır" [7, s. 53-54].

"İctimai əlaqələri **geniş** və **dar** çərçivədə olmaqla iki yerə ayırmaq mümkündür. Bir şəbəkə üzvlərinin bir-birini tanıdığı və ünsiyyətdə olduğu vəziyyətlərdə geniş əlaqələr yaranırsa, dar əlaqələrdə bütün şəbəkə üzvləri bir-birini tanımırlar" [124, s. 187]. "Geniş və dar ünsiyyət çərçivəsində olan əlaqələr eyni zamanda üzvlərin birsəviyyəli, çoxsəviyyəli bağlılıqlara aid olmaları baxımından da araşdırılmalıdır. Təksəviyyəli bağlılıq iki fərd arasındakı bağlılığın bir istiqamətə inkişaf etməsi şübhəsizdir. Bunu belə göstərmək olar: A fərdi ilə B fərdi iş vaxtından başqa səbəblə bir araya gəlmirsə, birsəviyyəli bağlılıqdır. Çoxsəviyyəli bağlılıq isə fərdlərin bir çox fərqli hallarda ortaya gəldiyi və bir-birini fərqli rollarda tanıdığı zaman meydana gəlir" [116, s. 194-195]. Buna bir dostunla eyni işdə işləməyi, qonşu olmağı, bir yerdə boş vaxt keçirməyi, hətta eyni universitetdə bir yerdə oxumağı misal göstərmək olar. Bir səviyyəli əlaqəni sxem şəklində aşağıdakı formalarda ifadə edə bilərik:



Sxem1: Dar birsəviyyəli əlaqə.



Sxem 2: Geniş birsəviyyəli əlaqə

Çoxsəviyyəli geniş şəbəkələr idarəçiləri tərəfindən müəyyən "qanun"larla idarə olunur. Onların bütün üzvlərinin bu qanunlara riayət etmələri məcburidir. Çoxsəviyyəli şəbəkələrin özünəməxsus adətləri, geyimləri, dini baxışları və ümumi davranış normaları, hətta dil ifadələri belə idarəçilər tərəfindən yayılır və qorunur. Nəticədə, demək olar ki, çoxsəviyyəli əlaqəli şəbəkələr kənar təsirlərə az məruz qalır. Bunun da səbəbi üzvlərin "xüsusi qanunlar"la idarə olunmasıdır. Amma təksəviyyəli əlaqələr hər cür təsirlərə məruz qala və tez dəyişə bilər.



Sxem 3. Çoxsəviyyəli şəbəkələrin sxemdə təsviri.

Sosial şəbəkə nəzəriyyəsi metodoloji olaraq sosial sinif modelinin aşağı səviyyəsi üzrə tədqiqatlarda xüsusi önəm daşıyır. İctimai əlaqələr və sosial sinif analizləri bir-birilə əlaqəsi olmayan modellər kimi deyil, əksinə, dil dəyişməsi və sosial quruluş arasındakı əlaqənin analizində sosial sinif və sosial əlaqə dəyişikləri bir-birinə inteqrasiya olunur.

6. Diqlossiya. Birdilli cəmiyyətlərdə mühüm maraq doğuran məsələlərdən biri diqlossiyadır. Bu termini ilk dəfə dilçiliyə Ç.Ferqüson gətirmişdir. O, diqlossiya terminini belə şərh edir: "Eyni bir dilin bəzi danışanlar tərəfindən müxtəlif şəraitlərdə istifadə etdiyi dilin iki və ya daha artıq müxtəlif şəkli, daha dəqiq desək, dilin həmin kollektivdə yanaşı yaşayan və hər biri müəyyən rol oynayan iki müxtəlif şəkli" [107, s. 116]. C.Fişman əsərlərində diqlossiya terminini bilinqvizm terminə qarşı qoyur: "Bilinqvizm fərdi qabiliyyət kimi, diqlossiya funksiyaların sosial bölünməsi kimi səciyyələndirilir, bilinqvizm fərdi-psixoloji fenomen kimi, diqlossiya sosioloji fenomen kimi təqdim edilir" [107, s. 116-117].

Cəmiyyətin savadlı təbəqəsinin nitqində "ədəbi dil – dialekt" diqlossiyası yerini standart dil (ədəbi dil) və slənq və ya ədəbi dilin müxtəlif formalarının qarşılıqlı əlaqədə olduğu diqlossiyaya verir. L.P.Krısin diqlossiyanın xüsusi formasının "kodlaşdırılmış ədəbi dil – danışıq ədəbi dili" formasının mövcud olmasına diqqəti cəlb edir [100, s. 11-29].

Diqlossiyanın aşağıdakı növləri vardır:

1. İki dialekti və ya onun iki hissəsini (yarımdialekt, şivə) bilən fərdin diqlossiyası. Bu növ diqlossiyada dialektlər funksional bölünmələrə məruz qalır.

2. Bir-birini başa düşməyən, dialekt cəmiyyətləri arasında kommunikasiyada qəbul edilən qədim dialektin ünsiyyət vasitəsi olduğu üst dialektli diqlossiya.

3. İnformantın şüurunda ərazi dialektinin və ədəbi dilin mövcud olduğu diqlossiya.

4. Adi məişət nitqi və ədəbi dilin birliyi ilə xarakterizə olunan diqlossiya.

5. Bir dil sisteminə aid olan müxtəlif yarımsistemlərin yığımı ilə xarakterizə olunan, çoxfunksiyalı ədəbi dil kimi diqlossiya [30, s. 189-194].

Diqlossiya haqqında fikirləri ümumiləşdirərək, belə qənaətə gəlmək olar ki, bu prosesdə psixoloji, sosioloji və dil faktorları birləşir. Qeyd olunan amillərin hamısı tədqiqatda yer alsa da, burada daha çox dilin sosial tərəfləri öyrənilməlidir.

1.3. Azərbaycan dilçiliyində dilin sosial diferensiallaşması məsələsinin öyrənilməsi

Dil və cəmiyyətin inkişafı onların arasında qarşılıqlı əlaqələrin müxtəlif formalar üzrə yaranmasına gətirib çıxarır. Bildiyimiz kimi, cəmiyyətdə baş verən proseslər dildə əks olunur və bu məlumatların ötürülməsi yenə də dil vasitəsi ilə baş verir. Cəmiyyətdə müxtəlif proseslər – sosial, iqtisadi, mədəni dəyişiliklər baş verir. Hər bir sahəyə aid insanların dilində (nitqində) bu dəyişiklikləri aydın görmək olur. "Cəmiyyət dilə hansı dərəcədə təsir göstərirsə, dil də ona uyğun formada dəyişir. Hər bir dilin ədəbi forması, onun istifadə normalarının sabitləşməsi məişət üslubunda

da normalaşmanın baş verməsinə, dialekt fərqlərinin silinməsinə gətirib çıxarır" [16, s. 7].

İndiyə qədər Azərbaycan dilçiliyində də dilin sosial diferensiallaşmasına aid geniş şəkildə xüsusi bir araşdırma olmasa da, bir çox tədqiqatçılar bu mövzuya müxtəlif səviyyələrdə toxunmuş və müəyyən mülahizələr irəli sürmüşlər. Həmin alimlərdən B.Çobanzadənin, Ə.Dəmirçizadənin, M.Ş.Şirəliyevin, S.Cəfərovun, M.Adilovun, A.Axundovun, Ə.Rəcəblinin, H.Əsgərovun, J.Qəribovanın, Ə.Əliyevin, F.Əlizadənin, C.Muradovun, A.Rüstəmovanın adlarını çəkə bilərik. Ümumiyyətlə, Azərbaycan dilçiliyində sosiolinqvistik tədqiqatlar indiyə kimi o qədər də populyarlıq qazanmamışdır. Bunun da nəticəsində dilimiz sosiolinqvistik tədqiqatlardan qismən kənarda qalmışdır.

Azərbaycan dilçiliyində dilin sosial diferensiallaşması ilə bağlı ilk fikirlərə B.Çobanzadənin "Türk dili" (1928) əsərində rast gəlirik. Alimin fikirləri demək olar ki, müasir dövrümüzlə səsləşir: "Hambal, qəssab, arabaçı kibi ufaq sənət sahibləri ilə dövlətlilərin, zənginlərin dilini, yaxud molla, axund ilə məktəblərdə oxuyan cavanların, tələbələrin və bunların müəllimlərin dilini, yaxud bütün bunlarla kəndli və işçinin danışıqlarını çarpışdırın, müqayisə edin! Görəcəksiniz ki, hər kəsin məşğul olduğu işə, cəmiyyət içərisində tutuduğu mövqeyə görə bir dili vardır. Bunun üçün qəti surətdə deyə bilərik ki, işçi-kəndlinin, molla-axundun, dövlətli və fəqirin dili bir deyildir, bunların dilləri arasında hər kəsin gözünə çarpa biləcək az-çox açıq fərqlər vardır. Burada diqqət ediləcək nöqtələrdən birisi də bu fərqlərin yalnız ayrı-ayrı şəxslərə mənsub olmayıb, bütün bir ölkəyə,

yaxud minlərcə şəxslərdən ibarət qruplar və təbəqələrə aid olmasıdır" [11, s. 12].

Ümumilikdə, dilçilərimiz bu problemi ya üslubi cəhətdən, ya da jarqon və arqo səviyyəsində öyrənməyə çalışır. Öncə jarqon və arqo səviyyəsində öyrənənlərin fikirlərinə müraciət edək. Bildiyimiz kimi, dilçilik ədəbiyyatında jarqon terminin müxtəlif definisiyaları var. Ə.Dəmirçizadə jarqonlar haqqında yazır: "Son zamanlar jarqon hakim zümrənin ifadə tərzi və ya danışığı mənasında işlənir. Bir qayda olaraq, belə zümrənin danışığı, yəni jarqonu "əcnəbi rəngli danışıq" və ya "əcnəbivari kəkələmə" olması ilə ümumxalq danışığından ayrılır. Vaxtilə rus aristokratiyası arasında olan fransızsayağı danışıq və kəkələmə, azərbaycanlıların saraya yaxın zümrəsi arasında ərəbi, farsi ibarəpərdazlıq məhz belə "ali zümrə" jarqonu sayıla bilər. Belə danışığı peşəkar zümrə arasındakı danışıqdan fərqləndirmək üçün, biz də şərti olaraq peşəkar zümrə arasındakı məxfi anlaşma vasitəsi kimi anlaşılan danışığı "arqo", "ali zümrə" arasında işlədilən əcnəbi rəngli danışığı, kəkələnməni isə "jarqon" adlandırmağı məqsədəuyğun bildik. Arqo sözləri məhdud zümrə arasında məxfi mənada işləndiyindən, jarqon sözləri, ifadələri, ibarələri isə əksərən bu və ya digər əcnəbi dildən alınma olduğundan xalq tərəfindən anlaşılmır" [12, s. 90]. M.Adilova görə, "Müəyyən məqsədlə öz fikirlərini geniş kütlədən gizlətmək üçün bəzi qrup adamların yaradıb işlətdikləri uydurma, süni dilə jarqon deyilir" [2, s. 229]. S.Cəfərov jarqon leksikası ilə bağlı yazır: "Bəzi peşə sahibləri və ya bir qrup adamlar, hətta bütöv bir kənd tərəfindən ancaq bir-birini başa düşmək, başqalarından gizli danışmaq üçün

ədəbi dildə işlədilən sözləri başqa mənada işlətmək hallarına, süni yaradılmış sözə rast gəlmək olur. Belə leksika, jarqon leksikası adlanır" [10, s. 76]. Maraqlıdır ki, hər iki dilçi jarqonları süni dil adlandırır. Fikrimizcə, jarqonları süni dil adlandırmaq olmaz. Ona görə ki jarqonlar yaradılarkən, əsasən, təbii dilin materiallarına müraciət edilir.

Jarqonların tədqiqinə həsr olunmuş əsərlərdə görürük ki, bəzən bu termin arqo terminin sinonimi kimi də işlədilir. Azərbaycan dilçiliyində jarqonların tədqiqatçısı Ə.Əliyev bu məsələyə belə münasibət bildirir: "Müxtəlif qruplar və siniflər, hətta tək-tək adamlar tərəfindən yaradılıb bu və ya digər ictimai qrupa xidmət edərək ictimai dil hadisəsi sayılan jarqonlar ayrı-ayrı dilçilər tərəfindən müxtəlif şəkildə qəbul edilmişdir və bunun izahı öz əksini eyni formada tapmamışdır. Hər şeydən əvvəl, bu vəziyyət jarqonun ümumiliyindən, onun çox geniş və müxtəlif söz kateqoriyalarını əhatə etməsindən, başqa-başqa ictimai qrup nümayəndələrinin dilinin leksik tərkibində çıxış etməsindən, çoxlu törəmə xüsusiyyətlərə malik olmasından və bir də ayrı-ayrı dilçilər tərəfindən xarakterinə görə müxtəlif şəkildə təsniflərdirilməsindən irəli gəlir. Bu sonuncu cəhətə, yəni xarakterinə görə jarqonların təsnifindəki müxtəliflik nəticəsində "jarqon" terminin mənası genişlənmiş və onun "arqo", "peşə dili", "loru dili", "gizli dil", "ictimai danışıq ", "ictimai dialekt", "şərti arqo", "süni dil", "qarğa dili" və s. kimi variantları yaranmışdır" [14, s. 6]. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, jarqon sözlər bütün dil üçün ümumi istifadədə olan sözlərdən təşkil olunsa da, bu sözlər müəyyən bir qrupun daxilində öz leksik mənasından kənar mənada istifadə

olunur. Jarqonlara müxtəlif adların qoyulması isə onun sərhədlərinin konkretləşməməsi ilə bağlıdır. Azərbaycan dilçiliyində jarqon və arqolar eyniləşdirilir. Bunu həm A.Axundovun, həm də A.Qurbanovun fikirlərində aydın görürük. M.Adilov isə bu məsələyə bir qədər fərqli yanaşır: "Müəyyən təbəqənin və ya ictimai zümrənin jarqonuna arqo deyilir. Jarqondan fərqli olaraq arqo hadisəsi mənfi hadisə hesab edilmir" [2, s. 229]. O, daha sonra qeyd edir ki, bu iki termin fərqləndirilmir, onlar eyni və ya yaxın mənada işlədilir. Əslində, M.Adilovun fikri ilə razılaşmaq düzgün olardı. Jarqonlar dildə müəyyən insan qrupları arasında işlədilən kobud ifadələrdir. Bunların vulqar sözlərdən fərqi odur ki, ifadələrdir. Arqolar isə bu insan qrupları arasında işlədilən mədəni ifadələrdir. Buna baxmayaraq, M.Adilov bölgüsündə jarqonları və arqoları yenə də fərqləndirmir. Azərbaycan dilinə məxsus jarqonları aşağıdakı kimi bölür: oğru və cani (xuliqan) jarqonu, qumarbaz jarqonu, korporativ jarqonu, təriqət jarqonu, kimyagərlik jarqonu, ziyalı jarqonu, ruhani jarqonu, falçılıq və cadugərlik jarqonu, bazar jarqonu, tələbə jarqonu [2, s. 229-244]. Göründüyü kimi, bu bölgüdə dildə "mənfi" və "müsbət" ifadələrə fərq qoyulmamışdır. A.Axundov isə arqoları mənfi sözlər adlandırır: "Arqo, əsasən, cəmiyyətin tüfeyli ünsürləri (oğrular, rüşvətxorlar və s.) tərəfindən yaradılır və işlədilir; daha doğrusu, o, süni dillər qrupuna daxildir. Lakin onu yalnız cinayətkarlar aləmi ilə məhdudlaşdırmaq olmaz. Məlum olduğu kimi, müxtəlif ali məktəb tələbələrinin, orta məktəb şagirdlərinin də bəziləri süni dillərdən – arqolardan istifadə edilir" [5, s. 102]. Bəzi dilçilər isə belə qənaətdədir ki, jarqonlar peşə-

sənətlə bağlı yaranan sözlərdir. Ə.Rəcəbli isə jarqonları heç də peşə sənətlə bağlı olan sözlər kimi izah etmir: "Jarqon insanların sıx birliyi zamanı yaranır. Jarqonun yaranması üçün peşə və sənət birliyi kifayət deyildir, insanların bir yerdə vaxt keçirmələri də lazımdır. Jarqonlar bir qədər peşə leksikasına bənzəyir, lakin peşə leksikası işgüzar mahiyyət daşıyır və ekspressivlikdən məhrumdur, halbuki jarqon ekspressivlik xatirinə yaradılır və söz oyununun nəticəsidir. Bundan başqa, peşə leksikası zərurətdən doğur və dilə, lüğət tərkibinə yenilik gətirir, halbuki jarqon dildəki hazır vahidlərin təkrarından başqa bir şey deyildir" [45, s. 386]. Dilçinin jarqonların peşə-sənət leksikası ilə bu cür fərqli cəhətləri olduğunu qəbul etmək olar, ancaq jarqonları yalnız dildə hazır sözlərin təkrarı kimi verməsi fikri ilə razılaşmaq olmaz. Jarqonlar süni sözlər vasitəsilə də yaradılır, məsələn: **manıs (kişi), lafki (qız)** və s. Ə.Rəcəbli arqolara münasibət bildirərkən yazır: "Arqo cəmiyyətin sinfi simasını itirmiş ünsürlərinin jarqonudur" [45, s. 386]. Dilçinin fikirlərindən belə qənaətə gəlmək olar ki, jarqonlar müsbət, arqolar isə mənfi mənalı sözlərdir. Göründüyü kimi, dilçiliyimizdə bu məsələyə münasibət müxtəlifdir. Dünya dilçiliyində artıq arqolara mənfi mənalı, jarqonlara müsbət mənalı sözlər kimi yanaşılır.

Dilin sosial diferensiallaşmasına fərqli yanaşmaların nəticəsi kimi meydana çıxan müxtəlif bölgülər vardır. Fərqli ictimai maraqların, müxtəlif psixologiyaların təsiri nəticəsində dilin strukturunda diferensiallaşma baş verir. Fəaliyyətdə olan dil müxtəlif parçalanmalara məruz qalır. Bəzi dilçilər dilin ictimai diferensiasiyasının ən azı yeddi sahəyə

malik olduğunu göstərirlər:

"1. Əraziyə görə diferensiasiya sahəsi – bütün dilçilərə yaxşı məlum olan məhəlli dialektlər, yəni xalqın dilinin ərazi variantları nəzərdə tutulur.

2. Nitq prosesinin maddi cəhətdən həyata keçirilməsinin növünə görə diferensiasiya sahəsi – ümumi dilin yaxşı məlum olan yazılı və şifahi "formaları" və ya variantları .

3. Nitq prosesinin strukturuna görə diferensiasiya sahəsi. Ümumi dilin bir-birindən bəzi başlıca olaraq funksional xüsusiyyətlərinə görə fərqlənən monoloji və dialoji variantları monoloji nitq prosesinin strukturu bütöv, dialojininki isə kəsiləndir.

4. İctimai kollektivin, yəni cəmiyyətin fəaliyyət tiplərinə görə diferensiasiya sahəsi – ümumi dilin üslub variantlarını, ya da necə deyərlər, funksional üslubları verir.

5. İnsanların ictimai qruplarına, onların ictimai təbəqələrinə görə diferensiasiya sahəsi – dilin ictimai – sinfi, silki, professional variantlarını, daha dəqiqi, onun funksional üslublarını ("variantların variantlarını") verir.

6. Ədəbi əsərlərin janrlarına görə diferensiasiya sahəsi – dilin janr variantlarını, onun funksional üslublarını verir.

7. Ədəbi əsərlərin müəlliflərinə görə diferensiasiya sahəsi – dilin şəxsli variantlarını, onun funksional üslublarını verir" [82, s. 345].

Azərbaycan dilçiliyində dilinin sosial diferensiallaşmasının istiqamətləri bu bölgüyə istinadən müəyyənləşdirilir. Həm A.Axundovun, həm də H.Əsgərovun əsərlərində rus dilçiliyinə əsaslanaraq, demək olar ki, eyni diferensiallaşma bölgüsü göstərilir. A.Axundov həm də jarqonları sinfi dia-

lektlərdən fərqləndirir. O yazır: "Dilin ictimai insan qruplarına görə bölünməsi bilavasitə cəmiyyətin sosial diferensiasiyası ilə bağlı olub, iki mühüm məsələni – sinfi dialektlər və arqolar (jarqonlar) məsələsini əhatə edir" [5, s. 97]. A.Axundov yuxarıdakı bölgüdə axırıncı bəndi əsas götürüb onları ictimai insan qruplarına və təbəqələrinə görə diferensiasiya sahəsinə ayırır. Bu da dil və cəmiyyət problemi üçün daha əhəmiyyətlidir.

Ümumiyyətlə, A.Axundov bu məsələni daha çox cəmiyyətin müxtəlif siniflərə bölünməsi ilə bağlayır. O qeyd edir ki, "Cəmiyyətin siniflərə bölünməsi onun həyatı ilə çox dərindən və hərtərəfli bağlı olan dilə öz təsirini göstərməyə bilməz" [5, s. 7]. Onun yanaşmasında daha bir fərq ondan ibarətdir ki, siniflər nə qədər dilə təsir etsə də, yeni bir dil yarada bilməz, bu, yalnız nitq səviyyəsində qalar. O, bu barədə yazır: "Ayrı-ayrı siniflərin dilə göstərdiyi təsirə gəldikdə isə nəzərə alınmalıdır ki, bu təsir heç də yeni bir dilin yaranmasına səbəb olmur, ümumxalq dilinin əsas əlamətləri qalmaqla, müəyyən nitq səviyyəsinin yaranması ilə nəticələnir. Həmin nitq səviyyələrinə, adətən, sinfi dialektlər deyilir. Sinfi dialektlər yerli dialektlərdən kəskin surətdə fərqlənir" [5, s. 102]. Dilçinin fikri ilə tam razılaşa bilərik, ümumiyyətlə, dilin sosial diferensiallaşması yeni dil yarada bilməz, yalnız dilin istifadəsi məqsədinə görə təbii proseslərlə müxtəlif dil səviyyələrində öz əlamətlərini göstərə bilər.

H.Əsgərov ümumxalq dilinin variantlarından bəhs edərkən bu variantların dilin strukturuna təsirinin müxtəlif variantlar üzrə fərqli olduğu qənaətindədir: "Ümumxalq dilinin variantları özlərinin struktur müstəqillikləri baxımın-

dan bir-birindən fərqlənir. Bəzi variantlar öz struktur xüsusiyyətlərinə görə fərqlənirsə, digərləri struktur baxımından fərqlənmir, fəaliyyət prosesində özündə fərqli xüsusiyyətlər kəsb edir. Məsələn, ümumxalq dilinin əraziyə görə diferensiallaşması hər şeydən əvvəl dilin strukturunu əhatə edir, yəni məhəlli dialektlər dilin struktur variantları kimi çıxış edir. Sosial kollektivin fəaliyyət tipinə görə diferensiallaşma zamanı diferensiallaşma dilin strukturunun özünə deyil, onun fəaliyyətinə (istifadəsinə) aid olur, yəni bir üslubla digər üslubun müqayisəsi zamanı dilin struktur elementlərinin fəallığının dəyişməsini müşahidə etmək olar" [16, s. 10]. Dilçinin fikri ilə razılaşmaq tam doğru olmazdı. Dilin əraziyə görə diferensiallaşması dilin strukturunda daha aydın hiss olunsa da, sosial diferensiallaşmanı yalnız bu predmetə görə məhdudlaşdırmaq olmaz. Dilin ideoloji diferensiallaşması və ya gender diferensiallaşmasının da dilin strukturunda fərqlər yaratdığı şübhəsizdir.

H.Əsgərov cəmiyyətin sosial strukturunun zəif əlaqələnməsini dilin sosial diferensiallaşması üçün əsas sayır: "Cəmiyyətin özünün sosial strukturu, onun sosial təbəqələrinin və qruplarının az və ya çox dərəcədə bir-birindən aralanması ümumxalq dilinə birbaşa təsir göstərir. Buradan da aydın olur ki, ümumxalq dilinin sosial diferensiasiyası cəmiyyətin mürəkkəb sosial quruluşunun dildəki təbii nəticəsi və real dil təzahürüdür" [17, s. 12]. O, dilin sosial diferensiasiyasını dilin müəyyən səviyyələri üzrə məhdudlaşdırır: "Dilin sosial diferensiasiyası, bir qayda olaraq, leksika, semantika, üslubiyyat və frazeologiya hesabına ümumxalq dilinin əsasında həyata keçir. Ona görə də dilin sosial diferen-

siasiyasının nəticəsi kimi meydana çıxan dialektlərin özünü ümumxalq dilinin variantı kimi qiymətləndirmək olar" [17, s. 12]. Düzdür, bu səviyyələr üzrə diferensiallaşma özünü qabarıq göstərsə də, digər səviyyələri də inkar edə bilmərik.

Ə.Rəcəblinin dilin sosial tərəfləri ilə bağlı araşdırmalarını dilçiliyimiz üçün sosiolinqvistika sahəsində ən mühüm addımlardan biri saymaq olar. Onun bu mövzuya həsr etdiyi "Sosiolinqvistika" əsərində, demək olar ki, dilin bütün sosioloji cəhətlərini əks etdirən həm tarixi, həm də müasir baxışlar öz əksini tapmışdır. Burada müəllif sosiolinqvistikanın nəzəriyyəsini, əsas sahələrini, dilin və nitqin sosioloji aspektlərini, dilin və cəmiyyətin strukturu məsələlərini, dil variasiyası problemini, kod dəyişmələri, sosiolinqvistik təhlilin prinsip və metodlarını və dilin sosial funksional, sosial peşə diferensiallaşması kimi məsələlərini tədqiqata cəlb etmiş, bu barədə öz mülahizələrini irəli sürmüşdür. Ə.Rəcəblinin dilin diferensiallaşması ilə bağlı fikirlərindən aydın olur ki, o, dili sosial, funksional və sosial-peşə diferensiyalarına bölür. Dilçi bildirir ki, "Dilin sosial, funksional və sosial-peşə diferensiallaşmasının əsasında cəmiyyətin, həmin dildə danışan adamların sosial, funksional və sosial-peşə diferensiallaşması ilə şərtlənən ictimai faktorlar durur. Bu üç tip diferensiallaşma arasında müəyyən bir ümumilik vardır. Onların hər üçü çarpazlaşan törəmə sosial münasibətlərin yaranması prosesində meydana çıxır. Uyğun olaraq, dilin sosial, funksional və sosial-peşə diferensiallaşması da çarpazlaşır" [46, s. 366]. Ə.Rəcəbli dilin sosial diferensiallaşmasına ümumi şəkildə sosial, sinfi dialektlərin, jarqonların dilini aid edir. Daha sonra müəllif dilin sosial diferensiallaş-

masını aşağıdakı şəkildə qruplaşdırır: dilin sosial-ərazi diferensiallaşması, dilin ideoloji diferensiallaşması, dilin sosial-peşə diferensiallaşması, dilin funksional diferensiallaşması [46]. Göründüyü kimi, dilçi bu bölgünü aparmaqla dilin sosial cəhətlərinə daha geniş şəkildə yanaşır. Düzdür, bu bölgüdə dilin bütün sosial variantları əhatə olunmasa da, istiqamət kimi baza rolunu oyanır. Ə.Rəcəbli dilin sosial diferensiallaşmasının yaranma səbəblərini, həmçinin hər bir dil variantının bəzi xüsusiyyətləri göstərmişdir. Dilçi dilin sosial variantlarının dil səviyyələri üzrə təsiri haqqında da müəyyən qeydlər etmişdir. O yazır: "Dilin sosial variantları özünəməxsus leksik sistemə malikdir; çox vaxt sosial variantların leksikası milli dilin leksikasından fərqlənir, bəzən isə sözlərin semantikası dəyişdirilir. Dilin sosial variantlarının funksiyası da məhduddur; onlar dar bir ictimai təbəqəyə xidmət edir" [45, s. 383]. Belə qənaətə gəlmək olar ki, müəllif dilin sosial variantlarına daha çox peşə-sənət baxımından yanaşır və ona görə də dilin sosial variantlarını dar ictimai təbəqəyə aid edir. Əgər dildə yaş, gender, ideoloji və s. variantların olduğunu qəbul ediriksə, demək ki, dilin sosial variantlarının əhatə dairəsi kifayət qədər genişdir. Deyə bilərik ki, alimin dilin sosial diferensiallaşmasına aid müəyyən bölgü aparması, dildə sosial variantların bəzi xüsusiyyətlərini göstərməsi dilçiliyimiz üçün ilkdir.

Ə.Rəcəblinin qoyduğu prinsiplər əsasında müasir dövr dilçiliyimizdə dilin sosial diferensiallaşmasının bəzi istiqamətləri üzrə müəyyən tədqiqatlar aparılır. Bu barədə dildə gender fərqləri ilə bağlı F.Əlizadənin [15], C.Muradovun [40] fikirləri də önəmli rola malikdir. F.Əlizadə dildə

gender fərqlərini daha çox milli, psixoloji xüsusiyyətlərlə bağlayır. C.Muradov isə dildə gender və yaş fərqlərinə ümumi dünya dilçiliyində qəbul olunmuş müəyyən qaydalar çərçivəsində yanaşır.

Dünya dilçiləri müxtəlif sosial qruplara məxsus insanların "dillər"inin bir-birindən fərqli olduğunu qəbul etmiş və tədqiqatlarını bu istiqamətdə aparmışlar. Onlar bunu yaşla, dini düşüncə tərzi ilə, peşə-sənətlə, ideoloji fikirlərlə, cinsə görə demoqrafik prinsiplərlə bağlı olduğunu göstərirlər. Azərbaycan dilçiliyində isə bu məsələyə demək olar ki, jarqon və arqo şəklində yanaşılmış və bu səviyyədə də tədqiqatlar aparılmışdır. Yalnız A.Axundov "Ümumi dilçilik" və Ə.Rəcəbli "Nəzəri dilçilik", "Sosiolinqvistika" əsərlərində mövzu ilə bağlı müasir dünya dilçiliyində qəbul olunan yanaşma tərzini əsas götürüblər. Müasir tədqiqatçılarımız da məhz bu yolu seçiblər [20, s. 24-29].

Göründüyü kimi, dilin sosial tərəfləri ilə bağlı aparılan tədqiqatlar müasir dünya dilçiliyində ən aktual mövzulardan biridir. Bu problemin qoyuluşunda müxtəlif dilçilik məktəblərinin fikirlərini nə qədər ümumiləşdirsək də, mövzunun əhatə dairəsinin genişliyi, o cümlədən dilin sosial tərəflərinin cəmiyyətlə birbaşa əlaqəli olması, deyilən fikirlərin tam əhatəsini göstərmir.

II FƏSİL

DİLİN SOSİAL DİFERENSİALLAŞMASININ SƏBƏBLƏRİ, STRUKTUR TƏZAHÜRLƏRİ VƏ ARAŞDIRILMA METODLARI

Dilin sosial diferensiallaşmasına təsir edən bir neçə amil vardır ki, onlardan bəzilərinin, xüsusən mədəniyyətin, iqtisadiyyatın, internetin təsirini xüsusi qabartmaq mümkündür. Bu cəhətdən dilin sosial diferensiallaşması problemi ümumilikdə cəmiyyətin müxtəlif sosial tərəfləri ilə bağlıdır. Dil və cəmiyyətin qarşılıqlı əlaqəsi və bu əlaqələrə dilin cəmiyyətin və hər hansı sosial qrupun istifadə imkanlarına uyğunlaşması sosiolinqvistik baxımından aktual problemlərdən biridir. Bu məsələnin öyrənilməsi də müxtəlif metodlar tələb edir. Ümumilikdə, sosiolektlərin öyrənilməsi xüsusi sosiolinqvistik metodlarla mümkündür.

2.1. Dilin sosial diferensiallaşmasında sosial mühitin rolu

Bəşəriyyət üçün ən böyük ehtiyaclardan biri olan dil insanların bir yerdə yaşaması üçün əsas ünsiyyət vasitəsidir və millətin formalaşmasında önəmli rollardan birini oynayır. Dil elə bir canlı orqanizmdir ki, cəmiyyətdə baş verən sosial, iqtisadi, mədəni dəyişikliklər onun vasitəsi ilə dərk edilir və o, cəmiyyətdə baş verən hadisələrin formal xüsusiyyətlərini özündə daşıyır. Dil haqqında dünya dilçiliyində müxtəlif formalarda araşdırmalar aparılmış və hər yanaşma

dil haqqında yeni bir fikir gətirmişdir, amma dil canlı orqanizm xüsusiyyətinə malik olduğundan onda baş verən prosesləri tam öyrənmək mümkün deyil. Dil haqqında bəzi fikirlərə nəzər yetirək: "Hər dil istifadə olunduğu cəmiyyətin izini daşıyır, hər cəmiyyət də istifadə etdiyi dilin çərçivəsinə girir" [73, s. 114]. "Dil insanlar arasında anlaşmağı təmin edən təbii bir vasitə, öz qanunları içərisində yaşayan və inkişaf edən canlı varlıq, milləti birləşdirən və onun ortaq malı olan sosial müəssisə, səslərlə örtülmüş böyük bir quruluşa malik, təməli bilinməyən zamanlarda qoyulmuş gizli bir anlaşmalar və sözləşmələr sistemidir" [59, s. 7]. Dil haqqında deyilən ən mükəmməl fikirlərdən birinin müəllifi olan V. fon Humboldt dili xalqın ruhu hesab edir. Həqiqətən də, dil xalq ilə yaşayır, onun ən incə psixoloji tərəflərini, ruhunu özündə qoruyur. Xalq nə qədər çox inkişaf edibsə, dil də o qədər çox inkişaf edəcəkdir. Dil cəmiyyətə xidmət etdiyindən onun sosial varlıq olduğunu qəbul etməliyik. İnsanlar arasında sosial əlaqələr cəmiyyət yarandığı dövrdən yaranmağa başlamış və insanlar bunu daim inkişaf etdirməyə çalışmışlar, çünki bu əlaqəyə həmişə ehtiyac olmuşdur.

Dünya dilçiliyində dilin sosioloji cəhətdən öyrənilməsi XX əsrdən başlanmışdır və bu dilçilik müasir dövrün aktual istiqamətlərindəndir.

Bildiyimiz kimi, sosiolinqvistikada dil və cəmiyyətin əlaqələri araşdırılır. "Sosiolinqvistikanın önəmi dilin təbiətini və bəzi özəl dillərin xüsusiyyətlərini aşkar etməkdir" [117, s. 4]. İnsanların dildən fərqli formalarda istifadə etməsi ilə bağlı da dilçilikdə müxtəlif bölgülər vardır. Bu variantlar, əsasən, aşağıdakı dörd istiqamət üzrə geniş yayılmışdır*:*

1. standart variant;
2. regional variant;
3. sosial variant;
4. funksional variant.

Standart variant – ədəbi dildir və onun müəyyən edilmiş qayda-qanunları vardır. Bu dili fərdlər ilk olaraq bölgədən asılı olmayaraq məktəbdə öyrənirlər və daha çox rəsmi yerlərdə istifadə olunur.

Regional variant – müəyyən bölgə əhalisinin istifadə etdiyi dil variantıdır. Bir dialektin ədəbi dilə yaxınlaşması orada yaşayan əhalinin mədəni, siyasi, təhsil səviyyəsindən asılıdır.

Sosial variant – müəyyən bir sosial qrupun dilidir. Buna qrup dili də deyirlər. Cəmiyyət içində fərdin hər hansı sosial sinifdə, qrupda yer alması zamanı istifadə etdiyi dil variantıdır. Bu dil variantını sosiolekt (sociolecte, sociolect) termini ilə də adlandırırlar. H.Glinz sosiolekti bir qrupun bütün dil varlığı, bir qrupun dili adlandırır [55, s. 87]. O.Reicmann isə sosial qruplara aşağıdakıları – "Sosial təbəqələri, təhsillilər və təhsilsizləri, dini məzhəb görüşü müxtəlif olanları, cinsləri, yaş qrupları, ailə, qohum və tanışları, əqidə və siyasi qrupları (buraya hər hansı siyasi partiya ilə bağlılığı göstərmək olar) daxil edir" [54, s. 87]. Sosial dil variantına arqolar, jarqonlar da bəzən aid edilir.

Funksional variant – daha çox şəraitlə bağlı istifadə olunan dildir. Bir insanın fərqli yerlərdə müəyyən ifadə və ya cümlədən istifadəsi formasıdır. Funksional variantda fərd dili məqsədyönlü şəkildə müəyyən bir forma üzrə istifadə edir və dilin funksional üslubları burada öz tətbiqini tapır.

İnsan sosial varlıq olduğu üçün, təbii ki, cəmiyyətdə də müəyyən sosial qrupların daxilində olur. Sosial qrupların dilləri (sosiolektlər) son dövrlər dünyanın müxtəlif dilçilərinin də diqqəti cəlb etmişdir. Sosiolinqvist R.Vardaut fərqli sosial siniflərə məxsus insanların dillərinə **sosial dialekt** adını vermiş və fikrini belə izah etmişdir: "Sosial dialektlərin yaranması insanın həyat tərzi, təhsili, gəliri, etnik kökü, mədəniyyəti, sinifi, dini və s. kimi səbəblərlə bağlıdır" [136, s. 46].

Cəmiyyət inkişaf etdikcə dilə olan ehtiyac da fərqli şəkildə ortaya çıxır, çünki hər bir insan dilin bütün sözlərinə deyil, yalnız onun mənsub olduğu sosial qrupun işlətdiyi sözlərə daha çox müraciət edir. Bir məsələni də unutmamalıyıq ki, dil xalqın bütövlüyünü qoruyur. Bu barədə fransız alimi E.Benvenistin fikirləri diqqəti çəkir: *"*Cəmiyyətdə ehtiyaclar çoxaldıqca, sözlərin başa düşülməsində sürətli artan fərqlər yaransa da, bunun qarşısını alan bir güc lazımdır. Sosial qrupların təsiri nəticəsində cəmiyyətdə ayrılma prosesi sürətlə gedir və bunun qarşısını alan yeganə güc dildir. Dil dəyişən bir cəmiyyətin içində fərqli istifadə olunsa da, onları bir-birilə bağlayan da, sosial qrupları ayırmayan da məhz dildir" [55, s. 54]. Cəmiyyətdə müxtəlif sosial qruplara daxil olub sosiallaşması üçün insan müəyyən yaşa çatmalıdır. Sosiolinqvistlər bunu qəbul etsələr də, dildə sosial diferensiallaşmanın səbəblərini insanın ilkin yaşadığı sosial-təbii mühitdən başladığını bildirirlər. Bunu isə ilk növbədə ailə mühiti ilə bağlaya bilərik. Ailənin sosial vəziyyəti, dini və milli dəyərlərə bağlılığı, iqtisadi durumu və s. məsələlər həmin mühitdə tərbiyə almış uşağın bütün xüsusiyyətləri-

nə, o cümlədən onun dilinə təsirsiz ötüşmür. Dildə sosial diferensiallaşma insanın uşaqlıq dövründən başlayır. Bir çox dilçilərin bu barədə apardığı araşdırmalar bunu təsdiq edir. Türkiyə dilçisi S.Sever belə bir fikir ifadə edir: "Ana dili uşaq üçün əhatə olunduğu mühitlə əlaqə yaradır. Uşaq əhatə olunduğu cəmiyyətin ortaya qoyduğu və inkişaf etdirdiyi mədəniyyəti ana dili ilə qəbul edir, dili inkişaf etdikcə düşüncəsi də inkişaf edir" [70, s. 3]. Tədqiqatçının məsələyə yanaşmasından aydın olur ki, dil sosiallaşma prosesində əsas rollardan birini oynayır. Digər türk alimi Y.Tahsinə görə: "Uşağın sosiallaşması doğulduğu ailədən başlayır. Buna "primer sosiallaşma" deyilir. Uşaq sonrakı həyatının təməl davranışlarını ailəsində öyrənir. Ancaq valideynlərin uşağına öyrətdiyi dəyərlər və uşağın öyrənmək məcburiyyətində qaldığı dəyərlər ailəyə hazır şəkildə verilmir. Bu dəyərlər valideynlərin öncə qazandığı hazır dəyərlərdir. Hər ailənin davranış qaydaları fərqli olduğu üçün, az və ya çox dərəcədə ailələr arasında fərqlər də yaranır" [75, s. 23]. Belə qənaətə gəlmək olar ki, hər ailənin özünəməxsus xüsusiyyətləri – həyat tərzi, mədəni səviyyəsi mövcuddur. Təbii ki, bütün bunlar həmin ailədə böyüyən uşağın həyatına hər cəhətdən təsir edir. Uşağın sosiallaşması dövründə olan bu proseslər onun dilinə də təsirsiz ötüşmür. İnsanın sosiallaşması dövründə dilinə təsir edən əsas faktorlar aşağıdakılardır:

1. sosial-iqtisadi faktorlar (sosioekonomik);
2. sosial-mədəni faktorlar (sosiokulturoloji);
3. sosial-ekoloji faktorlar (sosioekoloji).

1. Sosial-iqtisadi faktorların dilə təsiri. Hər bir ailə-

nin həyat səviyyəsi orada böyüyən uşaqların sosial-psixoloji durumuna birbaşa təsir göstərir. Bundan başqa uşağın ətrafındakı mühit də onun dilində mühüm izlər qoyur. İnsanın əhatə dairəsi üç hissədən ibarətdir: ailəsi, qohumları və dostları; təhsil aldığı yer; özündə daha geniş xüsusiyyətlər daşıyan xalq, millət, mədəniyyət çevrəsi. Ətrafda formalaşan mühit və uşağın bu mühitdə böyüməsi onun sosiallaşma prosesinə təsir edir. Bu barədə T.Buzan və Hermanın görüşləri diqqət çəkir. Hermanın fikrincə, "İnsanın formalaşmasına 30% genetik xüsusiyyətlər təsir edirsə, 70%-ni ətrafı – ailəsi, təhsili, dini, mədəni görüşü, dostlarından öyrəndikləri və s. təsir edir" [109, s. 18]. Sosial mühit zehnin inkişafını və sosial əlaqələrin qurulmasını təmin edir. Bu mühit uşağın dilini daha çox inkişaf etdirə bilər və ya əksinə, inkişafa mane ola bilər. Cəmiyyət içində dildən fərqli istifadə edənlərin olmasında sosial-iqtisadi durum əhəmiyyətli rol oynayır. Dilçilərin fikrincə, sosial-iqtisadi təsirlər uşağın dilinə 18 aydan sonra təsir etməyə başlayır. Belə ki, ailənin aylıq gəliri uşaqların geyimini və digər xərcləri qarşılayır. Ailələrin fərqli gəlirli olması uşaqların sosiallaşması dönəmində onların dünyagörüşünə müxtəlif təsirlər göstərir. Uşaqlar bu fərqi məktəbə gedərkən digər uşaqlarla ünsiyyəti prosesində daha aydın hiss edirlər. Nisbətən yaxşı sosial mühitdə böyüyən uşaqlar zəngin söz bazasına, cümlələrini düzgün qurma bacarığına malik olurlar. Dil baxımdan fərqlər, ilk növbədə onların lüğət tərkibində aydın hiss olunur. Sosial-iqtisadi baxımdan aşağı təbəqəyə aid insanlarla orta və yuxarı təbəqəyə mənsub insanların nitqi arasında həm şifahi, həm də yazılı formada fərqlər mövcud-

dur. Bunun səbəblərindən biri kimi evdə, yaxud sosial mühitdə ev əşyalarının – radio, televizor, telefon, məişət cihazlarının texnoloji cəhətdən köhnə modellərə aid olmağını göstərmək olar. Belə ailələrdə ünsiyyət qısa cümlələrlə qurulur, daha çox uşaqlara münasibətdə "olmaz", "etmə", "dəymə" kimi əmr bildirən ifadələr, müxtəlif jest və mimikalardan istifadə olunur. Bu kimi ailələrdə uşaqla çox ünsiyyət qurulmur, fikirlərinə qulaq asmırlar. Bu cür davranış təbii ki, uşağın düzgün ünsiyyət qurmasına mane olur, onun dilini düzgün inkişafdan məhrum edir. Sosial-iqtisadi vəziyyəti yaxşı olan ailələrdə ədəbi dil hakim olur və onların istifadə etdiyi dil variantı lüğət tərkibinin zənginliyi ilə seçilir. Uşaqların danışdıqlarına qulaq asırlar, onların fikirlərinə hörmətlə yanaşırlar. Dil bazasının zəngin olmasına səbəb isə müasir texnologiyalardan, jurnal və qəzetlərdən istifadə imkanlarının çoxluğudur. Müşahidələr də göstərir ki, sosial təminatı yüksək olan ailələrdən olan uşaqlar bahalı geyim brendlərinin, maşınların, müasir texnoloji cihazların, məşhur insanların adlarını daha çox istifadə edirlər. Aşağı təbəqəyə aid olan ailələrdən olan uşaqlar isə bu tip adları ya az bilirlər, ya da ümumiyyətlə, məlumatlı deyillər.

2. Sosial-mədəni faktorlar. Mədəniyyətin dilə təsiri məsələsi son dövrlər sosiolinqvistlərin diqqətini çox cəlb etmişdir. Millətin milli, dini dəyərləri, əxlaqi keyfiyyətləri, o cümlədən texnikada, təhsildə inkişafın yüksək olması onun dilinə də təsir göstərir. Dünyada çoxlu xalqlar vardır və hər xalqı da tanıdan fərqləndirici əlamətlərdən biri dilinin lüğət tərkibindəki sözlərdir, məsələn: ərəb, fars dillərində dini sözlərə, italyan, yunan dillərində mədəniyyət və incəsənətə

aid leksika daha aktiv istifadə olunur. Bu modeli ailəyə də tətbiq etsək, onları (ailələri) müəyyən xüsusiyyətlərə görə qruplaşdıra bilərik. Təhsilli ailədə incəsənətə, mədəniyyətə aid sözlər, dindar ailələrdə dini məzmun daşıyan sözlər aktiv istifadə olunur. Ailə tiplərini də müxtəlif qruplara ayırmaq olar. Mədəniyyətin dilə təsiri ilə bağlı məsələlərə daha geniş bu yarımfəslin digər bəndində geniş toxunacağıq.

3. **Sosial-ekoloji faktorlar**. İnsanın yaşadığı coğrafi ərazi də onun sosiallaşmasına mühüm təsir göstərən faktorlardan biridir. Uşağın ailəsinin məskunlaşdığı bölgə, ərazisinin böyüklüyü ya da kiçikliyi, şəhərlə mərkəzi ilə əlaqələri və s. sosiallaşmada mühüm rol oynayır. İnsan şəhərdə, kənddə, dağda, dənizə yaxın yerdə yaşayırsa, hər bir mühit üçün fərqli dil xüsusiyyətləri yaranır. Bildiyimiz kimi, şəhərlə kəndin sosial mühiti fərqlidir, lakin onu da qeyd etmək lazımdır ki, şəhərlə kənd arasında əlaqə nə qədər sıxdırsa, dildə də bir o qədər diferensiallaşma azalır.

Yuxarıda saydığımız faktorların dilə təsirini ilk dəfə zəka testlərindən istifadə etməklə müəyyənləşdirmək mümkün olunmuşdur. İngilis tədqiqatçısı Ells 9-10 və 13-14 yaşlı 5000 uşaq arasında belə bir zəka testindən istifadə etməklə sorğu aparmışdır. O, cəmi 10 zəka testindən istifadə etməklə maraqlı nəticələr əldə etmişdir. Məsələn, mədəniyyət baxımdan geridə qalan uşaqlar sözlərin istifadə yeri və mənasına görə aşağı nəticə göstərmişlər. Aşağı təbəqənin uşaqları orta təbəqənin uşqalarına nisbətən şifahi suallara zəif cavab verə bilmişlər, amma yazılı suallara təqribən eyni səviyyədə cavab vermişlər. Bundan çıxan nəticəyə əsasən deyə bilərik ki, şifahi dildən istifadə söz bazasının zən-

ginliyini ortaya çıxarır, deməli, dillə ictimai təbəqələr arasında əlaqə mövcuddur. T.Neuhaus da mövzu ilə bağlı maraqlı bir sosiolinqvistik sorğu aparmışdır. Aparılan sorğuda məqsəd şəhər və kənd uşaqlarının dili arasında fərqi müəyyənləşdirmək olmuşdur. T.Neuhaus bu məqsədlə 146 sifəti 10 kateqoriyaya bölərək şəhərdə və kənddə böyüyən uşaqların sifətləri hansı formalarda ayırd etmələrini müəyyən etmək istəmişdir. Həmin sifətləri aşağıdakı kateqoriyalara ayırmışdır:

"1. Rəng bildirən sifətlər: ağ, qara, sarı və s.

2. Obyektlə bağlı sifətlər: ağır, yüngül və s.

3. Görkəm bildirən sifətlər: uzun, qısa, yaraşıqlı və s.

4. Məkan bildirən sifətlər (zərflər): ön, yuxarı, aşağı və s.

5. Zaman bildirən sifətlər (zərflər): yeni, köhnə və s.

6. Bacarıq bildirən sifətlər: çalışqan, yardımsevər və s.

7. Əhval ifadə edən sifətlər: pis, yaxşı və s.

8. Əxlaqi keyfiyyət bildirən sifətlər: dürüst, sadiq, igid və s.

9. Estetik duyğu ifadə edən sifətlər: gözəl, çirkin və s.

10. Vəziyyət, hal ifadə edən sifətlər: üzüntülü, qızğın və s." [75, s. 30-31].

T.Neuhaus araşdırmalarından belə bir nəticəyə gəlmişdir ki, 1 və 5-ci kateqoriyalara aid olan sifətləri bütün uşaqlar rahat şəkildə başa düşür. 6 və 10-cu kateqoriyalara aid olan sifətləri isə şəhər və kənd uşaqları arasında başa düşmək baxımdan müəyyən fərqlər ortaya çıxır. Bu kateqoriyalara aid sifətlərə nəzər yetirdikdə görünür ki, həmin sifətləri anlamaq üçün sosiallaşma prosesi bir az dərin getməlidir. Şəhər uşaqları həmin sifətləri ona görə rahat anla-

yır ki, şəhər mühitində ictimai əlaqələr çox genişdir, inkişaf prosesi isə fərqlidir. Lakin müasir dövrdə texnologiyaların sürətli inkişafı o qədər güclüdür ki, şəhər və kənd arasında dil baxımdan fərqlər xeyli azalmışdır.

Aparılan tədqiqatların nəticəsindən görünür ki, dilin sosial təbəqələr üzrə diferensiallaşmasının uşaqların dilinə təsir göstərməsində valideynlərin peşəsi və çalışdıqları sahələr də əsas rol oynayır. Belə düşünə bilərik ki, aşağı təbəqəyə aid olan ailələr, əsasən, bir sahə üzrə çalışır, lakin orta və yuxarı təbəqəyə aid olan ailələr bir neçə sahədə işləyir, maraq obyektlərinə çoxlu sahələr qatmaq imkanına malik olurlar. Beləliklə, orta və yüksək təbəqəyə mənsub olan ailələrin uşaqları geniş dünyagörüşə malik olduğundan onların dildən istifadə imkanları da böyüyür.

Belə bir fikrə gəlmək olar ki, təbii sosial mühitlərin dilə təsir imkanları böyükdür. Sosial-iqtisadi, sosial-mədəni və sosial-təbiət faktorları cəmiyyətdə fərdin dilinə kiçik yaşlardan təsir göstərir və nəticədə müxtəlif sosial birliklərə məxsus olan insanların dilində dil fərqli formalarda təzahür edir [24, s. 46-49].

Mədəniyyətin dilə təsiri. Mədəniyyət xalqın, millətin əsas göstəricilərindəndir. Millətin keçdiyi inkişaf yolu hər bir dövr üzrə mədəniyyətdə həm maddi, həm də mənəvi izlər qoyur. Mədəniyyətin daha bir fərqli xüsusiyyəti isə hər bir xalqda özünəməxsusluğu ilə seçilməsidir. F.Boas hesab edirdi ki, mədəniyyətlər diffuziya proseslərinin nəticəsidir. Onun fikrincə, "Bir mədəniyyətə aid xüsusiyyətlər digər mədəniyyətlərdən gətirilmişdir, eyni zamanda hər bir mədəniyyət müstəqil, yalnız ona məxsus xüsusiyyətlərə malik-

dir" [105, s. 114]. Bildiyimiz kimi, tarix boyunca müxtəlif mədəni sivilizasiyalar olub. Bu sivilizasiyalar həm dünya mədəniyyəti tarixində, həm də ayrı-ayrı xalqların həyatında mühüm rola malik olmuşdur.

Mədəniyyət haqqında mövcud olan müxtəlif konsepsiyalara nəzər yetirdikdə mədəniyyət anlayışının sosial, fəlsəfi mahiyyətini anlamaq mümkündür. Deskriptiv konsepsiyaya əsasən mədəniyyət ayrı-ayrı komponentlərin bütövlüyüdür, vəhdətidir. Onun müdafiəçilərindən olan E.Taylor mədəniyyətə belə tərif verir: "Mədəniyyət və ya sivilizasiya geniş etnoqrafik mənada mürəkkəb bütövü təşkil edən, cəmiyyətin üzvü olan insana məxsus idrak, etiqad, incəsənət, əxlaq, hüquq, ənənə və digər adət və qabiliyyətləri birləşdirir" [95, s. 139]. Mədəniyyətə bir bütöv kimi yanaşmaq, onun milli xüsusiyyətlərini dərin araşdırmaqla xalqın təfəkkür tərzini daha real əks etdirmək mümkündür. Bəşəriyyətin ümumi inkişaf göstəricisi kimi mədəniyyət əsas götürülür. Mədəniyyət həm də hər bir xalqın simvoludur. L.Uayt mədəniyyəti belə müəyyən edir: "Mədəniyyət hadisələrin təşkili, aktivliyin növ və normaları, əşyalar (alətlərin köməyi ilə düzəldilmiş əşya və vasitələr), ideyalar (inanc, bilik) və hisslərin (istiqamət, münasibət, dəyərlər) simvolik formada ifadəsidir" [95, s. 140]. Göründüyü kimi, mədəniyyətin simvolik konsepsiyası deskriptiv konsepsiyadan tamamilə fərqlənir. Burada mədəni dəyərlərin xalqın təfəkkür tərzində ifadə olunması bir daha önə çəkilir.

Hər bir xalqın özünəməxsus inancları, dəyərləri, ideyaları, adətləri, bir aksiom kimi, mənəvi mədəniyyətin özünəxas xüsusiyyətləri kimi qəbul edilmiş və bu xüsusiy-

yətlərə maddi mədəniyyətləri də əlavə etsək, bütöv bir xalqı mühüm bir informasiyanın daşıcıyısı kimi qəbul etməliyik. Q.Çik bu xüsusiyyətləri belə sistemləşdirir: "Mədəniyyət ideyalar kimi, mədəniyyət ideyalar və davranışlar kimi, mədəniyyət ideyalar, davranışlar və maddi artefaktlar kimi, mədəniyyət informasiya kimi" [105, s. 113].

Dil və mədəniyyət bir-biri ilə sıx bağlıdır. Araşdırmalar göstərir ki, bunlar həmişə bir-birini şərtləndirir. "Mədəniyyətin tarixi inkişafının ayrı-ayrı mərhələlərində insanın təfəkkür və ünsiyyət fəaliyyətinin ehtiyaclarına uyğunlaşdıqca dil də inkişaf edir, zənginləşir, dolğunlaşır, insan fəaliyyətinin bütün əsrarəngizliyini və əlaqəsini, tarixən qazanılmış mədəniyyətin anlamlar xəzinəsi, insan mənəviyyatının sonsuz zənginliyini əks etdirmək ehtiyacı ədəbi dili, onun funksional üslublarını, ifadə imkan və vasitələrini daim təkamülə, inkişafa məcbur edir" [13, s. 106]. Dilin kommunikativliyi, o cümlədən xalqın yaddaşında maddi cild kimi önəm daşıması mədəniyyətin izlərinin qoruyucusu kimi mühüm rol oynayır. Bu cəhətdən mədəniyyət dilə də öz təsirini göstərir.

Səpir-Uorf nəzəriyyəsinə əsasən dilin quruluşu mədəniyyəti, insanların dünyagörüşünü formalaşdıran vasitədir. Dünya gerçəkliklərinin bəşəriyyətin şüurunda öz əksini tapması üçün dil əsas rol oynayır. Dilin quruluşu, onun lüğət tərkibi, sanki, mədəniyyətin şüurumuzdakı maddi ifadəsidir. "Dil insanla ona təsir edən təbiətin arasındadır. Belə ki, insanın qavrayış və fəaliyyəti onun dil vasitəsilə ətraf mühit haqqında təsəvvürlərindən ibarətdir" [88, s. 5]. Dilçilik tarixində əksər cərəyanlar və məktəblərdə dil, mədəniy-

yət, cəmiyyət əlaqələrinə münasibətlər olmuş, dilin daxili strukturunda baş verən hadisələrin cəmiyyətdə baş verən hadisələrlə əlaqəli olduğu göstərilmiş və burada həm ekstralinqvistik, həm də introlinqvistik faktorların iştirak etdiyi sübut olunmuşdur.

Dil və mədəniyyətin əlaqələri tarixi cəhətdən araşdırıldıqda bu əlaqələrin hansı vasitələrlə mövcud olduğu daha da aydınlaşır. Etnotəfəkkürün formalaşması xalqın tarixi ilə bağlı məsələdir. V.fon Humboldt düşünürdü ki, dil ənənə şəklində davam edir, ona görə də başlanğıc formasını müəyyən etmək mümkün deyil: "Dillər arasında fərq adi işarəvi fərq deyil, bu, daha böyük mahiyyət daşıyır. Söz və söz formaları məfhumları ifadə edir və müxtəlif dillər özünəməxsus şəkildə idraka, hissiyyata təsir edərək, dünyagörüşü formalaşdırır" [84, s. 370]. Göründüyü kimi, dillər arasında fərqlərin bu dərəcədə mövcud olması müxtəlif etnosların düşüncə tərzi ilə bağlıdır. V. fon Humboldt dil və mədəniyyətə iki ayrı fəlsəfi konsept kimi yox, bir-biri ilə bağlı olan iki eyni sosial konsept kimi baxırdı.

Ümumiyyətlə, dil və mədəniyyət arasında idrak, təfəkkür, dəyərlər və digər baxımlardan əlaqənin olmasını heç kim inkar etmir. Mübahisə doğuran məsələ dilin mədəniyyəti, yoxsa mədəniyyətin dili şərtləndirməsi ilə bağlıdır.

Tədqiqat obyektimiz olan sosiomədəni faktorların dilə təsiri dilçilik üçün həmişə aktual və maraq doğuran məsələlərdən biri olmuşdur. Bu barədə olan tədqiqatlar göstərir ki, sosiomədəni faktorların dilə müxtəlif formalarda təsiri şübhəsizdir. Və həmin faktorları, əsasən, bu istiqamətlər təşkil edir: xalqın dili, psixoloji xüsusiyyətləri,

ədəbiyyatı, incəsənəti, yaşadığı regionu və dünya mədəniyyətində yeri. Bu faktorların hər birinin ayrı-ayrılıqda təhlili göstərir ki, onlar mədəniyyətin formlaşmasında mühüm rola malikdir.

Xalqın yaşadığı ərazinin iqlim şəraiti, təbiəti, gündəlik baş verən hadisələr, istifadə etdiyi əşyalar mədəniyyətində əsas yer tutduğundan, təbii ki, o xalqların dilində də həmin sahəyə aid olan sözlər çox olur, məsələn, eskimosların dilində *qar* və *buza* , ərəb dilində *dəvəyə,* türk dilində *ata,* yaxud köç həyatına aid çoxlu sözlər mövcuddur. Digər misalı rəng adları ilə bağlı deyə bilərik. Belə ki, rəng adlarının sayı müxtəlif xalqlarda fərqlidir. Bu, xalqın həm etnik, həm də coğrafi təfəkküründə formalaşan hadisədir. Müxtəlif mədəniyyətlərdə rəng adlarının sayı ilə bağlı fərqlər olsa da, əsas rənglər bütün xalqlarda eynidir. Məsələn, bəzi mədəniyyətlər üç rəngi seçirsə, bunlar *ağ, qara, qırmızı*dır. Onda sual yaranır ki, bu xalqlar digər rəngləri necə ifadə edə bilər? Bunu belə göstərirlər, məsələn, yaşıl rəngi yarpaq rəngi və ya torpaq rəngi və s. adlandırırlar. Bu barədə R.Abdullayev yazır: "Dil ilə mədəniyyət arasındakı əlaqə semantik səviyyədə, həmçinin o dilin leksik tərkibində ən bariz şəkildə özünü göstərir. Bir dilin leksik tərkibi, o dili danışan xalqın adət-ənənələri, həyata baxışı haqqında məlumatları da ehtiva edir. Buna görə də bir xalqın yaşayış tərzində ortaya çıxan dəyişikliklər, o xalqın danışdığı dilə – onun lüğət tərkibinə birbaşa təsir edər" [1, s. 89].

Sosiomədəni faktorların dilə təsirinə iki cəhətdən yanaşmaq olar: mədəniyyətin ümumbəşəri dəyər kimi dilə təsiri; mədəniyyətin fərdi dəyər kimi dilə təsiri. Ümumbəşəri

dəyər kimi mədəniyyət aşağıdakı faktorlarla dilə təsir edir:

1. milli adət-ənənələr;
2. xalqın tarixi;
3. milli ədəbiyyat, incəsənət, musiqi, memarlıq və s.;
4. təhsil;
5. elm və texnologiyanın inkişafı;
6. ideoloji görüşlər (dindarlıq, millətçilik, müasirlik);
7. milli kulinariya.

Mədəni dəyərlərin fərdin və ya sosial qrupun dilinə təsirini isə aşağıdakı faktorlara bağlaya bilərik:

1. ailənin təhsilli olması;
2. sosial mühitin təhsil səviyyəsi;
3. cəmiyyətdə təbliğ olunan və populiyarlıq qazanan sahələr.

Öncə ümumbəşəri dəyər kimi mədəniyyətin dilə təsirinin istiqamətlərinə nəzər yetirək.

1. Milli adət-ənənələr. Bildiyimiz kimi, hər bir xalqın özünəməxsus adət-ənənələri vardır və bu adət-ənənələr xalqın identikliyini qorumaq üçün ən mühüm faktorlardandır. Müxtəlif xalqlarda hər bir adətə-ənənəyə aid ekzotik sözlər vardır ki, digər xalqlarda bu sözlərin qarşılığı yoxdur. Bu da ondan irəli gəlir ki, adət-ənənlər xalqın milli xüsusiyyətlərini özündə birləşdirir. Azərbaycan dilində belə tipli sözlərə xalqın toy adətlərində, milli bayramlarda və s. rast gəlinir, məsələn: *çilə, nübaranlıq, kosa, səməni, şabaş və s.* Göründüyü kimi, bu tipli sözlər mədəni dəyərlərin tərkib hissəsi olaraq dilimizə təsir göstərmişdir.

2. Xalqın tarixi. Bu amil dilin inkişaf tarixində çox mühüm rola malikdir. Burada daha çox siyasi faktorlar

xüsusi mahiyyət daşıyır. Hər bir xalqın tarixində baş verən siyasi hadisələr, müharibələr, dövlətçilik ənənələri və s. proseslər dilin lüğət tərkibində müəyyən sözlər yaranması zərurətini formalaşdırır. Bilirik ki, qədim yunanlar, ərəblər, türklər və s. xalqlar dünya tarixində zəngin dövlətçilik ənənələrinə malikdirlər və araşdırıldıqda aydın olur ki, həmin xalqların dillərinin lüğət tərkibi hərbi, siyasi terminlərlə zəngindirlər. Eyni prosesdən Azərbaycan xalqı da keçib. Təbii ki, Azərbaycan ərazisində yaradılan dövlətlər XV əsrə qədər öz dövlət dilini Azərbaycan dili elan etmədiklərindən, dilimizdə bu cür terminologiya Səfəvilər İmperiyası yaradıldıqdan sonra inkişaf etməyə başladı, xüsusən hərbi, siyasi, rəsmi-işgüzar yazışmalar sahəsində bu daha aydın hiss olundu. Onda sonrakı dövrdə bu proses zəifləsə də, Azərbaycan Xalq Cümhuriyyəti dövründə yenidən gücləndi, hazırkı dövrdə isə bu terminologiya geniş şəkildə inkişaf edir, məsələn: *çavuş, zabit, saziş, tərəfdaş* və s. Demək, belə bir nəticəyə gələ bilərik ki, xalqın tarixində onun dili dövlət dili olubsa, belə ölkələrdə bu proses özünü daha aktiv göstərir.

3. Xalqın ədəbiyyatı, incəsənəti, musiqisi, memarlığı və s. Xalqın zəngin mədəniyyətinin arxasında onun yaratdığı maddi və mənəvi abidələr durur. Hər bir xalqın mədəni səviyyəsinin əsas göstəriciləri ədəbiyyatı, incəsənəti, musiqisi, memarlığıdır. Xalqın dilinin zənginləşməsində milli ədəbiyyat əvəzsiz rola malikdir. Ədəbiyyatın həm şifahi, həm də yazılı formada inkişafı dilin istifadə imkanlarının genişliyinə yol açır. Elə xalqlar var ki, hətta onların ədəbi dili müəyyən şairlərin, yazıçıların adı ilə bağlıdır, məsələn, A.Dante italyan ədəbi dilinin, U.Şekspir ingilis ədəbi dilinin,

A.S.Puşkin rus ədəbi dilinin yaradıcısı sayılır. Azərbaycan ədəbi dilinin formlaşması da məhz şair və yazıçıların adı ilə bağlıdır. Bu baxımdan, İ.Nəsimini, Ş.İ.Xətayini, M.Füzulini, M.P.Vaqifi, M.F.Axundovu, C.Məmmədquluzadəni, S.Vurğunu və başqalarını göstərə bilərik. Ümumiyyətlə, bədii ədəbiyyat bütün dövrlərdə dilə yeni sözlər, ifadələr gətirmiş, onun zənginləşməsində əvəzsiz rol oynamışdır.

Musiqi də xalqın tarixində xüsusi yer tutur. Təbii ki, xalq mahnıları bütün dövrlərdə yalnız dil vasitəsilə nəsildənnəslə ötrülmüş və qorunmuşdur. Xalqın düşüncə tərzinin maddi ifadəsi kimi dilə musiqinin təsiri şübhəsizdir. Xalq mahnılarında həm dialektoloji xüsusiyyətlər, həm leksik səviyyəyə aid müxtəlif məcazlarla ifadə, həm də qrammatik səviyyə üzrə inversiya, qeyri-normativ cümlələrdən istifadə kimi hallar özünü göstərir. Azərbaycan xalqının milli musiqisinə aid sözlər dilimizin lüğət tərkibini zənginləşdirir, məsələn: cəngi, cığa, nağara, yallı, qoşma, qaytağı və s.

Memarlıq və incəsənət hər bir xalqda necə inkişaf edirsə, həmin xalqın dilinin lüğət tərkibində də bu sahələrə aid sözlər o qədər yer tutur. Qədim misirlilərin, yunanların, romalıların yaratdığı memarlıq abidələri o xalqların dünya miqyasında bu sahələr üzrə müəyyən üslublar yaratmağı ilə nəticələndi. Memarlıq abidələri müxtəlif xalqlarda, əsasən, fərqli üslublarda yaradılır. Bu cəhətdən, hər xalqın memarlığına aid sözlərində də bu xüsusiyyət görünür. Bu proses də dilə təsir edən əsas mədəni faktorlardandır. Azərbaycan xalqının da özünəməxsus memarlıq ənənələri olmuş bu xalq çoxlu tarixi abidələr yaratmışdır. Bu sənətin inkişafı dilimizin lüğət tərkibini də zənginləşdirmişdir, məsələn:

gümbəz, türbə, qala, qüllə, məbəd və s. kimi sözləri misal göstərə bilərik. Düzdür, bu sözlərdən bəziləri ərəb dilindən alınmadır. Bunun da səbəbi memarlarımızın ərəb təhsilli olması ilə bağlı olmuşdur.

4. Təhsil. Dilə təsir edən əsas faktorlardan biri xalqın ümumi təhsili ilə bağlıdır. Xalqın savadlı olması onun ümumi inkişafının mühüm göstəricilərindəndir. Ölkə əhalisinin əksər hissəsinin təhsilli olması onun dilinin lüğət tərkibində vulqar sözlərin aktiv istifadəsinin sayını da azaldır. Mədəni xalqlar öz inkişafını daha da yüksək etmək üçün təhsilə xüsusi önəm verir.

Azərbaycan xalqının keçmişinə nəzər saldıqda görürük ki, xalqımızın tarixində əksər dövrlərdə görkəmli şəxsiyyətlər yetişmişdir, ancaq bu, ümumi savadlanmaya gətirib çıxartmırdı. Uzun illər boyu sadə xalq xürafat içərisində yaşamış və yalnız XIX əsrdən başlayaraq kütləvi savadlanmanın ilkin rüşeymləri yaranmışdır. Burada ziyalılarımızın rolunu xüsusi qeyd etmək lazımdır. Qəzetlərin, jurnalların çap olunması ("Molla Nəsrəddin", "Füyuzat" və s.) və Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin qurulması kütləvi maariflənməni genişləndirirdi. Bunu da etiraf etmək lazımdır ki, keçmiş Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda genişmiqyaslı savadlanma prosesi başlandı. Müstəqillik dövründə də bu proses davam edir.

5. Elm və texnologiyanın inkişafı. Müasir dövrdə elm və texnologiyanın sürətli inkişafı dillərin sosial mövqeyinə və funksional imkanlarına əhəmiyyətli təsir göstərən amillərdən biridir. Xüsusilə elmi-texniki tərəqqinin yaratdığı qloballaşma prosesləri bir sıra kiçik və ya məhdud funk-

sional imkanlara malik dillərin istifadə dairəsinin daralmasına, bəzi hallarda isə tədricən sıradan çıxmasına səbəb olur. Təcrübə göstərir ki, elmi və texnoloji inkişafda öncül mövqeyə malik cəmiyyətlərdə həmin dillərin beynəlxalq ünsiyyət, elm, təhsil və innovasiya sahələrində nüfuzu daha da güclənir. Məsələn, ingilislər dünyanın texnoloji inkişafında kifayət qədər rola malikdirlər. Hər bir elmi kəşf, hər bir yeniliyi yaratdıqları zaman öz sözlərindən istifadə etməklə ad qoyur və beləliklə, bu dil çox asan şəkildə bütün dünyaya yayılır. Alman xalqı elm, fəlsəfə və texnologiya sahələrində əldə etdiyi mühüm nailiyyətlərlə dünya elminin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Xüsusilə alman fəlsəfi məktəbinin formalaşdırdığı anlayış və terminlər beynəlxalq elmi terminologiyanın zənginləşməsində mühüm rol oynamışdır. Oxşar tendensiyalar elmi və texnoloji inkişaf səviyyəsi yüksək olan digər xalqların dillərində də müşahidə edilir.

Dilin funksional imkanlarının genişlənməsi, xüsusilə elmi üslubunun və terminoloji sisteminin inkişafı, həmin dildə elmi biliklərin istehsalı, texnoloji yeniliklərin yaradılması və beynəlxalq elmi kommunikasiya proseslərində iştirak səviyyəsi ilə sıx bağlıdır. Bu baxımdan Azərbaycan dilində də son illərdə müxtəlif elm sahələri üzrə terminoloji bazanın zənginləşdirilməsi istiqamətində mühüm işlər görülsə də, qloballaşma şəraitində elmi terminologiyanın sistemli şəkildə inkişaf etdirilməsi və beynəlxalq elmi dövriyyəyə inteqrasiyasının gücləndirilməsi aktual vəzifələrdən biri olaraq qalır. Beləliklə, dilin müxtəlif fəaliyyət sahələrində işlənmə imkanlarının genişlənməsi, lüğət tərkibinin zənginləşməsi və funksional potensialının artması hə-

min dildə danışan cəmiyyətin elmi, texnoloji, iqtisadi və siyasi inkişaf səviyyəsi ilə bilavasitə əlaqədardır.

Məlumdur ki, dildə purizm dilin yad sözlərdən qorunmasına xidmət edir. Bu cəhətdən Türkiyə təcrübəsi diqqəti çəkir. Türkiyə türkləri hər bir innovasiyanı öz dillərində adlandırmağa çalışırlar, məsələn: *uçak (təyyarə), bilgisayar (kompüter)* və s. Bəzən belə əvəzetmələr yersiz olur. Ümumiyyətlə, belə kəşflərin adını milliləşdirmək uğurlu deyildir.

6. Xalqın ideoloji görüşləri (millətçilik, müasirlik və s.). Xalqların bir çoxu dünya tarixində müəyyən ideoloji görüşləri ilə də iz buraxmışdır. Bu ideoloji görüşlər xalqların dilində müəyyən ifadələrlə, ya da həmin ifadələrin dilin lüğət tərkibində geniş yer tutması ilə səciyyələnir. Bu xalqların bəzilərinə nəzər yetirək. Ərəblərin gündəlik istifadə etdiyi sözlərin çox hissəsi dinə aid sözlərdir. Bunun əsas səbəbi odur ki, İslam dininin müqəddəs kitabı "Qurani-Kərim"in bu dildə olmasıdır. Digər səbəb əhaliyə kütləvi formada dindar olmasıdır. Daha bir səbəb isə cəmiyyətə dinin təbliğ olunmasıdır.

Millətçilik dünyanın bir çox xalqlarında daha geniş yayılmışdır. Bunu alman, yəhudi, rus və başqa xalqlarda daha aydın görə bilərik. Dilimizə daha yaxın olan türk dilində də millətçiliyə aid ifadələr vardır, məsələn: *ülkücülük, - atatürkçülük, türkçülük* və s. Burada qeyd etdiyimiz millətçilik amili şovinizm anlamında verilməmişdir. Millət və vətən sevgisinin fərqli ifadəsi dildə özünü aydın göstərsə də, bu, daha çox təfəkkürlə bağlı anlayışdır.

Müasirlik dünyanın, demək olar ki, əksər xalqlarında təbliğ olunan ideoloji faktorlardandır, amma bu faktoru hər

bir xalq eyni formada qəbul etmir. Dünyaya açıqlıq qlobal dünyanın əsas tələblərindəndir. Qloballaşmaya mane olan isə milli kimlikdir. Bütün bunlara baxmayaraq, müasir texnologiyalar yad sözləri dilə rahat gətirə bilir.

7. Milli kulinariya. Dünya xalqlarında milli kulinariya heç də eyni zənginliyə malik deyildir. Milli mətbəxin inkişafı təbii ki, dilin lüğət tərkibində yeni adların yaranmasına gətirib çıxarır. Bu cəhətdən Azərbaycanın milli mətbəxi öz çeşidləri ilə seçilir, məsələn: *dolma, bozbaş, bozartma, çığırtma, xəşil, kabab, piti, plov, qovurma* və s. Milli yeməklərin çoxluğu dilimizin lüğət tərkibinin zənginləşməsində əhəmiyyətli rola malikdir.

Sosiomədəni faktorların fərdin və ya sosial qrupun dilinə təsiri yuxarıda qeyd etdiyimiz kimi, bir neçə cəhətlə bağlıdır. Onlara təhlilinə nəzər yetirək:

1. Ailənin təhsilli olması. Hər bir ailədə olan mühitin orada tərbiyə alanların mədəni səviyyəsinə təsir etməsi şübhəsizdir. Əgər ailədə bütün adamlar təhsillidirsə (*ali təhsilli – A.F*), təbii ki, orada kobud sözlərdən, küçə danışıq dilindən istifadəyə, demək olar ki, yer verilmir. Bunu apardığımız sorğu əsasında da müşahidə etdik. Təhsilli ailə üzvlərinin istifadə etdikləri bəzi sözlərə və cümlələrə nəzər yetirək; sözlər: *bəli, buyurun, zəhmət olmazsa,* cümlələr: *Böyüklərə hörmət et, yaşlı qadın və kişilərə kömək et. Savadlı insanlarla ünsiyyət yarat* (70 yaşlı ali təhsilli informant). *İçəri daxil olun. Bir az gözləyin. İcazənizlə bir söz soruşa bilərəm?* (25 yaşlı ali təhsilli informant). Təhsili olmayan və ya aşağı səviyyədə olan ailələrdə loru danışıq tərzinə geniş yer verilir, kobud sözlər, qeyri-normativ cümlələrdən istifadə

nitqdə üstünlük təşkil edir. Məsələn, *zəhər, korsan, cəhənnəm ol, ala (buyur yerinə işlənir), apar (götür yerinə işlənir), Gəl, keç içəri. Gözlə də. Nə deyirsən?. Xarab eləmisən başımı.* (34 yaşlı orta təhsilli informant).

Göründüyü kimi, bu müqayisələr göstərir ki, ailənin təhsil səviyyəsi nə qədər yüksəkdirsə, bu, orada tərbiyə alan insanların nitqində də öz əksini tapır. Bundan başqa, ailənin daxilindəki psixoloji proseslər də dilə təsir edir. Təhsili aşağı səviyyədə olan ailələrdə ya insanlar uca səslə, ya da çox aşağı səslə bir-biri ilə ünsiyyət qururlar. Belə ailələrdə insanlar qısamüddətli ünsiyyətə üstünlük verirlər.

2. Sosial mühitin təhsil səviyyəsi. Sosial mühit bütün sahələrə təsir etdiyi kimi, dilin də müxtəlif səviyyələrində öz izlərini buraxır. Sosial mühit dedikdə daha geniş cəmiyyəti nəzərdə tutmuruq. Burada gündəlik ünsiyyətdə olan kollektivlərin dildən istifadə imkanlarının səviyyəsi nəzərdə tutulur. Bu cür kollektivləri iki yerə ayıra bilərik: a) təhsil səviyyəsi yuxarı olan sosial qruplar, məs: məktəb, universitet, dövlət qulluqçuları və s., b) təhsil səviyyəsi aşağı olan sosial qruplar, məs: bazar alverçiləri, tikintidə işləyən kollektivlər və s. Apardığımız eksperimentlər göstərir ki, təhsil səviyyəsi yuxarı olan kollektivlər ünsiyyət prosesində nitq etiketlərindən, geniş cümlələrdən çox istifadə edirlər. Təhsil səviyyəsi aşağı olan kollektivlər isə daha çox əmr cümlələrindən, qısamüddətli ünsiyyətdən, qeyri-normativ cümlələrdən istifadəyə üstünlük verirlər.

3. *Cəmiyyətə təbliğ olunan və populyarlıq qazanan sahələr.* Məlumdur ki, müasir dövrdə informasiya texnologiyaları cəmiyyətə hər istiqamətdə öz təsirini göstərir. Nəti-

cədə, dilin də lüğət tərkibində cəmiyyətdə populyarlıq qazanan sahələrlə bağlı yeni sözlər yaranır və ya həmin sahələrə aid olan sözlər geniş istifadə olunmağa başlanır. Buna aid iki nümunəyə diqqət yetirək: 1. 2019-cu ilin sonundan başlayaraq bütün dünyanı bürüyən koronavirus (COVİD-19) pandemiyasına görə də dilimizdə yeni sözlər, yeni ifadələr insanların nitqində populyarlıq qazandı, məsələn: *karantin, sosial məsafə, sosial izolyasiya, pandemiya, maska, videobağlantı* və s. 2. 2020-ci ildə Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi uğrunda baş verən və zəfərlə bitən 44 günlük Vətən müharibəsi dövründə döyüşlərlə bağlı mətbuatda, sosial şəbəkələrdə olan xəbərləri izlədikdə aydın olur ki, müharibə ilə bağlı kifayət qədər çoxlu söz cəmiyyətə təbliğ olunur. Bu misallar bir daha göstərir ki, cəmiyyətə təbliğ olunan sahələrə aid olan sözlər insanların gündəlik ünsiyyətində aktiv olurlar.

Beləliklə, aydın olur ki, dilin sosial diferensiallaşmasının yaranması səbəblərindən biri də sosiomədəni faktorlarla bağlıdır. Bu faktorların çoxluğu isə göstərir ki, onların müxtəlif istiqamətlərdə dilə təsiri mümkündür [106, s. 144-151].

Rəqəmsal kommunikasiya mühitinin dilə təsiri. Dil yazının kəşf olunması ilə önəmli bir inkişaf mərhələsinə qədəm qoydu. Bu kəşf ilə insanlar üz-üzə dayanıb danışmaq kimi məcburiyyətdən azad olundular. Yazı bəşəriyyətə əvvəlki nəslin mirasını "maddi dil"ində saxladı. Bir-birindən uzaq məsafələrdə yaşayan insanlar bu vasitə ilə ünsiyyət qura bildilər.

Dilin inkişafının yeni mərhələsi isə mətbuat və çap işinin yaranması ilə bağlıdır. Kitab, jurnal, qəzet çapı, televiziya

və radionun icad olunması ədəbi (standart) dilin inkişafında mühum rol oynadı. Eyni dilin müxtəlif variantları olmasına baxmayaraq, ədəbi dil imkan verir ki, bu variantlardan istifadə edən şəxslər bir-birini başa düşsünlər. Bu da vahid dilin yaranmasına, millətin bütövləşməsinə gətirib çıxarır.

İnternetin kəşf olunması isə dilin inkişafında tam yeni mərhələ açdı. Mətbəə dil–yazı–kağız əlaqəsini necə dəyişmişdisə, internetin yayılması ilə dil–yazı–elektronika əlaqəsi də elə dəyişib. Ancaq D.Kristal belə bir fikir bildirir ki, internetin necə vəziyyət yaratmasından asılı olmayaraq təməlində mətn və yazı olacaqdır [111]. Çünki internetin əsasını dil təşkil edir və dil əsasında inkişaf edir. İnternet dilin müxtəlif vəziyyətlərindən istifadə edir və özündə müxtəlif formalar inkişaf etdirir. Son illər innovativ texnologiyalar bütün dünyada geniş yayılaraq müxtəlif sahələrə tətbiq olunur. Qloballaşan dünyada hər şeyin sürətlə inkişaf etdiyi bir vaxtda insanlar onlardan asılı olmayaraq müxtəlif informasiyalara sahib olurlar. İnnovativ texnologiyalar loqistik düşünmə, əlaqələrin daha operativ qurulması baxımından insanların həyatında əhəmiyyətli rol oynayır. Texnologiyanın sürətlə inkişaf etməsi nəticəsində internet üzərindən əlaqələrin qurulması zərurəti də artırmışdır. İnternet istənilən məlumata ən tez, ən rahat, ən asan çatmaq üçün vasitədir. Bu texnologiyanın çox sürətli inkişafı və nəticəsi müxtəlif ölkələrin milli mədəniyyətlərini və dillərini təhlükə ilə üz-üzə qoymuşdur. "YUNESKO-nun dünya dilləri ilə bağlı apardığı araşdırmalara görə hal-hazırda yer üzündə danışılan 6000 dilin yarısı ölmək təhlükəsindədir. Hər 14 gündə bir dil yer üzündən silinir" [72, s. 145].

Cəmiyyətin hazırda sürətli inkişafını təmin edən vasitələrin əsasını müasir texnologiyaların təşkil etməsi qloballaşan dünyada müxtəlif xalqların müxtəlif səviyyə və formalarda öz mədəniyyəti və inkişafı səviyyəsindən asılı olaraq birləşmə prosesinə çox güclü təsir edir. İnternetdə ünsiyyətin qurulması üçün fəaliyyət göstərən sosial şəbəkələr son dövrlərin ən mühüm ünsiyyət vasitələrindən birinə çevrilmişdir. "Sosial şəbəkə – sosial qarşılıqlı əlaqələr, sosial obyektlər (adamlar və təşkilatlar) və kommunikasiyalar arasında sosial struktur düyünlərindən ibarət olan qrupdur" [137, s. 249]. Sosial şəbəkələr müasir dünyanın müxtəlif düşüncələrə məxsus insanları məkanından, təhsilindən, dünyagörüşündən asılı olmayaraq birləşdirən geniş istifadəçisi olan bir şəbəkə torudur. Bu torda isə insanları bir-birinə bağlayan ən mühüm ünsiyyət vasitəsi dildir. İnternet istifadəçilərinin hər cür savadlılıq səviyyəsini nəzərə alsaq, istifadə olunan əlifbanın istifadə edildiyi dilə uyğunsuzluğu, terminlərin, yeni sözlərin qarşılığının olmaması, yaxud da onun qarşılığını əvəz edən sözlərin digər dillərdə tərcüməsinin verilməməsi dil üçün çox böyük təhlükələrə yol aça bilər. Sosial şəbəkələrə ilk yarandığı vaxtlarda, əsasən, gənc nəsil maraq göstərirdisə, artıq orta nəsil də geniş şəkildə istifadə etməyə başlayıb.

Sosial şəbəkələrdə hər bir insan fərdi olaraq həm fikirlərini, həm məlumatlarını insanlarla paylaşmaq imkanına malikdir. Müstəqil düşüncənin formalaşması üçün bu, çox vacib məsələdir, amma sosial şəbəkələrin bu qədər inkişafı bir çox sahələrə mənfi təsirlər göstərir. Onlardan biri də dildir. Sosial şəbəkələr bu gün insanların danışıq mədə-

niyyətinə, yazı üslubunda çox ciddi rola malikdir. Bildiyimiz kimi, hər bir insan dildən istifadə etməyi bacarsa da, hamı nəzəri dil biliklərinə malik deyil. Bəllidir ki, "İnternet dilinin lüğət tərkibində fərqliliklər özünü göstərir. Virtual məkana inkişaf edən texnologiyaların təsiri imkanları hər gün artır. Bunun da nəticəsində bu məkanda yeni sözlərin istifadəsi zərurəti yaranır. İnternetdə ən çox istifadə olunan dil olan ingilis dili ortaya çıxdığı 500 il ərzində bir çox dillərdən, mədəniyyətlərdən sözlər almış və almaqdadır, amma indiki dövrdə vəziyyət tam dəyişib. İngilis dilinin internetdə geniş yayılması digər xalqların da dilinə təsirini artırır" [69, s. 140]. Eyni prosesdən bizim də dilimiz yan keçmir. Sosial şəbəkələr vasitəsi ilə son dövrlər dilimizə elə sözlər daxil olmuşdur ki, onlardan milli sözlərimizdən fərqləndirmədən istifadə edirik və xüsusən gənclər arasında rahat şəkildə başa düşülür. Amma elə hallar da olur ki, bu sözlərin mənasını başa düşülmədən istifadə olunur. Bəzi əcnəbi və öz sözlərimizin qısaldılmış formaları dilimizdə ümumişlək sözlərə çevrilməkdədir. Çox təəssüf ki, bu məsələlər gənclərin həm yazı mədəniyyətində, həm də danışıq üslubunda ciddi izlər buraxır. Bu problem həm də dilin sosial diferensiallaşması prosesinə aktiv şəkildə təsir göstərir. Bunu müxtəlif yaş dövrlərinə aid insanların dilində rahat görə bilərik.

Son dövrlərdə internetdə, o cümlədən sosial şəbəkələrdə olan mətn anlayışı hipertext adı ilə geniş yayılmışdır. Ümumiyyətlə, mətn anlayışının dəyişmə səbəblərindən biri də qrafik işarələrdən geniş istifadə edilməsidir. Sosial şəbəkə istifadəçiləri danışıq (yazışma) zamanı belə qrafik işarələrdən istifadə etməklə bütöv bir cümləni və ya mətni əvəz

edirlər. Son dövrlər insanların müxtəlif psixoloji, duyğulu ifadələrini göstərmək üçün animasiyalı qrafik işarələr geniş yayılıb. Belə simvollardan elə istifadə edilir ki, qurulan "mətn"də tam olaraq heç bir sözdən istifadə olunmur. Qrafik animasiyaların bu qədər geniş yayılmasının səbəbi, həm də onların geniş çeşidə malik olmasıdır. İstifadəçilərin belə animasiyalara geniş yer verməsinə səbəb kimi vaxta qənaət etməsini göstərə bilərik. Belə bir mətnə müraciət edək: Biri sizə "təşəkkür edirəm" animasiyasını göndərir. Siz də "dəyməz" sözünün əvəzinə, ona utanc hissindən yanağı qızarmış animasiya göndərirsiz. Digər misal: iki dostdan biri digərinə gülüş doğuran şəkil göndərir və digər dost da bir neçə cümlədən ibarət olan fikri əvəz edən gülməkdən gözlərindən yaş axan bir animasiya ilə cavablandırır. Göründüyü kimi, bu cür qrafik animasiyalarla fikirləri ifadə etmək mümkündür, lakin belə formada ünsiyyət qurmaq nitq mədəniyyətinə böyük ziyan verir. İnsanlar virtual həyatdan real həyata qayıdanda kommunikasiya prosesində problemlərlə rastlaşırlar. Buradan da yazılı və şifahi dil diferensiallaşması prosesi yaranmağa başlayır.

Məlumdur ki, internetdə ən geniş yayılan dil ingilis dilidir. İngilis dilinin dünyaya bu qədər geniş yayılmasının səbəblərindən biri də internetdir. Onu da qeyd etmək lazımdır ki, dünyanın inkişaf etmiş ölklərində ingilis dili öz mövqeyini itirməyə başlamışdır. Məsələn, Yaponiyada internet istifadəçilərin 90%-i yapon dilindən istifadə edir. Buna səbəb isə həmin ölkələrdə internet səhifələri və sosial şəbəkələrin mətninin milli dillərinə tam uyğunlaşdırılmasıdır. Son dövrlər internetin yazı dili üzərində hakimiyyəti artmışdır.

Sosial şəbəkələrdən müxtəlif sosial qruplara məxsus insanlar istifadə etdiyindən bu təsirin nə qədər böyük olduğunu anlaya bilərik. Hətta sosial şəbəkələr vasitəsi ilə müxtəlif dialektlərə məxsus sözlər, əcnəbi sözlər və s. rahat şəkildə ədəbi dilə daxil olur. Bu cəhətdən internet ədəbi dili (yazılı dili) həm korlaya, həm də zənginləşdirə bilər.

İnternetin dilin sosial diferensiallaşması probleminə mühüm təsirlərindən biri də müxtəlif sosial qrupların bu məkanda birləşməsidir. Sosial şəbəkələrdə eyni ideoloji qruplar müxtəlif şəbəkə qrupları yaradaraq müəyyən fikirləri bölüşürlər. Bu isə həm də yeni sosial qrupların yaranmasına gətirib çıxardır. Özünəməxsus dil vahidlərinin qrupda çox işlədilməsi və həmin qruplara yeni üzvlərin rahatlıqla daxil olması onların istifadə etdiyi dilə də təsir göstərir. Belə halların çoxalması gələcəkdə dildə yeni sosial diferensiallaşma formalarının yaranmasında mühüm rol oynayacaq.

Bütün dünyada olduğu kimi Azərbaycanda da sosial şəbəkə istifadəçilərinin sayı hər gün artmaqdadır. Bildiyimiz kimi, internet istifadəçiləri hər hansı bir internet səhifəsinə daxil olduqda orada ədəbi (standart) dillə rastlaşır və məlumat oxuyarkən başqa bir məlumat qarşısına çıxır və onu axtarmağa başlayır, beləliklə, standart dili müxtəlif mövzulu mətnlər vasitəsilə dərk edir. Bu halı internetin müsbət cəhəti kimi qiymətləndirə bilərik, çünki dilin təbliği üçün əsas rol oynayır. Lakin istifadəçi hər hansı bir sosial şəbəkədə (feysbuk, instaqram, X, yahoo və s.) dostları ilə, tanımadığı insanlarla yazışma zamanı standart dildən uzaqlaşa bilir və əslində danışdığı formada yazışdığı üçün danışıq dili yazı dilinə çevrilir. Bu isə ədəbi dilin yazılı normasının ciddi şəkildə pozulmasına gətirib

çıxaracaq. Həmin qayda pozuntularını bir neçə qrupa bölərək aşağıdakı nümunələrlə baxa bilərik:

1. Hərflərin istifadə edilməsi ilə bağlı yanlışlıqlar:

a) Azərbaycan dilində istifadə olunan hərflərin yerinə ingilis qrafikasına xas olan hərflərdən istifadə: (ş>s, ü>u, ç>c, ğ>g, ş > w, ə>e və s.), məsələn: *yazdığın – yazdıgın; şənbə- senbe; müdir – mudir; məktəb – mekteb, şəhər – weher, çiçək – cicek* və s.

b) Yazıda Azərbaycan dilinə uyğun olmayan və ingilis dilindən götürülmüş, diqraf tipli hərflərdən istifadə: ş>sh, ç>ch, məsələn, *inkişaf – inkishaf, çanta – chanta* və s.

c) İngilis dilində istifadə olunan hərflərdən Azərbaycan dilindəki oxunuş tərzinə uyğun istifadə: "V" yerinə "W" nın işlədilməsi, məsələn: *var – war, və – we, vallah – wallah* və s.

ç) Bəzən də sözlərin tam yazılmaması, məsələn: *universitet – uni, bir şey – bi şe* və s.

2. Sözlərin yazlışındakı təhriflər – yanlışıqlar:

a) Sözlərdə sait hərflərin buraxılması: *slm (salam), ncsn (necəsən), təşəkkür (tşk), sğl (sağ ol), drs (dərs), yazsnlr (yazsınlar)* və s.

b) Sözlərin hərf tərkibinə uyğun olmayan digər hərflərdən istifadə edilməsi: *baxerəm(baxıram), gel (gəl), hakında (haqqında)* və s.

c) Azərbaycan dilində qarşılığı müəyyən olunmayan və ya müəyyən olunsa da, istifadəsi yayılmayan xarici dillərə məxsus sözlərdən istifadə: *ok (okey), party (şənlik), wc (tualet), pls (please – tərc: zəhmət olmazsa), bye, fast food, stand up (ayaqüstü)* və s.

ç) Sözə bitişik şəkilçilərin yanlış yazılması və ya qısal-

dılması: *gedəcik (gedəcəyik), dinləmiyir (dinləmir), alırmısın (alırsanmı)* və s.

3. Cümlə və mətnlə bağlı yanlış istifadələr:

a) Gündəlik danışıq tərzindən yazıda geniş istifadə: *eve getmiremeee (evə getmirəm), onu deme aaaa , eee sen basha dushmedin* və s.

b) Sözlərin yazılmasında böyük və kiçik hərflərin bir arada istifadə edilməsi: *dediklerim seNE QANUNDUR. HElelik. Bu Sözün Mənə YETƏR.* və s.

c) Sözlərin bəzən bitişik yazılması: *Sən nədedin?, Mənənə.*

ç) Xüsusi isimlərin böyük hərflərlə yazılmaması: *azər bizə gəlmişdi, xəzər ən böyük göldü, milli komandamız İngiltərə və fransa yığmalarını məğlub etdi.*

d) Cümlə üzvlərinin sıralanmasının tam danışıq dili əsasında qurulması: *Derdimi kime deyim?, İmtahan aqırlıq edir mene* və s.

4. Dilin leksik tərkibinin forma və məzmunca fərqli tətbiqi:

a) Arqolardan və vulqarizmlərdən istifadə: donuz, öküz və s.

b) Yeni sözlər yaratma: *internetdə söhbətləşmək, çatlaşmaq, fikrini paylaş* və s.

Yuxarıdakıları nəzərə alaraq, sosial şəbəkələrin dilə təsirini aşağıdakı mənfi cəhətlərə görə qruplaşdıra bilərik:

1. Cümlələrin qurulmasında ciddi qrammatik səhvlərin olması;

2. Leksik normanın çox zaman pozulması;

3. Sözlərin yazılışında fikri daha tez çatdırmaq məqsədi ilə hərflərin buraxılması və ya sözlərin yarımçıq yazılması;

4. Canlı danışıq dilinin sosial şəbəkə dilinə, dolayısı ilə yazılı dilə çevrilməsi və s.

Müasir dövrdə sosial şəbəkələr cəmiyyətin kommunikasiya sisteminin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu platformalar informasiya mübadiləsinin sürətlənməsinə və ünsiyyət imkanlarının genişlənməsinə mühüm töhfə versə də, dil normalarının pozulması, qeyri-standart yazı formalarının geniş yayılması və orfoqrafik səhvlərin kütləviləşməsi kimi mənfi meyillərin formalaşmasına da zəmin yaradır. Buna görə də sosial şəbəkələrdən istifadənin məhdudlaşdırılması deyil, həmin platformalarda ədəbi dil normalarının qorunması və düzgün dil istifadəsinin təşviq edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Sosial şəbəkələrdə müşahidə olunan dil pozuntularının qarşısının alınması məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi zəruridir. Bu istiqamətdə səmərəli vasitələrdən biri Azərbaycan dilinin normativ bazasına əsaslanan rəqəmsal lüğət və yazı yoxlama sistemlərinin hazırlanmasıdır. Belə resursların mobil tətbiqlər və digər rəqəmsal platformalar vasitəsilə geniş istifadəçi auditoriyası üçün əlçatan olması yazılı nitq mədəniyyətinin yüksəldilməsinə, orfoqrafik və leksik normaların möhkəmləndirilməsinə, eləcə də ədəbi dil normalarının cəmiyyətin müxtəlif sosial qrupları arasında daha geniş yayılmasına və möhkəmlənməsinə mühüm töhfə verə bilər.

Bütün bunlara baxmayaraq, sosial şəbəkələrin dilimizə çoxlu müsbət təsirləri də vardır. Məsələn, son 15-20 il ərzində məktublaşmağı unutmuş insanlara internet yeni yazı mədəniyyəti öyrətdi, dilimizin yeni, daha çevik – virtu-

al qatı formalaşdı, dilimizin elektron üslubu yarandı. Fərdi nitqlərin cəmi olan dilimizi saflaşdırdı, insanlara öz fikirlərini sadə, sərrast, məntiqli ifadə etmək vərdişini aşıladı, sözdən qənaətlə yararlanmağa həvəsləndirdi. Azərbaycan dilinin fəlsəfəsinə, texnikasına, mahiyyətinə, hətta leksik-semantik-qrammatik qatına bir yenilik gətirdi, ümumi savadlanmaya xidmət etdi, çağdaşlarımız fərdi fikirlərini qısa və məzmunlu etməklə həm özlərinin, həm də başqalarının vaxtına qənaət etmiş olurlar, informasiya cəmiyyətində milli dilimiz dünya dilləri sırasında özünəməxsus yerini, vacib inkişafını əldə etdi. Artıq demək olar ki, Azərbaycan dilinin virtual elektron üslubu yaranıb və çox sürətlə inkişaf edir. Bu isə yaxın gələcəkdə cəmiyyətimiz tərəfindən dilimizin mühüm dəyişikliklərlə istifadəsinə yol açacaqdır.

Beləliklə, sosial şəbəkələr özünəməxsus bir yazı sistemi olan, müəyyən işarələrlə ünsiyyət yaradan bir dil formalaşdırmaqdadır. Bu dilin ənənəvi istifadə olunan yazılı dildən fərqlənməklə gələcək nəsillərin yaradacağı ədəbiyyatda necə qalacağı mübahisəli və ciddi toxunulacaq maraqlı mövzulardan biridir.

2.2. Sosial diferensiallaşmanın dil strukturunun müxtəlif səviyyələrində təzahürü

Dildə sosiallığın mahiyyətinə bir neçə istiqamət üzrə yanaşmaq olar. Birincisi odur ki, səs də, morfem də, söz də, söz birləşməsi də, cümlə də təkcə bir adama lazım deyil, digər insanlarla ünsiyyət prosesində istifadə olunur. İkincisi, dil vahidlərinin sosiallığının səviyyəsi onu istifadə edən in-

san tərəfindən deyil, qarşısındakı insanın dərk etməsi ilə müəyyənləşir. Üçüncüsü, dildə və nitqdə sosiallıq dil və nitq vahidlərinin ifadə vasitələrinin kompleks birləşməsi ilə formalaşır və nəhayət, dildə struktur ünsürlər onun müxtəlif səviyyələri üzrə xüsusi göstəricilərlə sosiallığın daşıyıcılarıdır.

"Dildə sosiallığın dil və qeyri-dil, nitq və qeyri-nitq ifadə vasitələrini təhlil edərkən dilin və nitqin funksional çoxşaxəli təzahürünü nəzərə almaq lazımdır" [46, s. 333]. Dildə sosiallığın inkişafını yazılı və şifahi nitq formaları ilə daha aydın şəkildə müəyyənləşdirmək olar. Şifahi nitqdə xarici faktorlar daha çox önəm daşıyır. Xarici faktorların rolu isə dövrdən, cəmiyyətin inkişaf səviyyəsindən və s. asılıdır. Ümumiyyətlə, şifahi nitqdə intonasiya, səslərin dəyişməsi, situasiya sanki məzmunu və səslənməni birləşdirir və danışanın təhsilini, mədəni səviyyəsini, sosial mənsubiyyətini bir daha açıq şəkildə ortaya qoya bilir. Yazılı nitqdə mücərrədliyə geniş yer verildiyindən bu və ya digər dildə sosiallığın təzahürünü müəyyən etmək çətin olur.

Dilin sosiallığın təzahürü dil sisteminin fonetik, leksik, morfoloji, sintaktik səviyyələri üzrə özünü göstərir. Onların əlamətlərinə ayrı-ayrılıqda nəzər yetirək.

1) Fonetik səviyyə üzrə sosiallığın təzahürü. Bildiyimiz kimi, dil və nitq dilçilikdə həmişə fərqləndirilib. Bunu daha çox F.de Sössürün adı ilə bağlasalar da, ondan qabaq V.fon Humboldt da bu fikirdə idi. Fonologiya ilə daha çox məşğul olan N.S.Trubetskoy dil və nitq fərqləndirilməsini belə izah edirdi: "Bir adam başqasına nə isə deyirsə, bizim işimiz nitq aktı və ya nitqlə olur. Nitq danışanın, dinləyənin və haqqında danışılan əşyanın mövcudluğunu nəzərdə tu-

tur: Lakin nitq aktında daha bir məqam da var: dinləyənin müsahibini başa düşməsi üçün onların ikisi də eyni bir dili bilməlidir; dil ümumiliyi üzvlərinin hər birinin şüurunda vahid dilin mövcud olması hər bir nitq aktının ilkin şərtidir" [104, s. 7]. Fonemlər, fonem variantları, samitlər, saitlər, söyləm fasilələri, rezonans, vurğu və s. fonetik xüsusiyyətlər sosiallığın inkişafına xidmət edir. Bu cəhətdən fonoloji diferensiallığı aşağıdakı kimi ifadə etmək olar:

"1. fonoloji müxalifət (sosiallığın daşıyıcıları olan sözlər və onların formalarını fərqləndirmək üçün),

2. müəyyən linqvistik tapşırığı yerinə yetirmək üçün fonem variantlarının fərqləndirilməsi və işlədilməsi,

3. vurğudan istifadə edilməsi,

4. intonasiyadan istifadə edilməsi,

5. səs təqlidindən, fasilədən, səslərin modulyasiyasından, səsin tembrindən istifadə edilməsi,

6. estetik məqsədlərlə müxtəlif səs komplekslərindən istifadə edilməsi,

7. insanlara, faktlara, həyat hadisələrinə müxtəlif hissləri, münasibətləri ifadə etmək üçün sosial –xüsusiləşdirilmiş səslərdən, səslənmələrdən (yarımçıq səslənmiş sözlər, cəld danışma, yanıltmac, mızıldama və s.) istifadə edilməsi,

8. səslərin delimitativ funksiyası, afonematik, həmhüdud siqnallar və s." [46, 340].

Dilin səs quruluşunun inkişafı həm nitq, həm qeyri-nitq vasitələri ilə formalaşır. Bu cəhətdən dilin sosial diferensiallaşmasında dil və nitq dixotomiyası xüsusi əhəmiyyətə malikdir. Səslərin müxtəlif sosial qruplar tərəfindən fərqli tələffüzü halları da bir çox səbəblərlə bağlıdır. Bura-

ya fərdin yaşadığı ərazinin dialekti, coğrafiyası, peşəsi, ideoloji baxışı, sinfi kimi xüsusiyyətlər aiddir. Sosial diferensiallaşmanın fonetik səviyyəsi, əsasən, səslərin uzanması, qısa tələffüzü, fonetik hadisələrin geniş yayılması ilə özünü göstərir.

2) Leksik səviyyə üzrə sosiallığın təzahürü. Dil sisteminin digər səviyyələrinə nisbətən leksik səviyyəsində sosial diferensiallaşma özünü daha çox göstərir. Ümumiyyətlə, leksik sistemdə sözlərin işlənmə dairəsi sosiallığın müxtəlif şəkildə inkişafı ilə bağlıdır. Bu cəhətdən sözləri iki yerə bölmək olar:

a) istifadəsi daha çox sosiallaşmış sözlər: *göz, baş, yağış, çay, gül* və s.

b) istifadəsi sosial şərtlənmiş sözlər: *əqidə, mədəniyyət, cəmiyyət, lider* və s.

Sosial faktorlar frazeologiyanın inkişafına da mühüm təsir göstərir. Burada xüsusən sosial təcrübə, xalqın adət-ənənələrinin, müdrikliyinin əhəmiyyəti böyükdür.

Leksik səviyyə üzrə sosial diferensiallaşma dilin sosial-sinfi, sosial-peşə, sosial-ideoloji, sosial-yaş, sosial-gender və s. diferensiallaşmalarında özünü göstərir.

3) Morfoloji səviyyə üzrə sosiallığın təzahürü. Bu səviyyə də digər səviyyələrə nisbətdə daha az sosiallıq fərqlərinə məruz qalır. Dilin sosial-ərazi və sosial-sinfi diferensiallaşmasında morfoloji səviyyə üzrə sosiallıq nisbətən çox gözə çarpır. Bildiyimiz kimi, morfoloji xüsusiyyətlər xüsusən kateqoriyalara aid olan şəkilçilər dilin daxili məhsuludur və burada sosiallıq o qədər də rol oynamır, ancaq dillərin qarşılıqlı təsiri nəticəsində şəkilçilərin alınması sosiallı-

ğın müxtəlif formalarda dildə ifadəsinə gətirib çıxardır. Bu proses daha çox sosial-sinfi diferensiallaşmada gedir, çünki müxtəlif təbəqələrə aid insanların, xüsusən yuxarı təbəqəyə aid insanların digər dillərlə kontaktı o dildən şəkilçilərin alınmasına gətirib çıxarır. Sosial-ərazi diferensiallaşmasında, yəni dialektlərdə şəkilçilər fərqli istifadə edilir.

4) Sintaktik səviyyə üzrə sosiallığın təzahürü. Morfoloji səviyyə ilə müqayisə edildikdə sintaktik səviyyədə sosiallıq çox təzahür edir. Sintaktik kateqoriyaların təşəkkülündə onlardan istifadə edən dil daşıyıcılarının xüsusi rolu vardır. Dil daşıyıcılarının müxtəlif sosial qruplara aid olması bu kateqoriyaların çoxluğuna səbəb olmuşdur. Sosial-nitq və sosial-dil bu kateqoriyalar üçün praktik vasitədir. Cümlənin aktual üzvlənməsi, söz birləşmələri, sintaktik əlaqələr və s. sintaktik səviyyədə diferensiallaşmanın əsas faktorlarındandır. "Sintaktik səviyyədə sosiallıq, "daşlaşmış" sintaktik konstruksiyalar, müxtəlif sintaktik alınmalar (məsələn, Azərbaycan dilində alınma izafət birləşmələri) üçün də səciyyəvidir" [46, s. 343].

Beləliklə, aydın olur ki, dilin sosial diferensiallaşmasının dil sisteminin müxtəlif səviyyələri üzrə təzahürü həmin dil səviyyəsinin sosiallığı ilə bağlıdır. Dilin hər bir səviyyəsində sosiallıq mövcuddur, çünki dil özü sosial münasibətləri yaradan vasitədir. Dilin müxtəlif səviyyələrində sosiallığın az və ya çox dərəcədə olması sosial diferensiallaşmaya birbaşa təsir edir. Ümumilikdə, deyə bilərik ki, dildə sosial diferensiallaşma leksik səviyyə üzrə daha çox təzahür edir.

2.3. Dilin sosial diferensiallaşmasının tədqiqi metodları

Metod araşdırılan obyektə, mövzuya yanaşma forması, hər hansı bir tədqiqat üçün istiqamət müəyyən edən texniki üsuldur. Metod müəyyən bir sistem şəklində mövcud olmalı, tədqiqatın səmərəli aparılması və tədqiqatçının işinin rahatlaşdırılması üçün əsas vasitəyə çevrilməlidir. N.D.Andreyev yazır ki, "Elmi metod idrakın uğurlarını təlim edən digər faktorlardan təcrid edildikdə, öz-özlüyündə bizi həqiqətə gətirmir, o, dərk etmənin gedişini səfərbər edir, intizamlı edir, alimə kompas kimi xidmət edir, ona vaxta və qüvvəyə qənaət etmək imkanı verir və daha rasional yolla həqiqətə yetməyə imkan yaradır" [76, s. 20]. Metodun həm də bir fəlsəfi termin kimi müxtəlif izahları olmuş və belə bir nəticəyə gəlinmişdir ki, əşya və hadisə haqqında biliklər hər hansı bir metodun nəzəri əsasını təşkil etmişdir, deməli, metodun nəzəri bazası mütləqdir. Beləliklə, obyektiv gerçəklikdəki qanunauyğunluqların insan şüurunda sistemə salınmış əksi metoddur.

Müxtəlif elm sahələrinin özünəməxsus metodları mövcuddur. Elm sahələrindən biri olan dilçiliyin son iki əsrdə sürətli inkişafı tədqiqatın daha səmərəli təşkili üçün müxtəlif metodların yaranmasını zəruri etdi. Digər metodlar kimi, dilçilik metodlarının da nəzəri əsasları, sayı haqqında müxtəlif mübahisəli fikirlər mövcuddur. Bu fikirlərdən bəzilərinə qısaca müraciət edək. V.İ.Koduxova görə, "Əsas dilçilik aspektləri təsviri, müqayisəli və normativ-üslubi metodlardır. Dilçilik metodlarının hər biri öz prinsip-

ləri və vəzifələri ilə səciyyələnir, öyrənilən hadisənin xüsusiyyətlərindən və tədqiqatçının qarşısında qoyulan xüsusi vəzifələrdən asılı olaraq, müxtəlif üsul və metodikaları birləşdirir və şəklini dəyişir" [90, s. 218]. Göründüyü kimi, tədqiqatçı dilçilik metodlarını konkretləşdirmir və araşdırılma məqsədinə görə metodların hətta şəklini belə dəyişəcəyini qeyd edir. A.Axundov üç dilçilik metodundan – təsviri, müqayisəli və dilçilik coğrafiyası metodlarından bəhs edir [5]. Ə.Rəcəbli dilçilik metodlarının nəzəri əsaslarını geniş tədqiqata cəlb edir və belə qənaətə gəlir ki, "Elmi metodika tədqiqatın bütün sahələrini – müşahidəni, material toplamasını, təhlilə lazım olan dil vahidlərini və onların xüsusiyyətlərinin müəyyənləşdirilməsini, təhlil vahidinin seçilməsini, izahın səciyyəsini və tədqiqatın aspektini əhatə edir" [41, s. 57]. O, altı dilçilik metodundan – təsviri, müqayisəli, tipoloji, struktur təhlil, coğrafi, sosiolinqvistik metodlardan bəhs edir.

Müxtəlif dilçilərin fikirlərinə əsaslanaraq, belə qənaətə gəlmək olar ki, dilçilikdə tədqiqat metodlarının sayı tam formalaşmamışdır. Lakin əksər dilçilər tərəfindən qəbul edilmiş metodlar vardır və bunlar belə qruplaşdırılır: təsviri dilçilik metodu, müqayisəli dilçilik metodu, struktur dilçilik metodu, dilçilik coğrafiyası metodu, tipoloji metod. Ümumilikdə, qeyd olunan metodlar linqvistik təhlilin müxtəlif istiqamətlər üzrə istifadə olunan metodlarıdır. Bu metodlar ənənəvi dilçilik sahələrini tədqiqata cəlb etmək üçün nəzərdə tutulub. Ancaq bütün elm sahələrində olduğu kimi dilçilik elminin də inkişafı nəticəsində yeni istiqamətlər meydana gəlmiş və nəticədə həmin sahələrə uyğun dilçilik metodlarının yaranma zərurəti ortaya çıxmışdır. Bu dilçilik

sahələrindən biri də sosiolinqvistikadır.

Sosiolinqvistik metodlar ənənəvi dilçilik metodlardan fərqlənir. Burada özünəməxsus sosioloji, riyazi və s. metodlarından istifadə olunur.

Sosiolinqvistik təhlil üçün bir neçə prinsip qəbul edilmişdir. Bu prinsipləri Ə.Rəcəbli belə qruplaşdırır:

"1.Sosiolinqvistikada sosial hadisə və linqvistik hadisənin hərəsinin özünəməxsus xüsusi strukturu vardır və spesifik funksiyalar yerinə yetirir, lakin bir-birinə qarşılıqlı təsir göstərir və bir-birini tamamlayır. Beləliklə, sosiolinqvistik vahid xüsusi ikili ölçüsü olan vahiddir" [46, s. 452].

2. Linqvistik olan hər şey həm də sosiallaşmış münasibətləri özündə əks etdirir və bunlar ilkin sosiallaşmış dil faktlarıdır, lakin əvvəl olan linqvistik proseslərə təsir göstərən sosial proseslər özündə törəmə münasibətləri əks etdirir. Bu prosesi Ə.Rəcəbli belə izah edir: "İlkin sosiallaşmış münasibətlər, necə deyərlər, uzun müddət üçün mühafizə edilmişdir (konservləşdirilmişdir), onlar müasir ictimai inkişafla bilavasitə əlaqədar deyildir. Biz onları şərti olaraq dilin daxili quruluşunu təcəssüm etdirən nisbi daimi olan kəmiyyətlər, vahidlər, münasibətlər hesab edirik, hərçənd, şübhəsiz, onlar da tarixi dəyişmələrə məruz qalmışdır" [46, s. 453]. Müəllifin fikri ilə tam razılaşmaq olmaz. İlkin sosiallaşmış münasibətlər anlayışı, dilçilik üçün doğru bir yanaşma deyildir. Sosiallaşmış münasibətlər istənilən dövrdə sabit deyil. Daha sonra müəllif fikrini davam etdirərək yazır: "Münasibətlər həyata səslənmiş sosial faktorlardan aslılığını itirmiş ilkin sosiallaşdırılmış dilin strukturu daxilində əlaqələr, qarşılıqlı münasibətlər və qarşılıqlı ziddiyyətlər

əsasında şəklini dəyişir. İlkin sosiallaşdırılmış münasibətlərlə struktur dilçilik, törəmə sosiallaşdırılmış münasibətlərlə sosiolinqvistika məşğul olur" [46, s. 453]. Bildiyimiz kimi, dilin daxili strukturu birdən-birə formalaşmamışdır. İbtidai insanlar üçün müxtəlif anlayışların ifadəçisi olan səslər, daha sonra sözlər bütöv bir cümləni əhatə etmişdir. İlkin sosiallaşdırılmış münasibətlərə bunları aid etsək, dilin daxili strukturu bir səviyyəli olmuşdur. Dilin daxili strukturu əslində sosiallaşmadan həmişə asılı olmuşdur. Buna görə də struktur dilçilik, müəllifin qeyd etdiyi kimi, yalnız sosiallaşmış dil strukturunu araşdırmalıdır. O, bu prinsipi dilin daxili strukturu fakt və hadisələrinin sosiolinqvistik təhlilin metodik üsulları adlandırır.

"3. Sosiolinqvistikanın əsas vəzifələrindən biri də dilin funksiyalarını öyrənməkdir. Dilin funksional inkişafını öyrənmək üçün aparılan təhlil metodları sosiolinqvistikanın qarşısında duran əsas vəzifələrdəndir.

4. Dil strukturunun daxili faktlarınının sosiolinqvistik baxımdan öyrənilməsi təhlil metodlarının dördüncü prinsipidir.

5. Qohum olan və qohum olmayan dillərin sosiolinqvistik aspektdə öyrənilməsi dilllərin inkişaf tarixinin qanunauyğunluqları baxımından önəmlidir" [46, s. 454].

Dilin sosial diferensiallaşmasının öyrənilməsi üçün dilçi mütləq şəkildə məlumatları toplamalı, daha sonra təhlil etməlidir. Buna görə də metodlar da iki yerə ayrılır: məlumat toplama metodları və toplanmış məlumatların linqvistik təhlili metodları.

İlkin məlumatları toplamaq sosiolinqvistika üçün həmişə aktual problemlərdən olmuşdur. Nəzərə alsaq ki, so-

siolinqvistik təhlil üçün informant özünü tam təbii şəraitdə hiss etməlidir, onda problemin mürəkkəbliyi daha da artır. Bu problemin həlli yolunu U.Labov dəqiq ifadə etmişdir. O, çöl tədqiqatlarının mürəkkəb aspektlərindən birini "müşahidəçinin paradoksu" (*hamı tərəfindən qəbul edilmiş doğru fikirlərlə, elmi mülahizələrlə düz gəlməyən qəribə fikir – A.F*) adlandırır. U.Labov bu paradoksun mahiyyətini belə açıqlayır: "Tədqiqatçının məqsədi insanların sistemli müşahidə obyektləri olmadıqları zaman necə danışıdıqlarını aydınlaşdırmaqdır, lakin bu məlumatları toplamaq üçün sistemli müşahidə zəruridir. Ancaq məsələ burasındadır ki, sistemli müşahidə öz-özlüyündə üslubi registrə təsir göstərən nitq situasiyası yaradır, informantı öz nitqini "təshih etməyə" yönəldir (yəni, informant çalışır ki, savadsız görünməmək üçün nitqini düzgün qursun) və adi gündəlik məişət üçün səciyyəvi olan ünsiyyətdən fərqli olaraq ədəbi dilə – standarta daha çox meyil edən nitqə stimullaşdırılır" [120, s. 22]. Sosiolinqvistik təhlil üçün tam təbii şərait çox önəmlidir. Bəzən müşahidələrin eyni zamanda, ya da eyni ərazidə aparılması insanlarda şübhə yaradar və nəticədə tədqiqatçı səhv nəticələrə gələ bilər.

Dilin sosial diferensiallaşmasının öyrənilməsi baxımından sosiolinqvistik məlumatların toplanması üçün dünya dilçiliyində artıq formalaşmış müxtəlif metodlar vardır. Düzdür, bu metodlar sabitliyi ilə seçilmir. Cəmiyyətdə sosial münasibətlərin yeni formalar alması, sosial dil əlaqələrinin informasiya texnologiyaları əsrində yeni formada qurulması, təbii ki, yeni metodların yaranması üçün şərait yaradır. Lakin buna baxmayaraq, sosiolinqvistik təhlil üçün

daha çox yayılmış materialların toplanması metodları vardır və onlar aşağıdakılardır:

Anketləşdirmə metodu – çöl tədqiqatları üçün sosiolinqvistikada ən geniş yayılmış metodlardan biridir. YUNESKO-nun məlumatına görə, aparılan hər on sosioloji tədqiqatdan doqquzu məhz bu metodla aparılır. Bu metodun sosioloji tədqiqatlar üçün xüsusi əhəmiyyəti olsa da, o, sosiolinqvistik tədqiqat üçün tam səmərəli metod hesab edilə bilməz. Bildiyimiz kimi, anketləşdirmədə qabaqcadan hazırlanmış suallar ya şifahi sorğu ilə, ya da yazılı formada informanta təqdim olunmalıdır. Bu isə informantın həmin suallara təbii şəkildə yanaşması, məlumatların heç bir süni əngəl olmadan düzgün şəkildə alınması ilə bağlı müəyyən şübhələr yaradır. Tədqiqatçı bunun üçün çox peşəkar olmalıdır. Anketləşdirmədə təbii şəraitə yaxınlaşmaq üçün tədqiqatçı psixoloji cəhətdən sualları elə qoymalıdır ki, informant məsələyə daha obyektiv formada münasibət bildirsin. Anketlər müxtəlif formada hazırlana bilər. Bu, tədqiqatçının məqsədindən asılıdır. Bəzən anketdə informanta suallar müxtəlif variantlı cavablar əsasında təqdim edilir. Bu cür sorğu müxtəlif sosial qruplara məxsus insanların sosial, psixoloji düşüncələrinin leksik bazasını leksik-semantik baxımından öyrənmək üçündür. Məlumat toplama metodları üçün tədqiqatçının həm də sorğu apardığı insanların sosial mənşəyini öncədən bilməsi araşdırmanın effektivliyini daha da mükəmməlləşdirə bilər. Tədqiqatçılar belə fikir irəli sürürlər ki, dilin variantlarından istifadə danışanın sosial xarakteristikasından asılıdır. Dil variantlarının müəyyən edilməsi üçün informantın sosial vəziyyəti, təhsil səviyyəsi,

müxtəlif yaş dövrlərində yaşadığı mühit və ya ərazi, valideynlərin sosial durumu, internet məkanına çıxışı və s. məsələləri əvvəlcə öyrənmək tədqiqat üçün əsas baza yaradır.

İnformantların nitq fəaliyyətinin üzərində müşahidələr aparmaq üçün maraqlı üsullardan biri **"iştirakçı müşahidəsi" (patricipant observation)** metodudur. Bu metodda tədqiqatçı müsahibə aparan şəxs sifətində deyil, kommunikativ aktın bilavasitə iştirakçılarından biri kimi iştirak edir. Bu metod müxtəlif kiçik qrupların nitq davranışlarını öyrənmək üçün əhəmiyyətli rol oynayır. Məsələn, C.Qamperz diqlossiya şəraitində "kodun keçirilməsi" ilə şərtlənən araşdırmasında bu metoddan istifadə etmişdir. Tədqiqatçı informantlar arasında sorğu keçirmək əvəzinə özü də onların söhbətinə qoşulmuşdur. O, belə bir nəticəyə gəlmişdir ki, söhbətlərin mövzusu dəyişsə də, nitq davranışları dəyişməmişdir. Bu da sosial davranışların mövzular üzrə xarakteristikasının müəyyənləşdirilməsində əsas rol oynamışdır. Bu metoddan istifadə edən U.Labov Nyu-Yorkda zənci məhəlləsində belə bir təcrübə aparmışdır. Düzdür, tədqiqatçı C.Qamperzdən fərqli olaraq özü sorğuda iştirak etməmişdir. Müşahidəçi rolunda əslən Nyu-Yorkun zənci məhəlləsindən olan, oranın dialektində gözəl danışa bilən köməkçisi olmuşdur. Aparılan tədqiqat dilin sosial diferensiallaşmasının öyrənilməsi üçün ən ciddi eksperimentlərdən sayılır. Burada videomikrofondan istifadə olunmuşdur. Bu da nəinki, onların dilinin xüsusiyyətlərinin, hətta mimika və jestlərinin xarakteristikasının öyrənilməsi üçün xüsusi əhəmiyyət daşımışdır. U.Labov müsahibənin proqramını elə mükəmməl formada hazırlamışdır ki, maksimum sərbəst-

likdən maksimum düzgünlüyə qədər nitqin üslubları arasında diferensiasiyanı müəyyən etmək mümkün olsun. Nitq situasiyasına nəzarət etmək və informantın həyəcanını azaltmaq üçün ona təklif edilir ki, həyatda təhlükədə qaldığı bir epizod, ya da hər hansı bir folklor materialı danışsın. Müsahib tam sərbəst olandan sonra tədqiqatçı mövzuya qayıdır və onun nitq davranışını müxtəlif dil səviyyələri üzrə araşdırmağa başlayır.

Yuxarıda sadaladığımız metodlar nəzarət olunan müşahidə metodlarıdır. Təbii ki, nə qədər mükəmməl formada hazırlansa da, onların tam təbii şəkildə dil faktları üçün əsas olduğunu demək mümkün deyil. Nəzarət edilməyən müşahidə metodlarından V.Y.Mixalçenko, U.Labov və b. dilçilər də istifadə etmişlər. V.Mixalçenkonun iclaslarda, kitabxanada, iş yerlərində, mağazada, küçədə və s. yerlərdə apardığı müşahidələr, U.Labovun Nyu-York əhalisinin nitq davranışları ilə bağlı apardığı "anonim müşahidələr" nəzarət edilməyən müşahidələrdir. Gizli mikrofonların, diktofonların köməyi ilə bu müşahidələri çox rahat şəkildə aparmaq mümkündür. Nəzarət edilməyən müşahidə metodlarının biri də, xüsusən son dövrlər daha çox yayılan sosial şəbəkələrdir. Burada müxtəlif sosial qruplara məxsus insanlar rahat şəkildə internet üzərindən müxtəlif məsələlərə münasibət bildirirlər. Bunu, əsasən, istifadəçilərin bir-birinin fikirlərinə yazdığı rəylərdən görə bilərik. Düzdür, bu metodlar informantı təbii şəraitə uyğunlaşdıran ən yaxşı metodlardandır, lakin onların özünəməxsus problemləri də vardır. Birinci növbədə, tədqiqatçı istədiyi materialı əldə etmək üçün çoxlu müşahidə aparmalıdır, çünki informantın

nitqinə nəzarət edə bilmir. İkincisi, tədqiqatçı informantın sosial qrupunu əvvəlcədən bilmədiyi üçün təbii ki, bu da dəqiq fikirlərin söylənilməsi üçün probemlər yaradır. Bütün bunlara baxmayaraq, nəzarət edilməyən müşahidə üsulları informantı təbii şəraitdə müsahibəyə cəlb etmək üçün mükəmməldir. Toplanan məlumatların etibarlılıq dərəcəsini nəzərə alsaq, onların dil xüsusiyyətlərinin doğru təhlili üçün təbii mənbə rolunu oynayacaq.

Dilin sosial dialektlərinin toplanmış materiallar üzrə təhlili üçün bir çox sosiolinqvistik təhlil metodlarından istifadə edilir. Bu metodları aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Korrelyasiya təhlili metodu – Bu təhlil metodundan bu və ya digər situasiyadan asılı olan və olmayan kəmiyyətlərin qarşılıqlı əlaqələrini araşdırmaq üçün istifadə olunur. Korreliyativ təhlildə dil və sosial əlamətlərin birgə variasiyalanması şəraiti aşkara çıxarılır. Bu təhlilin üsullarından geniş şəkildə "Rus dili kütləvi tədqiqat materialları üzrə" əsərində istifadə edilmişdir. Həmin əsərdə təhlil ardıcıl şəkildə müəyyən sistem üzərində qurulmuşdur. "Hər bir sosial kəsik – yaş, təhsil, sosial vəziyyət, ərazi xarakteristikası, gender və s. üzrə ayrıca təsvir olunur və sosiolinqvistik baxımından mükəmməl şəkildə təhlil olunur. Cədvəllərdə əks olunmuş məlumatlar müəyyən asılılıq qrafikləri ilə əhatə olunmuşdur. Daha sonra, dil variantlarının yayılmasına sosial əlamətlərin təsirinin diapazonu və gücü səciyyələndirilir" [100, s. 28] .

Tədqiqatçılar belə hesab edirlər ki, "Diapazonun kəmiyyəti (D) informantların sosial xarakteristikalarından asılı olaraq istifadə edilən hadisələrin sayının dil strukturu-

nun verilən tipi və ya verilən səviyyəsinin nəzərdən keçirilmiş hadisələrin variativlərinin ümumi sayına nisbəti ilə ölçülür. Təsir gücünün kəmiyyəti (F) verilən variativ hadisənin sosial qruplarda kəmiyyətcə yayılmasını səciyyələndirən orta variasiya genişliyinin bu hadisənin orta tezliyinə nisbəti ilə ölçülür" [46, s. 481]. Bunu aşağıdakı düsturla hesablayırlar:

$$“F_y = R_x P_x$$

Burada F_y - hansısa y sosial əlamətin (məsələn, yaşın) verilən tipin variantlarının istifadəsinə təsir gücü, R_x – x variantiv hadisənin reallaşdırdığı leksemlərin sosial yayılmasını səciyyələndirən orta variasiya genişliyi, P_x hadisənin orta tezliyini ifadə edir. Bu düsturu tətbiq etməklə həmin kitabın müəllifləri müəyyən etmişlər ki, fonetik hadisələri əhatə etmək diapozonuna görə sosial əlamətlər bu cərgə üzrə yerləşir: 1) ərazi, 2) yaş, 3) sosial vəziyyət, 4) ailənin təsiri, 5) təhsil, 6) radionun təsiri [46, s. 482]. Göründüyü kimi, bu düsturun konkret nəticələrə əsaslanan xüsusiyyəti olsa da, dil variativliyinin müəyyən fərdlər üzrə təcrübə aparmaqla əldə olunan nəticənin tam reallığı əks etdirməsini şübhə altına qoyur.

2. Qarşılaşdırma metodu – "Sosial şərtlənmiş dil strukturunun sosial variantlarını öyrənmək üçün bu təhlil metodundan da geniş istifadə edilir və iki mərhələdə aparılır. Birinci mərhələ leksik vahidlərin seçilməsi, ikinci mərhələ leksik-semantik baxımdan həmin vahidlərin təhlilidir. Leksik-semantik səviyyədə təhlil həm ifadə, həm də məzmun planında aparılır. İfadə planında identik olan, məzmun planında bir-birindən fərqlənən vahidlər leksik-semantik

divergentlər, ifadə planında bir-birindən fərqlənən, lakin məzmun baxımından uyğun olan vahidlər leksik-semantik analoqlar adlandırılır" [46, s. 486]. Öncə leksik-semantik divergentə aid bir nümunəyə nəzər yetirək: Ümumi slənqdə (sadə xalq danışıq dilinin variantları) ingilis dilinin Amerika variantında *the Man* leksik vahidi "polis nəfəri", Amerika zəncilərinin dialektində "ağ adam", narkomanların arqosunda "narkotika satıcısı", musiqiçilərin jarqonunda "caz orkestrinin və ansamblın rəhbəri" mənasını bildirir. Göründüyü kimi, burada bir söz sosial qruplarda müxtəlif leksik-semantik variantları özündə əks etdirir.

Leksik-semantik analoqlar qrupunda bir şəxs və ya əşyanın adının müxtlif sosial qruplarda fərqli şəkildə adlandırılmasından söhbət gedir. Məsələn, policeman "polis nəfəri" müxtəlif sosial dialektlərdə fərqli şəkildə olan sözlərlə adlandırılır: *pig, big, John, cop, fuzz, the man, blue boy* s.

Qarşılaşdırmanın mühüm əlamətlərindən biri də sosial nişanlanmadır. Sosial nişanlama ikitərəfli olur. Burada əlamətlərin köçürülməsi məsələsi çox önəmlidir. Bir misala nəzər yetirək. Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar xarici ölkələrdən ölkəmizə qayıtmaq istəyən Azərbaycan vətəndaşları üçün www.evegedirem.info adlı bir sayt yaradılmışdır. Burada saytın adı olan "**Evə gedirəm"** cümləsində situtativ məqama görə sosial nişanlanma ikitərəflidir. Birincisi, həqiqi, real mənadadır, yəni qayıdanlar həqiqətən evinə qayıdır. İkincisi isə daha geniş – *vətənimə qayıdıram* anlamındadır.

Beləliklə, dilin sosial diferensiallaşmasının öyrənilməsi üçün xüsusi sosiolinqvistik tədqiqat metodlarına əsaslan-

maq lazımdır. Aparılan təhlillərdə real nəticələrə gəlmək üçün dil faktlarının təbii şəraitdə götürülməsi mühüm şərtlərdəndir. Tədqiqatın məqsədindən asılı olaraq müxtəlif sosial qrupların ilk növbədə yaşadığı mühiti, təhsili, ailə tərbiyəsi, yaşadığı ərazi, cinsi, yaşı və s. xüsusiyyətləri müəyyən edilməlidir. Təhlil üçün informant fərdi şəkildə seçilsə də, tədqiqatçı üçün bu yalnız ilkin fikirləri formalaşdırmalıdır. Geniş təhlillər üçün müəyyən qrupa məxsus çoxlu informantdan istifadə etmək vacibdir, əks təqdirdə tədqiqatın nəticəsi yanlışlıq üzərində qurular [23, s. 197-201].

Deyilənləri yekunlaşdıraraq belə qənaətə gəlmək olar ki, dilin sosial diferensiallaşması müxtəlif sosial mühitlərin təsiri ilə yaranır. Fərqli sosial mühitlər, o cümlədən cəmiyyətdə baş verən iqtisadi, mədəni, elmi dəyişikliklər dildə sosial fərqlərin yaranması üçün baza rolunu oynayır. İnformasiya texnologiyalarının inkişafı təbii-sosial mühitlərə başqa cür yanaşmanı tələb etdiyi üçün dildə baş verən proses və dəyişiliklərin müəyyən bir istiqamət üzrə təhlilini aparmaq çox diqqət tələb edir. Aparılan tədqiqatın yanlış istiqaməti dildə sosial diferensiallaşma probleminin səbəbini tapmaqda çətinlik yaradar.

III FƏSİL

DİLİN SOSİAL DİFERENSİALLAŞMASININ İSTİQAMƏTLƏRİ

Dilin sosial diferensiallaşması cəmiyyətdə gedən sosial proseslərin dildə öz əksini tapması ilə formalaşır. Müxtəlif sosial qruplara və sosial statuslara malik olan insanlar dildən fərqli şəkildə istifadə edirlər. Bu qrupları bir neçə istiqamətdə bölmək mümkündür. Tədqiqatımızda dildə sosial diferensiallaşmanın öz əksini daha qabarıq şəkildə tapdığı bir neçə qrup üzrə araşdırma aparmışıq. Bu istiqamətlər gender, yaş, peşə, ideologiya və siniflər üzrədir. Məhz qeyd olunan mövzuların seçilməsi problemin bu istiqamətlərdə özünü daha qabarıq ifadə etməsi ilə bağlıdır.

3.1. Dildə gender əsaslı sosial diferensiallaşma

Kişilər və qadınlar arasında fərqli xüsusiyyətlərdən biri də onların dildən müxtəlif şəkildə istifadə etməsi ilə bağlıdır. Qadın dili və ya kişi dili anlayışı fərqli dillərin mövcud olması anlamına gəlməməlidir. Bu, qarşı cinslərin nitqində xüsusi fərqlərin müşahidə olunduğu bir danışıq tərzidir.

Dildən cinslərin fərqli istifadə etməsi haqqında qədim dövrlərdə də müəyyən mülahizələr olmuşdur. Antik dövrün filosoflarının əsərlərində cinslərin dildən fərqli şəkildə istifadəsi ilə bağlı fikirlərə o qədər də rast gəlinməsə də, Herodotun Sarmatlarla bağlı qeydində maraqlı bir fakt vardır. Belə ki, “Bu tarixi mənbəyə görə, iskit gəncləri amazon tay-

falarına yaxın əraziyə köçürlər. Məqsədləri amazonlularla nəsillərini çoxaltmaq idi. Öz məqsədlərinə çatsalar da, bu fərqli etnoslar bir-birinin dillərini başa düşmürdülər. Kişilər qadınların dilini öyrənməyə meyilli olmadığından, qadınlar kişilərin dilini öyrənməyə məcbur olurlar. Herodot bu vəziyyəti qadınların dilə qarşı kişilərdən daha həssas olması ilə izah edir" [67, s. 41].

Tədqiqatlarda cinslərin dildən fərqli şəkildə istifadəsi ilə bağlı həmişə müxtəlif kontekstlərdə yanaşmalar əks olunub. Bu barədə alman dilçisi V. fon Humboldtun fikri diqqəti cəlb edir. Ona görə, qadınlar dildən kişilərdən fərqli istifadə edir: "Bir millət içində insanların ilk təbii fərqi cins və yaşla bağlıdır. Özünü canlı və açıq bir şəkildə göstərən qadın özəlliyi, təbii ki, dilə qədər uzanır. Qadınlar özlərini kişilərdən daha təbii, ancaq onlardan daha güclü ifadə edirlər. Qadınların dilləri düşüncələrinin və duyğularının bahalı bir güzgüsüdür. Qadınlar öz dillərini bütün dövrlərdə qorumağa çalışırlar. Bu yolla milləti, cəmiyyəti bölünmə təhlükəsindən qoruyurlar. Əslində qadın dili xüsusi bir dil yaratmır, millətin ortaq ruhunu yaşadır" [67, s. 42].

Cinslərin dildən fərqli şəkildə istifadə etməsi dilçilik üçün təqribən XX əsrin II yarısından başlayaraq yeni bir tədqiqat sahəsinə çevrilib. Bu sahənin digər adı gender dilçiliyidir. Gender dilçiliyinə aid ilk tədqiqatlar german və roman dil qrupları əsasında aparılmaqla, dilin "kişilik" və "qadınlıq" xüsusiyyətləri üzə çıxarılmışdır. Keçmiş SSRİ məkanında ilk dəfə olaraq bu sahədə tədqiqatlar XX əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərində rast gəlinmişdir. Gender dilçiliyi elə bir sahədir ki, burada dilçiliyin müxtəlif

sahələrinə müraciət etməklə maraqlı nəticələr əldə etmək olar. Ümumiyyətlə, gender tədqiqatları dilçilikdə aşağıdakı bir neçə istiqamət üzrə aparılır:

"1. sosiolinqvistik gender tədqiqatları,

2. feminist dilçiliyi,

3. bilavasitə gender tədqiqatları (hər iki cinsin davranışının öyrənilməsi),

4. maskuliniliyin öyrənilməsi,

5. psixolinqvistik tədqiqatlar,

6. krossmədəni, linqvomədəni tədqiqatlar" [92, s. 36].

Dil və cins mövzusu daha çox feministlər tərəfindən tədqiqata cəlb olunmuşdur. XX əsrin 60-70-ci illərində feminist dilçiliyin yaranması ilə gender tədqiqatları daha geniş vüsət aldı. Bu barədə dünya dilçiliyində maraqlı əsərlər yazılmaqla, kişi və qadın "dili"nin müəyyən xüsusiyyətləri ortaya çıxarıldı. Bu dilçilərdən C.Qremel-Plestini, L.Puşuni, E.Qroşkonu, A.Nilseni, R.Lakoffu və b. göstərmək olar.

Feminist dilçilikdə iki istiqamət xüsusilə fərqləndirilir. Birinci istiqamətin nümayəndələri dünya dillərində qadın obrazının alçaldılması faktlarını öyrənir. Onların fikrincə, dünyada bütün dəyərlər kişi gözü ilə ölçülür. Məhz bu cəhətə görə dünyanın bütün dilləri "kişi" dili adlandırılır. Dildə hətta qadın obrazı belə neqativ qiymətləndirilir. Onlar üçün əsas istiqamət dilin leksikasıdır. E.Qoroşko qeyd edir ki, bir çox Avropa dillərində qadın obrazına çox vaxt mənfi xüsusiyyətlər aid edilirdi ki, bu da frazeologiyada öz əksini tapıb [139]. O. Kolosovun fikrincə, mənfi xarakterizələr belə qiymətləndiriləndə qadına aid xarakterlərdən istifadə olunur [91, s. 120-145]. A.P.Nilsen qeyd edir ki, çox

vaxt kişi cinsi ilə bağlı olan söz nüfuz statusu daşıyır. Bu səbəbdən onların əsasında mürəkkəb sözlər və söz birləşmələri (brotherhood, spokesman və s.) yaranıb [127]. Tədqiqatçıların fikirlərini ümumiləşdirsək, deyə bilərik ki, bir çox sahələrdə kişilərin hakim mövqe qazanması bəzən qadınları siyasət, idman, təhsil və s. sahələrdən kənarlaşdıraraq məhdudlaşdırmışdır. Feminist linqvistikanın nümayəndələri düşünürlər ki, müasir cəmiyyətdə gender bölgüsü müəyyən edilib, belə ki, kişi yaradıcılıqla, qadın isə ev işləri, uşaqların tərbiyəsi ilə məşğul olmalıdır.

Feminist linqvistikanın diskursiv istiqamətinin nümayəndələri xüsusilə mətn və cəmiyyət arasında qarşılıqlı əlaqənin strukturunun öyrənilməsi üzərində dayanırlar. Onlar daha çox gündəlik situasiyada dildən istifadə formalarının tədqiqatını aparırlar. Feminist dilçilərin fikrincə, nitq fəaliyyətinin qadın və kişi tərzi vardır. Belə hesab edirlər ki, kişi və qadın nitq tərzi kişi və qadın partnyorun deyilən fikrə reaksiyasını, onların seçim və korreksiyasını nəzərə almaq dərəcəsindən asılı olaraq fərqlənir. Kişi daha çox öz fikrini irəli sürən və onun arxasınca gedən, qadın isə partnyorun fikrinə doğru yönələndir.

Bir çox tədqiqatçılar feminizm ideologiyasına postmodern fəlsəfənin bir hissəsi kimi baxırlar. Feminizm linqvistikasında cinslər qeyri-bərabər təqdim edilir, bu cəhətdən feministlər dildə androsentrizm və ya başqa cür adlandırılan gender asimmetrikliyini qəbul edirlər. Androsentrizm – müxtəlif cinslərə mənsub şəxslərin dildə qeyri-bərabər təmsil olunmasıdır. Androsentriklik isə dilin kişiyə yönəlməsi deməkdir. Feminist linqvistikada androsentrizm aşa-

ğıdakı əlamətlərə ayrılır:

"1. "İnsan" və "kişi" anlayışları eyniləşdirilir. Bir çox Avropa dillərində onlar eyni sözlə ifadə edilir: *man* (ingiliscə), *homme* (fransızca), *mann* (almanca), *kişi* (türkcə).

2. Qadın cinsinə mənsub olan, demək olar ki, bütün isimlər kişi cinsinə mənsub olan isimlərdən törəyir və özündə neqativ dəyərləndirməni daşıyır.

3. Kişi cinsinə mənsub olan isimlər istənilən cinsə aid olan şəxsi ifadə etmək üçün işlədilir. Dil bu cəhətdən kişi formalarına üstünlük verir.

4. Sintaktik səviyyədə uzlaşma referentin real cinsinə görə deyil, müvafiq nitq parçasının qrammatik cins formasına görə aparılır" [103, s. 277].

Androsetrikliyin yuxarıda qeyd edilən əlamətləri ingilis və alman dilləri üzrə aparılan tədqiqatlar nəticəsində üzə çıxarılmışdır. Ümumiyyətlə, digər araşdırmalar da göstərir ki, istənilən peşəyə aid cinsə mənsub olan şəxsi ifadə etmək üçün dildə kişi formasına üstünlük verilir. Dildə gender assimmetriyasının öyrənilməsi Səpir-Uorf nəzəriyyəsinə əsaslanır. Qeyd edilən nəzəriyyəyə görə, dil təfəkkür və mentallığın formalaşması vasitəsidir ki, bu da tədqiqatçılara bütün dillərin, əslində, həmçinin kişi dilinin dünyanın kişi mənzərəsi əsasında yarandığını iddia etməyə imkan verir. Elə buna görə də feministlər dil siyasətinin şüurlu nizama salınmasının tərəfdarıdırlar.

Feminist linqvistika bir çox nəticələrə nail olmuşdur. Onlar dildə feminist islahat aparmaqla, hətta dil siyasətinə də böyük təsir göstərmişdir. Dil normalarında bəzi dəyişikliklərə nail olublar. Xüsusən dilin leksik səviyyəsində bu "is-

lahat" daha aydın gözə çarpır. Feministlərə görə, leksikaya qadınları işarə edən, xüsusilə qadının mahiyyətini və təbiətini təsvir edən yeni sözlər daxil etmək zəruridir. Müasir dövrdə qərb ölkələrində iş təklifləri ilə bağlı elanlar çap olunan zaman peşələrin kişi və qadın adları göstərilir. İndi hüquqi və rəsmi-işgüzar mətnlərdə cinsə əsasən şəxsiyyət müəyyən edilir, məs: *actor – actorisa*. Təbii ki, hazırda da feministlər dildə qadınlıq xüsusiyyətlərini bildirən yeni sözləri çoxaltmağın tərəfdarıdırlar.

Dilin cinsə görə diferensiallaşması ilə bağlı ən böyük tədqiqat əsərlərindən biri də R.Lakoffun "Dil və qadının yeri" (Language and the Woman's place) əsəridir. Bu əsərlə R.Lakoff dildən istifadənin kişi və qadının tərzlərinin əsas xüsusiyyətlərini demək olar ki, ortaya çıxara bilmişdir. Bu araşdırma sonrakı tədqiqatlar üçün əsas mənbə rolunu oynamışdır.

R.Lakoffa görə, dildən fərqli istifadə insan həyatının ilk dövrlərində valideynlər tərəfindən yaradılır. Tədqiqatçı bildirir ki, kişilərin istifadə etdiyindən tamamilə fərqli olan qadınların istifadə etdiyi bir "qadın dili" mövcuddur. Apardığı sosiolinqvistik sorğuların nəticəsinə əsasən R.Lakoff "qadın dili"nin aşağıdakı xüsusiyyətlərini üzə çıxartmışdır:

1. Qadınlar "qadın işi" olaraq adlandırılan (tikiş, yemək bişirmə və s.) işlərlə bağlı xüsusi söz ehtiyatına malikdirlər.

2. Qadınlar daha çox "xoş" qiymət bildirən sifətlərdən istifadə edirlər (*sweet – şirin, divine – ilahi, cute – ağıllı, hazırcavab, zirək, dan. xoş, qəşəng, məlahətli*).

3. Təsdiq bildirən cümlələr işlədərkən, onunla

bərabər təsdiq üçün qısa suallar istifadə etməyi xoşlayırlar, məs: *Bu gün məktəbə gedərsən, elə deyilmi?*

4. Danışanın fikrindən əmin olmadığı düşüncəsini yaradan cavablardan çox istifadə edirlər, dialoqlara üstünlük verirlər. *"Yəni", "sən bilərsən"* kimi qısa cavablar bildirən ifadələrdən istifadə edirlər.

5. "Elə" əvəzliyindən sıx istifadə edirlər. Bu söz duyğu və düşüncələri daha geniş formada göstərmə imkanını yaradır.

6. Şişirdilmiş nəzakətli nitq etiketlərindən çox istifadə edirlər.

7. Qadınlar lətifə danışmağı xoşlamırlar.

8. Kişilərə nisbətən qadınlar qrammatik qaydalara daha çox riayət edirlər.

9. Qadınlar öz duyğu və düşüncələrini başqalarına dəstək olan vaxt ifadə edirlər.

10. Qadınlar sual və ifadələr işlədərkən nisbi ədatlardan istifadəyə üstünlük verirlər.

11. Qadınlar üçün vasitəli nitq aktı xarakterikdir. Onlar çox vaxt nəzakət və yumşaltma formalarından istifadə edirlər. Güclü duyğu və iddialarını daha yumşaq şəkildə ifadə edirlər.

12. Qadınlar çox vaxt kiçiltmə şəkilçilərinə müraciət edirlər.

13. Nitq davranışında qadınlar hakim mövqe tutmurlar, onlar qulaq asmağı və həmsöhbətin problemləri üzərində fikrini cəmləşdirməyi bacarırlar.

14. Qadınlar kişilərin istifadə etmədikləri sözləri işlədirlər (məsələn, mauve (məuv) "açıq çəhrayı-bənövşəyi".

15. Qadınlar kişilərin təsdiq formalarını işlətdiyi yerdə sual formalarından istifadə edirlər.

16. Qadınlar, əsasən, tərəddüd, şübhə, inamsızlıq ifadə edən formaları işlədirlər (*well, you know, I guess, I thing – yaxşı, siz bilirsiniz ki, mən təxmin edirəm, mən güman edirəm*).

17. Qadınlar daha çox qüvvətləndirici ədatlardan istifadə edirlər (*so nice, very nice*).

18. Kişilər və qadınlar danışıq zamanı özlərini müxtəlif cür aparır, söhbət prosesində dildən fərqli şəkildə istifadə edirlər. Bu cür hallar, adətən, danışığın əsas mövzusundan uzaqlaşmaların sayı, bir mövzudan digərinə keçid, digər həmsöhbətə gözlənilmədən müraciət, həmsöhbətin sözünü kəsmə və s. formalarda özünü göstərir [121, s. 53-57].

R.Lakoffa görə, cinslərin uşaqlıqdan tərbiyələndirilməsi fərqli olduğundan daha sonra bu, dildən də fərqli şəkildə istifadə etməyə səbəb olur. Qız uşaqlarının oğlan kimi qışqırması qəbul edilmədiyindən, oğlan uşaqlarının bunun əksi kimi hərəkətlərinin qəbuledilməzliyi sonradan böyüdüyü mühitə uyğun davranışlar sərgiləməsi dildən cinslərdən fərqli şəkildə istifadəsinə əsas yaradır.

Sosiolinqvistikada dildə gender fərqləri ilə bağlı aparılan araşdırmalarda yeni bir mərhələ yaradan R.Lakoff tədqiqatında bu fərqlərə *əskiklik yanaşması* (defict approach), üstünlük yanaşması (dominance approach), *fərqlilik yanaşması* (difference approach) və *sosial konstruktur* (social-constructionist) yanaşması kimi terminləri gətirmişdir. R.Lakoff qadınların əskik dildən istifadəsinin səbəbini onların cəmiyyətdə gücsüz mövqedə durması ilə izah edir [110].

"Üstünlük" yanaşması ilə bağlı tədqiqatlar aparan

D.Maltz, N.Borker və D.Tannen qadın-kişi nitq diferensiyalaşmasının bəsit və təsadüfi diferensiasiya olmadığı fikrindədirlər və bu fərqlərin kişilərin qadınlar üzərində ictimai üstünlükləri ilə bağlayırlar. "Həqiqətən də, qadınların danışma tərzi daha çox mehribanlıq, dostluq şəraiti üzərində qurulur, halbuki, kişilərin danışığında daha çox iş birliyi, peşə ilə bağlı ifadələrə üstünlük verilir" [128, s. 227].

"Fərqlilik" yanaşmasında isə qadınların kişilərdən fərqli yarım mədəniyyətə mənsub olduğu əsas götürülür. 1980-cı illərdə qadın və kişi yarım mədəniyyətlərinin olması ilə bağlı tədqiqatlarda sübut olunması, şübhəsiz ki, qadınların apardığı mübarizənin nəticəsidir. "Mədəniyyət" sözü həmin dövrə qədər "kişi mədəniyyəti" anlayışı ilə eyni sayılırdı. Tədqiqatlar isə sübut elədi ki, qadınlar fərqli həyat təcrübələrinə və psixologiyaya malikdirlər və nəticədə "qadın mədəniyyəti" anlayışı da termin kimi işlədilir. Fərqlilik yanaşmasının ən böyük nümayəndəsi D.Tannendir. O yazır: "Qadınların və kişilərin olduqca fərqli ünsiyyət formaları, nitq tərzləri olduğunu və bu tərzlərin köklərinin qadınların və kişilərin uşaqlıqda bir-biri ilə qurduqları oyun qruplarındakı ilk sosiallaşma ilə bağlıdır. Fərqlilik yanaşmasına görə qızlar bərabərliyin, dostluğun ön planda durduğu qruplarda yer alırlar. Kişilər isə rəqabətin olduğu oyun qruplarda aktiv olurlar. Bu səbəbdən də kişilər danışıqlarında sıx-sıx hökm etməyə, söhbəti kəsməyə və ya mövzunu ani dəyişməyə meyillidirlər" [128, s. 225].

Kişi və qadın nitqini ayıran xüsusiyyətlər bioloji fərqlərdən qaynaqlanır, yoxsa cəmiyyətin qadın və kişi üzərində qoyduğu müəyyən davranışlar, vəzifələr əsas rol oyna-

yır? Düşünürük ki, bu, tədqiqatçıları maraqlandıran əsas suallardan biridir. Bəzi araşdırıcılar bioloji cinsiyyətlə sosial cinsiyyət arasında elə bir fərq olmadığını qeyd edir, amma sosiolinqvistlər bunların fərqli olduğunu göstərirlər. Bəzi sosiolinqvistlər (Mc Cormick, M.Meyerhoff) sosial cinsiyyəti bioloji cinsiyyət kimi sadə qəbul etmirlər, burada insanlararası əlaqələr, mədəniyyət normaları və qadağalara olan bağlılıq sayəsində qazanılan, ya da yaradılan sosiomədəni və sosiopsixoloji çərçivə şəklində göstərirlər. Bu çərçivə isə cəmiyyətin qadına və kişiyə verdiyi rol və davranışların yaranması üçün əsas olur. Düzdür, qadın və kişilərin nitq davranışlarında bütün prosesləri sosial cinsiyyətlə bağlamaq da bir o qədər dəqiq olmaz. Məsələn, ana dilini qızların oğlanlardan daha tez öyrənməsi, oğlanların səsinin qızların səsinə nisbətən daha uca olması, qızların səsində melodiklik kimi faktorları bioloji cinsin dildən istifadəyə təsiri kimi götürə bilərik.

Bəzi tədqiqatçılar kişilərin qadınlardan daha çox danışması mövqeyi ilə həmfikirdirlər. "Kişilər öz aralarında daha çox yarışla, idmanla, siyasətlə bağlı mövzularda danışırlarsa, qadınlar aralarında duyğular, digər insanlarla olan münasibətləri, ailə-məişət məsələləri haqqında danışmağı xoşlayırlar. Qadınlar kişilərdən daha çox kübar ifadələr işlədirlər" [135, s. 324-325]. Digər yanaşmaya görə, qadınlar kişilərdən çox danışırlar. Bunu bioloji səbəblərlə izah edirlər. Belə ki, beyinin hipotalamus adlanan kiçik bir hissəsi belə inkişafın əsasıdır. Hər iki cinsdə bu hissə öz quruluşu və funksiyasına görə tamamilə fərqlidir. Qadın beyni öz həcminə görə kişi beyni ilə müqayisəyə gəlməsə də, o daha "yaxşı qurulmuş-

dur", daha səmərəli işləyir və nəticədə kişi beynini xeyli geridə qoyur. Qadın beyni kişi beynindən həcmcə kiçik və çəkisi azdır. Ancaq insanların beynində Broke ərazisi adlanan nöqtə var ki, bu da qadınlarda nisbətən çox inkişaf edib. Qadınların çox danışmağının da əsas səbəbi budur [141]. Bizim apardığımız müşahidələr də göstərir ki, qadınlar kişilərə nisbətən çox danışmağa meyillidir.

Dil davranışlarında cins fərqləri ilə bağlı maraqlı tədqiqatlardan biri də R.Vardaufundur. O, dil davranışında cins fərqlərinin olduğunu qəbul edir və bunun aşağıdakı xüsusiyyətlərinin olduğunu göstərir:

"1. Qadınlar və kişilər bioloji olaraq fərqli olduğundan dolayı yolla bu fərqlər bir çox şeylərdə özünü göstərir. Qadınlar psixoloji olaraq dəstəkləyən və rəqabətə meyilli olmayan bir xarakterə sahibdirlərsə, kişilər əksinə, mübariz bir xarakterə sahibdirlər.

2. Dil davranışları kişi gücünün təsiri altındadır. Kişi vəziyyətə nəzarət etmək, mövzuları seçmək, müdaxilələr etmək gücündədir. Bu səbəbdən də qadınlar gücə güc göstərmək məcburiyyətindədir. Qadınlar daha zəif ictimai əlaqələrə malikdir, buna görə standart dil formalarına daha meyilli olurlar.

3. Üçüncü iddia budur ki, qadınlar və kişilər sosial varlıq olduqlarından dil davranışlarını cəmiyyətdən öyrənirlər. Belə ki, kişilər kişi xüsusiyyətlərini, qadınlar da qadın xüsusiyyətlərini cəmiyyətdə təcrübə qazanmaqla öyrənir" [135, s. 326-327].

Dildə cins fərqləri öz ifadəsini kişilər və qadınlar arasında olan ünsiyyətdə müxtəlif situativ hadisələr zamanı

göstərir. Xüsusən, yanlış ünsiyyət bir çox məqamlarda gözə çarpır. Qadınlar və kişilər arasında danışıq prosesində aşağıdakı yanlış ünsiyyət prosesləri müşahidə olunur:

"1. **Suallar vermək**. Burada 2 fərqli yanaşma vardır. Qadınlar sualları söhbətin uzanması üçün verirlərsə, kişilər sualları məlumat almaq üçün verirlər.

2. **Sözü kəsmək**. Bu proses qadınların və kişilərin nitqində fərqli şəkildə ortaya çıxır. Qadınların söz kəsməsi mənfi və qarışıq şəkildə alınır, kişilərin söz kəsməsi söhbəti idarə etməsinə xidmət edir.

3. **Mövzu axını və mövzu dəyişdirmə**. Kişilər bir mövzuda söhbəti davam etdirib fikri bitirir, qadınlar isə bir mövzudan digər mövzuya keçməyi xoşlayırlar.

4. **Problemlərin paylaşılması və başqalarına məsləhət verilməsi**. Qadınlar problemlərini bir-birinə deməkdən çəkinmirlər, kişilər isə şəxsi problemləri haqqında digərləri ilə danışmağı xoşlamırlar" [123, s. 430].

Kişi və qadın psixologiyasının fərqi onların danışıq tərzlərində də aydın görünür. "Kişilərin çoxu ictimai yerlərdə danışarkən, qadınlar isə şəxsi mövzularda olan söhbətlərdə özlərini rahat hiss edirlər" [132, s. 60]. Əslində, kişilərin ictimai yerlərdə fikir bildirməsi, söhbət etməyə daha çox meyilli olması onların psxioloji təbiəti ilə bağlıdır və özünü təsdiq etmək məqsədini daşıyır. "Kişilərin çoxu üçün danışmaq müstəqilliyi cəmiyyətdə özünü qorumanın, mövqe əldə etməyin bir yoludur" [132, s. 60]. Bunu reallaşdırmaq üçün kişilər hadisə anlatmaq, zarafatlaşmaq, ya da yeni məlumat vermək yolu ilə diqqəti özlərinə çəkmək istəyirlər.

Qadınların istifadə etdiyi dil bəzi fikirlərə görə, kişilərin danışdığı dildən törəmədir. Bu barədə D.Spenderin "Kişinin düzəltdiyi dil" (Man made laguage) adlı məqaləsində müəyyən qeydlər vardır. D.Spender qeyd edir ki, bu mövzu ilə bağlı üç əsas səbəb vardır: reallıq və düşüncə üzərindən dilin qurulması, qadınların səssizliyi, dildə cinsiyyətçilik. D.Spenderin ideyalarının əsasında düşüncənin quruluşu və dilin kodlaşması durur. Qadınlar kişilərin kodlaşdırdığı dili istifadə etmək məcburiyyətindədirlər, çünki güc kişilərin əlindədir. D.Spender kişilərin özlərini ana fiqur kimi göstərdiklərini və reallığı da öz mövqeyinə görə istiqamətləndirdiyini düşünür: "Güc qrupu olaraq kişilər dili, düşüncəni və gerçəkliyi yaradandır. Tarixən müxtəlif kateqoriya və anlayışlar kişilər tərəfindən ortaya atılmışdır. Təbii ki, bu yeniliklərə görə bütün kişilər söz sahibi olmamışdır. Ancaq yaradılan anlayışlar bütün kişiləri əhatə edir. Qadınlar isə bu prosesdə çox az rol almış, ya da heç rol almamışdırlar" [130, s. 97]. Qeyd edilən məsələyə münasibətdə D. Spenderin mövzuya daha kəskin yanaşmasını görürük, xüsusən dilin kişi üzərindən yaradılması ideyasını bir nəzəriyyə kimi qəbul etmək olar. Praktik olaraq bilirik ki, kişilər və qadınlar dildən fərqli formalarda istifadə etməklə, dilin ifadə imkanlarını müxtəlif istiqamətlərə yönəldə bilirlər.

Dildə gender fərqləri ilə bağlı önəmli məqamlardan biri isə müxtəlif dillərdə cins kateqoriyasının olması ilə bağlıdır. Bu barədə L.Blumfild yazır: "Bəzi kollektivlərdə olduqca müxtəlif danışıq formaları cinslərə görə bir ənənəyə çevrilmişdir. Bunun klassik nümunəsi kimi, Karib dənizi hindularını göstərmək olar. Onların içərisində öz orijinallığı

ilə fərqlənən dil Şimali Kaloforniyadakı Yana hindularının dilidir. Yana sözlərinə aid nümunələr aşağıdakılardır:

Cədvəl 3.1.1. Yava dilindəki kişi və qadın dili

	Kişilərin dili	Qadınların dili
Alov	'auna	'auh
mənim alovum	'aunija	'au'nich'
maral	bana	ba'
qonur ayı	t'en'na	t'et'

[7, s. 52].

Qeyd olunan nümunələrdən də göründüyü kimi fərqlər müxtəlif formal əlamətlərdə, xüsusən səs tərkibinin qismən fərqlənməsində özünü göstərə bilir.

Məlumdur ki, rus, ərəb, fransız, alman və s. dillərdə qrammatik cins kateqoriyası mövcuddur. Bu dillərdə sözlərin kişi, qadın və ya orta cinsə aidliyini bildirən xüsusi qrammatik göstəricilər vardır. Cins kateqoriyasını qrammatik göstəricidən başqa heç bir əlaməti olmayan formal kateqoriya adlandırmaq olar. Məsələn, rus dilində *книга* və *пол* sözləri ayrı-ayrı cinslərə aiddir. Lakin bu sözlərin daxil olduğu cinsə heç bir aidliyi yoxdur. Eyni sözlər çex dilində rus dilində olan cinsin əksinə aiddir. Bu da göstərir ki, qeyd edilən cins kateqoriyasının bəhs etdiyimiz real cinslə əlaqəli deyil. Bəzi dillərdə, məsələn, ingilis dilində cins kateqoriyasına yanaşma fərqlidir. Ümumiyyətlə, ingilis dilində cins kateqoriyası yoxdur, amma əlamətləri vardır. İngilis dilində üçüncü şəxsdə kişiyə *He*, qadına *She* müraciət edilir və ya kişiyə *Mister*, qadına *Misses* deyə müraciət olunur. Azərbaycan dilində isə kişiyə və qadına müraciət ayrı-ayrı sözlərlədir: *bəy/xanım*. Cins kateqoriyası əlamətlərinin göstəriciləri

xüsusi olaraq müxtəlif peşə sahiblərinin kişi və qadına aid olduğunu bildirən sözlərdə özünü göstərir. Bu əlamətlər ingilis, rus, ərəb və s. dillərdə vardır. Məsələn: actor – kişi aktyor, actoress – qadın aktyor, учитель – kişi müəllim, учительница-qadın müəllim və s.

Türk dillərində, o cümlədən Azərbaycan dilində cins kateqoriyası anlayışı tam fərqlidir. Dilimizdə qrammatik cins kateqoriyası yoxdur, amma müəyyən sözlər vardır ki, onların kişiyə və ya qadına aid olduğu istifadəsi zamanı aydın görünür. Bu barədə F.Əlizadənin apardığı tədqiqat müəyyən aydınlığa yol açır: "Dilimizdə (*Azərbaycan dilində – A.F.*) sözlərin bir qismi semantikasına görə eşidilən kimi assosiativ cinslənir. Məs.: "igid, coşqun, ağciyər, ovlamaq" kimi sözlər ilk qavrayışda kişiyə xas sözlərdir; "gözəl, zərif, nazlı, doğmaq" qadınlara xasdır" [15, s. 141]. Bu sıranı daha da genişləndirmək olar.

Dildə gender fərqləri antroponimlər və qohumluq bildirən adlarda da ifadə olunur. Məlumdur ki, kişi və qadın adları əksər hallarda fərqli olur. Dünyanın bir çox dillərində, o cümlədən Azərbaycan dilində də eyni adın həm kişiyə, həm də qadına aid olmasına çox rast gəlinir. Xüsusən, türk dillərində bu hal geniş yayılıb. Dilimizdə bu cür adların bir neçəsinə nəzər yetirək: Arzu, İsmət, Pərvin, Afaq və b. Bu isə aşağıdakı amillərlə bağlıdır:

1. Türk təfəkküründə qadını yüksək tutmaq, qadına hörmət ənənəsinin mövcudluğu;

2. valideynlərin dünyagörüşü;

3. övladlarında həmin adların ifadə etdikləri məzmunu görmək arzusu və s.

Digər məsələ isə qohumluq bildirən sözlərlə bağlıdır. Maraqlıdır ki, dilimizdə bu hal digər dillərdən çox fərqlənir. Bunun üçün aşağıdakı cədvələ nəzər yetirək:

Cədvəl 3.1.2. Müxtəlif dillərdə qohumluq bildirən sözlər.

Azərbaycan dilində	İngilis dilində	Rus dilində	Fars dilində
Ata	Father	Папа	Pedər
Ana	Mother	Мама	Madər
Nənə	Grandmother	Бабушка	Pedərzən
Baba	Grandfather	Дедушка	Madərzən
Xala	Aunt	Тётя	əmme
Bibi	Aunt	Тётя	əmme
Dayı	Uncle	Дядя	Dayi
Əmi	Uncle	Дядя	Dayi
Qayınata	Father-in- low	Тесть	Pedərşohər/Pedərzən
Qayınana	Mather-in- low	Теща	Madərşohər/Madərzən

Qohum adlarına nəzər yetirdikdə görünür ki, dilimizdə bu adlar əksər hallarda quruluşca sadədir və müstəqil mənalı sözlərdən ibarətdir. Digər misal gətirdiyimiz dillərdə isə müxtəlif qohum adları eyni sözlərlə ifadə olunur. Bəzi adlar – *qayınata, qayınana* kimi olması milli xüsusiyyətlərlə bağlıdır. Etik qaydaları qorumaq məqsədilə işlədilir.

Apardığımız sosiolinqvistik sorğular və müşahidələr nəticəsində kişi və qadın dilinin əsas fərqlərini üzə çıxartmaqdan ötrü bu xüsusiyyətlərə bir neçə istiqamətdə yanaşmağı təklif edirik:

1. Kişi və qadın nitqində milli-mədəni xüsusiyyətlərin təzahürü;

2. kişi və qadın psixologiyasının dildə təzahür xüsusiyyətləri;

3. bədən dilindən cinslərin istifadə xüsusiyyətləri;

4. kişi və qadın danışıq tərzinin dil səviyyələri üzrə fərqli xüsusiyyətləri.

I. Kişi və qadın nitqində milli-mədəni xüsusiyyətlərin təzahürü. Məlumdur ki, hər bir xalqın milli, dini və s. görüşləri fərqlidir. Xalqların adət-ənənləri, bayramları, tarixi, qəhrəmanlıq ənənələri onun milli xüsusiyyətlərində özünə yer tutur. Milli xüsusiyyətlər Azərbaycan dilində kişi və qadın danışıq tərzində fərqli formalarla ifadə edilmişdir. Həmin xüsusiyyətləri kişi və qadın nitq tərzində aşağıdakı şəkildə ifadə edə bilərik.

Milli xüsusiyyətlərin azərbaycanlı kişinin danışıq tərzinə təsiri:

1) Ailə-məişət, həyat yoldaşı haqqında söhbət etməyi xoşlamırlar.

2) Təriflərə, şüarçılığa, əyləncəli söhbətlərə meyillidirlər.

3) Qəzəblənəndə təhqirlərə üstünlük verirlər.

4) Sərt danışıq tərzinə malikdirlər.

5) Mübahisə etməyi və həmişə mübahisələrdə qalib gəlməyi xoşlayırlar və s.

Göründüyü kimi, Azərbaycan kişilərinin milli xüsusiyyətləri çoxşaxəlidir, bunun yaranma səbəbləri isə milli mühit və cəmiyyətdə olan sterotiplərlə bağlıdır. Folklorumuzda da kişilərin xarakterlərinə aid çoxlu nümunələr bunu sübut edir. Dastanlarda, nağıllarda və digər janrlarda baş qəhrəmanların kişi olması və onların tərbiyəvi hərəkət-

ləri kişi cinsinin milli xüsusiyyətlərini yaradır.

Milli xüsusiyyətlərin azərbaycanlı qadının danışıq tərzinə təsirləri:

1. Şəxsi həyatı ilə bağlı olan söhbətləri digər həmcinsləri ilə paylaşmağı sevirlər.

2. Qəzəbli vaxtlarında daha çox qarğış edirlər.

3. Təriflənməyi və tərifləməyi xoşlayırlar və s.

Xalqımız tarixən qadınla bağlı müxtəlif deyimlər yaratmış, onu ucaltmışdır. Əbəs yerə *vətən* sözü *ana* sözü ilə yanaşı işlədilməmişdir. "Kitabi-Dədə Qorqud"dan başlayaraq günümüzə qədər *ana* sözü həmişə əziz, müqəddəs sayılmışdır. Bu haqda olan bir neçə deyimə nəzər salaq*: "Ana ürəyi – dağ çiçəyi, Ana haqqı, tanrı haqqı". Ana haqqını itirənin gözü kor olar.* Qadına verilən qiymət milli dəyərlər sistemimizdə əsas yer tutur və bu da qadın "dili"nin özünəməxsus tərəflərinə yol açan səbəblərdən biridir.

II. Kişi və qadın psixologiyasının dildə təzahür xüsusiyyətləri. Psixologiya və sosiologiya sahəsində aparılmış tədqiqatlar göstərir ki, kişi və qadınlar arasında müşahidə olunan psixoloji xüsusiyyətlərin formalaşmasına həm bioloji, həm də sosial amillər təsir göstərir. Bu xüsusiyyətlər erkən uşaqlıq dövründən etibarən ailə, təhsil, sosiallaşma prosesi və mənsub olduqları sosial mühitin təsiri altında tədricən formalaşır. Oğlan və qız uşaqlarının maraq dairəsi, oyun fəaliyyətləri, ünsiyyət formaları və davranış modellərində müşahidə olunan fərqlər də məhz bu sosiallaşma prosesinin nəticəsi kimi meydana çıxır. Yaş artdıqca müxtəlif sosial rolların, dəyərlərin və həyat təcrübəsinin təsiri ilə kişi və qadınların psixoloji xüsusiyyətlərində, dünyagörü-

şündə və kommunikativ davranışında müəyyən fərqlər daha qabarıq şəkildə özünü göstərir. Müşahidələrimizin və sorğularımızın nəticəsi olaraq bu fərqlərin bir neçəsini göstərə bilərik:

1. Kişilər danışarkən uca səsdən istifadə edirlər, lakin qadınlarda bu əksinədir.

2. Kişilər danışarkən nitqini planlı şəkildə qurur və müəyyən nəticəyə gəlməyə çalışırlar, qadınlar isə plansız danışır və bir söhbətdən digər söhbətə keçməyi xoşlayırlar.

3. Kişilərə nisbətən qadınlar daha emosional nitqdən istifadə edir.

4. Kişilərin nitqində özünə əminlik vardır, qadınlarda isə fikirlər, adətən, qeyri-müəyyən olur.

5. Kişilərin yalan danışdığı üzə çıxdığı halda suala sualla cavab verir.

6. Qadınlar söhbət zamanı dedi-qodulara, qeybətə üstünlük verir, kişilər isə nitqində biznes, siyasət, idman, həyata baxışları ilə bağlı söhbətlərə üstünlük verirlər.

Qadınların diqqətini eyni zamanda bir neçə yerə ayırması, ətrafla münasibəti kişilərdən fərqləndirici xüsusiyyət kimi qiymətləndirilə bilər. Bu barədə A.Mehdizadə yazır: "Qadınlar diqqətin bir neçə yerə ayrılması məsələsində də kişiləri üstələyirlər. Müsahibi ilə söhbət zamanı həm ona qulaq verə, həm də ətrafdakı insanların geyim tərzi, baxışı, yerişini beynində təhlil edə, həmsöhbət birdən artıq olduqda danışandan əlavə, digərlərinin də reaksiyasını, onların üz, əl-qol hərəkətlərinə əsasən daha rahat müəyyən edə bilirlər. Jest və mimikaları oxumaqda, psixoloji vəziyyəti anlamaqda qadınlar daha bacarıqlıdırlar. Qadınlar insan müna-

sibətini daha incə mənimsəyir, xırda detallara daha həssas reaksiya verirlər. Əgər kişilərdə uğur qazanmaq və məqsədə çatmaq birinci yerdədirsə, qadınlarda ilk növbədə ətrafla münasibətdir" [37, s. 6].

III. Bədən dilindən cinslərin istifadə xüsusiyyətləri. Məlumdur ki, bədən dili, xüsusən jest və mimikalar köməkçi ünsiyyət vasitələridir. Bu prosesdə qadınlar və kişilər fərqli davranışlara malik olurlar. Həmin əlamətlərin bir neçəsinə nəzər yetirək:

1. Kişilər danışarkən əl-qol hərəkətlərindən – jestlərdən çox istifadə edirlər, qadınlarda isə mimikalara üstünlük verilir. Kişilərdən fərqli olaraq qadınlar üzünü, gözünü, qaşını daha çox hərəkət etdirirlər.

2. Qadınlar çox həyəcan yaradan xəbər aldıqda əlini ağzına qoyurlar, kişilər isə sərt mimika ilə və sual verməklə qarşılayırlar.

3. Qadınlar kişi bədən dilinin xüsusiyyətlərini rahatca yamsılaya bilirlərsə, kişilərdə bu çox çətin mümkün olur.

IV. Kişi və qadın danışıq tərzinin dil səviyyələri üzrə fərqli xüsusiyyətləri. Məlumdur ki, dil sisteminin bütövlüyü dil səviyyələri ilə formalaşır. Dilin sosial diferensiallaşmasının müxtəlif dil səviyyələrində təzahürü cinslərin danışıq tərzində də öz əksini tapmışdır.

Fonetik səviyyədə əsas nəzərəçarpacaq fərq budur ki, qadınlar nitqlərində saitləri çox uzadır, kişilərin nitqində isə bunun əksi müşahidə olunur. "Onun (kişinin) nitqi istər ton, istərsə də söz ifadəsinə görə də sərt, təmkinli, az melodik olmalıdır ki, təsir qüvvəsi olsun. Qadınlar isə nitqlərində nəinki qəşəng, mənalı danışmağa, həm də melodik bəzə-

məyə çalışır, həmçinin məzmundan asılı olaraq, gülüş və kədər elementlərindən, müxtəlif prosodik vasitələrdən – temp, fasilə, vurğu, intensivlik və s. istifadə edirlər" [15, s. 143].

Dil leksik səviyyəində fərqlər özünü daha çox göstərir. Onlardan bir neçəsinə nəzər yetirək:

1. Qadınlar kişilərə nisbətən frazeologizmlərdən çox istifadə edirlər. Bunu apardığımız sosiolinqvistik tədqiqat sorğuları da sübut edir, məs.: Qadınlar: Qızıma **ləkə vurma, ağlını yığ başına.** Kişilər**:** Burdan çıx get; mənə yaxınlaşma və s.

2. Qadınlar kişilərə nisbətən daha emosional olur və bu da onların nitqində ekspressivliyi gücləndirir. Bunun nəticəsində qadınların nitqində nidalara, ədatlara, yamsılamalara üstünlük verilir. "Emosional təbiət qadını məcbur edir ki, o, daha çox nida və ədat işlətsin, nidaları bir neçə dəfə təkrarlamaq, onlardan qabarıq vasitə kimi istifadə etmək, saitləri "dartmaq" – uzatmaq, çox zaman cümlə sonunda emosiyanı bildirmək və "melodik oxumaq" üçün nida işlətmək, samitləri qoşalaşdırmaq, yamsılamalardan çox istifadə etmək yalnız qadınlara xasdır" [15, s. 143]. Bu xüsusiyyəti izləmək üçün bədii ədəbiyyatımızda bəzi qadın obrazlarının nitqinə nəzər yetirək:

"Kamilə: Of, ürəyim tıp-tıp tıppıldayır" [47, c. I, s. 56].

"Maral: Ay, ürəyim xarab oldu" [47, c. I, s. 97].

"Həlimə: Bıy, ay Maral bacı..." [47, c. I, s. 97].

"Zalxa: Ətin tökülsün, a kişi" [47, c. I, s. 62].

"Zalxa: Ay ağrınızı alım, o qədər pıç-pıç elədiniz ki ... kolxozda uşaq əlindən ayaq atmaq olmur" [47, c. I, s. 66].

"Zərifə: Başındakı olan-qalan tükü də mən tökərəm ha, az danış" [48, c. II, s. 227].

3. Qadınların və kişilərin işlətdiyi sözlər də fərqlidir. "Gender fərqləri lüğət tərkibi, semantik sahə və assosiativ cərgələrdə büruzə verir. Qadınlar öz daxili aləmlərinə qapıldıqlarından onların nitqində hiss və emosiyaları təsvir edən sözlərə daha çox rast gəlinir, onlar insanın emosional-psixoloji vəziyyətini ifadə edən feillərdən istifadə edirlər" [40, s. 91]. Lüğət tərkibinə nəzər yetirdikdə qadınlar, əsasən, kiçiltmə bildirən isimlər, rəng bildirən sifətlər, məcazi mənalı, mücərrəd anlayışlı sözlərdən istifadə edirlər. Maraqlı faktlardan biri də budur ki, dilimizdə qadınlara aid sözlər və qadınların işlətdiyi sözlər ayrı-ayrı anlayışlardır. Elə sözlər vardır ki, onlar yalnız qadınlara müraciət üçün istifadə edilir və diqqətçəkən tərəfi də odur ki, bu istifadə kişilərin nitqi üzərindən icra olunur, məsələn: *gözəl, şirin, mələk, günəş, rəfiqə* və s. Qadınların leksikası isə daha çox ailəməişət, yemək, təmizlik, hiss və duyğuları gözəl ifadə edəcək sözlərlə zəngindir.

Kişi və qadın nitqinin xüsusən sintaktik səviyyədə fərqli göstəriciləri vardır. Öncə apardığımız sorğularda kişilərin və qadınların istifadə etdiyi cümlə nümunələrinə nəzər salaq: Kişilər: *Bir az düşünməyi bacar, İcazə verin, tək qalım. Evə nəsə lazımdır?, Özünü ağıllı sayırsan, Evə gəlirəm, Qabağımdan çəkilin, Paltarımı verin, Durun çıxaq, Salam, necəsən,vəziyyət necədir?, Təzə proqramlar çıxıb, Çox yorulmuşam, Bir az tez elə mümkünsə.* Qadınlar: *Sabah nə geyinim?, Yuxum gəlir, Gecikirəm, Telefonum hanı?, Bu axşam hansı filmə baxım?, Atam mənim hər şeyimdir, Darıxdım, Evə getmək istəyirəm, Ay, dərsə gecikirəm, Mən niyə belə gözələm?,Nə deyirsən?, Hə, elə bir şey* və s.

Sorğu nümunələri əsasında aşağıdakı xüsusiyyətləri qeyd edə bilərik:

1. Kişilər əmr, qadınlar isə sual cümlələrinə üstünlük verirlər.

2. Kişilərin istifadə etdiyi cümlələrdə daha çox II şəxsə müraciət varsa, qadınlarda I şəxs olan cümlələrə, yəni özlərinə müraciətdən istifadə edirlər.

3. Norma pozuntuları əsasən kişilərin nitqində müşahidə olunur.

4.Qadınlar kişilərə nisbətən sözlərin sayının çox olduğu cümlələrə üstünlük verirlər.

Beləliklə, deyə bilərik ki, dilin genderə görə sosial diferensiallaşması müxtəlif dil səviyyələrində real dil faktları ilə müşahidə olunur. Kişi və qadın nitqində müşahidə olunan fərqlər həm onların psixologiyası, həm də milli mədəniyyətləri ilə bağlıdır.

Kişi və qadın "dili" haqqında nə qədər tədqiqatlar aparılsa da, hələ də müəyyənləşdirilməmiş çoxlu məqamlar vardır. Genderə görə dili araşdırmaq tək dili öyrənməklə yox, cinslərin sosial-psixoloji xüsusiyyətlərini araşdırmaqla daha düzgün nəticələrə gəlmək olar.

3.2. Yaşa görə dilin sosial diferensiallaşması

Dilin sosial diferensiallaşmasının əsas istiqamətlərindən biri yaş fərqləri ilə bağlıdır. Sosiolinqvistikada bu məsələyə müxtəlif formalarda toxunulsa da, geniş tədqiqatların sayı olduqca azdır. Yaş fərqi sosiolinqvistikada ən az istifadə olunan terminlər sırasındadır [112, s. 585-612]. Dil-

də yaşa görə diferensiallaşma digər dil diferensiallaşmalarının tərkibində, xüsusən gender və sinfi diferensiallaşmalarda daha çox öyrənilmişdir. Bunu C.Llamasın qeydləri də bir daha təsdiq edir: "Sosiolinqvistikada dil diferensiallaşması ilə bağlı aparılan araşdırmaların çoxunda yaş faktoru cins, sosial sinif kimi diferensiallaşmalarından geridə qalan bir sosiolinqvistik kateqoriya kimi göstərilə bilər" [122, s. 76].

Sosiolinqvistik araşdırmalar nəticəsində məlum olmuşdur ki, müxtəlif yaşlara aid olan insanlar heç də eyni cür danışmırlar. "Dil daim dəyişir və hər sonrakı nəsil valideynlərdən dili müəyyən formada qəbul edərək onu öz uşaqlarına qismən dəyişilmiş formada ötürür ki, bu da dil dəyişməsi və inkişafı prosesini təşkil edir. Dildəki bu dəyişiklikləri nəsil dəyişiklikləri ilə əlaqələndirmək olar. Nəsil dəyişiklikləri həmişə mövcud olur. Üç nəslin dilinə əsaslanan normal şəkildə inkişaf edən dildə standart orta nəslə görə müəyyənləşir, məhz bu nəsil həmin cəmiyyətdə norma kimi qəbul olunan dilin daşıyıcısı olur [81, s. 78]. Öncə qeyd etməliyik ki, insanların yaş dövrləri uşaqlıq (6-15 yaş), gənclik (16-35), orta yaş (36-60) və qocalıq (60-dan yuxarı) dövrlərinə bölünür. "Dilçilik baxımından fərdin yaşı inkişafa görə dörd əsas dövrə ayrılır: körpəlik/uşaqlıq, gənclik, orta yaş/ yetişkənlik və yaşlılıq/ qocalıq [122, s. 70]. Yaş dövrlərinin bölgüsü daha çox bioloji olaraq qəbul olunsa da, deməliyik ki, sosioloji yaş bioloji yaşı bəzən üstələyir və bu da fərdin dünyagörüşü, sosiallaşması və s. səbəblərlə bağlı ola bilər. Hər bir yaş dövrünün də özünəməxsus danışıq tərzi mövcuddur. Bunu müxtəlif yaş dövrlərinin ayrı-ayrılıqda təhlilini aparanda aydın görmək olar.

1. Uşaqlıq yaş dövrünün dili. Bu yaş dövrü iki mər-

hələyə ayrılır: uşaqlıq və yeniyetməlik. Uşaqlıq yaş dövrü uşağın xarakterinin formalaşdığı dövrdür. Şəxsiyyətin və xarakterin formalaşmasında uşağın böyüdüyü sosial mühit və ailə tərbiyəsi həlledici rol oynayır. Məhz bu dövrdə nitqin formalaşması və inkişafı intensiv xarakter daşıyır, həmçinin uşaqlar müəyyən nitq bacarıqlarına yiyələnməklə yanaşı, onların dil bilikləri üzrə səviyyələri də yaşın artması, sosiallaşma prosesi və ünsiyyət təcrübəsinin zənginləşməsi nəticəsində davamlı şəkildə inkişaf edir və təkmilləşir. Apardığımız sorğuda iştirak edən uşaqların nitqindən bir neçə nümunəyə diqqət yetirək: *Sabah musiqiyə gedəcəyəm. Ana, yeməyə nə var?. Buna baxa bilərsən? Yuxum gəlir, amma yatmaq istəmirəm. Off, yoruldum. Ana, nə geyinim? (6 yaşlı informant), Ay millət, qulaq asın. Ana, yemək hazırdır? Ana, olar həyətə düşüm? (7 yaşlı informant), Yorulmuşam. Mənə çay süz. Sakit ol. Telefonuma dəymə. Gəlirəm. (14 yaşlı informant).*

Burada qeyd olunan, o cümlədən apardığımız anket sorğularının nəticəsinə əsasən deyə bilərik ki, uşaqlıq yaş dövrünün aşağıdakı dil xüsusiyyətləri var:

1. Uşaqlar daha çox ünsiyyətdə olduqları üçün yaşca böyük fərdlərin nitqini təqlid edirlər.

2. Jest və mimikalardan geniş istifadə edirlər.

3. Eyni sözləri təkrar etmək vərdişləri vardır.

4. Əmr və sual cümlələrinin istifadəsinə üstünlük verirlər.

5. Ünsiyyət prosesində qısa cümlələr əsas təşkil edir.

6. Ailəsində çox işlədilən sözlərdən kənar şəxslərlə ünsiyyət prosesində istifadə etməyə meyillidirlər.

7. İstifadə etdiyi sözlərin lüğət tərkibi məhduddur.

Yuxarıda göstərilən nümunələrə və anket sorğularının nəticələrinə əsasən, yeniyetməlik dövrünün xüsusiyyətlərinin təhlili də göstərir ki, bu dövrdə nitqin inkişafı tam formalaşır və fərdlər sosiallaşmağa meyilli olurlar. Sosial qrupların tərkibində fərdlərin yer alması onların istifadə etdiyi sözlərin lüğət tərkibinin də genişlənməsinə səbəb olur. Bu yaş dövrünün əsas linqvistik xüsusiyyətlərini aşağıdakı şəkildə qruplaşdıra bilərik:

1. Əmr və xahiş bildirən cümlələrdən daha çox istifadə edirlər.

2. Ailə leksikasından fərdi leksikaya keçid baş verir.

3. Sadə quruluşlu cümlələrdən mürəkkəb strukturlu cümlələrə doğru istifadə genişlənir.

4. Jarqon və arqolardan istifadəyə meyilli olurlar.

5. Meyilli olduğu və ya hobbisi olduğu sahənin lüğətinə aid sözlərin mənasını öyrənir və gündəlik nitqində istifadə edirlər.

6. Sözlərə nisbətən söz birləşmələrinə üstünlük verirlər.

2) ***Gənclik yaş dövrünün dili.*** Bu yaş dövrünün dil xüsusiyyətləri digər dövrlərə nisbətən daha fərqlidir. Yetişmiş bir fərdin dünyagörüşünün formalaşdığı bu mərhələdə insanlar həm də müxtəlif sosial qruplarda özünə yer tutur. Həmin sosial qrupların dil xüsusiyyətləri gənclərin danışıq dilinə mühüm təsir göstərə bilir. Gənclik yaş dövründə fərdlər "gizli" dillərdən istifadə etməyə üstünlük verirlər. Apardığımız sosiolinqvistik sorğulara əsasən bir neçə nümunəyə diqqət yetirək: *Hələ var dərsin qurtarmağına.*

Başa düşdüm. Dəqiq bilmirəm. (18 yaşlı informant), Ürəkdir bu uşaq, Vuracağam bunu. (17 yaşlı informant), Sabah görüşənədək. İcazənizlə bir söz soruşa bilərəm? Zəhmət olmazsa, buyurun. Bir az gözləyin. (25 yaşlı informant), Gecikirəm, idarə edin. Yaxşı da, doğrudan? Zəngə nə qədər qalıb? (18 yaşlı informant). Format olunmalıdır. Antivirusu təzələməliyik. Təzə proqramlar çıxıb. Sistem korlanıb. (27 yaşlı informant). İnşallah yaxşı olar. Allah kömək edər. Hər kəs çatsın arzusuna. (23 yaşlı informant). Haqsızlıq oldu. Sən deyəndi. Atam hər şeyimdir. (18 yaşlı informant) və s.

Yuxarıdakı nümunələrə əsasən bu yaş dövrünün aşağıdakı əsas xüsusiyyətləri vardır:

1. Qeyri-normativ cümlələrdən istifadəyə üstünlük verirlər.

2. Jarqon və arqolar ən çox bu yaş qrupu insanların dilində işlənir.

3. Nitqdə əmr və nəqli cümlələr fəal işlənir.

4. Qısa cümlələrdən istifadəyə üstünlük verirlər.

5. Müraciət və təşəkkür nitq etiketlərindən çox istifadə edirlər.

6. Özünütəsdiq məzmunu ifadə edən cümlələrə geniş müraciət edirlər.

7. Nitqlərində neologizmlərə geniş yer verirlər.

8. Norma pozuntuları gənclərin dilində xüsusi yer tutur.

9. Danışarkən, əsasən, uca səsli intonasiyadan istifadə edirlər.

10. Modal sözlər və ədatlar gənclərin nitqdə işlənən köməkçi nitq hissələridir və s.

Gənclik yaş dövründə jarqon və arqoların çox istifadə olunması məsələsinə xüsusi toxunmaq istəyirik. Bu barədə bir çox tədqiqatçılar maraqlı nəticələrə gəlmişlər. "Gənclərin jarqonuna yiyələnən adamlar ikidillidirlər: onlar öz mühitində jarqon vasitələrindən istifadə edir, "kənar" şəxslərlə ünsiyyətdə, rəsmi və neytral vəziyyətlərdə standart dilə keçirlər. Gənclərin jarqonu xüsusi zərurət nəticəsində meydana çıxmamışdır: bütün məfhumları standart dilin vasitələri ilə də ifadə etmək olar. Gənclərin jarqonu yalnız ekspressiv funksiyaya, vəzifəyə malikdir. Jarqonun yaradıcıları və istifadəçiləri özlərini tanıtmaq üçün, həmçinin ayrıca bir qrupa aidliyini sübut etmək üçün ona müraciət edirlər" [14, s. 21]. Bundan əlavə deyə bilərik ki, gənclər hətta standart dildən istifadə etməklə öz fikirlərini gizlədən sözlər və cümlələri rahat şəkildə işlədirlər. Gənclərin öz fikirlərini digər fərdlərdən gizlətmək üçün istifadə etdiyi bu lüğət həm də dilin maraqlı tərəflərini üzə çıxarır. Gənclərin jarqonu bir neçə növə ayrılır: tələbə jarqonu, məktəb jarqonu, işçi jarqonu, stilyaqa jarqonu və s. "Gənclərin jarqonu arasında ən çox yayılanları stilyaqa (modabaz və ədabaz gənclərin jarqonu) və tələbə jarqonudur. "Stilyaqa" sözü "bizim cəmiyyətə yad olan insan" mənasını bildirir. Stilyaqa sözünün morfologiya və semantikası göstərir ki, o, ədəbi dil çərçivəsində deyil, jarqon sözü kimi formalaşmışdır. Müharibədən sonra qərb musiqisinə, xüsusilə Amerkanın hayküylü caz musiqisinə maraq göstərən gənclərin meyli tədricən modaya çevrilir. Bu da "yenilik", "stilnoy" hesab olunurdu" [14, s. 32]. Göründüyü kimi, bu jarqonlardan modabaz gənclərin danışığında daha çox istifadə olunur. "Stilyaqa

jarqonu öz xüsusiyyətlərinə görə oğru jarqonuna yaxındır" [101, s. 484]. Bu jarqonda istifadə olunan sözlər sadə xalq dilinin istifadə etdiyi sözlərdir, lakin mənaları xalqın istifadə etdiyi mənadan fərqlidir: məsələn:

"Fərəc: ...Heç deməzsən ki, bəs ***dayısı*** *dağdır, dağ!*

Özü də köhnə ***laxlayan dağlardan*** *deyil, o* ***təptəzə dağ*** *olub"* [6, s. 105].

Tələbə jarqonu öz ekspressivliyi və emosionallığı ilə seçilir. Bu jarqon sözlərin əksəriyyəti təhsil prosesi ilə bağlı olur. Müasir dövrdə tələbələr daha çox informasiya texnologiyaları ilə əlaqədar dilimizə gələn sözlərin jarqon kimi istifadəsinə üstünlük verir, məsələn: *Yaddaşına* ***seyv*** *eləmisən. Hər şeyi* ***delet*** *elə. Niyə məni* ***blok*** *eləmisən?,* ***Yaddaşım*** *dolub. Müəllimin* ***radarına düşmüşəm*** və s.

Gənclərin dilində neologizmlərin, qeyri-normativ cümlələrin çox işlənməsi məsələsinə də xüsusi toxunmaq istəyirik. Gənclərin dili, ümumiyyətlə, yeniliyə meyillidir, onların nitqi vasitəsilə dildə yeni normalar yaranır. Azərbaycan dilində də gənclərin dili vasitəsilə dilimizə yeni sözlər daha çox daxil olur: məsələn: *inteqrasiya, lokal, qlobal, sosial şəbəkə, innovasiya* və s. Bu proses bütün dünya dillərində də eyni cür baş verir. Qeyri-normativ cümlələrin müyyən müddət keçdikdən sonra ədəbi dilin qaydasına uyğun olması fikrinin qəbulu gənclərin dilinin yeniliyinin ifadəsidir. Dilimizin tarixi və müasir vəziyyətinə nəzərə salanda bunu daha aydın şəkildə görə bilərik.

3) Orta yaş dövrünün dili. Bu yaş dövründə istifadə olunan dil bəzən də standart dil adlandırılır. Ədəbi dil qaydaları bu yaş dövrünün insanları tərəfindən qorunur. Fone-

tik, leksik və qrammatik yeniliklər, demək olar ki, bu yaş dövrü insanlarının dili üçün xas deyil. Fikirlərimizi əsaslandırmaqdan ötrü bir neçə informantla apardığımız sorğuda onların istifadə etdiyi cümlələrə nəzər salaq: *Beli düz tut. Dərslərini oxu. Dərmanını içmisən? Bəsdir kompüterin qabağında oturdun. Hərdən telefonu yerə qoy. Paltarlarını yerbəyer elə (46 yaşlı informant). Yemək ye. Yoldan muğayat ol. Telefonunu oğurlatma. Əyninə qalın geyin. Telefon ilə çox oynama. Dərslərindən çox oxu ki, imtahandan keçə biləsən (44 yaşlı informant). İşığı söndür. Əynini isti geyin. Başına papaq qoy (50 yaşlı informant). Telefonla oynama, gözlərin xarab olar. Dərslərinizi oxuyun, daş daşımırsınız. Kompüterə çox baxma. Axşam tez yat (42 yaşlı informant)* və s.

Yuxarıda göstərilən və digər nümunələrə əsasən sosiolinqvistik tədqiqat sorğusunun nəticəsini orta yaş dövrü dili üçün aşağıdakı xüsusiyyətlərin olduğunu göstərə bilərik:

1. Geniş tərkibli cümlələrdən çox istifadə edilir.

2. Əmr, nəqli və inkar cümlələr nitqdə üstünlük təşkil edir.

3. Şərt bağlayıcıları geniş işlədilir.

4. Mürəkkəb cümlələr, demək olar ki, orta nəslin dilində üstünlük təşkil edir.

5. Cümlələr qurularkən şəxsə və kəmiyyətə görə uzlaşma az hallarda pozulur.

6. Əmr bildirən feillər nitqdə üstünlük təşkil edir.

7. Kobud sözlərdən az istifadə edilir.

8. İş kollektivində rəsmi müraciət formasından daha çox nitq etiketlerindən istifadəyə üstünlük verirlər, məs: oğlum, qızım və s.

9. Ədəbi dilin normalarına digər yaş dövrləri ilə nisbətdə geniş riayət olunur.

10. Bu insanlar müxtəlif dialektlərin daşıyıcısı olarsa, göstərilən yaş dövründə dialektdən uzaqlaşırlar.

11. Sual bildirən cümlələri az işlədirlər.

12. Dilin lüğət tərkibindən digər yaş dövrləri ilə nisbətdə daha əhatəli şəkildə istifadə edirlər və s.

Göründüyü kimi, orta nəslin dilinin həm lüğət tərkibinin genişliyi, həm də bütün dil istifadəçiləri üçün anlaşıqlı olması ilə seçilir. Bütün bunaları nəzərə alıb deyə bilərik ki, orta yaş dövrünün dil istifadəçiləri həm ədəbi dili qoruyur, həm də nəsillərarası ünsiyyətdə olan problemlərin həlli üçün əsas rol oynayır.

4) Qocalıq yaş dövrünün dili. Bu yaş dövründə insanların nitqində müəyyən xüsusiyyətlər yaranır ki, bu da uşaqlıq yaş dövrünün nitq xüsusiyyətləri ilə bəzən üst-üstə düşür. Əvvəlcə qocalıq yaş dövrünə aid informatların işlətdiyi cümlələrə nəzər yetirək: *Böyüklərə hörmət et, yaşlı qadın və kişilərə kömək et. Savadlı insanlarla ünsiyyət yarat. Kəndlə şəhərin eyniləşməsini istə. Ağsaqqal insanların sözünə qulaq as. Özündən kiçiklərə hörmətlə yanaş (70 yaşlı informant). Azan oxundu? Oruc tutarsınız? Siz də namaz qılmağı öyrənin (78 yaşlı informant). Sizi nə narahat edir?, Ayaqlarımda ödəm yoxdur. Narahat olmayın, hər şey qaydasındadır (67 yaşlı informant)*. Qeyd olunan nümunələrə və apardığımız müşahidələrə əsasən qocalıq yaş dövrünün xüsusiyyətlərini aşağıdakı şəkildə qruplaşdıra bilərik:

1. Məsləhət məzmunlu əmr cümlələrini çox işlədirlər.

2. Sual cümlələrinə üstünlük verirlər.

3. Mürəkkəb strukturlu cümlələrdən az istifadə edirlər.

4. Aşağı səs tonu ilə danışmağa meyillidirlər.

5. Səsləri tələffüz edərkən səsin tələffüz formasına əlavə səslər qatırlar.

6. Rabitəli nitq zəif qurulur.

7. Qoşma və bağlayıcılardan çox istifadə olunur.

8. Kobud sözlərdən az hallarda istifadə edirlər.

9. Dini sözlər lüğət tərkiblərində əsas yerlərdən birini tutur və s.

Qocalıq yaş dövrünün dilini bir çox hallarda gənclik yaş dövrünün dilə ilə də müqayisə edirlər. Bu müqayisələr isə fərqlərin nə qədər dərin olduğunu bir daha ifadə edir. Tədqiqatçıların fikrincə, yaşlı adamlar gənc yaşlarında malik olduqları bəzi nitq vərdişlərini itirirlər. "Yaşlı adamların akustik əlamətlərinin tədqiqi göstərmişdir ki, "yaşlıların səsi"ni "gənclərin səsi"ndən asanlıqla fərqləndirmək olar. Belə ki, 65 yaşdan yuxarı olan insanın səsi 35 yaşından kiçik olan insanın səsindən təkcə sait səslərin tələffüz tərzinə görə yox, eyni zamanda nitq aparatının işinin yaşa görə pozulması nəticəsində meydana çıxan xüsusi əlavə səs-küylərə görə də fərqlənir" [18, s. 22].

Apardığımız araşdırmadan belə bir nəticəyə gəlirik ki, müxtəlif yaş dövrlərinə aid olan insanlar dil sisteminin səviyyələrindən fərqli şəkildə istifadə edirlər. Nəsillərarası ünsiyyətin qorunub saxlanılmasında ən çox rol oynayan, o cümlədən ədəbi dilin qaydalarının nisbətən çox istifadə edildiyi dil məhz orta nəslin işlətdiyi dildir. Bildiyimiz kimi, dil canlı orqanizmə bənzədiyindən yeniliklərə çox meyillidir. Bu cəhətdən gənclərin istifadə etdiyi dil forması xüsusi

önəm daşıyır. Neologizmlərin, sözlərin semantik daralması, genişlənməsi və ya digər mənaya keçməsi, yeni cümlə formalarının istifadəsi, bir sözlə, dildə baş verən hər cür dəyişikliklərin yaranmasında gənclərin istifadə etdiyi dil forması əsas səbəblərdən biridir.

Dilin yaş görə sosial diferensiallaşması araşdırmamızın əvvəlində qeyd edildiyi kimi dərin tədqiqatlara cəlb olunmasa da, təhlilimiz göstərir ki, sosiolinqvistikadan kənarda qalan mövzu olmamalıdır. Dilin yaşa görə diferensiallaşması dillərin inkişafı, dil vahidlərinin sosial, psixoloji və s. istiqamətlər üzrə işlənmə xüsusiyyətlərinin açılmasında mühüm rola malikdir.

3.3. Peşə baxımından dilin sosial diferensiallaşması

Dilin sosial diferensiallaşmasının mühüm istiqamətlərindən birini müxtəlif peşələrə aid olan insanların fərqli dil xüsusiyyətləri təşkil edir. Sosial peşəyə görə dilin diferensiallaşması ilə bağlı dilçilik ədəbiyyatında fərqli münasibətlərin olması bu mövzunun aktuallığını ortaya qoyur. Dilin qeyd olunan istiqamətdə sosial diferensiallaşmaya məruz qalması heç də bütün dünya dillərində eyni formada özünü göstərmir. Bu daha çox inkişaf etmiş dillərdə aydın şəkildə təzahür edir. Elm və texnikanın inkişafı ilə bağlı olaraq metadillərin (fizika, riyaziyyat, kimya və s. dili) terminoloji sisteminin genişlənməsi gələcəkdə dilin sosial peşə diferensiallaşmasını dərinləşdirəcəkdir.

Ümumiyyətlə, peşəyə görə dilin sosial diferensiallaşması heç də dilin bütün səviyyələrində eyni formada olmur.

Müxtəlif peşələrin spesifik sözləri – terminləri olduğundan leksik səviyyə üzrə fərqlər xüsusi nəzərə çarpır. Əsas mübahisəli məsələ peşə-sənət leksikasının mövzu dairəsi ilə bağlıdır. Dilçilikdə peşə-sənət leksikasının əhatə dairəsi ilə bağlı müxtəlif yanaşmalar vardır. İ.V.Arnold peşə-sənət leksikasını belə izah edir: "Professional leksika (peşə-sənət leksikası) adı altında terminologiyadan fərqli olaraq, bu və ya digər peşə sahibi olan adamların şifahi nitqindəki leksika nəzərdə tutulur. Bu və ya digər peşəkar fəaliyyətlə bağlı müəyyən anlayış, proses, təzahür mütəxəssislərin nitqində həmin anlayışları ifadə edən yeni sözlərin yaranmasını tələb edir. Bu sözlər terminlərdən onunla fərqlənir ki, onlar obrazlı, emosional, çox vaxt isə çoxmənalı olur" [77, s. 262]. Dilçinin fikri ilə tam razılaşmaq olmur. Çünki peşə-sənət leksikasını təkcə şifahi nitqlə məhdudlaşdırmaq olmaz. V.S.Yelistratovun peşə-sənət dilinə münasibəti çox maraqlıdır. O, müxtəlif peşə sahiblərinin "dili"nə (xüsusən onların nitqində işlədilən leksikanı) müxtəlif elmi və texniki dilləri (bu sahəyə aid terminləri) və hər hansı bir kateqoriyaya aid edilməsi çətinlik törədən qrupların "dil"ini daxil edir [140]. Alman alimi H.Hirt peşə-sənət leksikasına dayələrin, hüquqşünasların, dəftərxana işçilərinin, ovçuların, şaxtaçıların, tacirlərin, mətbəə işçilərinin, dilənçilərin, əsgərlərin, dənizçilərin və habelə müxtəlif elm sahələrinin - fəlsəfə, riyaziyyat, fizika və s. sahələrin dilini aid edir. Peşə-sənət leksikasına birmənalı münasibətin olmaması, xüsusən tədqiqat obyektinə dağınıq münasibətlərin olması bu mövzunun sistemli araşdırılmasına çətinlik törədir. Dilin sosial peşə diferensiallaşmasının obyekti haqqında R.O.Şor yazır: "Harada

ki, cəmiyyətin strukturunda müxtəlif istehsal məqsədlərinə xidmət edən xüsusiləşmiş sinif və qruplar ayrılır, həmin cəmiyyətin dili uyğun sosial dialektlərə bölünür. Harada ki, təkcə əməyin bölünməsi (belə bölünmə isə hər yerdə müşahidə olunur, bəsit mədəniyyəti olan xalqlarda cinslərin diferensiallaşması ilə uyğundur, burada da xüsusi qadın dili təzahür etmişdir) vardır, hər istehsalat sahəsi özünün xüsusi "texniki terminlər" ehtiyatını -istehsalatdakı rolu ilə bağlı olan və başqa istehsalat qruplarının üzvləri üçün anlaşılmaz olan iş alətləri və proseslərinin adlarını yaratmağa məcburdur" [108, s. 100]. Dildə sosial peşə fərqlərinin olmasını L.Blumfild də təsdiqləyir: "Müəyyən peşə sahiblərinin, deyək ki, balıqçıların, süd-yağ zavodu fəhlələrinin, çörək bişirənlərin və s. özlərinin özəl peşə dilləri vardır [7, s. 56]. "Ona görə də insanlar arasında kommunikasiyanı yaradan dil müəyyən bir peşəyə aid sosial qrupun da üzvləri arasında fərqli şəkildə istifadə edilir" [74, s. 765]. Göründüyü kimi, dil mənsub olduğu cəmiyyətin elmi-texniki, sosial, siyasi, mədəni səviyyəsindən bilavasitə asılıdır. Cəmiyyətdə yeni peşələr yarandıqca onlara məxsus sözlər də yaranmağa başlayır. Nəticədə, həmin peşələrə sahib olan insanların dilində, xüsusən dilin leksik qatında özünü göstərən ciddi fərqlər yaranır.

Sosial peşə diferensiallaşması dilin digər sosial diferensiallaşmalarından bir çox cəhətlərinə görə fərqlənir:

"1. Dilin sosial peşə diferensiallaşması daha intensiv inkişaf edir.

2. Dilin sosial peşə variantlarının və ya "metadilin" daşıyıcıları çox vaxt təkcə kompakt deyil, həm də şəhərin ayrı-ayrı

rayonlarında və müxtəlif yaşayış məntəqələrində yaşayırlar.

3. Dilin sosial peşə variantının daşıyıcıları bir qayda olaraq, metadildən öz aralarında ünsiyyət prosesində və ədəbiyyatda istifadə edirlər.

4. "Metadillə" yanaşı onlar geniş şəkildə ümumi danışıq dilindən və ədəbi dildən istifadə edirlər. Beləliklə, onların arasında özünəməxsus diqlossiya mövcuddur.

5. Dilin yeni sosial peşə variantı elm və texnikanın diferensiallaşması ilə əlaqədar meydana çıxır" [46, s. 371].

Yuxardakı 2-ci bənddə qeyd olunan fikrə münasibət bildirərək deyə bilərik ki, dilin sosial peşə variantı dilin leksik səviyyəsində özünü daha aydın göstərir ki, bu da onun məhəlli xarakter almasına imkan vermir. "Peşə-sənət leksikası məhəlli xüsusiyyətlərə malik olmur, yalnız peşə maraqlarını ifadə etməyə istiqamətlənir. Bu leksikanın əsas mənbəyi ümumxalq dilinin leksikasıdır. Buradan aydın olur ki, peşə-sənət leksikasının meydana çıxması bu və ya digər peşə qruplarının maraqları və xarakteri ilə bağlıdır. Həmin sosial qrupun cəmiyyətdə tutduğu mövqe də bu və ya digər peşə ilə bağlı leksikanın formalaşmasında xüsusi rol oynayır" [17, s. 12]. Dilçilik ədəbiyyatında peşə-sənət leksikasının sərhədləri ilə bağlı çoxlu müqayisəli məqamlar vardır. Bu problemlər dildə olan müəyyən söz qruplarının peşə-sənət leksikası ilə qarışdırılması və ya eyniləşdirilməsi ilə bağlıdır. Həmin söz qrupları ilə peşə-sənət leksikasını aşağıdakı şəkildə qruplaşdıra bilərik:

1. Peşə -sənət leksikası və jarqonlar,
2. peşə-sənət leksikası və dialektizmlər,
3. peşə -sənət leksikası və terminlər.

1. ***Peşə-sənət leksikası və jarqonlar***. Bu söz qrupları arasında bir çox oxşar və fərqli xüsusiyyətlər müşahidə olunur. Öncə bu söz qruplarının oxşar tərəflərinə nəzər salaq. Hər iki qismə aid olan sözlər müəyyən qrupların dilində məhdudlaşır. Lüğət tərkibindəki sözlərin digər qruplara aid insanlar tərəfindən anlaşılmamasını ümumi cəhətlərdən biri kimi göstərə bilərik.

Məlumdur ki, jarqonlar və arqolar müəyyən bir sosial qrupun öz fikirlərini digər insanlardan gizlətmək üçün yaratdığı süni sözlər sistemidir. Bu sözlərin əsasında təbii dil dayanır. Belə ki, "Ümumxalq danışıq dilinin bu və ya digər sözü alınır və bu sözün nominativ mənası dəyişdirilərək tam başqa-səciyyəvi mənada işlədilir. Beləliklə də ümumxalq danışıq dilinin sözləri müxtəlif ictimai təbəqələrin təbiətinə, məqsədinə, dünyagörüşünə, əxlaqına uyğun məna kəsb edib arqolaşır" [33, s. 6]. Belə sözləri peşə-sənət leksikasından fərqləndirən bir neçə xüsusiyyət vardır. Peşə-sənət leksikası əhalinin və ya hər hansı bir sosial qrupun zəruri praktik fəaliyyətini təmin etmək üçün məcburi şəkildə yaranan sözlərdir. Jarqon sözlər isə sadəcə olaraq bir dil oyunu kimi fikri başqalarından gizlətmək üçün istifadə olunur. "Xüsusi peşə leksik sistemindən fərqli olaraq, jarqonlar təkcə istehsal maraqları ilə deyil, eləcə də ümumi maraqlar əsasında bir-birilə bağlı olan insanların sosial qrupları (məsələn, orduda xidmət, idman məşğələsi, təhsil və s.) içərisində meydana çıxır. Buna görə də peşə-leksik sistemindəki xüsusiyyətlərə burada rast gəlmək çətindir. Jarqon leksikası istehsal tələbindən asılı deyildir. Bu leksika, adətən, ümumxalq dilində adı olan əşya və hadisələrin təkrar adlanması

kimi ortaya çıxır" [90, s. 176]. B.A.Serebrennikov peşə-sənət leksikası ilə jarqonları müqayisə edərkən peşə-sənət leksikasına aid sözlərin heç də hamısının təbii dildə yox, həm də texnikanın inkişafı ilə bağlı olaraq süni şəkildə yaradılan terminologiyadan istifadə olunması qənaətindədir: "Hər bir peşənin özünəməxsus xüsusi lüğəti vardır. Təbii yolla yaradılmış peşə leksikası həmin peşəkarlar tərəfindən süni yaradılmış elmi və texniki terminlərlə birləşir. Peşə leksikası, əsasən, əməli üslublarda işlənilir və öz mənasının dəqiqliyi ilə fərqlənir" [101, s. 481]. O, həmçinin qeyd edir ki, "Peşə-sənət leksikasında istifadə olunan bir çox obrazlı-ideomatik ifadələr peşə-sənət leksikasına deyil, peşə jarqonlarına aiddir" [101, s. 481]. Peşə-sənət leksikasından fərqli olaraq jarqonlarda həm də ekspressivlik xüsusiyyəti olduğunu qeyd edə bilərik.

Problemli məsələlərdən biri də peşə-sənət leksikasının daxilində olan jarqonların peşə-sənət terminologiyası ilə qarışdırılmasıdır. Bu barədə Ə.Əliyev daha diqqətli olmağı məsləhət bilir. Onun fikrincə, "Jarqonların peşə-sənət funksiyası onların xalq dilinin lüğət tərkibinin ayrılmaz bölməsi sayılan peşə-leksik sisteminin digər ünsurləri ilə, xüsusilə peşə terminologiyası ilə qarışdırılmamalıdır" [14, s. 23]. Peşə-sənət leksikasının jarqonlardan əsas üstünlüyü ondan ibarətdir ki, bu sözlər spesifik sahələrlə bağlıdır, onlarda obrazlılıq olmur, təbii zərurət nəticəsində yaranır və jarqonlardan fərqli olaraq ümumişlək sözlərin təkrarı kimi işlənmir.

2. ***Peşə-sənət leksikası və dialektizmlər.*** Peşə-sənət leksikası ilə dialektizmlər arasında bir çox oxşar və fərqli

xüsusiyyətlər mövcuddur. Dialektizm anlayışı ilə bağlı dünya dilçiliyindən fərqli olaraq Azərbaycan dilçiliyində münasibət bir qədər fərqlidir. Dilçiliyimizdə dialektizm deyəndə dilin məhəlli (coğrafi) variantları daha çox nəzərdə tutulur. H.Həsənovun fikrincə, "müəyyən ərazidə məhdud dairədə işlədilən dialekt və şivə sözlərinə dialekt sözləri deyilir" [31, s. 209]. S.Cəfərov qeyd edir ki, "müasir Azərbaycan dilinin lüğət tərkibinə, ədəbi dilə məxsus sözlərdən başqa, bu dilin bütün şivələrinə məxsus olan sözlər də daxildir. Müasir dilin lüğət tərkibinə daxil olmuş şivələrə məxsus belə sözlər dialekt leksikası adlanır" [10, s. 70]. Göründüyü kimi, dilçiliyimizdə dialekt termini çox məhdudlaşdırılır. Dünya dilçiliyində dialektizmlər daha geniş dairəni əhatə edən dil variantlarını, daha doğrusu, dilin sosial diferensial əlamətlərini də özündə birləşdirir. Dialektizmlər əsasən iki qrupa ayrılır: məhəlli və sosial [138]. Azərbaycan dilçiliyində H.Əsgərov bu problemi haqlı olaraq belə qeyd edir: "Biz "məhəlli dialektizm" terminini "sosial dialektizm" terminin ifadə etdiyi anlayışa korrelyativ mənada işlədirik. Bunun müəyyən səbəbi vardır. Azərbaycan dilçiliyində dialektizm termini yalnız məhəlli dialektizmləri bildirməyə xidmət edir. Biz dilin sosial diferensiasiyasının nəticəsi olaraq meydana çıxan sosial dialektizmləri dilin məhəlli diferensiasiyasının nəticəsi olan məhəlli dialektizmlərdən fərqləndirdiyimiz üçün "məhəlli dialektizm" terminini işlətməyə üstünlük veririk" [16, s. 60].

Peşə-sənət leksikasını məhəlli dialektizmlərlə birləşdirən bir çox cəhətlər vardır. Birincisi, bu sözlər qrupu müəyyən məhdud dairədə işlənir. İkincisi, hər iki söz qrupu

müəyyən tarixi kateqoriyaya malikdir. Daha bir ümumiləşdirici cəhət hər iki söz qrupuna aid olan sözlərin müəyyən müddət keçdikdən sonra ədəbi dilin ümumişlək sözləri sırasına daxil olmasıdır.

Məhəlli dialektizmlərlə peşə-sənət leksikasını fərqləndirən bir sıra cəhətlər də vardır. Bu fikrə H.Əsgərovun tədqiqatında daha konkret münasibət göstərilir. Onun fikrincə, bu fərqlər aşağıdakılardır:

"1. Peşə-sənət leksikası və məhəlli dialektizmlər mənşə baxımından fərqli kateqoriyalara aid edilə bilər" [16, s. 73]. Məlumdur ki, məhəlli dialektlər insanların ayrı-ayrı yerlərdə yaşaması nəticəsində təcridləşmədən formalaşır. B.A.Serebrennikov qeyd edir ki, "Ünsiyyəti çətinləşdirən amillər içərisində fiziki-coğrafi amillər (dağ silsilələrinin, meşə, su və səhraların mövcudluğu) xüsusi rol oynayır" [101, s. 453]. Peşə-sənət leksikasında bunun tam əksini müşahidə edirik. Burada ayrı-ayrı sənət-peşə sahələrindən olan insanlar müxtəlif yerlərdə yaşasalar da, demək olar ki, eyni sözlərdən istifadə edirlər. Düzdür, müxtəlif peşə-sənət sahələrinə aid sözlərdə də dialekt fərqləri olur, lakin bu o qədər də geniş yayılmamışdır.

"2. Peşə-sənət leksikasından fərqli olaraq, məhəlli dialektizmlər tarixi baxımdan dəyişkən kateqoriyadır" [16, s. 78]. Peşə-sənət leksikasına aid olan sözlər çox az dəyişikliyə uğrayır. Müxtəlif peşələrə aid olan sözlər nəsildən-nəsilə ötürüldüyünə görə, demək olar ki, həmin sözlər öz aktivliyini qoruyur. Amma dialektlərə aid olan sözlər tarixi baxımdan dəyişikliyə uğrayır. Bəzən eyni söz müxtəlif dövrlərdə fərqli mənalarda, bəzən isə müəyyən məna müxtəlif sözlər-

lə ifadə olunur. Bildiyimiz kimi, qədim türk dilinin müxtəlif dialektləri müasir türk dilləri olmuşdur. Bunu nəzərə alıb belə bir nümunəyə nəzər yetirək: "Qədim türk dilində "alçak" sözü "sadə", "təvazökar", "mülayim" mənalarında işlənir" [85, s. 34]. Müasir Azərbaycan dilində bu söz tam başqa məna kəsb edir. Bu tipli bir neçə söz yazılı abidələrimizin dilində də istifadə olunub, məs: ağ - qalxmaq, ağıl- mal-qara saxlanan yer, ay - demək, söyləmək və s.

"3. Peşə-sənət leksikasından fərqli olaraq, məhəlli dialektizmlər tematik baxımdan daha geniş söz qruplarını əhatə edir" [16, s. 81]. Peşələrin sayı kifayət qədər çoxdur və hər peşənin də özünəməxsus leksikası mövcuddur, buna görə də hər bir peşənin leksik sərhədini müəyyən etmək elə də çətin deyildir. Məhəlli dialektizmlər isə bundan fərqli olaraq müxtəlif mövzuları özündə birləşdirərək, hətta bir neçə peşəni də əhatə edə bilər. A.Qurbanov haqlı olaraq qeyd edir: "Müəyyən ərazidə və ərazilərdə yaşayan kütlə üçün xarakterik məfhumu bildirən sözlər leksik-semantik dialektizmlərdir. Bu cür dialektizmlərə müəyyən ərazi ilə bağlı geyim adları, hadisə, əşya və s. adlarını göstərmək olar. Məsələn, dələmə sözünə fikir verək. Bu dialektizm Tovuz, Qazax, Borçalı, Zəngilan ərazisində pendir hazırlamaq üçün südün maya tutmuş formasına deyilir" [36, s. 232-233].

"4. Məhəlli dialektizmlərdən fərqli olaraq peşə-sənət leksikasında coğrafi məhdudiyyət mövcud deyildir" [16, s. 82]. Peşə-sənət leksikası ayrı-ayrı ərazilərdə eyni peşə ilə məşğul olan insanların dilində eyni cür təzahür edir. Bu barədə S.Cəfərov yazır: "Hər hansı sənət və ya peşə adamlarının (dülgər, bənna, dəllək, dərzi, dəmirçi, çəkməçi, saatsaz

və başqlarının işlətdikləri materialı, iş prosesini, alətləri və məhsulu ifadə edən) nisbətən məhdud, olduqca sabit, özünəməxsus peşə-sənət leksikası olur [10, s. 72]. Lakin məhəlli dialektizmlərdə müəyyən məna ayrı-ayrı məhəlli dialektlərdə müxtəlif sözlərlə ifadə oluna bilər.

"5. Məhəlli dialektizmlər özlərinin qrammatik xüsusiyyətləri ilə də peşə-sənət leksikasından əsaslı şəkildə fərqlənirlər" [16, s. 83]. Məlumdur ki, dialekt sözlər təkcə ad bildirmir, bütün nitq hissələrini əhatə edir, lakin peşə-sənət leksikası ad bildirdiyi üçün, əsasən, isimlərdən təşkil olunur. Məhəlli dialektizmlər hətta cümlələrin qurulması prosesində, sözlərin qrammatik əlaqələnməsində ədəbi dildəki kimi iştirak edə bilər, amma peşə-sənət leksikası təkcə isimlərdən ibarət olduğundan onların qrammatik vasitələrdən istifadə imkanları da məhdudlaşır.

Beləliklə, peşə-sənət leksikasının dialektizmlərdən fərqlərinə nəzər yetirdikdə aydın oldu ki, bu söz qrupları forma baxımından bir-birinə nə qədər yaxınlaşsa da, qrammatik məzmun və kateqorial cəhətləri bir-birindən çox fərqlənir. Bunun da nəticəsində onların sərhədlərinin müəyyənləşdirilməsi elə də çətinlik yaratmır.

3. *Peşə-sənət leksikası və terminlər*. Bu iki söz qrupunun əhatə dairəsini dilçilər üçün ən çox mübahisə doğuran problemlərdəndir. Peşə-sənət leksikası və terminləri birləşdirən və ayıran cəhətləri müəyyənləşdirmədən öncə termin anlayışının, ümumiyyətlə, terminologiyanın linqvistik aspektlərini və terminoloji leksikanın funksional tərəflərini açıqlamaq lazımdır.

Terminlərlə bağlı dilçilik ədəbiyyatında müxtəlif fikir-

lər mövcuddur. Ən çox mübahisə doğuran məsələ isə terminləri ümumişlək sözlərdən fərqləndirən cəhətlərlə bağlıdır. Bu barədə olan bəzi fikirlərə nəzər salaq. V.Z.Adilov yazır: "Termin-söz problemi dilçilikdə ən geniş fikir ayrılıqlarına səbəb olmuş problemlərdən biridir. Bu problemin öyrənilməsinə çoxdan diqqət yetirilsə də, terminlə söz arasındakı ümumi və fərqli cəhətlər hələ də tam şəkildə öyrənilməmişdir" [3, s. 54]. Dilçilikdə terminlərin əhatə dairəsi ilə bağlı qeyri-müəyyənliklər vardır. "Terminologiyaya aid nəzəri ədəbiyyatların əksəriyyətində termin sözü ilə bağlı xülasəyə və ümumiləşdirici müddəalara rast gəlinir. Bilavasitə bu məsələyə həsr olunmuş məqalələrin də sayı az deyil. Bütün bunlara baxmayaraq, terminin təyin edilməsi üçün ümumi tərif verilmir. Alimlərin bir qismi termin anlayışı üçün definisiya verməyə cəhd göstərmiş (Reformatski, Lotte, Danilenko və b.), digər qismi termin adlandırılan sözlərlə ümumişlək sözlər arasındakı fərqlərə əsaslanmış (Qerd, Kuzkin, Qasımov, Adilov və b.) üçüncü qisim isə öz tədqiqatlarında işçi tərif verməklə kifayətlənmişdir (Kandelaki, Superanskaya və b.). Termin anlayışına belə münasibət terminoloji leksikanı ümumişlək leksikadan ayırma prosesində meydana çıxan çətinliklərlə bağlıdır. Terminin definisiyasına əsaslanmaqla ixtiyari sözün termin olub-olmaması haqqında həmişə qəti hökm vermək mümkün deyil. Bu fakt termin anlayışını təyin etmək üçün əlavə şərtlər qoymağı tələb edir" [34, s. 21-22].

Terminlərin kontekstdən asılı olub-olmaması mübahisəli məsələlərdəndir. Aydındır ki, hər bir söz, xüsusən adlar kontekstdən asılı olaraq həm termin, həm də ümumişlək

söz kimi işlənə bilir. Məsələn, *ağac* sözü həm ümumişlək, həm də termin söz kimi istifadə oluna bilər. Bu prinsiplə yanaşsaq, demək olar ki, sözlərin əksəriyyəti həm də termin olur. Belə ki, qeyd olunan məsələyə yanaşmada dilçilər iki yerə bölünür. F.Berezin ümumişlək sözlərlə terminləri birbirindən ayırmağın yalnız kontekstdən asılı olması fikrindədir. Ə.Rəcəbli də eyni qənaətdədir: "Adətən, lüğət tərkibindəki sözləri iki qrupa ayırırlar: terminlər və dilin ümumişlək sözləri. Bu zaman iki məsələyə diqqət yetirmək lazımdır: 1. Lüğət tərkibinin terminlər və dilin ümumişlək sözlərinə ayrılmasını onun özününkü və özgəninki şəklində ayrılmasına heç bir dəxli yoxdur. 2. Eyni bir söz lüğət tərkibində həm termin, həm də dilin ümumişlək sözü kimi işlənə bilər" [44, s. 91-92]. H.Əsgərov tədqiqatında belə qənaətə gəlir ki, terminlər elmi üslubun ayrılmaz hissəsidir. O, ümumişlək sözlərin terminlərlə ortaq olması ilə tam razı deyil, lakin bu fikirdən imtina da etmir [bax: 16, s. 38-41]. İ.Məmmədov isə terminlərin ümumişlək leksikaya çevrilməsinin səbəbini onlarda intensiv informasiyanın zəifliyində görür: "Terminologiyada intensiv informasiya zəiflədikdə onun sahə hüdudları dağılır, başqa sözlə, xüsusi sahə təşkil edən terminlər öz semantika və anlayış xüsusiyyətlərinə görə ümumişlək leksikaya qarışır" [39, s. 14].

Peşə-sənət leksikası ilə terminləri həm birləşdirən, həm də fərqləndirən cəhətlər vardır. Öncə bəzi ümumi cəhətlərə nəzər yetirək:

1. Hər iki qrupa aid olan sözlər ad bildirir və əksəriyyəti isimlərdən təşkil olunur.

2. Hər iki söz qrupu müəyyən peşələrlə bağlı olan in-

sanların dilində işlənir və bu da onların istifadə dairəsini məhdudlaşdırır.

3. Hər iki söz qrupu dilin leksik səviyyəsində təzahür edir.

4. Hər iki qrupa aid olan sözlər bir peşəyə aid insanların dilində işləndiyi üçün, digər peşələrə aid insanlar bu sözlərin mənasını anlamır.

Peşə-sənət leksikası ilə terminləri aşağıdakı cəhətlər fərqləndirir:

1. Terminlər peşə-sənət leksikasına nisbətən daha dinamikdir və elmin, texnikanın inkişafı nəticəsində yeni terminlər yaranır.

2. Terminlər, əsasən, elmi üslubun tərkibində işlənə bilir, lakin peşə-sənət leksikası daha çox digər üslubların tərkibində özünə mövqe tutur.

3. Peşə-sənət leksikası, əsasən, milli mənşəli olur, terminlərin əksəriyyəti isə alınma mənşəli olur.

4. Peşə-sənət leksikasına müxtəlif dialektlərdə rast gəlinsə də, terminlər ancaq ədəbi dildə mövcud olur.

5. Peşə-sənət leksikasında tarixizm və arxaizmlərə çox rast gəlinsə də, terminlərdə buna rast gəlinmir.

6. Terminlər müəyyən standart normalara əsasən yaradılır, amma peşə-sənət leksikasında xalq danışıq dilinin xüsusiyyətləri özünü göstərir.

7. Terminlərdə sinonimlik, obrazlılıq, ekspressivlik müşahidə olunmur və s.

Beləliklə, aydın olur ki, peşə-sənət leksikası ilə terminlər linqvistik məzmun və forma baxımından fərqlənsə də, peşə-sənət leksikasını terminlərdən ayırmaq da düzgün

deyildir. Dilçiliyimizdə peşə-sənət leksikası deyəndə bir az dar mənada, yəni maddi mədəniyyət çərçivəsində yanaşırlar, bu isə doğru nəticələrin alınmasında çətinlik yaradır. Peşə-sənət leksikası təkcə maddi mədəniyyətlə bağlı peşələri yox, həm də qeyri-maddi peşələri əhatə etməlidir. Bu cəhətdən qeyd olunan istiqamət üzrə diferensiallaşmanı peşələr üzrə iki qrupa ayıra bilərik:

1. Dilin sosial peşə diferensiallaşmasının maddi mədəniyyət peşələrində təzahürü. Maddi mədəniyyətə aid olan peşələr hər bir xalqın milli dünyagörüşü ilə bağlıdır və tarixi baxımdan daha qədim olur. Bu cəhətdən Azərbaycan xalqının da maddi mədəniyyətinə aid kifayət qədər peşələr mövcuddur və bəzi peşələr tarixi prosesin nəticəsi olaraq unudulmuş, bir çoxu isə yaşayaraq inkişaf etmişdir. Bu peşələr, əsasən, aşağıdakıları əhatə edir: dəmirçilik, misgərlik, dulusçuluq, zərgərlik, daşişləmə, ağacişləmə, toxuculuq və s. Qeyd olunan peşələr üzrə aşağıdakı nümunələri göstərə bilərik. **Dəmirçiliyə aid:** *dəmir, badaq, qarmaq, qaşov, qın, qolçaq, xəncər, dəhrə, kəsərti, tiyə, qayçı, qurşaq, mürgənə, navalça, tənəkə, maşa, kəlbətin, kürə, iskənə, təkqulaq* və s.; **misgərliyə aid:** *çarx, dəzgah, zindan, mis, paxır* və s.; **dulusçuluğa aid**: *səhəng, bardaq, qurqur, sürahi, fincan, piyalə, plovsüzən* və s**.; zərgərliyə aid**: *zərgər, şəbəkəçi, minasazlıq, zümrud, tunc, dingə, cıqqa, tac, pilək, pərək, medalyon* və s.; **daşişləməyə aid:** *daşyonan, daşdələn, daşçı, daşçılıq, həkkaklıq, bənna, oymaçı, qələmkar, büstçü, mərmər, ağlay* və s.; **ağacişləməyə aid**: *qundaqsaz, baltaçı, taxtaçəkən, çəlləkçi, bıçaqıçı, aynasaz, sandıqsazlıq, beşiklik, rizakar* və s.; **toxuculuğa aid:** ipəkçilik, *kələğayçı, mahudçu, mançılıqçı,*

çit, bəzzaz, parçaçı və s. Göründüyü kimi, peşə-sənət leksikası kifayət qədər zəngindir. Bu sözlərin linqvistik təhlili göstərir ki, mənşə cəhətdən sözlərin bir qismi milli mənşəlidir, quruluşca daha çox düzəltmə və mürəkkəbdir. Peşə-sənət leksikasını tarixi yaranma baxımından da ayırmaq lazımdır. Yuxarıda qeyd olunan peşələr xalqın milli tarixi keçmişindən gələn peşələrdir. Müasir dövrümüzdə də yeni peşələr yaranmaqda davam edir. Belə peşələrə müasir texnologiya cihazlarının hazırlanması və düzəldilməsi ilə məşğul olan peşələri xüsusi qeyd etmək olar. Məsələn: telefon ustaları, proqramçılar, kompüter mühəndisləri və s. Bu peşələrə aid kifayət qədər sözlər vardır. Lakin bu peşələrə aid leksikanın tarixi qədim olan peşə leksikalarından fərqi odur ki, bunlara məxsus sözlərin əksəriyyəti alınma mənşəlidir.

Maddi mədəniyyətə aid peşələrin leksikasının əsas xüsusiyyətlərindən biri də sözlərin unudulması ilə bağlıdır. Demək olar ki, bir çox peşələrin sözləri ya az işlənir, ya da heç işlədilmir. Bunun da səbəbi cəmiyyətdə həmin peşəyə tələbatın azlığı ilə bağlıdır.

2. Dilin sosial peşə diferensiallaşmasının qeyri-maddi mədəniyyət peşələrində təzahürü. Maddi mədəniyyət peşələrindən fərqli olaraq, qeyri-maddi mədəniyyət peşələrinin tarixi nisbətən müasirdir. Bu peşələr həm də öz leksikasını təzələməyə meyillidir. Qeyri-maddi mədəniyyətlə bağlı peşələrin sayı hər zaman artır, çünki elm və texnika ilə bağlıdır. Elmin və texnologiyanın sürətli inkişafı yeni peşələrin yaranması ilə nəticələnir.

Qeyri-maddi mədəniyyət peşələrinə aşağıdakıları aid edə bilərik: müəllim, həkim, menecer, psixoloq, turizmçilik,

mühəndis (sahələr üzrə) və s. Bu peşələrin leksikasına aid bir neçə nümunəyə nəzər yetirək: **Müəllimliyə aid:** *dərs, tədris, sinif, şagird, bilik, kompentesiya, kurikulum, toksonomik, innovasiya, məzmun xətti, kollokvium* və s.; **Həkimliyə aid**: *nüsxə, xroniki, pasient, dərman, kardioqrafiya* və s.; **Musiqiyə aid**: *not, səs, ton, muğam, estrada* və s.; Göründüyü kimi, bu peşələrin hər biri innovasiyaya açıqdır və daim yeni sözləri tərkibinə daxil edir. Qeyri-maddi mədəniyyətlə bağlı olan peşələrdə terminlərə çox üstünlük verilir və elmi, publisistik, elmi-publisistik üslublardan bu peşələrin insanları çox istifadə edirlər.

Sosial peşə diferensiallaşması həm dilin sintaktik səviyyəsində, həm də mətn səviyyəsində təzahür edir. Müxtəlif peşələrə, xüsusən qeyri-maddi mədəniyyət sahəsinin peşələrinə aid insanların nitqinə nəzər saldıqda bunu daha aydın şəkildə müşahidə etmək olur. Apardığımız müxtəlif sosiolinqvistik sorğuların nəticəsi də bunu sübut edir. Peşələrin sayı kifayət qədər çox olduğundan onlara aid nümunələri vermək imkan xaricindədir. Lakin həmin sorğuların yekunu kimi aşağıdakı ümumiləşdirilmiş nəticələri göstərə bilərik:

1. Müxtəlif peşələrə aid insanlar nitqində öz peşəsinə uyğun sözlərdən çox istifadə edirlər.

2. Qeyri-maddi mədəniyyət peşələrinə aid insanlar ədəbi dilə xüsusi önəm verirlər. Maddi-mədəniyyət peşələrinə aid insanların nitqində isə dialektizmlər də iştirak edə bilər.

3. Peşə terminologiyası, elmi və publisistik üslub qeyri-maddi mədəniyyət peşələrinə aid insanların nitqində fəal rol oynayır.

Beləliklə, dilin sosial peşə diferensiallaşması dilin bütün səviyyələrində öz izlərini qoysa da, leksik və sintaktik səviyyədə daha aydın şəkildə təzahür edir. Peşələrin sayca çoxluğu, rəngarəngliyi həm də dildə üslubi imkanların potensialını ortaya çıxartmağa kömək edir. Mövzunun əhatə dairəsinin genişliyi daha dərin tədqiqatlar tələb edir. Hər peşənin dilinə aid linqvistik xüsusiyyətlər vardır və onları aşkara çıxartmaq üçün peşələrin sosial, milli, beynəlmiləl xarakterik xüsusiyyətlərini araşdırmaq lazımdır.

3.4. İdeologiyaya görə dilin sosial diferensiallaşması

Dil insanın baxışını, onun özünüifadəsini, düşüncəsini müxtəlif cür ifadə edən vasitələrdən biridir. Varlığı kəşfetmə, onu yenidən beynində yaratmaq üçün insanın ən çox ehtiyacı olan ünsürdür. "Duyğular, düşüncələr, xəyallar, dəyərlər, gözləntilər, nifrət, düşmənlik və dostluqlar "ifadə etmək istədiklərimizin" xarici təzahürlərinin göstəricisidir. Dil bu təzahürün ən önəmli vasitələrindən və yollarından biridir" [66, s. 112].

Cəmiyyətin sferası müxtəlif və mürəkkəb struktura malik olduğundan, insanların da düşüncəsi və fikir ifadəetmə formaları müəyyən bir ideologiya əsasında formalaşır. Amma bu o demək deyildir ki, bütün insanlar eyni ideologiyada olur. Təbii ki, dövlət siyasəti də müəyyən bir ideologiya üzərində qurulur və cəmiyyətə də həmin ideologiyanı təbliğ edir. İdeoloji baxışlara dar və geniş aspektdə yanaşmaq lazımdır. Geniş sfera dedikdə burada milləti birləşdirən ümumi fikirlər, ideyalar nəzərdə tutulur və dövlət siya-

səti də həmin ideyaların təbliğində əsas yer tutur. Bu ideyalar, təbii ki, dildə də öz əksini tapır. Siyasi səbəblərdən xalqların bölünməsi, eyni bir xalqın müxtəlif dövlətlərin tərkibində qalması nəticəsində onların dilində də tərkibində qaldığı ölkənin ideoloji ünsurləri yer tutur. Düzdür, bu, tarixin siyasi prosesləri ilə bağlıdır və dəyişə də bilir. Bu barədə Ə.Rəcəbli yazır: "Dilçilik ədəbiyyatında göstərilir ki, bizim dövrümüzdə də bir dildə danışan adamların ideoloji diferensiallaşması əsasında köhnə yazılı dillərin parçalanması proseslərində yeni ədəbi dillər yaranır. Lap bu yaxınlara qədər klassik nümunə kimi alman dili üçün Almaniya Federativ Respublikası və Almaniya Demokratik Respublikasının, Koreya dili üçün Cənubi Koreya və Şimali Koreyanın mövcudluğunu göstərirdilər. İndi birinci misal məlum səbəblərə görə dəbdən düşmüşdür. İkinci nümunəyə gəlincə, o da elmi fiksiyadır, nə cənubi Koreya, nə də şimali Koreya dili yoxdur, vahid Koreya dili mövcuddur. Bu indi belədir və bu iki dövlətin birləşib-birləşməməsindən asılı olmayaraq belə də olacaqdır. Eyni sözləri Azərbaycan dili haqqında da demək olar, inanmaq olmaz ki, Azərbaycan dilinin cənub və şimal dialektləri nə vaxtsa müstəqil dillərə çevriləcəkdir" [46, s. 368].

Dar mənada ideoloji baxışlar isə fərdlərin düşüncə tərzləri ilə bağlıdır. Burada dilin sosial ideoloji diferensiallaşmasından söhbət gedə bilər. İnsanların həyata baxışları, ideoloji görüşləri fərqli olduğundan onların nitqində də sosial ideoloji diferensiallaşmanın əlamətləri aydın şəkildə özünü göstərir. Bu proses dilin müxtəlif səviyyələrində təzahür edir, amma eyni şəkildə ifadə olunmur. Sosial ideoloji diferensiallaşma dilin leksik-semantik səviyyəsində özünü

daha çox göstərsə də, təkcə bu səviyyə ilə məhdudlaşdırmaq olmaz. Bunu apardığımız sosiolinqvistik sorğuların nəticəsi də sübut edir.

Dilin sosial ideoloji diferensiallaşması dilin digər sosial diferensiallaşmalarından müəyyən xüsusiyyətlərə görə fərqlənir. Bu fərqlər daha çox sosial-sinfi diferensiallaşma ilə müqayisədə üzə çıxır. Həmin fərqləri Y.D.Deşeriyev bu şəkildə qruplaşdırır:

"1. Sosial-sinfi dialektin və ya jarqonun daşıyıcıları eyni bir sosial sinfin nümayəndələridir, müəyyən bir ideyanın daşıyıcıları isə cəmiyyətin müxtəlif sinif və təbəqələrinin nümayəndələridir.

2. Sosial-sinfi dialekt və ya jarqonların daşıyıcıları kompakt, sosial-ideoloji "dillərin" nümayəndələri isə ayrılıqda yaşayır.

3. Dilin ideoloji diferensiallaşmasına nisbətən dilin sosial-sinfi diferensiallaşması daha sabit və dəyanətli olur.

4. Dilin sosial-sinfi diferensiallaşmasının xüsusiyyətləri daha hərtərəfli olur və dilin bütün səviyyələrində parlaq ifadə edilir. Dilin ideoloji diferensiallaşmasının səciyyəvi xüsusiyyətləri dilin semantikası, leksikası və üslubi sisteminə daha dərin nüfuz edir, lakin dilin fonoloji və morfoloji səviyyələrində ya heç təzahür etmir, ya da nəzərə alınmayacaq dərəcədə az ifadə olunur.

5. Dilin sosial-sinfi və sosial-ideoloji difereniallaşması çox vaxt bilinqvizm ilə əlaqədar olur. Lakin sosial-sinfi dialektin nümayəndələrinin bilinqvizmi tətbiq dairələri ilə müəyyən bir ideologiyanın nümayəndələrinin bilinqvizmi tətbiqi dairələri arasında fərq vardır.

6. Sosial-sinfi dialektin xüsusiyyətləri dilin müəyyən leksik qatı və struktur xüsusiyyətləri ilə əlaqədardır. Halbuki istənilən sözü, istənilən söz şəklini, istənilən sintaktik konstruksiyanı ideoloji məqsədlərlə, ideoloji çalarda işlətmək olar.

7. Sosial-sinfi dialektlərdə neytrallaşdırma proseslərinə nisbətən ideoloji neytrallaşdırma prosesləri daha çox yayılmış hadisədir" [46, s. 370].

Əvvəl qeyd etdiyimiz kimi, cəmiyyətin strukturu müxtəlif ideoloji görüşlərə malik insanlardan təşkil olduğundan dilin sosial ideoloji diferensiallaşmasını da müxtəlif istiqamətlər üzrə ayırmaq olar. Burada bir məsələni də bildirmək lazımdır ki, ideoloji baxışları insanların peşələri ilə qarışdırmaq olmaz. Fərqli peşələri olan insanlar da eyni ideoloji görüşlərə sahib ola bilər. Bütün bu səbəbləri nəzərə alaraq, dilin sosial ideoloji diferensiallaşmasını aşağıdakı əsas istiqamətlərə ayırmaq olar:

1. ideoloji diferensiallaşmanın dindarların nitqində ifadəsi;

2. ideoloji diferensiallaşmanın millətçilərin nitqində ifadəsi;

3. ideoloji diferensiallaşmanın modernistlərin nitqində ifadəsi.

1. İdeoloji diferensiallaşmanın dindarların nitqində ifadəsi. Müşahidələrimizdən, o cümlədən istifadə etdikləri sözlərin linqvistik aspektlərini araşdırarkən aydın olur ki, dindarların nitqi özünəməxsus xüsusiyyətləri ilə seçilir. Öncə qeyd etmək lazımdır ki, hər bir din müəyyən bir dilə məxsusdur və bu məxsusluq digər xalqların nümayəndələ-

rini də məcbur edir ki, həmin dilə aid sözlərdən istifadə etsin. Bəzən dilçilikdə bu anlamda *"din dili"* [60, s. 66] termini də işlədilir. "Din dili dilin dində və ya dini bir mühit içində davamlı istifadə olunmasıdır" [113, s. 6]. Din ona bağlı olan cəmiyyətin istifadə etdiyi dilinə yeni anlayışlar gətirməklə onu digər sosial qruplardan fərqləndirir. Bu cəhətdən bizim dilimizdə də belə prosesi aydın şəkildə müşahidə etmək mümkündür. Məsələn: *inşallah, rəhman, rəhim, şükür* və s. sözlər ərəb dilindən dilimizə gələrək yeni anlayışlar yaratmışdır. Belə tipli sözlərin dilimizdə qarşılığı yoxdur. Bəzi hallarda eyni söz həm dini mahiyyət kəsb edir, həm də etmir. Bir sözün dini mahiyyət kəsb etməsi üçün onun dini anlayışa daxil olana qədər müəyyən zaman keçməsi lazımdır, ya da sözün mənasında semantik dəyişikliklər olmalıdır.

Hər bir dildə olduğu kimi Azərbaycan dilində də dinə aid olan və ənənə şəklində xalqın yaddaşında öz yerini tutan müəyyən dini ifadələr və ya dini frazeologizmlər - alqışlar, qarğışlar, atalar sözləri mövcuddur. Belə frazeologizmlər dilimizdə təkcə dindarların nitqində deyil, digər insanların nitqində də istifadə olunur. Buna aid bir neçə nümunəyə nəzər yetirək: *Allah köməyin olsun, Allaha and olsun, Şükür Allaha.., Təmizlik imandandır, Allah cəzasını versin, Allah razı olsun, Tanrı bizə yar olsun* və s.

Apardığımız sosiolinqvistik sorğular nəticəsində dindarların nitqi ilə bağlı maraqlı linqvistik xüsusiyyətlər ortaya çıxmışdır. Həmin dil xüsusiyyətləri digər insanların dilindən aşağıdakı cəhətlərə görə fərqlənir:

1. Dindarların leksikasında mənsub olduğu dinin yarandığı dilə aid sözlər üstünlük təşkil edir.

2. Dindarların nitqində sadə cümlələrə nisbətən mürəkkəb cümlələr üstünlük təşkil edir.

3. Dindarlar mücərrəd mənalı isimlərdən çox istifadə edirlər.

4. Dindarlar dialoq zamanı qarşısındakından özü çox danışır və fikirləri ilə digər insanları öz təsiri altına salmaq istəyir.

5. Dindarlar nitqlərində dini müqəddəslərin həyatı və fəaliyyətinə aid olan hekayələrdən, rəvayətlərdən çox istifadə edirlər.

6. Dindarlar uca səslə danışmağa meyillidir və bu da dini ideyaları yaymağa xidmət edir.

7. Dindarların nitqində bəzən elə ifadələr olur ki, onlar digər dini ifadələrə nisbətən çox aktiv istifadə olunur, məs: inşallah, bismillah və s.

8. Dindarlar hər hansı mövzu ilə bağlı danışarkən, digər mövzularda da haşiyəyə çıxmağa meyillidirlər.

9. Eyni dinin müxtəlif təriqətlərinin ideoloji təsiri altına düşən insanların nitqində fərqlər müşahidə olunur.

10. Dindarların nitqində obrazlılığa geniş yer verilir və bədii suallardan istifadə edilir.

11. Xəbəri birinci şəxsin cəmində olan cümlələrdən çox istifadə edirlər.

Din dili və dindarların dili anlayışları da fərqlidir. Din dili deyərkən müəyyən bir dinin lüğət tərkibində olan sözlərin məcmusu və dinin fəlsəfi mahiyyətini açan ifadələr nəzərdə tutulur. Dinin elmi-fəlsəfi tədqiqatı ilə məşğul olan peşəkar ilahiyyatçılar bu dildən istifadə edirlər. Yəni ki, din dili dini terminləri özündə birləşdirir. Dindarların dilindən (nitqindən) isə müxtəlif dini qruplar istifadə edir. Bəzən ey-

ni dinə məxsus olan dini qrupların da nitqi fərqli olur, xüsusən onların leksikasında bu daha aydın şəkildə təzahür edir. Eyni dini ideologiyaya xidmət edən insanlar müxtəlif təriqətlərə də xidmət edə bilər. Müxtəlif təriqətlərin də hətta fərqli ünsiyyət formaları vardır.

2. İdeoloji diferensiallaşmanın millətçilərin nitqində ifadəsi. İdeoloji düşüncələr fonunda millətçilik də bir çox insanların həyatında özünə müəyyən yer tutur. Millətçilik insanlarda müxtəlif formalarda təzahür edə bilər. Millətçilikdə öz millətini digərlərindən üstün sayan və başqa millətləri alçaltmamaqla millətinə qarşı xüsusi rəğbət yaradan iki fərqli ideoloji baxış mövcuddur. Birinci baxış millətçilikdə yaxşı hal sayılmamış və dünyada müxtəlif dövrlərdə bəzi multikultural cəmiyyətlərdə millətlər arasında hətta münaqişlərə yol açmışdır. Lakin ikinci baxış hər bir fərddə olmalıdır.

Millətçiliyin ifadəsi dilin müxtəlif səviyyələrində azçox təzahür etsə də, ən çox leksik və sintaktik səviyyələrdə müşahidə olunur. Dilin leksik səviyyəsində millətçi anlayışları ifadə edən sözlər, özünü milli mənşəli sözlərdən çox istifadə edilməklə göstərir. Apardığımız araşdırmalar nəticəsində Azərbaycan dilində millətçi insanların dilində aşağıdakı sözlərdən çox istifadə olunduğunu müəyyən edə bildik: *vətən, millət, bayraq, Tanrı, türk, azadlıq, milli, demokratiya, ideya, birlik, varlıq, soydaş, şüur, kölə, xalq* və s.

Ümumilikdə, millətçi insanların dilində bir çox cəhətlər vardır ki, digər ideoloji baxışları olan insanlardan fərqlənir. Apardığımız sorğular və müşahidələrə əsasən millətçi insanların dil xüsusiyyətlərini aşağıdakı şəkildə sistemləşdirə bilərik:

1. Xitablardan geniş şəkildə istifadə edirlər.

2. Məqsəd və intonasiyaya görə cümlə növlərindən nida cümlələrinə üstünlük verirlər.

3. Mübtədası və xəbəri I şəxsin cəmində olan cümlələr fəal işlənir.

4. Emosionallığı və həyəcanı artırmaq məqsədilə təkrar müraciət formalarında çox istifadə edirlər.

5. Mürəkkəb cümlələrə nisbətən sadə geniş cümlələrə üstünlük verilir.

6. Köməkçi nitq hissələrindən nidalar əksər hallarda işlədilir.

7. Adətən, cümlələr feilin vacib şəkli və qəti gələcək zamanı ilə bitir.

8. Şərt bağlayıcısı bağlayıcılardan ən çox istifadə olunanıdır.

9. Qrammatik normanın pozulması hallarına tez-tez rast gəlinir.

10. Nitqdə şəxs və sual əvəzliklərinə üstünlük verilir.

Millətçi insanların dil xüsusiyyətləri bəzi hallarda siyasətçilərin dil xüsusiyyətləri ilə birləşir, lakin bunlar arasında da müəyyən fərqli cəhətlər müşahidə olunur. Belə fərqli xüsusiyyətlər siyasi terminlərin çox istifadəsində, mürəkkəb cümlələrə üstünlük verilməsində, nitq qurularkən emosionallığın zəif ifadə olunmasında özünü göstərir.

3. İdeoloji diferensiallaşmanın modernistlərin nitqində ifadəsi. Müasir həyat tərzini mənimsəyən, qloballaşma proseslərinin təsirinə daha açıq olan və ənənəvi dəyərlərə münasibətdə fərqli mövqe nümayiş etdirən şəxslərin dildən istifadəsində müəyyən özünəməxsus cəhətlər müşahidə

olunur. Bu xüsusiyyətlər daha çox dilin leksik və sintaktik səviyyələrində özünü göstərir. Apardığımız sorğunun nəticələrinə əsasən, müasirliyə və yeniliyə meyilli olan respondentlər arasında gənclərin üstünlük təşkil etdiyi müəyyən edilmişdir. Bu ideoloji düşüncəyə malik insanların nitqi aşağıdakı xüsusiyyətləri ilə fərqlənir:

1. İstifadə etdikləri sözlərin leksik tərkibi, əsasən, ümumişlək və peşə sözlərindən ibarət olur.

2. Digər ideoloji düşüncələrə aid insanlardan fərqli olaraq neologizmlər geniş şəkildə işlənir.

3. Qeyri-normativ sadə cümlələr nitqdə üstünlük təşkil edir.

4. Belə insanlar söz-cümlələrdən və qısa cavablardan geniş istifadə edir.

5. Nitq qurularkən, emosionallığa demək olar ki, yer verilmir.

Beləliklə, dilin ideoloji diferensiallaşması müxtəlif ideoloji düşüncələrin insanların təfəkkürünə göstərdiyi təsir nəticəsində öz maddi ifadəsini dildə müxtəlif formalarda və səviyyələrdə göstərir. Yuxarıda verilmiş istiqamətlərlə ideoloji diferensiallaşmanın bölgülərini məhdudlaşdırmaq doğru olmazdı. Müxtəlif ideoloji sahələr üzrə bu tədqiqatın məzmunu daha da genişləndirmək mümkündür.

3.5. Sinfi amillərə görə dilin sosial diferensiallaşması

Cəmiyyətdə sosial təbəqələrin yaranma səbəbləri ilə bağlı həm fərqli, həm də onları birləşdirən fikirlər mövcud olmuşdur. Belə fikirlərdən biri olan "Marksist nəzəriyyəsində sosial təbəqələrin yaranma səbəbi qazanc üzərində aparı-

lan mübarizənin nəticəsi olaraq gücə bağlanır" [114, s. 162]. ABŞ dilçisi R.Vardauf isə sosial təbəqənin yaranmasını "Əqidə, yaşayış zonası, təhsil, gəlir durumu, etnik kök, mədəniyyət, sinif (kasta), din və başqa səbəblərlə əlaqələndirir" [136, s. 46]. J.Holmes "Sosial sinifin mənasını prestij, zənginlik və təhsil baxımından insanlar arasında yaranan fərq kimi qəbul edir" [116, s. 140]. G.R.Guy hər hansı sosial sinfin fərqlənməsini onun cəmiyyətdəki statusu və gücü ilə əlaqələndirir. Status cəmiyyətin həmin insana göstərdiyi hörmətlə yaranır və onu qəbul edir (bunun əksi də ola bilər). O, həmçinin güc anlayışını fərdin sosial və maddi mənbələrə nüfuz etməsi və ya fərdin qərar qəbuletmə və hadisələrə nəzarət etmə gücünə sahib olması kimi xüsusiyyətə malik olduğunu izah edir. Status və güc fərqləri sosial sinfin təməlini qoyur və dilin istifadəsi zamanı sinif fərqlərini bilmək üçün qeyd edilən məsələləri araşdırmaq lazımdır [114, s. 159-160].

Cəmiyyətdə sosial təbəqələrin yaranması bir çox səbəblərlə bağlıdır. Cəmiyyətdə baş verən müxtəlif sosial, iqtisadi, siyasi, mədəni dəyişiliklər insanların həyatına birbaşa təsir göstərir və sosial təbəqələşmə yaradır. Bir qrup insanın digər insanlar üzərində hökmranlıq etmə hissi, daha çox var-dövlət sahib olmaq əzmi, müəyyən insanların rasional düşüncə tərzi və öz iqtisadi bazasını yaratmaq bacarığı digər insanlardan fərqlənməsinə səbəb olmuşdur. Bu proses isə varlı və kasıb təbəqələrinin yaranmasına gətirib çıxartmışdır. Digər qrup sosial təbəqələşmə isə insanların təhsil səviyyəsi ilə bağlı olmuşdur. Belə insanların müəyyən savada sahib olması savadsız insanlardan ayrılmasına səbəb olur və onlar arasında sosial təbəqləşmə yaranır. Bu halların həmişə cəmiyyətdə mövcud olması sosi-

al təbəqləşməyə bütün tarix boyu rast gəlirik.

Sosial təbəqələrin cəmiyyətdə mövcud olması dilə də təsirsiz ötüşmür. "Sinifli cəmiyyətdə olan bütün ictimai hadisələr kimi dil də öz inkişafında cəmiyyətin sinfi diferensiasiyası proseslərini və sinfi mübarizəni əks etdirir" [87, s. 5]. Bir çox dilçilər dilin sosial variantlarının yaranma səbəbi kimi sosial sinifləri göstərirlər. Bu fikirlə razılaşmaq, ümumiyyətlə, mümkün deyildir, çünki hər bir sosial dil variantı fərqli xüsusiyyətlər əsasında yaranır. R.Vardaut fərqli sosial təbəqə və ya sosial sinifin danışığında özünü göstərən dil fərqlərinə sosial dialekt adını vermişdir. Yuxarıda qeyd edildiyi kimi, digər dilçilərdən fərqli olaraq R.Vardauf sosial təbəqələrin yaranma səbəblərini təkcə maddi tərəflə yox, daha geniş səbəblərlə bağlı olduğunu göstərir. O, həmçinin sosial qruplarda istifadə olunan fərqli dil ifadələrini sosial sinif, din və etnik tərkiblə əlaqələndirir, öz fikrini aşağıdakı misalla aydınlaşdırır: "Hindistanda kasta sistemi hansı dil variantının hansı sosial qrup tərəfindən istifadə olunmasını açıqca təyin edir. Xristian, yəhudi və müsəlman cəmiyyətinin yaşadığı Bağdad şəhərində xristian və yəhudi qruplarının evlərində və öz qruplarında istifadə etdikləri dil variantı ilə müsəlmanlarla ticarət edərkən və bütün qrupların birbirilə olan əlaqələrində istifadə etdikləri variantlarda fərqi göstərir" [135, s. 49-50].

Sosial sinif anlayışını sənayeləşmə ilə əlaqləndirən yanaşmalar da olub. "Sənayeləşməmiş cəmiyyətlərdə də dil istifadəsi ilə bağlı müxtəlif araşdırmalar aparılmış və sosial təbəqələşmənin dildə ifadəsi sənayeləşmə ilə bağlı yaranmadığı sübut olunmuşdur. Misal olaraq, Afrika və Cənubi Amerika şəhərlərində qadınların yerli dilin xüsusiyyətlərinə uyğun

danışmağa daha çox meyilli olduqları, kişilərin standart dildə danışmağa üstünlük verdikləri müəyyən edilmişdir. Bəzi Asiya cəmiyyətlərində olan iyerarxik sosial mühit özünü fərqli sosial dialektlərin istifadəsi ilə göstərir. Bununla bağlı olaraq, kasta sistemindən qaynaqlanan 6 fərqli səviyyə hind dillərində də müşahidə olunur. Cava (Javanese) dilində sosial statusa görə 6 fərqli dil variantı (*sinifdən – A.F.*) istifadə edilir. Sadəcə danışan adamın statusu deyil, eyni zamanda danışdığın insanın da statusuna görə bu 6 variant içindən uyğun olanını istifadə etmək lazımdır" [129, s. 202].

L.Blumfild də iqtisadi siniflərin cəmiyyətdə mövcudluğunu və dilə təsirini təsdiqləyərək yazır: "Müxtəlif iqtisadi siniflər – deyək ki, olduqca varlı və "orta sinif" adlanan təbəqələr müxtəlif dərəcələrdə və danışıqda da bir-birindən fərqlənirlər. Təhsildəki fərqlər isə, həmçinin hər iki halda, ailə ənənələri və təhsil imkanlarına görə fərqlənir" [7, s. 55].

İngilis dilçisi B.Bernestaynın sosial təbəqələşmə ilə bağlı əsərləri, xüsusən ABŞ və Avropada diqqəti cəlb etmişdir. O, iki nitq kodunun – genişlənmiş (elaborated) və məhdudlaşmış (restricted) kodlarının mövcudluğu haqqında fərziyyə irəli sürür. Dilçinin fikrincə, məhdud kod "fəhlə sinfi"nin kodudur, genişlənmiş kod isə "orta sinfin" kodudur. Onun fikrincə, dar və geniş kodlar arasında aşağıdakı fərqlər vardır:

"Dar kod:

1. Qısa, qrammatik cəhətdən bəsit, ümumiyyətlə, tamamlanmamış cümlələrdən geniş istifadə olunur.

2. Hər hansı mövzu ilə bağlı danışıldıqda əlavə cümlələrdən az istifadə olunur. Və, sonra, yəni kimi köməkçi sözlərdən tez-tez istifadə olunur.

3. Sifət və zərflərdən az istifadə olunur.

4. Qısa əmr cümlələrinə və sual cümlələrinə daha çox müraciət edilir.

5. Fərdin dilində fərq hiss edilmir, amma başa salınan hər hansı məsələdə nəyəsə müraciət (istinad) edilir.

6. Ənənəvi qəliblərdən, kökü milli olan sözlərdən geniş istifadə edilir.

7. Geniş mənalar verən sözlərdən, simvollardan az istifadə edilir.

8. Hər hansı mövzu ilə bağlı danışıldıqda sual formalarından geniş istifadə olunur. Bu da onunla əlaqədardır ki, danışan şəxsin ünsiyyətdə olduğu insandan daha çox məlumat almağa ehtiyacı var.

Geniş kod:

1. İstifadə olunan ifadələr, cümlələr dilin əsas qanunları əsasında qurulur.

2. Cümlənin məntiqi qurulması nəticəsində köməkçi nitq hissələrindən, əlavə cümlələrdən geniş istifadə edilir və bütün qrammatik proseslər cümlələrdə kompleks şəkildə istifadə olunur.

3. Gizli mübtəda və əvəzliklərdən geniş istifadə olunur.

4. Qısa suallardan və əmr cümlələrindən, demək olar ki, istifadə olunmur.

5. Şifahi nitqdə cümlənin və mətnin komponentləri arasında müəyyən əlaqənin qurulması üçün əlavə sözlərdən və ifadələrdən də istifadə olunur.

6. Ənənəvi qəliblər, kökü milli sözlər istifadə edilmir.

7. Dilin istifadəsindən görünür ki, adam sıx, kompleks anlayışlar silsiləsinə sahibdir.

8. Jestlər, mimika, səs tonu danışıq zamanı geniş istifadə olunur.

9. Hər hansı mövzu ilə bağlı müzakirə olanda sual cümlələri az istifadə olunur, buna səbəb isə danışan şəxsin daha çox məlumatlı olmasıdır [53, s. 116-117].

Bundan başqa, "Aşağı təbəqənin dili sadəliyi, canlılığı və konkretliyi ilə seçilir. Ümumi olaraq, söz ehtiyatı aşağı olan bu təbəqənin nitqində həyəcan, tonun düzgün istifadə edilməməsi çığırtılar, bağırtılar anlaşılmazlığa səbəb ola bilir" [68, s. 178].

Dar və geniş kodlara münasibət bildirən B.Bernestayn həmçinin qeyd edir ki, geniş koddan istifadə edən insan dar koddan da istifadə etmək imkanına malikdir, amma dar koddan istifadə edənlər belə bir imkana malik deyildir. O cümlədən dilçi geniş kodu iki yerə bölür: "Şəxs yönümlü geniş kod, mövzu yönümlü geniş kod. Birinci tipə aid olan insanlar xarakterinə görə bundan istifadə edirlər. Xüsusilə belə insanlar incəsənətlə, ədəbiyyatla məşğul olurlar. Amma ikinci tipə aid olanlar mövzunun tələbinə görə bu koddan istifadə etməyə məcburdular" [53, s. 117]. Dar kodu B.Bernestayn sosial əngəllərin nəticəsi olaraq qəbul edir və yazır: "Dar kodun çərçivəsində qalan uşaq sözlərin cümlədə düzgün istifadəsindən, qurulmasından tutmuş hər bir məsələdə problem yaşayır. Bunun səbəbi isə ünsiyyətdə olduğu insanların da bu koddan istifadə etməsidir. Nəticədə belə uşaqların düşüncələri geri qalır. Geniş koddan istifadə edənlər isə zəngin düşüncə tərzinə malik olur, hətta xüsusi danışıq üslubu ilə seçilir. Dərin mənalı, qarışıq cümlələri aydın izah edir, başa düşürlər" [64, s. 31-32]. B.Bernestayn nəzəriyyəsindən aydın olur ki, "orta sinfin" nümayəndələrinə nisbətən, "aşağı siniflərin" nümayəndələri daha məhdud və stereotip nitq ehtiyatından istifadə edirlər. Bu nəzəriy-

yəni elm qəbul etmədi. Əslində təhrifə yol verən bir nəzəriyyə idi. Bu səhv ondan irəli gəlirdi ki, nəzəriyyənin müəllifi nitqin situativ variativliyini tədqiqatdan faktiki olaraq kənarlaşdırmışdı. Bu barədə fikir bildirən L.Blumfild dar və geniş kod məsələsini ailənin sosial durumu ilə bağlayır: "Danışığımızda ən çox nəzəri cəlb edən, fikir ayrılığına səbəb olan xətt sosial siniflərdən biridir. Təhsilli, var-dövlətli və ənənələrin üstünlüyü olan ailələrdə dünyaya gələn körpələr, bizə tanış olan "yaxşı" ingilis dilində danışan doğma dil daşıyıcıları hesab edilirlər. Bu standart ingilis dilidir. Nisbətən az xoşbəxt uşaqlar "pis" ingilis dili, "vulqar" ingilis dili və ya dilçilərin dediyi kimi, doğma ingilis dilinin "qeyri-standart" dil daşıyıcıları olurlar. Məsələn, I have none, I haven't any, I havn't got any standart "yaxşı" ingilis dilindədir, lakin I ain't got none standart ingilis dilində deyil, "pis" ingilis dilindədir" [7, s. 54]. Bu barədə U.Labov daha açıq fikir irəli sürmüşüdür. O inandırıcı şəkildə göstərib ki, "aşağı siniflərin daha məhdud və streotip nitq ehtiyatından istifadə etməsi yalnız sosial kontaktlar yaratmaq üçün istifadə oluna bilər, lakin fərdi özünü ifadə üçün yararsızdır" [46, s. 120]. iddiası elə bir ciddi əsasa malik deyildir və reallığa uyğun gəlmir.

Bütün bunlara baxmayaraq, cəmiyyət dilə nə qədər təsir etsə də, onun bütövlüyünü qoruyur. E.Benvenist bildirir ki, cəmiyyətdə təsirlərin, ehtiyacların, anlayışların sürətlə və getdikcə artan fərqləri yeni adların yaranmasını vacib edirsə, buna qarşı bir gücün olması da lazımdır. Sosial sinifləri, sosial qrupları da birləşdirən bir güc vardır. Bu güc dildir və yalnız dildir. Dəyişən cəmiyyət içində hər zaman fərqliləşmiş təsirlər içində dili qoruyan yenə də dildir. Dil

həm fərdlə, həm cəmiyyətlə nisbəti qoruyan iki paradoksal xüsusiyyətə malikdir. Bu ikilik dilin bütün xüsusiyyətlərində ortaya çıxır [71, s. 2166-2180].

Sosial təbəqələrin dili ilə bağlı müxtəlif fikirləri cəmləşdirsək, deyə bilərik ki, bu fərqlər mövcuddur və həmişə də mövcud olacaqdır. Sosial təbəqələr cəmiyyətdə aşağıdakı şəkildə bir neçə istiqamət üzrə formalaşa bilər: varlı - kasıb, ziyalı-fəhlə, təhsilli -təhsilsiz və s. Adətən, belə təbəqələşmələr ikili xarakterli olur. Sosial təbəqələrin dildən müxtəlif şəkildə istifadəsi dil səviyyələri üzrə fərqli formalarda özünü göstərir. Bunun üçün müxtəlif sosial təbəqələrə aid insanların dilinə nəzər yetirək. Bədii əsərlərimizdə də buna aid çoxlu nümunələrə rast gəlinir, məsələn: S.Rəhmanın "Şirin Bülbül" hekayəsində Cəlil Naim Əfəndinin kəndlilər qarşısındakı çıxışında deyilir: "Mənim sizə nəsihətim budur ki, dünyada bütün öyilikləri zəxireyi-axirət qalıb səriüzzəval olan dünyayi-qəddarə vəfa etməyin və əmri-napak qəribibəid nəfəsi əziziniz kimi bilib heç bir pisliyi onların babində rəva görməyin" [48, c. 2, s. 231]. Göründüyü kimi, verilən bu nümunənin həm cümlə quruluşu, həm də nitqin leksik tərkibi sadə danışıq tərzindən çox fərqlənir, burada yad dilin ünsurləri çox yer tutur. Yuxarı sosial təbəqəni aşağı təbəqədən fərqləndirən əsas cəhətlərdən biri də onların yad dilin təsiri altında daha çox olmasıdır. V.A.Zvegintsev bu barədə yazır: "Bütün tarixi faktlar göstərir ki, XI-XIII əsrlərdə ingilis cəmiyyəti və ingilis dövləti şəraitində norman istilaçılarının fransız dili elə bil dil olmuşdur ki, onu müəyyən mənada sinfi dil adlandırmaq olar. Həmin dil ingilis feodallarının yüksək təbəqələrinin az bir qismi deyil, hakimiyyətdə olan dvoryanlığın bütün üzvləri danışmışdır" [88, s. 262]. Qeyd olunan fi-

kirlər həm də Azərbaycanda müəyyən dövrə aid edilə bilər və yuxarıdakı misal da bunu sübut edir.

Bəzən eyni sosial təbəqələr də eyni nitqdən istifadə etmirlər. N.Doğan bu məsələyə belə aydınlıq gətirir: "Müxtəlif sosial təbəqələrdə istifadə olunan dil fərqli olduğu halda, eyni sosial təbəqələrdə də dildən fərqli istifadə olunur. Buna misal olaraq, deyə bilərik ki, bir sosial təbəqədə siyasətçi, sürücü, əsgər, satıcı və s. peşə qrupları dili də fərqli şəkildə istifadə edirlər" [58, s. 103].

Sosial təbəqələrin dildən fərqli şəkildə istifadəsini müəyyən etmək üçün daha sistemli bir bölgüyə ehtiyac vardır. Ona görə ki elə insanlar vardır ki, maddi imkanları genişdir, ancaq təhsili aşağı səviyyədədir. Belə insanların nitqində adi məişət sözlərinə, müxtəlif bahalı əşya, geyim adlarını bildirən sözlərə, sadə cümlələrə, kobud vulqarizmlərdən geniş istifadəyə rast gəlirik. Digər qrup da vardır ki, varlı və yüksək təhsilli insanlardır. Bu cür insanların nitqində mədəni sözlər, müxtəlif terminlər, mürəkkəb cümlələr, alınma sözlər üstün mövqedə durur. Başqa bir qrup isə təhsilli, amma maddi imkanları aşağı olan insanları aid etmək olar. Burada əsas fərq istifadə etdiyi sözlərin tərkibində bahalı əşya, geyim, yemək və s. sözlərin yer almaması ilə bağlıdır. Sonuncu qrupa isə kasıb və təhsilsiz təbəqə aiddir. Bu insanların nitqi, əsasən, loru, kobud sözlərdən, sadə cümlələrdən ibarət olur.

Apardığımız tədqiqatın nəticəsi göstərir ki, sosial təbəqələşmə dildə müxtəlif formalarda öz əksini tapır. Lakin onu da etiraf etmək lazımdır ki, ümumiyyətlə, cəmiyyətdə sosial təbəqələşmə əvvəlki dövrlərdəki kimi daha dərindən deyildir. Düzdür, sosial təbəqələr vardır, ancaq bu, dildə o

qədər özünə yer tuta bilmir. Bunun isə səbəbi cəmiyyətin informasiyalaşması ilə bağlıdır. Xüsusən, müasir texnologiyaların sürətli inkişafı, insanların istənilən məlumatı rahat əldə etmək imkanına sahib olması, dili də sosial təbəqələşmənin izlərindən qoruyur [22, s. 349-352].

Beləliklə, bu fəsil üzrə aparılmış tədqiqatın nəticələri göstərir ki, dilin sosial diferensiallaşması müxtəlif sosial qrupların nitqində özünəməxsus dil xüsusiyyətləri şəklində təzahür edir. Araşdırma çərçivəsində müəyyənləşdirilən hər bir sosial diferensiallaşma istiqaməti üzrə formalaşan dil variantları informantların nitq materialları əsasında təhlil edilmiş, onların praktik təzahür formaları aşkara çıxarılmış və müvafiq dil faktları ilə əsaslandırılmışdır. Əldə olunan nəticələr dilin sosial diferensiallaşmasının real kommunikativ mühitdə müşahidə olunan obyektiv linqvistik hadisə olduğunu bir daha təsdiq edir.

NƏTİCƏ

Monoqrafiyada tədqiq olunan məsələlərin sistemli təhlili və ümumiləşdirilməsi əsasında aşağıdakı nəticələrə gəlinmişdir:

1. Dildə sosial diferensiallaşmanın yaranma səbəbləri cəmiyyətin mürəkkəb sosial strukturu ilə bağlıdır. Dilin strukturu cəmiyyətin sturukturu ilə bu və ya digər dərəcədə əlaqəlidir. Bu proses dilin daxili strukturuna az təsir göstərsə də, cəmiyyətin sosial diferensiasiyasının göstəriciləri dilin müxtəlif səviyyələrində özünə yer tutur.

2. Dil situasiyası cəmiyyətdə gedən proseslərin dəyişməsi ilə bağlıdır. Müəyyən bir ictimai mühitdə populyarlıq qazanan sahələr, o cümlədən rəsmi səviyyədə dövlətin dilə qayğısı dil situasiyası üçün əsas istiqamətverici amillər sayılmalıdır. Dil situasiyasına təsir edən mühüm vasitələrdən sayılan qlobal texnologiyalar (internet, sosial şəbəkələr) bu prosesin formalarını fərqli istiqamətlərə yönəldə bilər.

3. Təbii-sosial mühitlər hər bir fərdin dünyagörüşünü formalaşdıran əsas faktorlardandır. Dilin sosial diferensiallaşmasının ilkin əlamətləri fərdin uşaqlıq dövründən yaranmağa başlayır. Buna təsir göstərən amillərə ailənin sosial durumu, ailədənkənar ünsiyyət, media, internetə çıxış və s. sosial amillər aiddir. Sosioekonomik, sosiokulturoloji və sosioekoloji faktorlar dilin sosial diferensiallaşmasına təsir göstərən əsas amillərdəndir.

4. Dilin hər bir səviyyəsində sosiallıq vardır, çünki dil özü sosial münasibətləri yaradan əsas vasitələrindən biridir. Belə ki, dilin sosial variantlaşması dil sisteminin müxtəlif səviyyələri üzrə təzahürü həmin dil səviyyəsinin ekstralinqvistik vəziyyəti ilə bağlıdır.

5. Sosiolinqvistik tədqiqat metodları dilin sosial diferensiallaşmasının müxtəlif sosial qruplar üzrə xüsusiyyətlərini müəyyən etmək üçün mühüm əhəmiyyətə malikdir. Tədqiqatçı araşdırmanın məqsədinə uyğun tədqiqata cəlb etdiyi sosial qrupların öncə sosial mühitini – ailə vəziyyətini, təhsilini, yaşadığı ərazini, cinsini, yaşını və s. xüsusiyyətlərini müəyyən etməlidir və informant haqqında bu məlumatlar alınan nəticələri daha etibarlı etməyə kömək edir. Araşdıran üçün informant yalnız ilkin fikirlər formalaşdırmalıdır, fundamental təhlillər üçün isə bir qrupa aid çoxlu informantla sorğu aparmaq lazımdır, yoxsa tədqiqatın nəticəsi yanlış ola bilər.

6. Cinslərin dildən fərqli şəkildə istifadə etməsi cəmiyyətin onlara verdiyi sosial rollarla bağlıdır. Dildə gender fərqlərinin yaranmasının digər səbəbi isə cinslərin fərqli psixologiyasının olması və milli mədəniyyətin təsiridir. Cinslərin dildən fərqli şəkildə istifadə etməsinə aid əlamətlər, demək olar ki, bütün dil səviyyələrində müşahidə olunur.

7. Müxtəlif yaş dövrlərinə aid olan insanların nitqində dil səviyyələrindən istifadədə fərqlər müşahidə olunur. Belə ki, orta nəslin istifadə etdiyi dil nəsillərarası ünsiyyətdə, ədəbi dilin qaydalarının qorunub saxlanılmasında əsas rol oynayır. Gənclərin istifadə etdiyi dil formasında isə neologizmlərə, sözlərin semantik daralması, genişlənməsi və ya digər mənaya keçməsinə, yeni cümlə formalarının yaradılmasına, bir sözlə, dildə baş verən hər cür dəyişikliklərə üstünlük verilir. Yaşlı nəslin nitqində köhnə dil formalarının qorunması daha çox müşahidə olunur.

8. Peşəyə görə dilin sosial diferensiallaşması dil sisteminin digər səviyyələrinə nisbətən leksik və sintaktik səviyyələrində daha aydın özünü göstərir. Cəmiyyətdə peşə-

lərin sayının çoxluğu dilin üslubi imkanlarını da meydana çıxardır. Hər bir peşə sahibinin öz peşəsinə uyğun sözlərdən çox istifadə etməsi, bəzi peşələrdə ədəbi dilə üstünlük verilməsi, bəzilərində dialektizmlərə yer verilməsi, peşə terminologiyasının elmi və publisistik üslubda özünü göstərməsi dilin sosial peşə diferensiallaşmasının əsas fərqlənən xüsusiyyətləri kimi göstərmək olar.

9. Cəmiyyətdə sosial təbəqələrin mövcudluğu dildən fərqli şəkildə istifadəyə səbəb olur. Yuxarı təbəqənin geniş, aşağı təbəqənin isə dar dil kodundan istifadə etməsi və bu kodların özünəməxsus xüsusiyyətləri göstərir ki, dilin sosial diferensiallaşmasında sosial siniflər əsas rollardan birini tutur. Geniş və dar koda aid sosial təbəqələr həmişə eyni koddan istifadə etməyə də bilər.

10. Fərdlərə təsir edən əsas amillərdən biri onların ideoloji görüşləridir. Müxtəlif ideoloji görüşlərin mövcudluğu hər bir sosial mühitdə fərqli baxışlar ortaya qoyur. İdeologiya insan təfəkkürünə təsir edərək öz maddi ifadəsini dildə tapır və dil strukturunun müxtəlif səviyyələrində özünü göstərir. İdeologiyaya görə dilin sosial diferensiallaşması, əsasən, millətçi, dindar və modernist istiqamətlər üzrə özünü göstərir.

11. Jarqon və arqolar dilin sosial diferensiallaşması üçün əsas səbəblərdən sayılmamalıdır. Belə ki, dilin sosial diferensiallaşması tam təbii proseslər nəticəsində yaranan dil variantıdır, amma arqo və jarqonlar süni dilyaratma hadisəsidir. Jarqon və arqoların dilin sosial diferensiallaşmasında qəti rol oynamadığını söyləmək doğru olmaz. Bu tip sözlər dildə sosial diferensiallaşmanın, əsasən, leksik səviyyə üzrə fərqlərinin yaranmasına təsir göstərir.

ƏDƏBİYYAT

1. Abdullayev, R. Türk dillərinin diferensiasiyasının sosial kökləri // – Bakı: Türk dilləri araşdırmaları, – 2019. № 1. – s. 82-99.
2. Adilov, M. Məqalələr (1970-1980-ci illər) / M.Adilov. – Bakı: Elm və təhsil, – 2020. – 448 s.
3. Adilov, V.Z. Termin və söz // – Bakı: Azərbaycan terminologiyası problemləri, – 1988. – s. 54-55.
4. Adilov, V.Z. Termin və ümumişlək söz // – Bakı: Terminologiya məsələləri, – 1990. №2. – s. 10-14.
5. Axundov, A. Ümumi dilçilik / A.Axundov. – Bakı: Şərq-Qərb, – 2006. – 280 s.
6. Anar. Əsərlər: [5 cilddə] / Anar. – Bakı: Nurlan, – c. 5. – 2005. – 690 s.
7. Blumfild, L. Dil / L.Blumfild. – Bakı: Prestij, –2014. –520 s.
8. Cəfərov, N. Q. Ümumi dilçilik (Dərslik) / N.Cəfərov. –Bakı: Təhsil, – 2020. – 144 s.
9. Cəfərov, N. Multidissiplinar dilçilik (dərs vəsaiti) / N.Cəfərov. –Bakı: Elm və təhsil, – 2021. – 180 s.
10. Cəfərov, S. Müasir Azərbaycan dili. Leksika / S.Cəfərov. – Bakı: Şərq-Qərb, –2007. –192 s.
11. Çobanzadə, B. Seçilmiş əsərləri: [5 cilddə] / B.Çobanzadə. – Bakı: Şərq-Qərb, – c. 4. – 2007. – 200 s.
12. Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə. – Bakı: Azərnəşr, – 1962. – 270 s.
13. Dilçilikdə yeni istiqamətlər (birinci buraxılış) / red. Ə.Rəcəbli. – Bakı: Elm və Təhsil, – 2019. – 172
14. Əliyev, Ə. Azərbaycan dilində jarqonlar/ Ə.Əliyev. – Bakı: Hərbi nəşriyyat, – 1998. – 140 s.
15. Əlizadə, F. Dil və gender (linqvistik, fəlsəfi, dini, tibbi-psixoloji yanaşma) // – Bakı: Dilçilik İnstitutunun əsərləri, – 2017. №2. – s. 137-148.

16. Əsgərov, H. Azərbaycan dilində maddi mədəniyyət leksikası / H.Əsgərov. – Bakı: Nurlan, – 2006. – 448 s.
17. Əsgərov, H. Dilin leksik sistemində peşə-sənət leksikası / H.Əsgərov. – Bakı: Adiloğlu, – 2021. – 128 s.
18. Əzizova, P. Dil və yaş // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. –2012. № 4(84). – s. 21-22
19. Fərəcov, A.T. Antik dövrdən XX əsrin əvvəllərinə qədər dilin sosial diferensiallaşması probleminə baxışlar // – Bakı: Dilçilik İnstitutunun əsərləri, – 2017, №1. – s. 236-244.
20. Fərəcov, A.T. Azərbaycan dilçiliyində dilin sosial diferensiallaşmasının tədqiqi // – Bakı: Bakı universitetinin xəbərləri (Humanitar elmlər seriyası), –2016. № 3, – s. 24-29
21. Fərəcov, A.T. Cəmiyyətin strukturunun dilin sosial diferensiallaşmasında rolu // Akad. Tofiq Hacıyevin 80 illik yubileyinə həsr olunmuş "Azərbaycan filologiyası: inkişafın yeni mərhələsi" mövzusunda Respublika elmi konfransı, – Bakı, – 2 noyabr, – 2016. – s. 128-129
22. Fərəcov, A.T. Dilin sosial sinfi diferensiallaşması // B.Çobanzadənin 125 illik yubileyinə həsr olunmuş "Azərbaycan dili: dünən və bu gün" mövzusunda Beynəlxalq elmi konfransı, – Bakı, – 23 iyun, – 2018, – s. 349-352
23. Fərəcov, A.T. Dilin sosial diferensiallaşmasının tədqiqi metodları // – Bakı: Filologiya məsələləri, – 2015. №7. – s. 197-201
24. Fərəcov, A.T. Dilin sosial diferensiallaşmasının yaranmasında təbii-sosial mühitlərin rolu // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. – 2014. №4 (92), – s. 46-49
25. Fərəcov A.T. Genderə görə dilin sosial diferensiallaşması // – Gəncə: Gəncə Dövlət Univertsiteti. Elmi xəbərlər, –2019. №3, – s. 418-428
26. Fərəcov, A.T. Peşəyə görə dilin sosial diferensiallaşması // – Elazığ: Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (TÜRKLAD), –2021. № 5 (2), – s. 366-373

27. Fərəcov, A.T. Sosial şəbəkələr və dilimiz // "Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual məsələləri" mövzusunda Beynəlxalq elmi konfransı, – Bakı, – 29 oktyabr, – 2015, – s. 349-351
28. Fərəcov, A.T. Sosial variativliyin dildə və nitqdə təzahürü // I Bakı Türkoloji Qurultayının 90 illik yubileyinə həsr olunmuş "Müasir türkologiya: dünən, bu gün və sabah" mövzusunda Respublika elmi konfransı. – Bakı, –28 dekabr, – 2016, – s. 41-44
29. Fərəcov, A.T. Yaşa görə dilin sosial diferensiallaşması // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. – 2017. №2(102), – s. 105-107
30. Heydərov, R.A. Dillərin inkişafında dil əlaqələrinin rolu / R.Heydərov. – Bakı: Elm və təhsil, – 2013. – 216 s.
31. Həsənov, H. Müasir Azərbaycan dilinin leksikası / H.Həsənov. – Bakı: Bakı universiteti, – 2005. – 451 s.
32. Humboldt, V. Bəşər dilləri quruluşunun müxtəlifliyi və bunun bəşəriyyətin mənəvi inkişafına təsiri haqqında / V. fon Humboldt. – Bakı: Nurlan, – 2008. – 360 s.
33. Xoşbatini, H.M. Güney Azərbaycan danışıq dilində arqolar: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2014. – 27 s.
34. İsmayılova, M. Azərbaycan dili terminologiyasının linqvistik təhlili / M.İsmayılova. – Bakı: Ozan, –1997. – 268 s.
35. Kitabi-Dədə Qorqud: əsil və sadələşdirilmiş nəşrlər / tərt. ed. S.Əlizadə. – Bakı: Öndər nəşriyyat, – 2004. – 376 s.
36. Qurbanov, A. Müasir Azərbaycan ədəbi dili / A.Qurbanov. – Bakı: Maarif, –1985. – 408 s.
37. Mehdizadə, A.M. Qadın və kişi nitqinin fərqli xüsusiyyətləri // – Bakı: Bakı Universitetinin xəbərləri (humanitar elmlər seriyası), – 2018. №2, – s. 5-11.
38. Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədqulu-

zadə. – Bakı: Öndər nəşriyyat, – c. 3. – 2004. – 480 s.
39. Məmmədov, İ. Azərbaycan dilinin etnoqrafik leksikası / İ.Məmmədov. –Bakı: Elm, – 2008. – 292 s.
40. Muradov, C.X. Dildə gender fərqləri // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. – 2012. №4 (84), – s. 91-92
41. Rəcəbli, Ə.Ə. Dilçilik metodları / Ə.Rəcəbli. – Bakı: Nurlan, – 2003. – 487 s.
42. Rəcəbli, Ə.Ə. Dilçilik tarixi. [2 cilddə] / Ə.Rəcəbli. – Bakı: Nurlan, – c. 1. –2007. –528 s.
43. Rəcəbli, Ə.Ə. Dilçilik tarixi [2 cilddə] / Ə.Rəcəbli. – Bakı: Nurlan, – c. 2. – 2006. – 616 s.
44. Rəcəbli, Ə.Ə. Göytürk dilinin leksikası / Ə.Rəcəbli. – Bakı: Nurlan, – 2004. – 428 s.
45. Rəcəbli, Ə.Ə. Nəzəri dilçilik / Ə.Rəcəbli. – Bakı: Nurlan, – 2003. – 515 s.
46. Rəcəbli, Ə.Ə. Sosiolinqvistika / Ə.Rəcəbli. – Bakı: Nurlan, – 2004. – 520 s.
47. Rəhman, S. Seçilmiş əsərləri: [2 cilddə] / S.Rəhman. – Bakı: Avrasiya Press, – c. 1. – 2005. – 312 s.
48. Rəhman, S. Seçilmiş əsərləri: [2 cilddə] / S.Rəhman. – Bakı: Avrasiya Press, – c. 2. – 2005. – 312 s.
49. Rüstəmova, A. Sosial linqvistikanın fəlsəfi problemləri / A.Rüstəmova. – Bakı: Adiloğlu, – 2005. – 200 s.
50. Sössür, F. Ümumi dilçilik kursu / tərc. ed. N.Cəfərov, İ.Teymuroğlu. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2018. – 356 s.
51. Ümumi dilçilik müntəxəbatı (Bakı Dövlət Universitetinin Ümumi dilçilik kafedrasının 100 illiyinə) / tərt. edən: Q.Cəfərov. – Bakı: Elm və təhsil, – 2020. – 320 s.
52. Veysəlli, F.Y. Dilçiliyə giriş (dərs vəsaiti) / F.Y.Veysəlli. – Bakı: Mütərcim, –2017. – 456 s.

53. Ağaçsapan, A. Dil üzerine / A.Ağaçsapan. – Eskişehir: Anadolu yayınları, – 2002. – 158 s
54. Aksan, D. Her Yönüyle Dil: Ana Çizgileriyle Dilbilim [3 ciltde] / D.Aksan. –Ankara: Türk Dil Kurumu , – c. 2. – 2015. – 162 s.
55. Benveniste, E. Dilin yapısı və Toplumun yapısı // – İstanbul: Birikim, – 2008. № 28-29, – s. 53-57
56. Damla F, S. Diblen, S., "Argo Dil Kullanımının Okul Türüne ve Cinsiyete Göre Değişimi Üzerine Sosyolojik Bir İnceleme: Eskişehir İli Örneği" / Sosyoloji Alanı Orta Öğretim Öğrencileri Arası Araştırma Projeleri Yarışması, Türkiye Bilimsel ve Teknolojik Araştırma Kurumu, Bursa: – 2012, – 67 s.
57. Demir, N. Türkçede Varyasyon Üzerine // – Ankara: Dil ve Tarih-Coğrafiya Fakültesi Türkoloji Dergisi, – 2010. № 17(2), – s. 93-106
58. Doğan, N. Bir Toplumsal Katman Olarak Samsun Pazarcılarının Dil Edimi Üzerine Toplumdilbilmsel İnceleme // – Samsun: Uluslararası Sosyal Araştırmalar Dergisi, – 2008. № 1 (2), – s. 102-113
59. Ergin, M. Üniversitetler için Türk dili / M.Ergin. – İstanbul: Bayrak yayınları, – 1995. – 544 s.
60. Erol, E. Hakikati inşa aracı olarak din dili // – Ankara: The Journal of Academic Social Science Studies, – 2014. № 26, – s. 167-179
61. Ferecov, A.T. Dil ve İdeloji // I. Uluslararası Kafkasya Halk Kültürü kongresi, – Kars, – 09-11 Ekim, –2017, – s. 429-434
62. Günay, D. Dil ve İletişim / D.Günay. – İstanbul: Papatya Yayıncılık Eğitim, –2013, – 344 s.
63. Güven, A. Toplumsal Dilbilimin Kapsam Alanı // – Pamukkale: Pamukkale Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, – 2012. № 13, – s. 55-62
64. İmer, K. Sosyolekt olarak bir meslek grupunun (yazılı) dil kullanımı və kara taşıtlardakı yazılar // – Ankara: Genel

dilbilim Dergisi, – 1979. № I/ 3-4, – s. 29-42
65. İmer, K. Toplumdilbilimin kimi kavramlarına kuramsal bir bakış ve dil türleri // – Ankara: Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi, Cumhuriyetin 60 Yıldönümü Armağanı, – 1987, – s. 213-230
66. Özdemir, C. Kimlik ve Söylem // – Eskişehir: Osmangazi Üniversiteti Sosyal Bilimler Dergisi, – 2001. № 2, – s.107-122
67. Öztürk, D.F. Bir Toplumdilbilimsel Değişken Olarak Türkiyede Kadın Dili Araştırmaları ve Görsel Mediyada Kadın Dili // – İzmir: Dialog, –2016. №1, – s. 40-54
68. Porzıg, W. Dil Denen Mucize / çev. V.Ülkü. – Ankara: Türk Dil Kurumu Yayınları, – 2018, – 276 s.
69. Savaş, B. Dilbilimde Yeni Yönelişler / B.Savaş. – İstanbul: Papatya Yayıncılık Eğitim, – 2017, – 200 s.
70. Sever, S. Türkçe Öğretimi ve Tam Öğrenme / S.Sever. – Ankara: Anı yayıncılık, – 2000. – 367 s.
71. Şengül, M. Sosyal Farklılıklardan Kaynaklanan Dil Kullanımı ve Türkçe Eğitimine Yönelik Bir Değerlendirme // – Erzincan: İnernational Periodical For the Languages, Literature and History of Turkish or Turkic, – 2009. № 4 (8), – s. 2166-2180
72. Tosun, C. Dil zenginliği, Yozlaşma və Türkçe // – Konya: Journal of Language and Linguistic Stuides, – 2005. № 1(2), – s. 136-153
73. Vardar, B. Dilbilim yazıları / B.Vardar. – İstanbul: Multilingual yayınları, –2001. – 216 s.
74. Yalçın, S. K., Şengül, M. Dilin İletişim Süreci İçerisindeki Rolü ve İşlevleri// – Ankara: Turkish Studies, – 2007. № 2(2), – s. 749-769
75. Yılmaz, T. Eğitimde Eşitsizliğin Kaynaklarından Biri Olarak Dil Yapısının Okul Başarısındakı rolü / T.Yılmaz. – Ankara: Ankara basım ve Ciltevi, – 1974. – 151 s.

76. Андреев, И.Д. О методах научного познания / И.Д.Андреев. – Москва: Наука, – 1964. – 184 с.
77. Арнольд, И.В. Лексикология современного английского языка / И.В.Арнольд. – Москва: Издательство литературы на иностранных языках, – 1959. – 305 с.
78. Березин, Ф.М., Головин, Б.Н. Общее языкознание / Ф.М.Березин, Б.Н.Головин. – Москва: Просвещение, – 1979. – 416 с.
79. Бондалетов, В.Д. Условные языки русских ремесленников и торговцев / В.Д. Бондалетов. – Рязань: РГПУ, – 1974. – 110 с.
80. Бок, Ф.К. Структура общества и структура языка // – Москва: Новое в лингвистике, – 1975. № 7, – с. 382-396
81. Вахтин, Н.Б., Головко Е.В. Социолингвистика и социология языка / Н.Б.Вахтин, Е.В.Головко. – Москва: Гуманитарная академия, – 2004. – 336 с.
82. Вопросы социальной лингвистики / ред.: А.В.Десницкая, В.М.Жирмунский, Л.С. Ковтун. – Ленинград: Наука, – 1969. – 418 с.
83. Гамперц, Дж.Дж. Типы языковых // – Москва: Новое в лингвистике, – 1975. №7, – с. 194-195
84. Гумбольдт, В. Избранные труды по языкознанию / В. Гумбольдт. – Москва: Прогресс, – 1984. – 400 с.
85. Древнетюркский словарь / Под. ред. В.М.Наделяев, Д.М.Насилов, Э.Р.Тенишев, А.М.Щербак. – Ленинград: – Наука, – 1969. – 677 с.
86. Жирмунский, В.М. Национальный язык и социальные диалекты / В.М.Жирмунский. – Ленинград: Гос.изд, худ. литературы, – 1936. – 298 с.
87. Засорина, Л.Н. Введение в структурную лингвистику / Л.Н.Засорина. – Москва: Высшая школа, –1974. – 319 с.
88. Звегинцев, В.А. История языкознания XIX и XX веков в

очерках и изречениях, ч. I. / В.А. Звегинцев. – Москва: Просвещение, – 1964. – 464 с.
89. Звегинцев, В.А. Очерки по общему языкознанию / В.А.Звегинцев. – Москва: Изд. МГУ, – 1962. – 384 с.
90. Кодухов, В.И. Общее языкознание / В.И. Кодухов. – Москва: Высшая школа, – 1974. – 303 с.
91. Колосова, О.А. Когнитивные основания языковых категорий: на материале современного английского языка: / диссертация доктора филологических наук / – Москва, 1996. – 182 с.
92. Кирилина, А.В. Гендер: лингвистические аспекты / А.В.Кирилина. –Москва: Ин-т социологии РАН, – 1999. – 155 с.
93. Лафарг, П. Язык и революция / П.Лафарг. – Москва: Изд-во Академия, –1930, – 100 с.
94. Лихачев, Д.С. Арготические слова профессиональной речи // Развитие грамматики и лексики современного русского языка / Д.С.Лихачев. – Москва: АН СССР, 1964. – с. 311–359
95. Лурье, С.В. История этнологии / С.В.Лурье. – Москва: Аспект Пресс, –1997. – 448 с.
96. Мартине, А. Основы общей лингвистики // – Москва: В кн.: Новое в лингвистике, – 1963. № 3, – с. 532-533
97. Мечковская, Н.Б. Язык и религия. Лекции по филологии и истории религий / Н.Б. Мечковская. – Минск: ФАИР, – 1998. – 352 с.
98. Морган, Л.Г. Древнее общество или исследование линий человеческого прогресса от дикости через варварство к цивилизации / Л.Г. Морган. – Ленинград: Изд. института народов Севера ЦИК СССР, – 1934. – 350 с.
99. Никольский, Л.Б. Синхронная социолингвистика / Л.Б. Никольский. – Москва: Наука, – 1976. –166 с.

100. Русский язык по данным массового обследования / Под ред. Л.П.Крысина. – Москва: Наука, – 1974. – 351 с.
101. Серебренников, Б. Общее языкознание. Формы существования, развитие и функции языка / Б. Серебренников. – Москва: Наука, – 1970. – 566 с.
102. Современный русский язык: социальная и функциональная дифференциация / Отв. редактор Л.П. Крысин. – Москва: Языки славянской культуры, – 2003. – 568 s.
103. Теория и методология гендерных исследований. Курс лекций / Под общ. ред. О.А.Ворониной. – Москва: МЦГИ – МВШСЭН - МФО, 2001. – 416 с.
104. Трубецкой, Н.С. Основы фонологии / Н.С.Трубецкой. – Москва: – Издательство иностранной литературы, – 1960. –372 с.
105. Чик, Г. Единицы культуры // – Москва: Общественные науки и современность. – 2000. № 2, – с. 112-119
106. Фараджев, А.Т. Влияние социокультурных факторов на язык // – Киев: Мова і культура (Науковий журнал). – 2017. Вып. 19, Т. IV (184), – с. 144-151
107. Швейцер, А.Д.Современная социолингвистика. Теория, проблемы, методы / А.Д. Швейцер. – Москва: Наука, – 1977. – 176 с.
108. Шор, Р. Язык и общество / Р. Шор. – Москва: Работник просвещения, – 1926. – 152 с.
109. Buzan, T. Use Both Sides of Your Brain / T. Buzan. – New York: Pengiun Brain, – 1991. – 160 p.
110. Coates, J. Sociolinguistics / J. Coates, C.Llamas , L. Mullany , P. Stocwell. – New York: by Routledge, –2007. – 271 p.
111. Crystal, D. Language and the internet / D. Crystal. – Cambridge : Cambridge University Press, – 2001. – 318 p.
112. Davit, D. Online in later life. Age as a chronogical fact and a dinamic social category in an İnternet class for retirees //

– Oxford: Journal of Sociolinguistics, – 2012. № 16(5), – p. 585-612

113. Darquennes, J. Language and religionas a sociolinguistic field of study: some introductory notes // J.Darquennes, W.Vandenbussche. – Berlin: Sociolingustica (İnternational Yearbook of European Sociolinguistics), – 2011. № 25, – p.1-5
114. Guy, G. Language, Social Class, and Status // The Cambridge Handbook of Sociolinguistics / G.R.Guy, R.Mesthrie. – New-York: Cambridge University Press, –2011. – p. 159-185
115. Ferguson, C.A.Language structure and language use / C.A.Ferguson, Stanford: Stanford University Press, – 1971. – 328 p.
116. Holmes, J. An İntroduction to Sociolinguistics (3 ed.) / J.Holmes. – London: Pearson-Longman, – 2008. – 482 p.
117. Hudson, R.A. Sociolinguistics / R.A.Hudson. – New-York: Cambridge University Press, – 1996. – 279 p.
118. Hymes, D. Foundations in Sociolinguistics: An Ethnographic Approach / D.Hymes. – Pennsylvania: University of Pennsylvania Press, – 1974. – 260 p.
119. Labov, W., Sociolinguistic Patterns / W.Labov, – Philadelphia: University of Pennsylvania Press, – 1972. – 362 p.
120. Labov, W. The Social Stratification of English in New York City / W.Labov, – New York: Cambridge University Press, – 2006. – 485 p.
121. Lakoff, T.R. Language and The Woman's Places / T.Lakoff. – Oxford: Oxford University Press, – 2004. – 309 p.
122. Llamas, C., Mullany, L., Stocwell, P. Speech Communities// The Routledge Companion to Sociolingustics. – Oxon: Routledge Taylor and Francis Group, – 2007. – 288 p.
123. Maltz, D., Borker, N., Ruth, A. A cultural approach to male-

female miscommunication. In: Coates, Jennifer (Ed.) // Language and Gender: A Reader. Oxford: Blackwell, – 1998. – p. 417-434

124. Meyerhoff, M. Introdicing Sociolinguistics / M. Meyerhoff. – London: Routledge Taylor and Francis Group, – 2006. – 320 p.
125. Milroy, J. Linguistic Variation and Change / J.Milroy. – Oxford: Blackwell, – 1992. – 243 p.
126. Milroy, L. Social Network Analysis and Languag Change // – London: Introduction. European Journal of English Studies, – 2000. № 4(3), – p. 217-223
127. Nilsen, A.P. Sexism and language / A.P.Nilsen, H.Bosinajian, H.Gershuny, J.P.Stanley (Eds), – Urbana: National Council of Teachers of English, – 1977. – 206 p.
128. Schiling, Mesthrie R. Language, Gender, and Sexuality // The Cambridge Handbook of Sociolinguistics, – New York: Cambridge University press, – 2011. – p. 218-237
129. Sociolinguistics (An International Handbook of the Science of Language and Society) / Ed. U.Ammon. – Berlin - New York: Walter de Gruyter, – 2004. – 854 p.
130. Spender D. Extracts from Man Made Language // The Feminist Critique of Language. Ed. by D. Cameron. London: New York, – 1998. – p. 93-99
131. Swan, J. A. Dictionary of Sociolinguistics / J.A.Swan. – Edinburg: Edinburg University Press Ltd, – 2004. – 368 p.
132. Tannen, D. Gender and Discourse / D.Tannen. – London: Oxford University Press, – 1997. – 216 p.
133. Tercanlıoglu, L. Linguistics for Tefl Students / L.Tercanlıoglu. – İstanbul: Multilingual, – 2000. –200 p.
134. The Cambridge Handbook of Sociolinguistics (Cambridge Handbooks in Language and Linguistics / Ed. Mesthrie R., – New-York: Cambridge University Press, – 2011. – 530 p.

135. Wardhaugh, R. An Introduction to Sociollinguistics (5b.) / R.Wardhaugh. – Oxford: Blackwell Publishing, – 2006. – 450 p.
136. Wardhaugh, R. An Introduction to Sociolinguistics / R.Wardhaught. –Cambrigde: Blackwell, –1992. – 418 p.
137. https://kitabxana.net/files/books/file/1369252808.pdf
138. http://www.philology.ru/linguistics2/belikov-04.htm
139. http://www.owl.ru/win/books/articles/goroshko.htm
140. https://www.klex.ru/j61
141. https://en.wikipedia.org/wiki/Neuroscience_of_sex_differences

ƏLAVƏ

Dilin sosial diferensiallaşmasının müxtəlif istiqamətlər üzrə fərqlərin üzə çıxarılmasında aşağıdakı sosiolinqvistik sorğu anketindən istifadə olunmuşdur.

Sosiolinqvistik sorğu anketi
(Adınızı heç bir yerdə qeyd etməməyiniz və suallara səmimi şəkildə cavab verməyiniz xahiş olunur)

1. Yaşınız:_____

2.Cinsiniz: □ kişi □ qadın

3. Təhsil səviyyəsi: □ orta □ ali

4.**Hansı işdə çalışırsınız?** _____

5. Sosial mənsubiyyətiniz: □ ziyalı □ digər

6. Ailənizin orta aylıq gəliri:

□ 100-200 AZN □ 300-500 AZN □ 600-1000 AZN □ 1000 AZN-dən çox

7. Əqidəniz nədən ibarətdir?

□ millətçilik □dindarlıq □ müasirlik □digər_____

8. Fikrinizcə, əqidələri fərqli olan insanlar fərqli danışırmı?

□ bəli □ xeyr

9. Axırıncı dəfə nə vaxt kitab, qəzet, jurnal və s. oxumusunuz?

□bu gün □bir ay qabaq □bir il qabaq □oxumuram

10.Əgər kitab oxuyursunuzsa, hansı mövzulu kitablara üstünlük verirsiniz?

□ bədii □ dini □ elmi □ fəlsəfi □ psixoloji □ siyasi □ digər

11. Hansı musiqi janrını xoşlayırsınız?

□ klassik □müasir □dini □xalq□ aşıq □digər

12. Fikrinizcə, kişi və qadınların danışığında fərqli cəhətlər varmı?

□ bəli □ xeyr

13. Sizin fikrinizcə, nəsillər (qoca, orta yaş, cavan, uşaq) fərqli danışırmı?

□ bəli □ xeyr

14. Boş vaxtlarınızı kimlərin əhatəsində keçirirsiniz?

□ tək □ ailənlə □ qonşularınla □ iş yoldaşlarınla □ dostlarınla □ digər____

15. Hansı televiziya verilişləri xoşlayırsınız?

□ siyasi □ sevgi □ müharibə □ sənədli □ dini □digər_____

16.Ünsiyyətcə necə birisiniz?

□ çoxdanışan □ azdanışan □ danışmayan□ həyəcanlananda çoxdanışan □ qorxudan çoxdanışan □ digər_____

17. Hər hansı bir yerdə növbədəsiniz, tanımadığınız bir insanla ünsiyyət qurmağa meyillisinizmi?

□ bəli □ xeyr

18. Dəbə görə dilinizi dəyişərsinizmi?

□ bəli □ xeyr

19. Gündəlik ən çox istifadə etdiyiniz sözlər:

Mədəni sözlər:_____

Kobud sözlər:_____

Peşəyə aid sözlər:_____

Müraciət bildirən sözlər:_____

20. Ən çox istifadə etdiyiniz cümlələr:

1._____

2._____

3_____

4_____

Tədqiqatla bağlı aparılan sorğu anketi 500 nəfərə yaxın informant tərəfindən doldurulmuşdur. İnformantların tərkibi və anket sorğusunun bəzi suallarına verilən cavabların faiz nisbətini göstərən diaqramlar:

Yaşa görə (%-lə):



Cinsə görə (%-lə):



Təhsil səviyyəsi:



Aylıq gəlirə görə:



Əqidə fərqinə görə:



Əqidəcə fərqli olan insanlar fərqli danışırlarmı? Sualına informantların **85%-i bəli** cavab vermişdir.

Kişi və qadınların danışığında fərqli cəhətlər varmı? sualına informantların **96%-i bəli** cavabı vermişdir.

Nəsillər (qoca, orta yaş, cavan, uşaq) fərqli danışırmı? sualına informantların **94%-i bəli** cavabı vermişdir.

Dəbə görə dilinizi dəyişərsinizmi? sualına informantların **84%-i xeyr** cavabı vermişdir.

MÜNDƏRİCAT

ÖN SÖZ 3

GİRİŞ 7

I FƏSİL. Dilin sosial diferensiallaşması probleminin tədqiqi tarixi 13
1.1. Antik dövrdən XX əsrin əvvəllərinə qədər dilin sosial diferensiallaşması probleminə baxışlar 13
1.2. XX əsrin əvvəllərindən müasir dövrədək dilin sosial diferensiallaşması probleminin tədqiqi 25
1.3. Azərbaycan dilçiliyində dilin sosial diferensiallaşması məsələsinin öyrənilməsi 61

II FƏSİL. Dilin sosial diferensiallaşmasının səbəbləri, struktur təzahürləri və araşdırılma metodları 73
2.1. Dilin sosial diferensiallaşmasında sosial mühitin rolu 73
2.2. Sosial diferensiallaşmanın dil strukturunun müxtəlif səviyyələrində təzahürü 104
2.3. Dilin sosial diferensiallaşmasının tədqiqi metodları 109

III FƏSİL. Dilin sosial diferensiallaşmasının istiqamətləri 121
3.1. Dildə gender əsaslı sosial diferensiallaşma 121
3.2. Yaşa görə dilin sosial diferensiallaşması 143
3.3. Peşə baxımından dilin sosial diferensiallaşması 153
3.4. İdeologiyaya görə dilin sosial diferensiallaşması 169
3.5. Sinfi amillərə görə dilin sosial diferensiallaşması 177

NƏTİCƏ 187

ƏDƏBİYYAT 190

ƏLAVƏ 202

Anar Tofiq oğlu Fərəcov

DİLİN SOSİAL DİFERENSİALLAŞMASI

Monoqrafiya

Müəlliflə əlaqə:
anarfarajov@bsu.edu.az

Çapa imzalanmışdır: 10.07.2026
Formatı: 60x84 1/16. Həcmi: 13. Sayı: 100

"Adiloğlu" MMC-nin mətbəəsində çap edilmişdir.
Ünvan: Bakı şəh., Tbilisi pr., 3007-ci məhəllə, 44 C
Tel.: (050) 593 27 77, (055) 339 75 77
E-mail: adiloglu2000@gmail.com

Anar Tofiq oğlu Fərəcov 1989-cu ildə Lənkəran rayonunun Günəhir kəndində anadan olmuşdur. Orta təhsilini 1995-2006-cı illərdə Lənkəran rayonu Günəhir kənd tam orta məktəbində almışdır. 2006–2010-cu illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə bakalavr, 2011–2013-cü illərdə "Dilşünaslıq (Ümumi dilçilik)" ixtisaslaşması üzrə magistr, 2014–2018-ci illərdə isə "Dil nəzəriyyəsi" ixtisası üzrə doktorantura təhsili almışdır. 2022-ci ildən filologiya elmləri üzrə fəlsəfə doktorudur.

2012–2019-cu illərdə Bakı Dövlət Universitetinin Türkologiya kafedrası nəzdində fəaliyyət göstərən "Türkoloji araşdırmalar" elmi tədqiqat laboratoriyasında çalışmışdır. 2017–2023-cü illərdə BDU-da "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə SABAH qruplarında dərs demişdir. Hazırda Bakı Dövlət Universitetinin Ümumi dilçilik kafedrasının müəllimi və Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavinidir.

A.Fərəcov müxtəlif illərdə universitetdaxili qrant müsabiqələrinin qalibi olmuş, elmi və ictimai uğurlarına görə fəxri fərmanlarla təltif edilmişdir. O, Türkiyə və Azərbaycanda keçirilən ixtisasartırma proqramlarında iştirak etmiş, beynəlxalq və respublika səviyyəli elmi konfransların təşkilində fəal rol oynamışdır. Dilçiliyin müxtəlif məsələlərinə dair 40-dan çox elmi məqalənin, həmçinin bir kitabın (həmmüəllifli) müəllifi olan tədqiqatçı dil nəzəriyyəsi və sosiolinqvistika sahələrində elmi araşdırmalarını davam etdirir.